Tofiq Xəzər

Tofiq Xəzər

# Vinnitskli Sufərəsi və bakılı Rəna Şıxəliyeva da əbədi xatirəyə döndü...

*Pervomayski,*
*26, 27 və 28 oktyabr 1972-ci il*
*IV, V və şənbə günləri*

Pəzəvəng ПРАПОРЩИК Bandısikin buğa movultusuna oxşar permanent qışqırtısını, çəkdiyi cingələri, söydüyü söyüşləri sanki başqa bir dünyadan eşidirdim:

-ВСТАНЬ! КАШКАЛДАК! КОМУ ГОВОРЮ...

Sonda tərpənmədiyimi görüb, zırramanın iri əlləri sinəmdə kilidləndi və boğmalayıb məni silkələməyə başladı.

Başımın içi laxlayırdı.

Gözlərimi zorla açdım.

Sən demə, ОДЕССА qatarı artıq Pervomayski dəmiryol vağzalında dayanıbmış...

İstədim dikələm, qalxa bilmədim.

Bandısik, vərdişli gündəlik həyat tərziylə:

-ВСТАНЬ! РАЗГИЛЬДЯЙ! Bağıra-bağıra məni

ortalayıb birtəhər oturtdu.

Səs-küyə heç Lyudmila oyanmadı...

Dodaqlarım göynəyir, çənəm, gicgahım və alnım küt ağrıyır, gözlərim dumanlanırdı.

Ayılıb, heç özümə gəlməyə macal tapmamış, zindan kimi ağır portfeliqarışıq, əsgər formalarımı da xışmalayıb, murdar Bandısik qoluma girdi və özüylə darta-darta sürüyüb, vaqondan ТАМБУР-a çıxartdı.

Yazıq qız...

Heç onunla görüşüb vidalaşa da bilmədim.

"Lyudmila, Sufərəsi də deyə bilərsən..." - göz kəsməməklə pıçıldadığı işvəli sözlər qulağımda səsləndi...

ТАМБУР-dakı basırıq... və çürümüş iyi verən kəsif havada deyinə-deyinə, gücbəlayla əsgər formamı əynimə geyinib, birtəhər corabları ayağıma çərtdətmişdim ki, Şərq küçəsinin gözmuncuğu q.Bahar xalanın sözü olmasın, "peydasız," elə corabdaca məni itələyib ТАМБУР-dan aşağı, ora-bura qaçan adamlarla dolu ПЕРРОН-a saldı. Burdakı mühitdə hər şey gözümə yorğun, yuxulu, natəmiz görünürdü.

Hərdən müştəri tapmayan yükdaşıyanların boğuq çığırtı səsi eşidilirdi.

Soyuq asfalt sərnişin meydançasında, əsgər ayaqqabılarımı ayağıma güclə taxışdıra bildim. Özünənəzarəti itirmişdim.

Geyinsəm də, taqətsiz olduğumdan ayaq

üstə dayana bilmir, sərxoşlar kimi büdrəyirdim.

Sanki keflənmişdim.

Hardansa beynimə doldu ki, ВИННИТСК-li Lyudmila hökmən məktub yazacaq... Və birdən də kədər və məyusluq içində yadıma düşdü ki, axı özbək əsgər heç gözümə dəymədi. Görəsən o qurumsaq düşdü, ya yox? Bəlkə cüllütə görə o da vaqonda qaldı? Yoxsa cavan olsa da, qocafəndi işlədib?

Bunu düşünməyin və bu düşüncədən duyduğum dəhşətin, əfsus ki, artıq heç bir faydası yox idi, zira, onları gözlə-qaş arasında tənha buraxmışdım. Hərçənd, Sufərəsinə inanırdım.

Donuzbaş mozalan tutmuş dana kimi peydərpey iri addımlarla irəliləyir, ПЕРРОН boyu süst halda onun qoltuğunda sürünürdüm.

Hava bərk soyuq olsa da, vağzalın quru, boz və daş sifətində yuxum qaçmaq bilmirdi.

Dünyanın üzü də hələ işıqlanmamışdı.

Maşın tapa bilmirdik...

Nə qədər elədimsə, kəcqabırğa Bandısik qoymadı ki, gözləmə zalında oturub, quru taxta oturacağın üstündə bir balaca çimir kəsəm.

Heç olmasa səhər açılardı.

Başımın arxası, boynum, alnım küt ağrıyla sızlayır, göz qapaqlarım ağırlaşıb yumulurdu.

Avtovağzala kimi piyada getdik.

Soyuq hava alnımın küt ağrısını bir az toxtatsa da, ayaqlarım havada güclə, heysiz atılır-

dı... Sanki kosmonavt kimi açıq fəzada idim...

Avtovağzalda da maşın olmadı.

Yaşıl yanacaqdoldurma stansiyasına kimi onun boğaz acışdıran tərsliyi, qətiyyəti və qəyyumluğu altında gəldik.

Yenə münasib maşın tapılmadı...

Məsud göyərçinə bənzər, anqor keçisinin tükündən toxunmuş mavi moxer köynəkli, məstangözlü, bakılı Rəna Şıxəliyeva... və arıq canlı, iridöşlü Sufərəsi heç yadımdan çıxmırdı.

Lyudmilanın gözlənilmədən dediyi:

"Oo... Təkdənbir sevməsən... qəlbində bahar yaşamaz!" -sözləri qulağımda cingildədi...

Peyinqurdu Bandısik indi də dirəşib-durdu ki, pul yoxdu, КАЗАРМА-ya piyada getməliyik.

Gecəni, vaqonda çıxartdığım məhrəmanə erotik pəstahalar... və sübhü dirigözlü açdığımdan, yuxusuzluq gözgörəti məni öldürürdü.

Tərs kimi əsgər ayaqqabıları ayağımı bərk döydüyündən, əti sürtülüb sıyrılmış, yeri də sulux atıb, dabanımı əzabverici halda göynədirdi.

Çəkhaçək... az qala, donuzla dalaşası olduq. Üzündə təşvişli bir ifadə, qışqırıb qəzəllədi:

-Səni hauptvaxta basdıracam!

Gecəni yaxşıca yeyib, müftə çaxırdan düt deyincə vurub, rahatca da yatıb dincəlmişdi.

Yaxşı ki, bəxtimdən elə bu vaxt taxta banlı ГАЗ-51 markalı bir yük maşını, takkatukla haradansa gəlib, düz qarşımızdaca peyda oldu.

Bandısik ГАЗ-51-in sürücüsü ilə tanış çıxdı və kabinaya keçib onunla orada, özgə quşların yuvasında yumurtlayan quqqu quşları kimi, nə quqquldaşdılarsa, sarı kirpikli gözlərini çıppıldadaraq məni yanına çağırdı.

Dərhal özümü kabinaya təpdim.

Yoxsa, öldüyüm yerdə bu şümür köpəyoğlu məni neçə kilometr yolu piyada aparacaqdı.

Yük maşını ürəyimdə qıcıqlanmış acıq hissini sanki qovaladı. Gözlərimə işıq gəldi.

Maşın bizi polad yaylı, qalın dəri oturacağının rahatlıq gətirən cırhacırında atıb tuta-tuta, mühərrikinin çıxardığı yuxugətirici səsi və benzinin xoş qoxusunda... düz hərbi hissəmizə kimi gətirər. Əyləcin və ПРАПОРЩИК-in çığırtı səsinə mürgüdən səksənib sıçradım...

İt uşağı!

Çulumu КАЗАРМА-ya güclə saldım.

ПОДЁМ hələ verilməmişdi.

Yerimi açıb uzanmağımla, daş kimi yuxuya keçməyim bir olub...

Muslimov məni oyadanda bir qədər özümə gəlmişdim. Amma işə getmək fikrim yox idi, zira, döyülmüş sümsük tula kimiydim.

Saata baxdım: 10:22.

Muslimov ciddi... və soyuq ifadə ilə xəbər verdi: “Hərbi hissənin komandiri Dyakiv iki dəfə zəng vurub ki, təcili ВОДОЗАБОР-a gəlib НАРЯД bağlasın, bu gün sonuncu gündür...”

Başım yastığa ensə də, dikəldim.

Soyuq başla bir qədər düşünüb-daşınaraq Muslimova başımı silkələməklə razılıq cavabını verib, naəlac ayağa qalxası oldum.

Gözlərimə qan sızmışdı.

Deyinə-deyinə geyinəndə, ürəyimdə: "Heç baş aparma, kimin arabasında gedirsənsə, elə onun da mahnısını oxu, bura hərbi КАЗАРМА-dır" -deyib, öz-özümə züm-zümə eləməyə başladım.

КАЗАРМА-da şamxor ermənisi Ohanesyanla qarşılaşdıq. Ona ОДЕССА sərgüzəştlərimdən, bizim əsgərlərin durumundan qısaca danışdım.

Laçınlı, lümpen-proletariat Əhliman, məni görən kimi nəyəsə uyub, yüyrək dolabının kiçik gözündən iki ədəd məktub çıxararaq, Süzəndə xalanın sözü olmasın, düz üstümə cocudu.

Qardaşlarım Vidadi və Firdovsi yazmışdı. Hər iki zərfin içərisindən göy beşlik çıxdı. Uşaq kimi sevindim. Bir andaca yorğunluğum canımdan çıxdı. Gethagetdə bu böyük bir sərvət idi...

Dadıma məqamında çatmışdılar.

Firdovsi yeni bir xəbər yazmışdı: "Bacımız Yeganəni "sinifkom" qoyublar."

Bu xəbəri oxuyanda, öz-özümə xeyli güldüm və ürəyimdə: "Səfalət çalışqan adamın qapısından baxar..." -fikirləşdim.

Vidadi təkidlə yazmışdı ki, gələndə mütləq Yevlaxdan gəl. Atamızın iş yerindən zəng vur, gəlib səni zavoddan, 74-44 ВОЛГА-mızla Bərdəyə

özüm gətirim. Məməyeyəndən-pəpəyeyənə qədər hamı səbirsizliklə yolunu gözləyir.

Məktublar ürəyimi açdı. Kaş bircə divarları qobelenli evimizə gedən günüm olaydı!

Daha nə dərdim qalardı?

Hava soyuq olsa belə, ВОДОЗАБОР-a lavsan ПАРАД formasında getdim.

Axtarıb, Kiselyovu birtəhər tapdım.

O məni dəng elədi ki, sən yazdığın qeydləri mənə ver, bu dəfə sizin briqadanın sonuncu НАРЯД-ını özüm bağlayacam... Hətta, qeydlərlə birlikdə ağ НАРЯД blanklarını da əlimdən alıb:

-Gedə bilərsən, -dedi.

Düzü Iap ürəyimdən oldu.

Çənə Telmanın Rizvanla müştərək saxladığı Klaragilə getdim. Evdə heç kəs olmadı...

Bir saat keçməmiş ağdamlı lilipud Çingizlə yenidən onlara təşrif buyurdum.

Bu dəfə Klara evdəydi.

Çamadanımı açıb, Yitkayla Allanın məktublarını və son gündəliyimi götürdüm. Gündəliyi yazıb bu günə kimi doldurmaq lazım idi.

Tələsik КАЗАРМА-ya qayıtdım.

ЛЕНКОМНАТА-da oturub, sakitçilikdə düşünə-düşünə bir xeyli yazmışdım ki, gördüm yenə gözlərim tor görür, ağrıyır və acışır.

Yıxılıb yatdım...

Oyananda axşam idi. Artıq, toran çalmış, nənəm demiş, şər qarışmışdı.

Nə PRAHA-lı Yitkaya, nə OMCK-lu Allaya nə СВЕРДЛОВСК-lu Nataşaya, nə də ki, qardaşlarım Vidadi və Firdovsiyə cavab yaza bildim.

Yatıb yuxumu alsam da, canımda yorğunluq, əzginlik hələ də hökm sürür... beynim tam açılışmamış və heç cürə düşüncələrimi bir yerə toplaya bilmirdim. Sanki qüvvəm tükənmişdi.

Dünən ОДЕССА-da keçirdiyim son gün necə möhtəşəm alınmışdı!

Dönə-dönə xatırlayırdım:

Bənövşəgözlü Katerinayla, əbədiyyətədək təkrarlanmayacaq intim səhnə...

Dəmiryol vağzalında bakılı Rəna Şıxəliyeva ilə yolüstü, olduqca xoş tanışlıq...

Və vaqonda ВИННИТСК-li Lyudmilayla sübhədək yaşadıqlarım doğrudan da əsl möcüzəydi. Bunu elə qafqazlı subay müsəlman СТАРИК əsgərin Ukrayna sərgüzəştləri də adlandırmaq olardı. Bəli, qatarda dünən gecə yaşananlar, bir də heç zaman ələ düşməyəcək bir gerçəklik idi.

Bəlkə də...

Amma kim bilir?

Lyudmila da əlinə düşən bu fürsətdən yetərincə bəhrələnə bilmişdi. Onun şabalıdı uzun saçlarının arasından görünən, ağappaq çöhrəsi indi də gözlərimin qarşısından getmirdi. O bütün gecəni mənə necə sarılmışdısa vaqonda heç kimin, heç nəyin fərqində deyildi...

O bütün gecə, özünü ehtirasının alovunda

şam kimi əridib şəhvətlə yaşadı.

Və məni də yağır elədi...

Bənövşəgözlü Katerina da için-için inləyir, əriyir... gözlərindən muncuq-muncuq abi-leysan axıdır, ərinin dəyyusluğu ucbatından ona bəslədiyi nifrəti, kini tərənnüm eləyib, əbədiyyətə kimi özü ilə aparacağı bu son anları, axırıncı dəfə...

Həm də qorxunc bir lal sükutla yaşadı.

Onun gözlərindən axan acı göz yaşları, indinin özündə də... xatırladıqca məni duyğulandırırdı. Amma, nə etmək olar?

Bu onun alın yazısı və bətnində böyütdüyü balasına Tanrıdan verilən tale payı idi...

Eyy gidi dünya!

ОДЕССА-dan gələndən çənə Telmanla görüşməmişdik. Briqadamın əsgərləriylə də əməlli-başlı söhbət edə bilməmişdim.

Uşaqlar işdən gec qayıtdı.

Hamısıyla bir-bir qucaqlaşıb görüşdük və ОДЕССА yeniliklərindən onlara, tox süfrəbəyi kimi heç kəsə aman vermədən xeyli danışdım.

Yenə gündəlik qaldı.

Gecə ОТБОЙ veriləndə РОТА-yla birgə yerimə girdim. Bu gecə КАЗАРМА-da nisbi sakitçilik idi. Bir neçə nizam-intizamı pozan МОЛОДОЙ əsgərlər başlarını aşağı salıb döşəmə yuyurdu.

Səhərdən yenə işə getməliyəm.

Hərçənd heç ürəyimcə deyil...

Pervomayskidə, Yitkanın çəkdiyi СТОЛИЧ-

НЫЕ siqareti tapılmadığından yerli-yersiz ТУ-134 siqareti çəkməyə başlamışam. Əsəblərimi sakitləşdirsə də, siqaret çəkməyi özümə heç sığışdıra bilmirəm... Yaman qürurluyam!

Bu səhər РОТА-yla işə gedəsi oldum.

Hava xoş idi.

Tikinti meydançasında əsgərlərimi bir yerə toplayıb, işləri aralarında böldüm.

ШПАКЛЁВКА ilə əyri yerləri hamarlayıb, zamazka quruyandan sonra tavanı ağartmalıydıq.

Hamısı hazırlaşıb işə başladı.

Özüm işləmirdim. Nahara kimi sakitçiliklə keçdi. Uşaqlar işləyir, mən də onlara ОДЕССА-da keçirdiyim iki günün xatirələrindən geniş söhbət eləyirdim. ВИННИТСК-li Lyudmila ilə yaşanan anlar, ПРАПОРЩИК Bandısikin xorultusunun hərdən kəsilməsi, Sufərəsininin çılğınlığı... Əkənin çəkdiyi ürəkyandıran ahlar...

Bir sözlə, Şeytan əməli!

İşimiz bu gün yaxşı getdi.

Nahardan sonra ЕФРЕЙТОР İlyası da götürüb yamaca çıxdım. Bir xeyli hərlənəndən sonra təmiz havada, günəşin şəfəqləri altında... saralmış çəmənlikdə БУШЛАТ-a bürünüb, elə yerdəncə, kürək-kürəyə uzandıq.

Yuxu bizi tutar.

Bir zaman ayıldıq ki, günəş batıb, hava da birdən-birə soyuyub.

Üşüyürdük.

Saata baxdım: 16:11.

Daha yatmaq mümkün deyildi. Cəld qalxıb iş yerinə, ВОДОЗАБОР-a tələsdik.

Nahardan sonra biz yamaca çıxanda, briqadamın əsgərləri axsaq Nadirin briqadasındakı azərbaycanlı əsgərlərlə dirədöymə oynayıblar.

Uşaqlar dirədöymədə baş verənlərdən deyə-gülə danışır, dingiş arvadlar kimi hey üyüdüb tökür, olanları şişirdir, istədikləri kimi gop eləyir, həm də, dərdsiz-qəmsiz körpə uşaqlar kimi bəxtəvərcəsinə işləyirdilər.

Saat 17:09-da Mürşüdə verdiyim normanı o işləyib qurtardı. Sakitçilik olduğundan onu da özümlə götürüb КАЗАРМА-ya yollandım.

ПОЛУЧКА paylananda... ОДЕССА-da olmuşdum. Ona görə də indi gedib pulumu almaq istəyirdim. Heç kəsə xəbər vermədən, zabitlərdən icazə almadan gedirdik və tərslikdən, yolda Kuruskanovla qarşılaşdıq.

İcazəsiz getdiyimizi ayırd edən kimi, dirəndi ki, geri qayıdın. Nə qədər dirəşdi qayıtmadıq.

O arada bir neçə dəfə qışqıraraq, lap hərbi qaydada rəsmi əmr etsə də, xeyri olmadı.

Hətta təpərsiz Mürşüd öz dilimizdə uzatdı:

-Küllü məxluqat gəlsə də qayıtmaram!

КАЗАРМА-ya gəldik.

Vəziyyəti öyrənəndən sonra isə, sakitçiliyə tam əmin olduğumdan, УМЫВАЛЬНИК-də üzümü təraş eləyib, qurşağa kimi yaxşıca yuyundum.

ШТАБ-a gedib ПОЛУЧКА-mı aldım. ОДЕССА-dan qayıdanda 6 manat 80 qəpik pulum qalmışdı, qardaşlarım Vidadi və Firdovsinin zərflərindən çıxan 10 manatla, indi 20 manatım oldu.

Dəlləkxanada saçımı vurdurub özümü bir qədər də səliqəyə saldım. Poçtda bu gün adıma məktub olmadı. ЛЕНКОМНАТА-da oturub təpərsiz Mürşüdə Yitkadan aldığım məktubu oxudum...

ОМСК-lu Allaya cavab məktubu hazırlayanda РОТА işdən qayıtdı.

Əsgərlər necə haray-həşir, səs-küylə içəri doluşdularsa fikrimi cəmləyib məktubu başa çatdıra bilmədim. Məktub yenə yarımçıq qaldı.

Kəlbəcərli vaynösə Sahib Əkbərov xəbər gətirdi ki, hərbi hissənin komandiri ПОДПОЛКОВНИК Dyakiv ВОДОЗАБОР-da səni axtarırdı, РОТА-mızın komandiri Bryusov yalandan dedi ki, ПЕРЕВОД pul gəlib, onu almağa gedib.

Sağ ol Bryusov?!

Görəsən bu yaxşılığın qarşılığında nə dayanır? Az keçməz, bunu da bilərik...

Sabah şənbə günü olduğundan bu axşam РОТА-nı kartof soymağa apardılar. Mən aradan çıxıb КАЗАРМА-da qaldım. Sakitçilik yaranandan sonra, əsgər formamın ПАРАД pencəyini çiynimə atıb ЛЕНКОМНАТА-ya keçdim...

РОТА-ya QALXIN! -əmri veriləndə, РОТА komandiri Bryusov özü də gəlib çıxdı.

РАЗВОД-a görə КАЗАРМА növbətçisi, məni

də, düz saat 05:30-dan durğuzmuşdu.

ОДЕССА-dan Pervomayskiyə birdəfəlik qayıdandan, ilk dəfəydi ki, РОТА-yla birlikdə səhər gimnastikası aparılan meydançada olurdum.

Əyani göstərilən bütün fiziki hərəkətləri ardıcıllıqla yerinə yetirib, bədənimi yaxşıca qızışdırdım və yuxum gözlərimdən tamam çəkildi...

Səhər yeməyindən sonra isə, bizim РОТА-ya ШТАБ-da ПОЛИТЗАНЯТИЕ keçirildi.

Bu gün, МАРКСИСТКО-ЛЕНИНСКОЕ УЧЕНИЕ günü olduğundan və əlavə olaraq meydançada СТРОЕВАЯ ПОДГОТОВКА, həm də РОТА-da УСТАВ hazırlığı öyrədiləcəyindən, çox ağır və darıxdırıcı bir gün yaşanacaqdı. Bəs neyləyəydik?

Taytax Nadirlə mağazadan çörək və pomidor turşusu alıb kartof soyulan yerə getdik.

РОТА-dan ayrı düşüb beləcə iştahla çörək-turşu yeyib, şirin söhbətdən elədik.

Bilmədik ki, briqadalarımızın qızıl əsgərləri neyləyir. Aradabir РОТА-ya qayıtdıq ki, hələ də ЛЕНКОМНАТА-da УСТАВ-dan dərs keçirlər.

Bir saat kimi oturub qulaq asdıq.

Bryusov yazıq, yorulmadan ДИСЦИПЛИНА haqqında elə hey xırdalayırdı. Bütün bu öyrədilənlərin isə bizə heç bir aidiyyatı yox idi.

Zira, yol üstündəydik.

Taytax Nadir məmluklar kimi Tovuzun bulaqlarından danışır, o bulaqların üstündə yedikləri əmlik quzuların ətindən çəkilən sulu, tikə ka-

babların ləzzətindən hey üyüdürdü...

Birdən ağlıma düşdü ki, axı biz nəyə görə bu УСТАВ-ın dərsində oturmuşuq?

Abavü əcdadının bulaq başında kəsdikləri quzulardan doymadan goplayan, iki il ətə tamarzı qalmış Nadiri də başa sala bildim.

ПЕРЕКУР olan kimi hər ikimiz briqadamızın əsgərlərini yığıb, dirədöymə oynamaq həvəsi ilə ГАРНИЗОН-un sıra meydanına tərpəndik.

Bizim УСТАВ dövrümüz keçmişdi, zira, biz ПРИКАЗ-ı verilmiş, artıq bu günün sabahın qonağı olan СТАРИК ДЕМБЛЬ-ləriydik.

Məxləs...

Mərc gəlib dirədöymə oynamağa başladıq.

Kuybışevli Hüseyin, təpərsiz Mürşüd, xallı Ariflə mən bir oldum. Şahmar, kirpikli göygöz Eldar, Məzahirlə Zülfüqar da bir tərəfdən oldu.

Dirədöymənin yumru cızığını geniş çəkib, əsgər РЕМЕНЬ-lərimizi açdıq.

Və əsl həngamə də bundan sonra başladı.

Get-gedə oyun qızışır, qaydaları pozanları ayırd eləmək üçünsə, öz payına yalan danışana ana-bacı söyüşü vüsət alırdı.

Yerdə qalan azərbaycanlı qızıl əsgərlər də kənardan qışqıra-qışqıra azarkeşlik eləyir, özlərini didirdi. Yaxınına fənd öyrədən kim, kirri barmaqlarını sulu ağızlarına salıb fitləyən kim, sərvaxt olmağı dayanmadan xatırladan kim...

Çox maraqlı alınırdı.

Çılğınlıqla oynayırdıq.

Əvvəl-əvvəl, hamısı məni hərləyir, fırlayır, fürsət axtarırdılar.

Hərif tapmışdılar!

Amma, pişik kimi cəld idim. Sanki, abi-zindəgani içmişdim. Bakıda, ДИНАМО idman cəmiyyətinin güləş bölməsində elədiyim məşqlər, indi öz halal bəhrəsini verirdi.

Bir qədər də keçmiş, onların xam xəyalları artıq özünü doğrultdu və yavaş-yavaş ümüdləri qırılmağa başladı.

Gah coz kimi fırlanır, gah da oyunçu kimi onları saya almadan yerimdə ТВИСТ oynayır və demək olar rəqibləri ələ salırdım.

Taytax Nadirin igidlərini, o ki var yorduq. Xallı Ariflə Hüseyin də çox yaxşı oynayırdılar.

Onlardan isə təkcə göygöz Eldar, o da içəridə olanda yaxşı oynayırdı.

-Sizdən yaxşıca molla çıxar deyib, -onları hey cırnadırdım.

-Mədrəsə tüllabları!

Demək olar ki, toqqa ilə məni bir dəfə də olsun yaxşı döyə bilmədilər. Toqqaların vıyıltıyla çıxardığı qorxunc səslər adama ləzzət verir və hər dəfə də vıyıltıların qarşısından çox məharətlə yayınırdım.

Saat 14:00-a kimi beləcə oynayıb, qan-tər içində qələbəylə oyunu başa vurduq.

Onlar uduzduqlarını boyunlarına almaq is-

təmirdilər. Hətta, bərk mübahisə başladı.

Birdən qətiyyətlə dedim:

-Bizim briqadanın əsgərləri idmanın hər bir növündə: İstər qaçışda, istər üzgüçülükdə, istər uzununa, ya hündürlüyünə tullanmaqda, istərsə futbol və voleybolda, şahmat, şaşki, nərd, güləş, hətta elm və siyasətdə belə sizin əsgərləri apara bilər. Lap boksa, stolüstü tenisinə kimi...

Mübahisə çox qızışanda qəflətən Məzahir üzünü mənə tutub, əzm və qətiyyətlə dedi:

-Dirədöymə idman deyil, hingirləşmək kimi bir şeydir, gəl təkbətək qaçmaqda yarışaq...

Müsəlman əsgərlər bir-birinə qarışdı.

Ağız deyəni qulaq eşitmirdi.

Son nəticədə isə... yekdilliklə qərara gəldik ki, bu qaçışda kim udsa, elə o tərəf də, ümumi qalib tərəf kimi tanınsın.

Hami razilaşdı.

Ayaqlarımızdakı uzunboğaz əsgər çəkmələrini çıxarıb ayaqyalın qaçmalıydıq.

Addımla sayıb təqribən 300 metrlik bir məsafədə Şahmarı nişangah kimi qoyduq. Əlimizi Şahmara vurub geri qayıtmalıydıq...

Yerdə cızıq çəkib СТАРТ-da dayandıq.

Taytax Nadir saymağa başladı:

-1... 2... 3!

Götürüldük.

Məzahir var gücüylə uçur, mənsə bir ТЕМП götürüb qaçır, bütün qüvvəmi işə salmırdım.

Məzahir əlini Şahmara vurub geri qayıdanda mən hələ ora çatmamışdım. O məndən, gözəyarı 10-12 metr irəlidə şığıyırdı...

ФИНИШ-ə, təqribən 100 metr kimi məsafə qalanda tam sürət yığdım.

Bizim əsgərlər, uduzduğumu zənn edərək, büxlü həsədlə susmuş... onlarsa, fərəhdən tullanıb-düşür, Məzahiri fateh kimi, qəhrəmanlıq aşılayan sözlərlə ilhamlandıraraq göylərə qaldırırdılar. Bicəngələr! Siz saydığınızı sayın...

Hiss edirdim ki, aramızdakı məsafə artıq get-gedə daralmağa başlayır.

ФИНИШ xəttinə yaxınlaşanda, dabanqırma rəqibi haqladım və ФИНИШ xəttinə təqribən 2-3 metr qalanda, çəyirtkə kimi sıçrayıb onu keçdim.

Nadirgil ucadan çımxırdı!

Ayaqlarım... cızdığımız xətti keçəndən 5-6 saniyə sonra Məzahir özünü mənə yetirdi.

Bizim əsgərlər, sevinclə məni qucaqlarına alaraq, tullayıb-tutanda az qala nəfəsim kəsilirdi.

Çətin, çox çətin qələbə çalmışdım!

Gərçi... sürət yığmağa bir neçə saniyə də geciksəydim, abi-kövsər içsəm də uduzacaqdım.

ОДЕССА-da bənövşəgözlü Katya... qatarda isə ВИННИТСК-li Lyudmila əhədimi atmışdı...

Yaxşı qurtardım!

Amma, yenə onların uşaqları mübahisəyə başladılar ki: ПОЧТИ eyni çatdılar!

Məzahir özü isə ağ bayraq qaldıraraq, kişi

kimi etiraf etdi ki, yox, düzü o məni uddu!

Dürlü bulaqlardan dəm vuran taytaxgil, yenə məğlubiyyətlə barışmaq istəmirdilər və sonda bu qərara gəldik ki, nahardan sonra da futbol oynayaq. Görək çırağı sönən kim olacaq.

Bu dəfə udansa, tarixi liderimizdir!

Hamı yekdilliklə razılaşdı.

Geyinib yeməkxanaya getdik.

Taytax Nadirlə düzəməlli yeyə də bilmədik. Çörəklə pomidor turşusu bizi tutmuşdu...

Yeməkxanadan çıxan kimi, növbətçi gəldi ki, КİÇİK СЕРЖАНТ Babayev və РЯДОВОЙ Allahverdiyevi, КАНЦЕЛЯРИЯ-da, POTA komandiri BAŞ LEYTENANT Bryusov gözləyir.

Çınqır çəkmədən getdik.

Oturan kimi başladı ki, briqadalarınızın əsgərləri niyə məşğələlərdə iştirak eləmir?

Damğabasan Nadir dillənmirdi.

Mən bildirdim ki, hospitalda olmuşam, heç nədən xəbərim yoxdu. Hər şey ovuc içi kimi aydın olsa da, boynuma heç nə almadım.

Taytağın sözü olmasın, damazlığı kəsilmiş çox üyüdüb, çox da asıb-kəsdi.

Söz güləşdirmədik.

Öz təbiriycə... axırıncı xəbərdarlıq eləyəndən sonra, dinməzcə ayağa qalxdıq.

Kinoda pullu ərəb filmi göstərəcəkdilər.

ARVADIMIN NAMUSU.

Amma mübahisəmiz vardı, futbol oynama-

lıydıq. ARVADIMIN NAMUSU ərəb filmini, şəhərdə baxanlar çox tərifləsələr də, bu futbol mərcimizi başqa vaxta keçirmək qaçılmaz idi.

Bir zülmlə... 3-cü POTA-dan top və KET tapa bildim. Uşaqlar da ordan-burdan hərəyə bir şey tapandan sonra taytax Nadirin briqadasının əsgərləriylə stadiona getdik.

Stadion çox böyük idi. Lap bizim Neftçinin stadionu kimi. Qapılarda dirəklər, dirəklərdə tor qurulduğundan əsl futbol meydançasını xatırlatsa da, tamaşaçı və 22 futbolçu yox idi.

Dənizdən 6 damcı tapan kimi, ГАРНИЗОН-da hərəmizin briqadasından, cəmi altıca əsgər-oyunçu toplaya bildik.

Və elə altı-altıya da bu СТАНДАРТ meydançada oynamağa qərar verdik.

Seçilmək üçün onlar lüt, biz isə ağ əsgər köynəyində meydançaya çıxdıq.

Hər hissə yarım saat olmaqla oynamalıydıq. Samaya xalanın sözü olmasın, pənah pərdi qırana deyib, başladıq.

Taytax Nadir hakimlik ədasıyla mərkəzdə dayanıb, qoşa barmağını suyu axan ağızına salaraq, dalbadal bir neçə fit verdi...

10-cu dəqiqə gedirdi.

Heç hələ bir düzəməlli meydançanı ələ ala bilməmişdik ki, bizim qapıçı meydançasında tək qalan Şahmara top atdılar və o da bu fürsətdən yararlanaraq, hesabı açıb rəqibləri irəli çıxartdı.

Oyunçu az olduğundan və əsl cığallıq yeri sayıldığından OYUNDANKƏNAR məsələsini qarşılıqlı razılaşmayla ləğv eləmişdik.

Lap uşaqlıqdan ta üzübəri hücumda oynamağı sevərdim və indi də mərkəz yaxınlığında hərlənib, mütəkəbbirliklə top gözləyir və ləcliyə salmaqla uşaqları dayanmadan ləhləyirdim.

Heç üstündən 5 dəqiqə keçməmiş, bu fürsət əlimə düşdü və topu irəliyə atıb, qəfil qopan qasırğa kimi ardınca götürüldüm.

Heç kəs mənə çata bilməzdi.

Və top qapının torunda firlananda, ürəyim sevincdən silkələndi. Sanki, ayağımdan vurulan top tora dəyəndə, elə bil ürəyimi o tora çırpdılar.

Sevindiyimdən necə qaçırdım!

Hesab 1:1 oldu.

Birinci hissənin qurtarmasına, cəmi 3 dəqiqə qalmış, ikinci belə bir fürsət əlimə düşdü və yenə topu özümdən xeyli qabağa atıb külək kimi arxasınca qaçdım. Və qapıçıya çatmağıma 10-12 metr qalanda, topa güclü bir zərbə endirdim. Topun dirəyə dəyib tora düşməsi inanilmaz oldu.

Hesab bizim xeyrimizə dəyişdi:

2:1.

Fasiləyə çıxdıq.

İkinci hissənin ortalarında, damdandüşmə topla göydodaq Ədalət qaçıb, arıq uzun qılçalarıyla üçüncü qolu, lazımsız dambatlıqla vurdu.

3:1!

Oyunun qurtarmasına bir neçə dəqiqə qalmış dördüncü topu onların qapısından keçirdim.

ХЕТ-ТРИК eləmişdim!

Allahverdiyev 1:4 Babayev

Axırı ki... həm dirədöymədə, həm qaçışda, həm də futbolda, taytax Nadirin əsgərləri üzərində tam, inamlı və qəti qələbə qazandıq!

Yamanca yorulmuşdum.

Oyun ərzində, ən azı on beş dəfədən çox, təkbaşına bu qapıdan o birinə qədər, hamını aldadıb keçir, sonda topu irəli atıb, arxasınca var gücümlə qaçırdım. Əldən düşmüş, əzilmişdim.

Dizlərim, dirsəklərim sıyrıq-sıyrıq idi.

Eləcə tərin içərisindəydik. Saçlarımdan tər damcılayırdı. Sinəm, kürəyim teyxa suydu.

Ləbbeyk demək əvəzinə Nadir hırıldayırdı.

Bu gün hamama da gedə bilmədik.

Şam yeməyindən qayıdanda tamam əldən düşmüşdüm. Futbol oynayıb qurtarandan sonra, tərli-tərli soyuq havada çox oturduğumdan, kələkötür və otu qotur meydançada uşaqlarla toqquşaraq əzildiyimdən, bir neçə dəfə kobudluqla yıxıb oramı-buramı sıyrıq-sıyrıq etdiklərindən, dəfələrlə də, toplu-topsuz və fasiləsiz qaçdığımdan əzələlərim sancır, canım ağrıyırdı.

Yorğun, əzgin və bedahat halsız idim.

Ayaqlarımı zorla sürüyürdüm.

Bənövşəgözlü Katerina və qatardakı sufərəsi, ВИННИТСК-li Lyudmiladan sonra özümə hə-

lə tam gəlməmiş, indi də... dirədöymə, qaçış və futbol məni xurd-xəşil eləmişdi.

Güclə özümü çarpayıma sala bildim...

Dəmiryol vağzalında, ayaqüstü tanış olduğum bakılı tələbə qız, Rəna Şıxəliyevanı və vaqondakı ВИННИТСК-li cüllütü xeyli düşündüm.

Artıq onlar da həyatımın əbədi xatirələrinə çevrilmişdilər... Sözsüz... Düzdü, kim bilir sabah nə baş verəcək, hərçənd ki qəzəlləmirəm, səmimiyyətimə inana bilərsiniz.

Quş kimi pərvazlanıb, onlar da sonsuz səmada yoxa çıxdılar... Həyatın son mahiyyəti məgər bu deyilmi?

Hamımız sonda bulud olacağıq.

Nədənsə, bu an məhz belə düşündüm...

КАЗАРМА-dakı КОЙКА-larımızda yuxuya keçənə qədər bizim azərbaycanlı əsgərlərin hamısı futboldan, dirədöymədən və mənim Məzahirlə təkbətək qaçmağımızdan danışdı.

Briqadamızın СТАРИК əsgərləri, bu gün yamanca fontan eləmişdi!

Düşüncələrimə bələnib, həyatla yuxu arasındakı foksda torlaşırdım...

Tofiq Xəzər

# Əlvida, 23-cü ay: Oktyabr-1972 Axır ki, gəldin 24-cü ay: Noyabr-1972 Sonuncu ay...

*Pervomayski, 29, 30 və 31 oktyabr 1972-ci il. Bazar günü, I və II günlər*

Bu gün bazar günüydü.

POTA-ya QALXIN! -əmrini, istirahət günü olduğu üçün, saat 07:00-da verdilər.

Əzələlərim necə qurumuşdusa, necə sızlayır, sancırdısa dikəlib qalxa bilmirdim, elə bil əzələlərimə iynə batırırdılar.

Güclə, ah-ufla birtəhər ki, qalxıb geyindim.

Komsomol iməcliyi keçirilməliydi.

ГАРНИЗОН-un nəzdindəki hərbi hissələrin bütün əsgər və zabitləri bir nəfər kimi işləməliydi. Zira, bir vaxtlar... axı müəssis V.İ.Lenin yoldaşın özü bu iməclik vaxtı çəlimsiz çiynində iri şalman daşımışdı. Zarafat deyil eyy...

İş yerində adbaad hamıya yer ayırmışdılar.

Baxdım ki, komsomol iməcliyi artıq mənlik deyil. Ayağımı yuxarı qaldırıb, addım ata bilmirdim. Bud nahiyələrimin bədənimlə birləşdiyi hissə göynəyir, ağrısı canımı alırdı. Hərdən az qalırdı əfi ilan kimi quru torpaqda sürünəm, ya da ki, ulayıb zingildəyəm.

Belə it kimi zingildəməyi, çoxdandı, idman eləmədiyimə görə özüm qazanmışdım.

Bircə, sinə vuranım əskik idi...

РАЗВОД qurtaran kimi, hərbi hissələri, elə ГАРНИЗОН-un təlim meydançasından birbaşaca, qürurverici gurultulu marş sədaları altında, əsgəri təmtəraqla ВОДОЗАБОР-a apardılar.

Qarnımı-başımı tuta-tuta, bir az da özümü tülkülüyə qoyub sızlayaraq, birtəhər sivişib aradan çıxa bildim.

Vaynösə Sahibi də öyrətdim ki, РОТА-nın komandiri Bryusova çatdırsın ki, özüm onu belimə alıb güclə КАЗАРМА-ya apara bildim. Hərarəti vardı. Heç ayaqüstə dayana bilmirdi.

Bu münvalla çarpayıma uzana bilmişdim...

Artıq saat 10:03-dür.

Bütün ГАРНИЗОН iməclikdədir.

КАЗАРМА-mızda da iməclik gedir. Müxtəlif səbəblərdən qalan əsgərlər və ДНЕВАЛЬНЫЙ dayananlar hər yanı yuyub təmizləyirdi.

Qalxıb, gündəliyi və qələm-kağız götürüb, irsal-mərsulla məşğul olmaq üçün ЛЕНКОМНАТА-

ya keçdim. Gündəlikdən bir xeyli yazıb yorulandan sonra, məktub yazmağa başladım.

OMCK-lu Alladan, oktyabrın 23-də aldığım məktuba cavab yazandan sonra, СВЕРДЛОВСК-a, Nataşaya da son məktubumu yazıb, onlara təkrar Bakı və Bərdə ünvanlarımı bildirdim.

Sonra da Bakıya qardaşım Rafiqə... Bərdə ünvanımız olan Şərq 57-yə, qardaşım Vidadiyə, bacım Yeganəyə, ögey dayım qara Sabirin xanımı Rənaya... Özbəkistana, axıska tülküsü Süleyman Zahidova... Kirovabada, Xosrov Mamedova... МОЛДАВИЯ-nın ФЛОРЕШТЕ şəhərinə, Tariyel Muradova... Tbilisiyə, qasırğa Tahir Ağayevə və xasavyurdlu Ruslana... ОДЕССА-ya, ağcabədili Nazimə... Və eləcə də... etibarsız uşaqlıq dostum Ələsgər Həsənova kimi, yadıma düşənlərin hamısına bir-bir son məktublar yazıb, xeyli yüngülləşdim. Sanki, çiynimdən yük götürdülər.

Tülkü kimi həməyir, bic Süleyman Zahidov Özbəkistanda Politexnik institutuna qəbul olunmuşdu. Sığorta işləri üzrə ali təhsil alırdı. Onun atası Nəriman kişinin vaxtıyla bizim qızıl-brilyant zənbilimizi siyahı eləyib saxlamasını, dönə-dönə Süleymana yazıb dil-ağız eləmişdim.

O vaxt... uşaqlıq, orta məktəb və tələbəlik dostum Ələsgər, yamanca şərəfsizlik eləmişdi!

Xülasə, məktubları başa vurub qurtardım.

Saat artıq 12:05 idi.

Bircə qaldı, qərbi slovyan mənşəli, çex Yit-

ka Zahalkovadan aldığım ilk məktubun cavabını hazırlamaq... Bu ağır məsələ idi! Həm rus, həm də tərcümə kitabından istifadə eləyib ona tutarlı, subaylıq dolu, elegiya qoxulu bir sevgi məktubu hazırlamalıydım.

İnternasional eşqin də öz intibası var.

Komsomol və ağ mirvari sırğalı Məhbubə xalaya isə cavab yazmaq istəmədim.

Onsuz da az qalib...

23 avqust 1972-ci ildən, 5 oktyabr 1972-ci il tarixə kimi gündəliyi cızma-qara qeydlərdən istifadə edərək yazıb doldurmalıydım.

Bunu da bacarsaydım lap yüngülləşərdim.

Nahar yeməyindən sonra ağırlaşdığımdan yıxılıb yatdım. Həm əzələlərim göynəyir, həm də yorğunluq canımı sarmışdı.

Necə dərin yuxuya keçib yataramsa... ayılanda saata baxdım ki, 18:30-dur.

POTA hələ iməclikdən qayıtmamışdı...

ЛЕНКОМНАТА-da sakitçilik olduğundan oturub, artıq yaşanmış ötən günləri gündəliyimə köçürmək istəyirdim... Yazıb, tam qurtarmağı planlaşdırdığım yerdəcə qəflətən, beynimə başqa bir ideya gəldi. Və bu yeni ideya çox xoşuma gəldiyindən, əvvəl ağ vərəqdə nizamlayıb, son iyirmi üç ayda, Bərdədən çıxan gündən, ta üzübəri bu günə kimi, mənsiz baş verən maraqlı hadisələri intixab edərək, bircə-bircə gündəliyimə yazmağı qərara aldım. Bəs nələr baş vermişdi?

Qayıdanda hansı yenilikləri görəcəyəm:

1.Qardaşım Vaqif və Komsomolumun bacısı Nüşabə ali məktəbə, Əlövsət və qonşumuz Əkbər isə texnikuma qəbul olunub. Bu əladır.

2.Atam, mən gördüyüm və içində böyüyüb boya-başa çatdığım köhnə evimizi sökdürüb hələ görmədiyim yeni, imarət kimi bir ev tikdirib.

Avand və düşərli olsun!

3.Atam özünə yeni, çağbaçağ ГАЗ-21 markalı ВОЛГА maşını alıb. Nömrəsi də 74-44-АЗХ.

İçərisində Komsomol gəlin gəlsin!

4.Ögey dayım, qara Sabirin torpaq sahəsi alıb, yeni tikdirdiyi evə köçməsi. Onlar əvvəl bizim evdə yaşayırdılar. Sonra... qonşu Bəylər kişi evini atama satıb köçəndə, onların evinə yığışdılar. İndi isə, öz halal zəhmətləriylə tikdirdikləri evə köçüblər. İntəhasız xoşbəxtlik diləyirəm!

5.Bacim Yeganənin böyüyüb orta məktəbə getməsi və hətta sinifkom seçilməsi!

6.Dayım qara Sabirin, üzünü hələ görmədiyim Mahir adlı oğlu var.

7.Məmmədhüseyin kişinin, üzündən kitabı oxuya bilməyən oğlanları Aydın və Yunis İbrahimovlar... q.Alagöz müəllimənin böyük oğlu Hafiz Hətəmov... Qonşumuz və dostum Buratino Tariyel Muradov... Sinifkomumuz, СБЕРКАССА-da işləsə də, az maaş ucbatından xaltura da eləyib ailəsini zorla dolandıran Zabilin bacısı, Aidə Vəliyeva və dərdindən məcnun olduğum, orta mək-

təb yoldaşım, qonşu Xuramanın böyük bacısı, Elmira Bəylərova ali məktəbi bitiriblər.

8.Komsomolum... qardaşım Vidadi... Kamran əmimin nəvəsi, Zəhranın qızı Zeynəb, bu il hamısı orta məktəbdə, onuncu sinifdə oxuyurlar.

9.Zəhranın üçüncü dəfə ailə quraraq Azad adlı birinə ərə getməsi.

10.Xıdır dayının və oğlu Arazın həbs olunaraq türmədə yatması.

11.Dükançı Muradın oğlu Mamed Əliyevin öz sinif yoldaşı Gülay ilə ailə qurması.

12.Qərvənd Xosrovun oğlu Arzunun, dükançı Muradın qızı Sahibəylə nişanlanması.

13.Dərzi Həmidin oğlu Zakirin, Tahir Misirxanovun və Tariyel Muradovun əsgər getmələri.

14.Tahir Misirxanovun atasının... Bizimlə paralel sinifdə oxuyan Məhərrəm Qurbanovun atası Hüseyin həkimin... Və aptek müdiri işləyən Hilal kişinin oğlu Vovanın faciəvi ölümü.

15.Qonşu Hüseynin bacısı, qardaşım Rafiqin sevgilisi Nigarın qoşulub Bakıya qaçması.

16.İnstitutdakı tələbə dostlarım, indi artıq 5-ci kursda oxuyurlar. Əfsus...

Bəli, yenilikərdən, hələ ki bu qədər yadıma düşdü... Az deyil... Həyat beləcə dəyişir, hər şey inkişaf edir. Tərxis olunandan sonra iki il də ötəcək, mənim həyatımda da köklü dəyişikliklər baş verəcək. Son planım sözsüz belə olacaq:

1.Yitka ilə PRAHA-da, Bakıda və Bərdədə

qonaq qismində görüşmək.

2.Komsomolla ailə qurmaq.

3.Ali təhsili davam eləmək.

İyirmi bir illik həyatımda hələ çox, lap çoox dəyişikliklər olacaq. Kaş... bircə buradan canımı qurtara biləydim.

ГАРНИЗОН-umuzda müsəlmanlara qarşı bidin, dambat, biganə olan zabitlər, dövlətlə bizim kimi əsgərlər arasında əsl maniədir və içimizdə hərbiyə, böyük ittifaqa inamsızlıq yaradır.

Damazlığı kəsilmişlər gürcü və ermənilərə qarşı belə deyillər və ümumiyyətlə xristianlarla müsəlmanlar arasında açıq-açığına ayrı-seçkilik salırlar. Axı Lenin belə deməmişdi!

Eh...

İmtiyazlı dəmiryol biletini əlimə ala bilsəydim, bigəran ölkəmizi qarış-qarış gəzər... bütün mülki həqiqətləri də dərindən öyrənərdim.

Bidamaq düşünürdüm...

КОМСОМОЛСК-ВОСКРЕСНИК-dən, səs-küylü РОТА, toz-torpağın içində, çox yorğun qayıtdı.

Zabitlər görməsin deyə, cəld dəftər-kitabımı yığışdırıb ЛЕНКОМНАТА-dan çıxdım.

Abrımı qoruyurdum.

Bryusov məni КАНЦЕЛЯРИЯ-ya çağırtdırdı və yenə də itin başını ağzına aldı:

-İməclikdə ən pis işləyən sənin briqadanın əsgərləri oldu. Arif və ЕФРЕЙТОР İlyasla, o ki var dalaşdım. ЕФРЕЙТОР İlyas... iməclik keçirənə də,

iməcliyə də, komsomol sıralarında olduğuna da o ki var söydü. Mən onu dizbata basdıra bilərəm. Hərbi tribunala verdirərəm. Sənə görə dillənmədim... Bağışlamazdım belə şeyi ona. Nəinki ona, heç kəsə... КСТАТИ, sən olmayanda briqadan işləmir. İməclikdə yoxdun, hardaydın?

-Hərarətim vardı, ölürdüm. Bəs Sahib Əkbərov deməyib sizə?

-Hə, həə... Akperov demişdi... РАДИ БОГА... ДЕМБЛЬ-ə hazırlaşdığınız yerdə pislik eləmək istəmirəm, КОНЦЕ-КОНЦОВ sən onları КОЕ-КАК başa sal, yenə səni eşidirlər…

Yaxşı qurtardım.

Bu vurhavurda mayıf Mamed də НАРЯД-da durmaq istəmirdi. Tez gedib qaydasına qoydum.

Sakitçilik oldu...

Bu gün oktyabr ayının 30-u idi.

Bu gün də, həyatımda yaddaqalan hadisələrdən biri yaşanmışdı.

Düz 23 ay əvvəl...

Hərbi xidmətə getməzdən əvvəl... axırıncı dəfə Bakıdan Bərdəyə getmişdim. Komsomol ilə son vida görüşü keçirməliydim. Hər şey indiki kimi yadımda idi. Günəşli bir payız günüydü.

Geyinib-kecinib 1 nömrəli məktəbə getdim. Bir xeyli intizarla gözləyəndən sonra... böyük tənəffüsün xoş, uzun zəngi çalındı.

Bir qədər keçmiş Komsomol sinif yoldaşları olan qızlarla məktəbin həyətinə çıxdı.

Onda, o hələ pioner idi və boynuna al yanaqları kimi qıpqırmızı qalstuk taxmışdı.

O gün, yanaqlari od tutub yanır... o da mənim kimi qəm-qüssəli hərlənirdi.

Hələ gəldiyimi hiss eləməmişdi.

Birdən təsadüfən gördüm ki, tanımadığım bir oğlan taxta oturacaqda yayxanıb, iri gözlərini düz Pionerə zilləyib.

Beynimdə ildırım çaxdı!

Bir də diqqətlə baxdım...

Bəli, bu qarayanız uzun oğlan məhz Pionerimə baxırdı və özünün də 17-18 yaşı olardı. Deməli, o bu məktəbi bitirib və bura da məhz Pionerə görə gəlib...

İçimdən bir anlıq cərəyan keçdi. Bu ola bilməzdi! Məktəbdə hamı bilirdi ki, onu mən sevirəm. Sən bu daylaq gədədəki cəsarətə bir bax!

İçim tələtümə gəldi.

Qətiyyətlə irəli yeriyib, düz Pioner dayandığı yerə cumdum. Yan-yörəsindəki qızlar məni görən kimi diksindilər və dəli qətiyyətimdən qorxub, cıqqırlarını belə çıxarmadan dağılışdılar.

Pioner tək qaldı.

Bütün məktəb bizə baxırdı.

Qəfil baş verənlərdən çaşmış Pionerin tək qaldığını görüb, rəngi qaçmış halda kəkildədim:

-Bakıdan bu gün gəlmişəm. Bilirsən, bu bizim son vida görüşümüzdür. Əsgər gedirəm...

Bəli eyni ilə yadımdadır, belə də dedim.

Hər bir söz ağzımdan necə çıxmışdısa... o sözü olduğu kimi, indi də xatırlayıram. Eyni ilə...

Bütün bunlar, düz 23 ay bundan əvvəl baş vermişdi. Düppədüz 23 ay...

İlahi, qırmızı pioner qalstuklu bu qızın, sadə, tünd şabalıdı rəngli məktəbli forması fonunda al yanaqları necə od tutub yanırdı!

Başını çevirməklə dayanıb susmuşdu.

Kaş onun saçlarını sığallaya biləydim...

O gün Pionerə tələsik dedim:

"Biz daha görüşməyəcəyik... 24 ay gözləməliyik... Əlvida, deməyə gəlmişəm!"

O başını aşağı dikib qulaq asırdı.

Kəlmə də danışmadı...

Ona gözlərini zilləyib baxan bihal oğlan da görünür bizi kənardan izləyirdi...

Biz hər ikimiz kədərli idik.

O gün, iki illik ayrılıq qılınc çəkib başımızın üstünü əzrailtək kəsmişdi.

Zarafat deyildi...

24 ay bir-birimizi görə bilməyəcəkdik...

Ancaq bax budur, bu gün, həmən o məşum günün üstündən düz 23 ay ötür.

Cəmi 1 ay qalıb... 23-ə dözənə, 1 nədir ki?

Düzdür, çox əziyyətlər görmüş, çox cəfalar çəkmişəm. Dəfələrlə... kövrəlib için-için ağlamışam. Lakin... şükürlər olsun, hər şey demək olar ki, sona yetir... Qəm-qüssəli zor gecələr, zülmət qara kor gecələr artıq arxada qalır...

Eh... elə bil, hər şey dünən baş verib.

Bıçaq sümüyə dirəndiyi üçün, o gün... son vida görüşü başa çatandan dərhal sonra, gözlərini ona zilləyib baxan, bığ yeri yenicə tərləmiş Nazim adlı o uğursuz aşiqi aldadıb, Pionerimin gözləri qarşısında necə döydüm!

O oğlan necə qaçır, onu necə qovurdum!

Əvvəl hiylə qurub onu aldatdım:

“Mənim üçüncü sinifdə oxuyan dayım oğlunu niyə döymüsən?” -soruşdum.

O and-aman elədi:

“Mən uşaq-muşaq döyməmişəm...”

“Onda, gedək üzləşək,” -dedim.

Və o da uşaq döymədiyindən arxayın olub mənimlə getməyə razılaşdı.

Onu Pionerimin yaşadığı kiçik dalana saldım və elə əsl mərəkə də bundan sonra qopdu.

Bəxtimdən elə bu vaxt, səs-küyə Pionerin özü də qapılarının ağzına çıxdı...

Düyməli fin bıçağımı qəfil çıxarıb arxasıyla onun başından necə vurdum!

“Niyə gözlərini zilləyib bu qıza baxırdın ə?” -bağırdım.

Hamı elə bildi ki, onu bıçaqladım.

O isə canını bıçaqdan qorumaq üçün necə götürülüb qaçırdı! Can necə şirinmiş!

Ona çata bilməyəcəyimi görəndə, qarşıma çıxan bir velosiped sürən oğlanı zorla saxladıb, velosipedini əlindən aldım və velosipedi nə qə-

dər sürətlə sürsəm də, ona çata bilmədim.

O, yaxınlıqdakı hansısa bir həyətin çiy kərpic hasarından tullanıb qaçdı və canını sağ-salamat qurtara bildi.

Mən də dərindən nəfəs aldım.

Gözlərimi qan tutmuşdu.

Kimliyindən asılı olmadan... Pionerimə göz zilləyənin gözlərini tökərdim!

Sən demə... bu qarabuğdayı, bakenbardlı, Nazim adında şaqqalı, qaşqabaqlı oğlan bizimlə paralel sinifdə oxuyan, ortaboylu, qaytandodaq, hədsiz dərəcədə arıq, necə deyərlər, bir dəri, bir də sümük Xəlil İbrahimovun kiçik qardaşıymış.

Füzuli küçəsində, ağbaş Rəşid Təhməzovla barıbir qonşuluqda olurmuşlar.

Xəlil dərs oxumazdı... Orta məktəbi bitirən kimi çıxıb СТАВРОПОЛА getmişdi. Böyük qardaşı Şahbaz orada milis işçisiydi.

Onların böyük bacıları, orta məktəbimizdə dəstə rəhbəri işləyən arıq, qara Güllü də, o vaxt bizim qonşuluğa təzəcə ərə gəlmişdi. Güllü, biz məktəbdə oxuyanda pionerə, komsomola keçən uşaqları dəstəyə düzüb, filmlərdəki kimi cərgəylə and içməyə aparardı.

Bizim ilan kimi qıvrılıb uzanan qaca-quca, tozlu Şərq küçəsini mərkəzə aparan istiqamətdə perpendikulyar kəsən, bardürlü, asfalt döşənmiş hamar, düpdüz Nüşabə küçəsində yaşayırdılar. Susatan Sabirgillə çəpərbir qonşuydular... Yaxın

qonşu olsaq da, soyuq münasibət saxlayardıq.

Şahbazla Xəlil qorxmaz uşaqlar idi. Nazim də cəsarətli idi. Elə məqamında qaçmağın özü bir igidlikdir! Həm də, yazığın nə yaşı vardı ki...

Bu məlumatları o axşam, Buratino Tariyeldən öyrənmişdim. Tariyel bunları mənə danışan vaxt, kiçik qardaşı Murad da yanındaydı.

Yaxşı yadımdadı, o gün Muradı inaq vurduğundan daz başını çərtmişdilər...

Elə bil, hər şey dünən baş vermişdi.

Bəli bu gün o hadisədən düz 23 ay ötürdü.

SIRAYA DÜZLƏNİN! -əmri, düşüncələrimdən məni ayırdı.

POTA-yla birlikdə işə getdim.

Xoruz banında, Qreşnoy yenə boğazı tab gətirincə çığırıb sayırdı:

-РАЗ... РАЗ... РАЗ... РАЗ, ДВА, ТРИ!

POTA necə ahənglə təpik vururdu! Bu necə də şərəfli bir iş idi! Vətənin 18-20 yaşlı məsum vicdanlarıydıq! Özü də, SSRİ kimi nəhəng, hegemon, nəhayətsiz torpaqları olan bir dövlətin.

Amma... heyf ki, zabitlər müsəlman əsgərlərə ögey münasibət bəsləyir, heç kəs heç kəsin kağızını oxumurdu...

Bütün əsgərlərin qəlbində sevgililəri... sevgiləri olur. Sanki, bu əsgər çəkmələrinin möhtəşəm tappıltısı bu sevginin qol-qanadları idi!

Məhəbbət özü bu əsgər çəkmələrinin tappıltısında çiçəkləyirdi! Sevgi, ana, torpaq, vətən

yolunda bu məşəqqətlərə dözmək şərəf idi. Vaxt ötdükcə keçirdiyim əzab-əziyyətlər, zülm-zillətlər bu əsgər çəkmələrinin qürurverici tappıltılarında həzin-həzin əriyirdi...

Bu gün, briqadamın müsəlman əsgərləri, bütün ОТРЯД-ın əsgərləri kimi çöldə işləyəcəkdi.

Beton tökməliydik.

Cəmi beş nəfər qalmışdıq. Üç xəstə əsgərim САНЧАСТЬ-da, iki əsgərimsə НАРЯД-da idi.

Özüm də soyunub işləməyə qərar verdim. Deyə-gülə, zarafatlaşa-zarafatlaşa, nahara kimi beton tökdük. Nədənsə özümü çox gümrah hiss eləyirdim. 20 metrlik məsafəyə, düz 5 ton beton daşıyıb tökmüşdük.

Kəlbəcərli vaynösə Sahib Əkpərov, Ağdamın kəndindən olan ЕФРЕЙТОР İlyas, Şamxorun Zəyəm stansiyasından gəlmiş Vahidlə mən beton daşıyır, Ağcabədi rayonunun Kuybışev kənd sovetliyinin Mikoyan kəndindən gəlmiş Mehtiyev Hüseyin isə ЛОПАТА-sının arxasıyla duru betonu yayıb hamarlayırdı...

Birdən hardansa ağlıma gəldi, Hüseyindən həyəcanlandırıcı tərzdə soruşdum:

-Ağcabədi hara, Mikoyan, Kuybışev hara?

Gicalova düşsək də hamımız gülüşdük...

Hərbi hissənin komandiri Dyakiv və РОТА komandirinin müavini Qreşnoy, sən demə, mən işləyəndə kənardan görürmüşlər. Beton qurtarana yaxın, onlar gəlib bizə yanaşdı.

Cəld ПОДПОЛКОВНИК Dyakivdən əsəbiyyat halında, kinayəylə soruşdum:

-Yoldaş komandir... bəs bizim akkord məsələmiz nədən belə düyünə düşdü? Sanki mumlu kirişlə əl-qolumuzu bağlayıblar.

Sarı kirpiklərini endirməklə, fikirli-fikirli:

-Artıq gecdir, daha heç nə edə bilmərəm... yoldaş kiçik СЕРЖАНТ, -duruxa-duruxa dedi.

Dilotu yemişlər kimi, birnəfəsə:

-Bəs biz ОБХОДНОЙ alıb, hərbidən nə vaxt tərxis edilərək, doğma yurd-yuvamıza qayıdacağıq yoldaş komandir? -kirkirə kimi üyütdüm.

Giley-güzarla gimgə qurulduğunun fərqində olduğundan, incə fəndgirliklə gülümsünüb:

-Kütləvi buraxılışa başlayanda birincilər sırasında sənin də briqadanın adı olacaq, yoldaş kiçik СЕРЖАНТ! Buna söz verə bilərəm! Nəzərdə tutulub ki, II POTA-dan ilk kütləvi tərxis, təqribən noyabrın 12-13-ü arasında olsun...

Kətxudalar kimi katta danışaraq:

-Deməli 2 həftəyə gedirik?

-Belə çıxır...

Bu an nədənsə onu kilsə patriarxının katolikosuna bənzətdim.

İlahi! Bu gerçək olsa, sevindiyimdən bəlkə də dəli olaram! Getmək məsələsi mənə yuxu kimi görünürdü. Azad olmaq, hürriyyət bu dünyanın gerbidir! Nə katorqa nə də kabare istəyirəm.

Sərbəst bilet alıb Bərdəyə getmək... İstə-

yəndə yatmaq, istəyəndə durmaq...

Bütün bunlar nağıla bənzəmirdimi?

Azadlıq, sanki mənim xəyallarımda reallaşa bilərdi... Hərçənd, ortada bir gerçəklik də vardı... iki gündən sonra, sonuncu, 24-cü ayın hərbi xidmət dövrü başlayacaqdı.

Daha bundan o yanası yoxdu ki?

Fakt ortada olsa da, vətənimə ümidim yoxdur. Orduda rüşvət at oynadır.

Düşüncələrim yorub məni əldən salırdı...

Azadlıq elə vətən deməkdir! Azadlıq olmasa nə torpaq, nə vətən, nə yurd-yuva?

Eh...

Nəyisə, nahara gecikşək də 5 ton betonun hamısını daşıyıb tökdük, Hüseyin də yaydı. Yayılıb şümal hamarlanmış nəm betonun üzərinə, barmağımla dərin izlər salıb yazdım:

"Tofiq Bərdəli, Hüseyin Ağcabədili, Sahib Kəlbəcərli, Vahid Şamxorlu, İlyas Ağdamlı...

30 oktyabr 1972-ci il."

Bizim Qobustan qayalarının üzərindəki kimi olmasa da, beton quruyandan sonra bu adlar, bu hərflər, bu xəttim XX əsr boyu... bəlkə də daha çox... o yerləri tanıyan olmasa da... biz olmasaq da oxunacaq və hafizələrdə qalacaq...

Deməli iki həftənin qonağıyıq?

Bəli, bu unudulmaz olacağı qədər də, inanılmaz idi. Hərçənd ki, gözləməkdən savayı əlimizdən heç nə gəlmirdi...

Nahardan sonra yığışıb, dirədöymə oynamağa getdik. Əvvəl uşaqlar kimi keçdi-keçdi oynamağa başladıq. Bir qədər oynamışdıq ki, Sədaqət hardansa köhnə bir rezin top tapıb gətirdi.

Dərhal futbol oynamaq həvəsinə düşdük.

Qayğısız, bəxtəvər uşaqlar kimi kəlbəcərli, laçınlı savadsız bığlı əsgərlərimiz, hələ minilməmiş azad dağ daylağı kimi necə şıllaq atıb, hara gəldi qaçışırdılar.

Sanki tərxis olunmaq üçün heç darıxmırdılar. Axı... ağaclardakı kərtiklərin, РЕМЕНЬ-lərdəki deşiklərin sonuncusu açılmışdı...

Deyəsən dərdəsərli bir mən, bir balaca da kəlbəcərli vaynösə Sahib idi.

Jiro hesab növüylə, bir qədər futbol oynamışdıq, salyanlı xəspuş Adil göründü və julik bizi görən kimi əlini kirri qulağının dibinə qoyub bir dəruni muğam getdi.

Hamı dayanıb... onun yanıqlı səsinə qulaq asdığı yerdə, o oxuduğu muğamı qəfil kəsdi və bizə yaxınlaşıb cibindən işlənmiş kart çıxartdı.

Uşaqlar nədənsə, maraqlı futbolu buraxıb dəli kimi karta cumdular.

Adil ultimatum verdi;

-Pulla oynayacağıq!

Çoxunda pul olmadığından umsuq qaldı.

Zəyəmli Vahidlə mən, salyanlı Adil ilə Sədaqət də bir oldu.

Pulla qumar oynamağa başladıq.

Vahid qulağıma pıçıldadı ki, onun bir manat da olsun, cibində pulu yoxdur.

Mənim 10 manatım vardı... Qırmızı onluğu çıxarıb Vahidlə öz arama qoydum.

Yerdən, dizlərimizin üstündə oturduq. Oynamayan uşaqlar da... dairəvi halda ətrafımızda halaylanıb ayaqüstə dayandı.

Saat 15:00-da oynamayanları dilə tutub iş yerinə göndərdik. Dördümüz qalıb çox maraq və udmağa hərisliklə qumara davam elədik.

Saat 17:08-də Vahidlə qarşımızda olan 10 manat pulu uduzduq. Pulu uduzduğumuza görə yox, oynamaq hərisliyinə görə yaman pis olmuşdum. Həm də uduzmaqla barışmaq, ümumiyyətlə təbiətimə yad idi.

Salyanlı, zilxan Adildən borc istədim.

Cibindən ala-bəzək molla təsbehi çıxarıb, qaytan dodaqlarını büzərək:

-Qumar üstə borc verməzlər, -zilə çəkdi və zikr təsbehini müştəbehliklə şaqqıldatdı.

Yamanca tutuldum.

Sədaqət də onun sözünə qahmar çıxdı.

Belə yerdə yaxşı deyiblər: “Gün görməyən günü gördü, durdu çıraq yandırdı.”

Vahidin üzünə baxdım. Və bu an... zəyəmlinin pirişikli sifətinə qəflətən qızartı çökdü...

Möcüzə baş verməliydi!

Gözləmədiyim bir məqamda əlini qəfil cibinə salıb yaşıl üçlük, sonra sarı bir РУБЛЬ, axırda

da şaxlı göy beşlik çıxartdı. 9 manat!

Şamxor lotusu, rəngli əsginasları qarşıma atıb, təşəxxüslə şeşələndi.

Gözlərimə zihəyat görünmədi.

Tələsik pulları dərdəst elədim.

Sən demə əclafın karrı pulu varmış! Yerində deyiblər, hər cəfanın bir səfası da olar...

Oyun yenidən qızışdı.

Sanki, Kövsər çayının dadlı suyundan doyunca içmişdim. Yerimdəcə dingildəyirdim.

Bu dəfə ədəb-ərkanla, abavü əcdadlarımız kimi, bardaşqurma oturdum.

Gün doğuşundan bəlli olduğu kimi, bu dəfə də, hələ bissimillahla siftə eləməmiş, 4 manat uduzduq. Yaşıl üçlüklə sarı РУБЛЬ-luq da, fələyin güdazına belə getdi.

Yenicə yerdən abadanlıq salmışdıq ki, salyanlı Adil xüsusi ədayla saatına baxıb, sakitcə:

-Altıdır, -dedi.

Hərçənd düz deyirdi.

Artıq gecikirdik... Söz yox ki, bizimkilər indi arxamızca gələcəkdilər. Bryusov indi yəqin məni axtarır. Kəsafətli Vahid cəld yerdə qalan beşliyi götürüb cibinə soxdu.

Halbuki, yarı bölməliydik, şərik idik.

Nəyisə, dizlərimin yeri nəm idi. Hiss etdim ki, ayaqlarım buz kimi soyuyub...

İran tüllablarına oxşayanlar, bu darmacalda, ОБХОДНОЙ alıb, cəhənnəm olmaq ərəfəsin-

dəcə 14 manat halal pulumuzu uddular.

Vahid onluq pul kimi qızarıb, dodağının altında deyinə-deyinə mızıldandı:

-Görüm sizi dari bəqayə rehlət edəsiniz!

Salyanlı, qumara dadamal Adil, arsız-arsız hırıldayıb, tutuquşu kimi ötdü:

-İkicə-üçcə günə kimi ДЕМБЛЬ-ə gedirəm, defisitli Cülyettama bazarlıq pulu çıxdı...

Mərmi kimi partladım:

-Necə iki-üç günə gedirsən ə? -Kimdi səni buraxan? -23 ayın НАРУШИТЕЛЬ-i sən deyilsən?

O, xışmayla götürüb əlində oynatdığı kartları, jestlə daraqlayıb iztehzayla:

-Baxarsan... -dedi.

Kaş bu an, janrist bir rəssam onun şəklini çəkəydi. Özü də əsgər formasında yox, qolsuz yaxasız və qısa jiletdə. Həm də kətan tabloda...

Əhəmiyyət vermədim.

Zəyəmli Vahidin hərəkətinə də dillənməyib susdum. Ürəyimdə: "İt aparan olsun!" -dedim.

Onun yerinə mən utanırdım.

Salyanlı Adil son vaxtlar tamam dəyişmişdi. Danışığından, yerişindən tutmuş cibinə kimi.

Adətən onun cibində pulu olmazdı, çünki, çox kasıb, kəsbkarlıqla məşğul olan ailədən çıxmışdı. Ötən 23 ay ərzində, Salyanda heç kəslə əlaqə saxlamır, məktublaşmırdı. Son vaxtlarsa, pula pul demirdi. Çox maraqlıydı. Sadə salyanlı Adil indi göylə gedirdi. Hamıya iztehza edir, heç

kəsi bəyənmir və hələ bu azmış kimi yüksək çinli zabitlər də, son vaxtlar onun qaranlıq hərəkətlərinə açıq-aşkar göz yumurdu.

ОДЕССА-dan gələndən bəri, bir neçə dəfə ondan xabi-qəflətdən ayılmağın, bu köklü dəyişikliyin səbəbini incə eyhamlarla soruşmuşdum.

Hüseyni muğamından bir ağız oxuyaraq... çox kəsə demişdi: "Cülyettanı bir gün sənə göstərərəm... O mənim bütün həyatımı dəyişib. Sənin PRAHA-lı qızından da gözəl qızlar var, bizim bu bəyənmədiyin Pervomayskidə".

"PRAHA-lı qızından da gözəl qız var," -sözü məni tutdu, düzü lap başımdan tüstü çıxartdı:

"Kor-koru tapar, su çuxuru! Bilmək olmaz, hələ sənin gəzəli rəngli don geyinən Cülyettanın biləyindən yapışıb, qolları arasına salan neçənci kişisisən sən, ay zavallı..."

Bəli, aramızda belə bir söhbət olmuşdu.

Və ürəyimdə o vaxt düşünmüşdüm ki:

"Bəlkə də yollar, yamaclar Cülyettanın evinə gedib-gələn kişilərin ayaq izləriylə doludur..."

Bax o vaxtdan beləcə təskinlik tapmışdım.

Qayıdıb, tələm-tələsik iş yerinə getdik.

Bizim əzmkar əsgərlər işləyirdi. Üst-başları batmışdı. Məni görən kimi, dərhal xəbər verdilər ki, ОДЕССА-dan siyasi işlər üzrə POTA-mızın komandir müavini, baş leytenant Boyko və xubru Qreşnoy gəlmişdi, səni soruşdular...

Əlimə mala götürüb, əsgərlərimin yanında

qırmızı kərpiclə hörgü hörməyə başladım. Yerdə ТЕПЛОТРАССА üçün qazılmış torpağın kənarlarını hörürdüm. Artıq hava qaraldığından iş yerlərinin işıqlarını yandırmışdılar.

Hər yan gündüz kimiydi.

Elə yenicə qızışıb, dara-barasız işləyirdim ki, yenə xoş təsadüfdən, hərbi hissə komandirimiz ПОДПОЛКОВНИК Dyakiv gəlib çıxdı və bu dəfə də məni işləyən yerdə gördü.

Bu vaxt, danlanc Boykoyla Qreşnoy da özlərini yetirdi. Və rəsmi duruşla donub durdular.

КОМБАТ Dyakiv dambatlaşmaqla məni hüzuruna çağırıb, hal-əhval tutdu və canıyananlıqla təlimatlandırıb НАРЯД bağlamağa göndərdi.

Mütəkəbbir Dyakiv zabitlərini düdük yerinə çalıb, danlamağa başlayanda, üst-başımı çırpıb iş icraçısının arxasıyca getdim.

Bizə yeni МАСТЕР ayırmışdılar.

20 metr məsafəyə, zillətlə daşıyıb yaydığımız 5 ton beton işini, əclaf, çox iddiayla və saymazyana 1 ton yazdı.

Xudaya-xudavənda!

Yandığımdan bir qıy vurub onun НАРЯД-ını zorla əlindən alaraq cırdım... hiddət və hikkəylə hərbi formasının üstünə tolazladım. Hünərmənd və əsəbiyyət içində bayıra çıxanda qışqırdım:

-Xamıtpaça!

Əsəblərimi bu yolla sakitləşdirib... briqadamın əsgərləri işləyən yerə qayıtdım.

Uşaqlar söhbət eləyə-eləyə, başlarını aşağı dikib işləyir, bəxtəvərliklə deyib-gülüşürdülər.

Necə deyərlər, feyzlənirdilər!

Altıma əsgi-püsgü parçası düzməklə onların yanında özümə yer düzəldib oturdum.

Hərə başına gələn bir hadisə danışırmış.

Hamısı xorla dirəndi ki, sən də danış.

Qazax rayonunun Daş Salahlı kəndindən olan tələbə dostum Mahir Eminovla birlikdə başımıza gələn ecazkar "İçəri şəhər" əhvalatını və МОСКВИЧ-408-ə doluşub gələrək СОВЕТСКАЯ-da qazaxlı Mahirin dayısı Yolçugilin evinə ДИНАМО-çu boksçuların basqın edib bizi döymək istədikləri əhvalatı nağıl eləməyə başladım.

Birincidə, əsim-əsim əsməklə başımı götürüb qaçdığımı, ikincidə isə əlimə paya alıb qıyya çəkməklə, arvad-uşağı dalıma salıb Mahirin dadına yetişməyə çalışdığımızı nağıl elədim.

Ancaq vaxt az olduğundan çox qısa danışdım. Uşaqlar gülməkdən uğunub gedirdilər.

Əvvəllər də bu hadisələri bir neçə dəfə danışmışdım. Görünür bunlar eşitməyənlər imiş...

Nədənsə, hərbi mükəlləfiyyətdə olsam belə kefim kökəlmişdi. Sanki, kartda salyanlı Adilə olan-qalan pulunu uduzan mən deyildim.

Çox şən olmuşdum. Halbuki mənim təbiətimdə belə hallar nadir hallarda olardı...

Ətrafa zülmət qaranlıq çökmüşdü.

Səki, toran çalanda КАЗАРМА-ya getməliy-

dik. Uşaqlar yuyunub təmizlənmiş, hamısı da ac olduğundan yeməkxanada yeməyə köklənmişdi.

Alik Ohanesyanın ОКЕАН-203 radiosundan xarici musiqi sədaları ətrafa yayılırdı. Birdən necə oldusa... ac, yorğun və fədakar uşaqlar, qələti-məşhurluqla... bacarmadıqları ТВИСТ rəqsini yalandan bənzədib oynamağa başladılar.

Çox gülməli şəkildə... ayaq, pəncə, daban, diz və... qupquru yanlarını necə gəldi burcudur, fırladır, əzələli arıq qollarını robotsayaq irəli və əks istiqamətlərə aparırdılar...

Xristian məzhəblilər də ortaya çıxanda ara qarışıb məzhəb itdi. Məşğuli-zimmə Adilkimilər at oynadırdılar.

İt yiyəsini tanımayanda, КАЗАРМА-ya dəstəsiz getməyə qərar verdik.

Yenicə aralanmışdıq ki... Boyko qarşımıza çıxdı və hərbi əmrlə rəsmi komanda verib... bizi geriyə qaytardı. Və ВОДОЗАБОР-da işlənilib, orabura səpələnmiş, bir yığın taxtanı РАСТВОР-dan bizə təmizlədib dəstələdərək, hasarın dibində bir küncdən səliqə-səhmanla yığdırdı.

КАЗАРМА-ya biz qayıdanda... kəndin bütün evlərindəki işıqları zülmətdə elə şirin yanırdı! Tül pərdələr isti evlərdə necə möhtəşəm olarmış!

Azadlıq nə qədər əlçatmaz, nə qədər şirin imiş... Ey qoca dünya!

Kaş mən də, tərxis olunub qatarla Bərdəni ətəkləyəndə... Fikrət Qocanın sözü olmasın, de-

yə biləydim, özü də romantik, sirli pıçıltıyla:

"Salam ey qoca Bərdə!"

Tünd yaşıl rəngli yeyilən quşdili, gicitkan, uzun saplaqlı xırda ağ çiçəkləri olan quşəppəyi, cincilim, kökümsov gövdəli sürünən dəvədabanı, qazayağı, süpürgəotu kimi tanıdığımız dəvəqulağı, üçtipli dişicikləri olan narınçiçəyi, sarı çiçəkli yemlik, şirəli dəmrovotuyla dolu cövlangah Qarasuda... qaca-quca, tozlu, çiy kərpic hasarlı Şərq küçəsinin uşaqlarıyla cövlan edəydim.

Ağ mirvari tanalı Məhbubə xalayla çıxartdığımız pəstahalardan, q.Bahar xalaya da balabanda qandırmaqla bala-bala "o" məsələ...

КАЗАРМА-ya girəndə saat 21:06 idi.

Yenicə rahatlanmışdıq ДНЕВАЛЬНЫЙ mənə 4 ədəd məktub gətirdi. Dərhal, möhürlü zərflərin üzərinə baxdım: Bərdədən Əlövsət, МОЛДАВИЯ-dan Buratino, Tbilisidən əbrəş Tahir Ağayev və xasavyurdlu Ruslan yazmışdı.

Üçüncü zərfin üstünü təkrar oxudum:

"ГРУЗИНСКАЯ ССР, ГОР. ТБИЛИСИ-54, в/ч 51973 "с" РУСЛАН ШОШАЕВ."

Birinci Ruslanın məktubunu açdım. O da, dostum Tahir kimi ДЕМБЛЬ günlərini sayırdı və mənə son məktubunu yazmışdı. Yaşadığı mülki ünvanını da göndərmişdi: "СССР, ДАГЕСТАНСКАЯ АССР, ХАСАВЮРДСКИЙ РАЙОН, СЕЛО АКСАЙ..."

Dördüncü məktub МОЛДАВИЯ-dan gəlmişdi. Üzərındəki ünvanı dönə-dönə oxudum:

"МОЛДОВСКАЯ ССР, ГОРОД ФЛОРЕШТЕ, в/ч 61583 "a" М.Т.И."

Orta məktəb dostum və yaxın qonşumuz Muradov Tariyel İsmayıl oğlundan idi. Buratino yenə quru yazmışdı: Hava burdan gəldi, ordan getdi. Qatı duman, sis... ФЛОРЕШТЕ-də quş südü, can dərmanı... çəm-xəmli mamlımatan, qırmızıyanaq moldavan qızları... Belə-belə, çənəbazar olmasın, deyəsən dostum məni dəstəylə cangülüm oynayan canışirin qızların çənginə keçirmək istəyirdi. Canfəza olsa da, dəmi o dəm deyildi...

Fırtına Tahir Ağayev də qısa yazmışdı: Bu günə-sabaha tərxis olunub gedəcək.

Əlövsətin məktubu maraqlıydı. O, Kirovabadda instituta qəbul olunubmuş. Yeni ünvanını da göstərmişdi: Kirovabad şəh. Lenin prospekti 46, otaq 7. Mamedov Ə.

O, Komsomolum haqqında, üç yeni xəbər yazmışdı, həyacanla oxudum:

1.Komsomol... qonşuları, lümbaqo xəstəliyi olan Soltan müəllimənin kiçik qızı, Yeganə ilə rəfiqəlik edir, birlikdə oturub-dururlar.

2.Komsomolum kiçik bacısıyla həyətlərinin ayağında, böyük darvazanın darbərəsi yanındakı balaca yardımçı binada qalır.

3.Komsomol böyüyüb.

Əlövsətin məktubu, məni yaman təsirləndirdi və evə getməyə lap tələsdirdi. Kaş, o hərbi bileti əlimə alıb azadlığa çıxan günüm olaydı!

Ağır-ağır köks ötürdüm...

Bu gün oktyabrın son günüydü:

31.10.1972... Hicri qəməri ərəb təqvimi ilə şəvval ayı... Ümumilikdə, çox uğurlu ay oldu.

Oktyabr ayı sentyabra bənzəmədi.

Şəvvalda ДЕМБЛЬ ПРИКАЗ-ımız çıxdı.

Komsomoldan, ağ mirvari sırğalı Məhbubə xaladan, PRAHA-dan məktublar aldım... ОДЕССА-ya gedib, bənovşəgözlüylə görüşə bildim. Anya xalayla, ağcabədili Nazıyla, camadar Dusyayla görüşdüm. İki dəfə Bərdə ilə telefonda danışdım. ПРИКАЗ çıxması şərəfinə neçə dəfə ЮЖНЫЙ БУГ çayının kənarında məclis qurduq...

Bəli, bu ay çox uğurlu, böyük xəbərlər ayı oldu. Heç bir lazımi məqamda əliboş qalmadım.

Hələ birini unutmuşam ki!

Alik Ohanesyan dünən gecə, məni xəlvətə çəkib, gizlincə xəbərləmişdi: Deyəsən sənə Az-voyenkomatdan teleqram gəlib. ПОДПОЛКОВНИК Dyakiv istəsə, noyabrda səni sözsüz tərxis edə bilər. Dekabr ayına saxlamağa ixtiyarları yoxdur, çünki, zaçot imtahanlar başlayır...

Şəvval ayı gözlənilməz, heyranedici hadisələr ayı kimi, hərbi ömür səlnaməmə düşdü.

Hələ ОДЕССА-dan qayıdan gün... Dəmiryol vağzalında tanış olduğum bakılı qız: Rəna Şıxəliyeva, üstəlik qatarla Pervomayskiyə qayıdanda vaqonda ВИННИТСК-li Sufərəsiylə keçirdiyim sirli, sehrli, əsrarlı gecə!

Bir andaca o qız yenidən yadıma düşdü.

Xudaya-xudavənda! O ilk andan... istədiyi bəhanəylə söhbətə necə həvəslə girişirdi. Gərək ona da məktub yazım. Çox şirin idi. O gecə, hər yadıma düşəndə qəlbimdə ağrılı əks-səda verir...

Əsrarəngiz gecəydi!

POTA-yla birlikdə işə getdik.

Əsgərliyin sultanlığını yaşayırdıq.

Daha heç nədən qorxumuz yox idi. Böyük ümidlər vəd edən zilqədə ayı sabahdan başlayır.

Kuybışevli Hüseyinə bu gün istirahət verdim. Cəmi 6 nəfər qaldıq. ТЕПЛОТРАССА-da işləməliydik. Nahara kimi işləyə bilmədik. Qaynaqçı əsgərlər xəndəklərlə uzanan dəmir boruları qaynaqlayır, zabitlər onları tələsdirirdilər.

Təmizlik işləriylə yanaşı, material hazırlayıb yığdıq ki, barı nahardan sonra işləyək.

Nahar vaxtı, 6 hoqqabaz əsgərimi bir yerə toplayıb, necə deyərlər ilana ağı verərək dedim:

-Oktyabr ayı uğurlu və fəal ay oldu, belə ki, ДЕМБЛЬ ПРИКАЗ-ımız da bu ay verildi. Gəlin... bu sonuncu günü əlamətdar bir ayın sonuncu günü kimi qeyd edək. Sabahdan da, tarixə çevriləcək şəvval ayı, bizi həm də tərxis olunacaq sonuncu, hicri qəməri ərəb təqvimiylə, zilqədə ayına çatdırdı. Yeyib-içmək lazımdır ya yox?

Kuybışevli Hüseyin, dərhal cibini qurdalayıb yaşıl üçlük... sifəti pirişikli, zəyəmli Vahid isə sarı təklik çıxartdı. Və ilan ağzından yenicə qur-

tulan qurbağa timsalı, dərindən acı köks ötürdü...

Cəld dörd manat pulu götürüb, laçınlı, qayışbaldır Turabxanla Vahidin qarasına gileylənə -gileylənə kənd mağazasına tərpəndik.

Saat 13:30 idi.

Üç БУТЫЛКА çaxır, badımcan ikrası, iki buxanka qara çörək, soğan və xiyar turşusu aldıq. Çatmayan pulu da, Turabxan qəpiklərlə düzəltdi. Mənim heç bir qəpiyim də yoxuydu...

Qayıdanda 14:00 olmuşdu.

Aldığımız ərzaq və şərabları həmişəki yerdə gizlədib nahara yeməkxanaya getdik. РОТА artıq yeyib çıxmışdı. Amma, bizim ПОРС-lar soyusa da, dururdu. Elə soyuq-soyuq da ПЕРВЫЙ adlandırdıqları duru şorbanı horuldadıb içdik və kartof püresi ilə, iri ağ donuz САЛО-lu qarabaşaq dəmləməsindən dimdikləyib yamaca getdik.

Zəyəmli Vahid şorbaya bulaşmış bığını və ağız-burnunu xebe formasının qoluyla silib:

-Heyif deyil, tərəvəzli balba sıyığı, -dedi.

Kuybışevli Hüseyin də ona züy tutdu:

-Qatıqlı unla hazırlanmış balatayla yoğrulan xəmirin təndir çörəyi də olsaydı, pis olmazdı.

Qayışbaldır, laçınlı Turabxan kənd ağsaqqalı kimi, söhbətə yekun vurdu:

-Özünüzü tamarzılandırmayın, nə qalıb ki? İki-üç həftəyə hamımız elata gedirik...

Yamacda gizlətdiyimiz içkiləri və ərzağı çıxaran kimi, içi sırıqlı isti БУШЛАТ-ları altımıza sə-

rib yerdən dairəvi oturduq və köhnə ayı beləcə, əsgəri dəbdəbəylə bala-bala qeyd eləməyə başladıq. Aldıqlarımızı qəzetin üstünə düzəndə, yada düşdü ki, duz almamışıq...

Gənclik özü insan ömrünün ilahi, əlçatmaz dövrüdür, əbədiyyətə kimi insana bir dəfə nəsib olur... və heç kim də bunun qədir-qiymətini dərk etmədən, qadınlı-kişili hamı necə gəldi xərcləyir.

Gəncliyin fəlsəfəsi bundan o yana deyil.

Ağ süfrə çaxırından içib şənlənir və hər bir sözə... lap səfeh sözə belə, necə ürəkdən gülürdük! Turabxana baxdıqca, dağ dayçası yadıma düşürdü. Onlardakı oxşarlıq nəydi görəsən?

Xudaya-xudavənda!

Zəyəmli, sifətini pirişik basmış, sısqa Vahidə baxanda gözlərimdə ov tulasının güclə zingildəyən xəstə balasına bənzədi. Sanki, pıçalaq tutmuş gözlərini açа bilmirdi...

İlahi! Elə bil azadlıqdaydıq və heç bir dərdsərimiz, qayğımız da yoxuydu. Hansı ki, cibimdə bir qəpiyim belə qalmamışdı!

Saat 15:10-da qurtarıb qalxdıq.

ВОДОЗАБОР-da sözsüz ki, bizi axtarırdılar. Hamının kefi kök və damağı da cağ olduğundan bir-biriylə zarafatlaşır. təpikləşir, çimdikləşirdilər. Söyüşün biri, bizimkilərin sözü olmasın, bir qəpiyə gedirdi. Bir-birlərinin sifətinə də tüpürürdülər.

Guya kişilər zarafatlaşır!

İş yerinə gələndəsə, gördük ki qaynaqçılar

artıq öz işlərini yekunlaşdıraraq... xeyli irəliləyiblər. ТЕПЛОТРАССА-nın içərisindəki dəmir boruların turşular, yaxud atmosfer təsirindən paslanıb yeyilməsini, yəni ki, yaxın gələcəkdə aşınmadan qorunması üçün boyamağa başladıq.

Zabitlər КОРРОЗИЯ deyirdilər.

Dəmir boyası tezquruyan olduğundan vurmağımızla qurumağı bir olurdu.

Boyalı dəmir boruları, xüsusi tərkibli maddə hopdurulmuş qara ensiz karton tollarla bükərək, üstünü paslanmayan nazik məftillərlə bağladıq ki, tol açılmasın.

Bu əməliyyatı da başa vurandan sonra, istiliyin itməməsi üçün, tollanmış boyalı dəmir boruları qalın СТЕКЛОВАТА ilə büləyib üstünü nazik polad setkalarla bağladıq.

Və sonda bu setkaların üzərini odadavamlı lifli mineral olan АСБЕСТ-lə suvamağa başladıq. Azbest çox tez quruduğundan, çətinliklə suvanırdı. Həm də əziyyətli və tozlu iş idi.

Başımız işə necə qarışmışdısa, bir zaman gördük ki, qaranlıq çöküb. Artıq, göz-gözü görməyəndə, elə bu vəziyyətdə də işi saxladıq.

СТЕКЛОВАТА şüşəlifli olduğundan, canımız və baş-gözümüz qaşınmağa başlamışdı.

Hamımız ЮЖНЫЙ БУГ çayının kənarındaca soyunub, soyuq suyla sabunlanaraq yuyunduq.

ТЕПЛОТРАССА-nın üzərini, iri daş ПЛИТКАlarla örtüb, torpaqla basdırmaq isə, sabaha qal-

dı. Onsuz da, ən ağır işləri müsəlmanlar görməliydi. Bizim ГАРНИЗОН-da bu şəksiz idi.

Odadavamlı bişmiş gildən hazırlanmış şamotlu kərpiclərlə hördüyümüz ТЕПЛОТРАССА-nın içərisindəki işlərin mənim briqadama düşən hissəsinin tamamlanması bax belə yarımçıq qaldı. Taytax Nadirgil isə öz hissələrini qurtarmışdılar.

Çaxırlar kefimizi açdığından deyə-gülə çox rahat işləmişdik. Hüseyinə istirahət versək belə, o da küyə gedərək bizə qoşulub işləmişdi.

Şəvvalın son günü çox xoş keçdi. Oktyabrı beləcə yola salırdıq. Bu ay, çox uğurla yaşanıb uğurla da sona yetmək üzrəydi...

Gecə ЛЕНКОМНАТА-da oturub gündəliyi yazanda, nə eşitmişdisə Bryusov özünü yetirdi.

Sən demə, donuzaoxşar, sarıtüklü və koppuş ПРАПОРЩИК Bandısik mənimlə ОДЕССА-dan qayıdanda, içkili olduğumdan, vaqonda qəfil ağzımdan qaçırdığım sirri, ona xəbərləyibmiş:

“Kiçik СЕРЖАНТ Babayev kitab yazır, özü də hərbi xidmət həyatından.”

Bu da bu!

Qəflətən gündəliyi qarşımdan qapdı.

Nə baş verdiyini hələ anlamasam da, cəld ayağa qalxıb mundirindən yapışdım:

-Ver dəftəri!

Nə qədər qorxutdum, hədələdim, sızladım, şirin dilə tutdum mümkün olmadı.

Səsə, tombul Bandısikin özü də gəldi.

Və gözlənilmədən var gücüylə çığırıb taytax Nadiri də köməyə səslədi.

Bu gethagetdəcə ifşaedici məlumat yayma hədəsiylə ilişdimmi?

КОНЦЕЛЯРИЯ-ya keçdik.

Şappadan başıma gələn bu nə iş idi?

Cüvəllağı Bryusov niyə sifətini bozartdı?

O istəyirdi taytax Nadirə cümlələri tərcümə elətdirə. Nadirə gözlərimi necə ağartdımsa, taytax hesabını götürdü və mızıldanıb, öz dilimizdə başa saldı ki, tələşlanmağa lüzum yoxdur... tərcüməni bizə lazım olan qaydada aparacaq.

Yəni, Buratino Tariyel Muradovun yazdığı quru cümlələr kimi: "Gün batdı, çıxdı, yamanca külək əsir, gecə kovkəb görünmədi..."

Qəfil, Bryusovun üstünə qışqırdım:

-Mən öz şəxsi düşüncələrimi yazıram, sənin nə ixtiyarın var onu oxuyasan?

-Bəlkə hərbi sirr yazırsan? Ya, ГАРНИЗОН-umuzu şantaj edirsən? Eşitmişəm, tərs kimi də, ЧЕХОСЛОВАКИЯ ilə yazışırsan. Hm, СОВПАДАЕТ!

Yanıb-yaxıldım:

-Səhər açılandan gecə düşənədək... beton tökür, suvaq vurur, hörgü hörür, boru КРАСКА-layırıq. Hərbi texnika görmüşük bəyəm, sirr də bilək? Hoqqa çıxarmaq lazım deyil, ТОВАРИЩ КОМАНДИР! ЧЕХОСЛОВАКИЯ, qardaş sosialist dövlətidir. Mən orda 16 yaşlı qızla dostluq edirəm...

O, bir balaca sakitləşib kreslosunda əyləş-

di. Və quru təmkinlə gündəliyi qarşısına qoyub vərəqləməyə başladı...

Höccələyib Bandısik, АЭРОПОРТ, Bryusov, ПОЛИТОТДЕЛ, НАЦИОНАЛИСТ, ПОДМОСКВА, Muslimov, Marşal Qreçko kimi sözləri... əclaf oxuyub başa düşdü. Öz adına tez-tez rast gəlirdi.

Dərhal da sifəti qıpqırmızı qızarır, alnı düyünlənirdi. Sanki bu an qalstuku onu boğurdu.

Birdən, bağrı yarılmış kimi bərk qorxdu!

Sinir sisteminin və əzələ toxumalarının tonusu düşdüyündən səsi bərk xırıldadı və Marşal Qreçkonun adının niyə buraya yazıldığını təkidlə soruşmağa başladı.

Aydınlaşdırdım ki, ДЕМБЛЬ ПРИКАЗ-ımıza qol çəkdiyi üçündür...

İçim-içimi kəsdiyindən ucadan çığırdım:

-İlhaqçı deyilsiniz ki!

Mənə cavab vermədi. Davam elədim:

-Hitlerizm ideologiyası yaymıram ki?

Gündəliyimi oxumaqla məşğul olduğundan mənə cavab vermirdi.

O, vərəqlədikcə öz adına tez-tez rast gəlir və hətta 23 oktyabr tarixini oxuyanda: "Bryusov-10 РУБЛЬ" -sözünü başa düşdü.

Və dərhal, döyüş öküzü ilə qarşılaşmış kimi yenidən qıpqırmızı pörtüb, nə fikirləşdisə, tez Bandısiklə taytax Nadiri bayıra çıxartdı.

Və ikilikdə qalan kimi, siyasəti dəyişdi:

-Sənin, qalan pullarını da qaytaracağam...

Mən Sovet zabitiyəm və kiçik СЕРЖАНТ-a borclu qalmağı şərəfimə sığışdırmıram. Bax, indicə dediyim bu kəlmələri... elə bu saat da, bu dəftərinə yazmalısan, özü də rus dilində!

Onun təşvişə düşdüyünü görüb... dediyinə əməl elədim. Dönə-dönə oxuyub, bir qədər sakitləşən kimi oldu.

Bəlkə də... öz adına hər səhifədə rast gəlməsəydi, qurumsaq, gündəliyimi НАЦИОНАЛИСТ Qordiyenkoya təslim edəcəkdi!

Yaxşı qurtardım.

Dəftəri qaytaranda dönə-dönə dedi:

-Apar bunu, etibarlı bir yerdə gizlət, ya da bağlamayla evinizə yolla. Beş-on günə çıxıb gedəcəksən. Pulunu da qaytaracam. Dəftəri bir də görsəm, ya öz uşaqlarına göstərsən... özündən küs. Deyəsən, ЦРУ-ya material hazırlayırsan!

-Sən nə danışırsan yoldaş Bryusov? Sən zabit olsan da, vətəni mənim kimi ürəkdən sevə bilməzsən! Mən ПАТРИОТ-am! Mən vətənin uğrunda ölümə gedə bilənlərdənəm. ABŞ-ın ЦРУ-su bu ГАРНИЗОН-da hamını ələ ala bilsə də, mənə bata bilməz. Vətən deyəndə ürəyim atlanır...

-Yaxşı, yaxşı aksakkal get, dəftəri heç kim görməsin bir daha...

Tofiq Xəzər

# Salyanlı Adil dembl getdi! Vinnitskli Qatarfərəsinin ilk məktubu

*Pervomayski, 1, 2 və 3 noyabr 1972-ci il.*
*III, IV və V günlər*

Axır ki, illərlə yolunu gözlədiyimiz son ay, bizim istifadə etdiyimiz, İsa peyğəmbərin doğum günündən hesablanan hicri miladi xristian təqvimiylə noyabr... Hicri qəməri klassik ərəb təqvimiylə Zil-Qadə və Məhəmməd peyğəmbərimizin 622-ci ildə Məkkədən Mədinəyə köçməsi tarixiylə, yəni hicrətdən hesablanıb qəbul edilən... hicri şəmsi təqvimiyləsə, bu gün bəhmən ayı girirdi.

Yeri gəlmişkən, əslən cənubi Azərbaycanlı olan nənəm deyərdi ki: "Hicri şəmsi təqvimi İranda və Əfqanıstanda, Ömər Xəyyamın iştirakı ilə hazırlanıb. İlin başlanğıcı da gecə-gündüz bərabərliyi olan gündən hesablanır. Novruz bayramı keçiriləndə, yəni yaz girəndə..."

Allah qoysa, bu ay azadlığa çıxacağıq. İnşallah isfənd ayına qalmaz. Həsrətə, bu ay son

qoyulacaq! Buna aşkarda yox nədənsə ürəyimin lap dərinliyində əminəm. Zil-Qadə, təkrarı bir də heç vaxt, lap axirətəcən yaşanmayacaq, sevinc gətirə biləcək son əsgəri ay olacaq!

Tərxis olunmaq, azadlığa çıxmaq, röya kimi bir şey olsa da... indi, bu inanılmaz arzu reallaşmaq ərəfəsindədir. Şərq küçəsinə, abavü-əcdada, dostlarıma qovuşmaq, PRAHA-ya səfər etmək, ali təhsil almaq, Komsomolla ailə qurmaq, nəhayət gerçəkləşə bilər. Bütün bunların hamısı qıpqırmızı üfüq kimi... qırmızı sovet hərbi biletini əlimə alan gündən sonra, qarşımda açılacaq.

Bundan da ümdə, nə ola bilər?

Komsomolumu ilk dəfə məhz noyabr ayında görüb, bəyənib sevmişəm.

Kaş, bu noyabr ayı da düşərli olsun...

Tərxis olunmaq, Zil-Hiccə ayına keçməsin!

Mübarək 5 noyabr 1969-cu il tarixində, ilk dəfə şamama kimi tər... Komsomolumu görmüş və elə ilk baxışdan da ona vurulmuşdum.

Noyabr ayı mənə gələcək həyat yoldaşımı qismət edib. Bu noyabrda da azadlığa çıxa bilsəm, and içirəm ki, ömrümün müqəddəs ayı kimi, nə qədər noyabr ayı yaşaya bilsəm hamısını təmtəraqla bayram edəcəm.

Noyabr ayı!

Komsomolu mənə bəxş eləmisən, indi də məni hərbi xidmətdən azad elə!

POTA-yla birlikdə işə getdim...

Muslimov ОДЕССА-ya getmişdi. Mənim kiçik СЕРЖАНТ ПОГОН-larım yerində olmadığından РОТА-nı ВОДОЗАБОР-a Nersesyan aparırdı.

Kəndin yaxınlığından ötəndə təpərsiz Mürşüdlə zəyəmli Vahid heç kəsdən icazə almadan, qəfil dəstədən çıxıb... qayğısız, azad, avara-sərgərdan mülki adamlar kimi... rusların sözü olmasın, СЕМЕЧКИ almağa getdilər.

Nersesyan, tez zabit Qreşnoya xəbərlədi.

Mən də dərhal xuruşlanıb onun acığına öz dilimizdə bütün azərbaycanlı əsgərləri öyrətdim, hamımız РОТА-dan ayrılıb cərgəni pozduq.

Pərakəndə halda dağılışıb hərə öz kefiylə getməyə başladı. Nersesyan nə qədər çığır-bağır saldısa, heç arxaya da çevrilən olmadı.

Erməni və rus МОЛОДОЙ əsgərlər onu məzəmmət elədi ki... СТАРИК əsgəri zabitə satmazlar. Onların ДИСЦИПЛИНА gözləmək vaxtı ötüb.

Nədənsə, bu an Qreşnoy da susdu...

İş yerində yeni qalmaqal yaşandı.

ЗАКАЗЧИК gəldi ki, borunun üstünə çəkilən СТЕКЛОВАТА-nın altındakı... setka, tol və azbest suvağı üst-üstə 6 sm. olmalıdır. Sizinki isə cəmi 3 sm. gəlir, mübahisəsiz yenidən işlənməlidir.

Nəhlət şeytana! Bu haradan çıxdı?

Hələ bu azmış kimi, bir çox yerlərdə setka da qoyulmayıbmış...

Kəlbəcərli vaynösə Sahib Əkbərov qulağıma pıçıldadı ki, setkaları Turabxanla ЕФРЕЙТОР

İlyas yerinə qoymurdular...

Hava bərk soyuq idi.

Hərbi hissənin komandiri, ПОДПОЛКОВНИК Dyakiv bu ЧП-dən xəbər tutmamış, işi qaydaya qoymaq lazım idi. Tərs kimi ЕФРЕЙТОР İlyasa bu gün istirahət vermişdim. Daha dayanmaq vaxtı deyildi. Gecə növbəsinin düzdüyü iri daş piltələri bir-bir sökməyə başladım.

Necə qızışmışdımsa, hava çox soyuq olsa da qurşağa kimi soyunub, uşaqları özüm ruhlandırmağa başladım.

Bütün əsgərlər isti БУШЛАТ-da idi.

Soyunduğumu görüb uşaqlar işə girişdi.

ЕФРЕЙТОР İlyasın özü də, istirahət etməli olduğu halda qalxıb gəldi və işə başladıq.

Yenə boyanmış dəmir boruları, xüsusi tərkibli maddə hopdurulmuş qara, ensiz karton tollarla bükərək, üstünü paslanmayan nazik məftillərlə bağladıq ki, tol açılmasın.

Yenidən, setkaları taram çəkib bağlayır və azbestlə üstündən qalın suvaq vururduq.

Ən çətin yer, qaynaqlanmış dəmir boruların alt hissəsi idi. Özüm dizlərimi yerə qoyub yalın əllərimlə boruların altını, tol və setkaların üstündən, odadavamlı, lifli mineral olan АСБЕСТ-lə doldurur, azbest tez quruduğundan güclə sürtüb suvaya bilir, hərdən də zıqqıldayırdım.

Deyəsən, Nersesyan əclafın ahı tutmuşdu bizi. Üzüpirişikli zəyəmli Vahidlə təpərsiz Mürşü-

dün СЕМЕЧКИ-ləri bizə düşmədi.

Əllərim donsa da... nəfəsimdən isti buğ çıxırdı. Bir qədər işləyəndən sonra... lüt canımdan da buxar çıxmağa başladı.

Tez qurtarmalıydıq ki, yol açılsın, zira, nahara gedəndə РОТА-ların çoxu, bizi gözləyərdi.

ЗАКАЗЧИК mayordan tutmuş, Bryusov, Komar, Boyko, Qreşnoy, özbək ПРАПОРЩИК-ə kimi hamısı dayanıb, bizə tamaşa edirdi.

Nahara kimi möhkəm işlədik.

Bircə, üstünə o iri daş piltələri döşəyib, torpaqlamaq qalırdı ki, maşınlar işləyə bilsin.

Demək olar, bütün işi yenidən görmüşdük. İki dəfədən setkalayıb üzərini azbestlə suvadıq.

6 sm. məsələsi, başımıza belə oyun açdı.

ПЕРЕКУР belə eləmədən, təpərsiz Mürşüdlə, atsifət Turabxan qaldı ki, piltələri düzüb üstünü də torpaqlasınlar.

Biz yuyunub nahara getdik.

Yeməkxanadan çıxan kimi, yamaca toplaşıb yenə dirədöymə oynamağa başladıq.

Oyunun səs-küylü, çığır-bağırlı, şirin yerindəcə, gözlənilmədən Bryusov gəlib çıxdı.

İstirahət saatı olduğundan bir söz demədi, və kənarda dayanıb azarkeşlik eləməyə başladı.

Saat 15:03-ə kimi oynayıb qayıdası olduq. Yolboyu... oyunun qayda-qanunlarından iftixarla danışıb Bryusova başa saldım.

İş yerinə gəldik ki, artıq təpərsiz Mürşüdlə

atsifət, qayışbaldır Turabxan daş piltələri düzüb qurtarıb, üstünü də yaxşıca torpaqlayıblar.

Bəxtimizdən ПОДПОЛКОВНИК Dyakivin özü də gəlib çıxdı. Sən demə, СТРАТАГЕМА xəbər tutubmuş... Yenidən, gördüyümüz işin keyfiyyətini soruşandan və sifarişçi, mayor rütbəli zabitin də razılığını alandan sonra... traktorçu əsgərə göstəriş verdi ki, bütün ТЕПЛОТРАССА boyu üstünü torpaqla yaxşı basdırıb, yolu asfalta hazırlasın.

O biri POTA-lara РАСТВОР vermək üçün yol bir tərəfdən bağlı qalmışdı.

Saat 16:30-da bütün yollar açıldı!

Ötən oktyabr ayının НАРЯД-ını yoxlamağa getdim. Baxdım ki, bizim 11 nəfər əsgərə cəmisi 200 manatlıq НАРЯД bağlayıblar.

Bir aya...

Yanıb yaxıldım, istədim НАРЯД-ı alıb yenə cıram. Nəsə hövsələmi basdım.

Kiselyovu çağırdılar. УНР-ə zəng vurdular.

Araşdırmağa başladıq. Bir şey alınmayanda Qreşnoyu da götürüb УНР-ə getdim.

Çox araşdırmadan sonra məlum oldu ki bizim oktyabr ayındakı işimizi də, sentyabr ayının planına əlavə edib planı 108% doldurduğumuzu qeyd eləyiblər. Bu pis nəticə deyildi.

Ötən oktyabr ayınısa qaldıq belə, əli boş.

-Onsuz da çıxıb gedirsiniz, -Qreşnoy məni ustalıqla yumşaltdı.

Əlqərəz, 1972-ci ilin, ilk noyabr günü belə-

cə başa vuruldu. Əsgər həyatıdır də...

Axşam yeməyindən sonra, ЛЕНКОМНАТА-ya gəldim ki, həm gündəliyi dolduram, həm də azərbaycan dilində Yitkaya yazıb hazırladığım məktubu yarı çex, yarı da rus dilinə çevirəm.

Hər yazanda məktublarımı nömrələyirdim. Bu dəfə də, tərcümə edib lap başdan yazdım:

ПИСЬМО №5

Cəfəri tapa bilmədim ki, tərcüməyə kömək eləsin... Odur ki, qərbi slovyan mənşəli, çex qızı Yitkanın lütfkarlıqla mənə bağışladığı, yaşıl üzlü tərcümə kitabının köməkliyi ilə indi oturub, onun qısa məktubuna geniş cavab hazırlayırdım.

Yazdığım dörd məktubdan sonra, Yitkanın qələmə aldığı ilk cavab məktubun, 10 oktyabrda PRAHA-dan göndərsə də, mən onu, düz iki həftə sonra, 23 oktyabr 1972-ci il tarixində almışdım.

Onun doğma vətəni olan ЧЕХОСЛОВАКИЯ-ya yazacağım cavab məktubunu, artıq, düz 10 gün idi ki, ləngidirdim. Məndən çıxmaz iş!

Cəmi 6 səhifə alındı.

Başa saldım ki artıq hərbi xidməti bitirirəm, cavabı Azərbaycana, Bərdə ünvanıma yazsın...

Üzərində, Leninqradın açılıb-yumulan körpüsü olan bir rəngli açıqca və ОДЕССА-da Lenin parkının girişindəki iri qara mərmər lövhənin fonunda onunla çiyin-çiyinə çəkdirdiyimiz fotoşəkli də, nəzakətlə tumarlayıb zərfə qoydum.

Şəkildə, mən əsgər formasında çəmənlik-

də oturmuşam. O isə, olduqca qısa və yaraşıqlı kip sarı donunda əyilib boynumu qucaqlayıb. Bu tarixi şəklin qiyməti yoxdur!

16 yaşlı çex, PRAHA-lı bu şıltaq qız, o gün nə qədər məsum idi!

Şəkli 23 avqust 1972-ci ildə çəkdirmişdik...

Onun boynuma dolanan zərif əllərinə xeyli tamaşa edib kövrəldim...

Gülümsəyirdi şəkildə...

Necə qayğısız, azad, bəxtəvər görünürdü.

İnternasional sevgim, PRAHA vətəndaşı!

Eh...

Yazmışdım ki, sən aprel ayına kimi Bakıya gələ bilməsən, onda VİZA göndərin mən PRAHA-ya gəlim... Müsəlmanlıq haqqında da ona xeyli bilgi vermişdim... Qüreyş ləhcəsində nazil olmuş Qurani-kərimin ərəb dilində, təkrarolunmaz nəsr nümunəsi olduğunu bildirmiş, Məhəmməd əleyhissalama, ramazan ayında nazil olan bu kitabın indi bizim allahsız ölkəmizdə yasaq olduğunu da incə eyhamlarla xatırlatmışdım.

Bildirirdim ki, Quran sözünün hərfi mənası "oxumaq" deməkdir. İslamda kişiyə eyni zamanda dörd arvad almağa icazə verildiyinin, 114 surədən, 6204 ayədən, 77934 sözdən ibarət olan Qurani-kərimdə göstərildiyini, ailə yükünün əsasən kişinin çiyinlərinə düşdüyünü, qadından isə kişiyə itaət etməsini tələb etməsinə kimi... iranlı nənəmdən eşitdiklərimdən bir xeyli yazmışdım.

Ayə, surə və bu kimi bəzi islami sözləri, nə rus, nə də tərcümə kitabından tapa bilmədiyimdən, eləcə eşidib-bildiyim kimi də yazdım.

Onsuz da, Yitka heç kəsə itaət edən deyil. O demokratik, tərtəmiz avropalıdır.

Və azadlıq, bərabərlik onların qanındadır.

Məktub hazır idi.

Allah qoysa, sabah şəhərdən sifarişlə yola salacağam. Hərçənd ki, senzura sərhəddən geri qaytarmasa yaxşıdır.

Başım necə qarışmışdısa, necə kövrəlmişdimsə ЛЕНКОМНАТА-dan çıxanda gördüm, РОТА-ya ОТБОЙ verilib, hamı yatır.

Saçlarımin dibi qaşınırdı.

УМЫВАЛЬНИК-də soyuq suyla yuyunası oldum. КАЗАРМА-da gecələr isti su gəlmir...

ВОДОЗАБОР-dakı ТЕПЛОТРАССА-da gördüyümüz işdə... СТЕКЛОВАТА şüşəlifli olduğundan, saçlarımı da sabunlayıb, eləcə soyuq suyla yudum. Ayaqlarımı, corablarımı da yaxaladım.

Saat 23:03-də yuyunub, təmizlənib, rahatlaşsam da, yorğun olduğumdan yerimə girməyi qənimət bildim...

Ohanesyanın xəlvəti dediyi:

“Azvoyenkomatdan sənə teleqram gəlib,”- sözləri yadıma düşdü.

Xeyli düşündüm:

“O yalan deməz, görünür dəqiq bilirdi.

Maraqlıydı, niyə bəs məni yubadırlar?

Bir həftə, ya on gün, məni artıq işlətməklə Sovet ordusu qüvvətlənəcəkdi? Axı, mən sovet vətəndaşıyam, təhsilim yarımçıq qalıb...”

Beləcə, nə vaxtsa yuxu məni aparıb.

ПОДЁМ-da, КАЗАРМА-ya yaşılgöz, siyasi işlər üzrə müavin СТРАТАГЕМА Boyko özü gəlmişdi. Odur ki tənbəllik, ya başqa çırt-pırt eləməyin heç bir yeri yoxuydu...

ПОЛИТИНФОРМАЦИЯ-nı, mayor Yerşov özü apardı. РОТА işə gedəndə, ildırım sürətiylə yayıldı ki, salyanlı Adilə ОБХОДНОЙ veriblər.

Bizim uşaqlardan ilk ДЕМБЛЬ-ə gedən, deməli Adil oldu. Nə əcəb?

İki il uzunu, hərbi xidmətinin çox hissəsini hauptvaxtda keçirən... daimi НАРУШИТЕЛЬ olan, içib, dava-dalaş salan avara əsgəri, nədən belə əzizləyib hamıdan əvvəl buraxırdılar?

Məni isə, Azvoyenkomatın teleqramı gələ-gələ, yarımçıq qalmış təhsilimi bərpa etməli olduğum halda buraxmırlar?

Özü də kiçik СЕРЖАНТ və il yarımdı, bölüm komandiriyəm.

Yenə rüşvət!?

Salyanlı Adilin özünü görə bilmədik.

Dedilər ОБХОДНОЙ-u cibində gecəni sevgilisi Cülyettanın evində keçirib.

РОТА-la birgə cərgəyə düzülüb, МОЛОДОЙ-larla birlikdə təpik döyə-döyə işə getdik. Salyanlı Adilin birinci buraxılmasına, hamı cırnamışdı.

Hərənin ağzı bir söz çalırdı. Hətta, taytax Nadir danışırdı ki, salyanlı Adildə çoxlu pul görüb. Cülyettaya bahalı hədiyyələr alir. Qızı, son günlər restorana aparır, sağa-sola pul xərcləyir.

Çox maraqlıydı.

Heç bu iki ildə, o nə məktub, nə açıqca, nə bağlama, nə də ki, ПЕРЕВОД pul almışdı.

İş yerində uşaqların işini böldüm.

Ölçüb, hərəyə iki ədəd ТРОНШЕЙН verdim. Qazmalıydılar. Dərini 1,5 metr, uzunu və eni isə 80 sm. olmalıydı.

Özüm, bu gün işləmədim.

Nəyisə... salyanlı Adilin birinci buraxılması məni bərk dilxor eləmişdi.

Bir tərəfdən isə, bu çox yaxşı hal idi. Artıq növbə bizim müsəlmanlara da çatmışdı.

Deməli, bizimlə birlikdə hərbi xidmətə gələnlərdən, hər gün əsgər tərxis edə bilərdilər.

Bu gün, üzüpirişikli, zəyəmli Vahidə də istirahət vermişdim. Bu istirahətləri mən özümdən verir, zabitlərə bildirmirdim.

Heç olmasa hərdən dincəlsinlər...

Axşama kimi uşaqlar işləyib, bu tapşırığı yerinə yetirdi. Hərənin iki xəndəyi hazır idi.

Özüm də Kostya ilə gedib, oktyabr ayının НАРЯД-ını bağladım. Oktyabrın 23-dən bu günə kimi işlədiyimizi nəzərdə tuturam. Bir də bağlanmayan, yarımçıq işlərin НАРЯД-ını bağladıq.

НАРЯД məsələsindən yaxşı qurtardım.

Axşam Kostyanı gətirib, bu günkü işimizin də НАРЯД-ını bağlatdım. Torpağı üçüncü КАТАГОРИЯ yazdırsam da, bu günkü işimiz, cəmi 26 $m^3$, bu da vurub-böldükdə planın 92 % -i elədi...

Axşamtərəfi uşaqlar yığışıb lağ-lağı edirdi. Futbolda və qaçışda taytax Nadirin briqadasını udmuşduq. Bu dəfəsə, onlar başladılar ki, mərc gələn olsa, uzununa tullanmaqda sizi udarıq.

Hətta, taytax bir az da irəli gedərək, öz payına yalan deyənin ana-bacısını, abavü əcdadını yağlayandan sonra, məni qızışdırdı ki, tullanmaqda elə bil ki, basıb sizi sərçə kimi yemişik.

Çox, söz güləşdirəndən, çənə-boğaz, çəkçevir, çəkmə yaxam cırıldıdan... və sonsuz andamandan sonra, axır ki, 3 manatdan mərc gəlib, kişi kimi yarışmağa qərar verdik.

Taytax Nadir 3 manatı verməyənə də eyni söyüşləri yağdırdı.

O udacaqlarına tam əmin idi.

Onlardan göy-göz kirpikli Eldar, Ciqan və bir də İbrahimov yaxşı tullanırdı.

Ölçüb-biçib yeri təyin edəndən sonra yarış başladı. Hamı bir-bir tullanır, yerdə qalanlar da didişə-didişə ölçürdü. Ən çox uzununa tullanan Ciqan idi, 4 metr. 40 santimetri vurmuşdu.

Santimetr müharibəsi gedirdi.

İstədim tullanmayam.

Düzü qorxurdum uduzam. Bizim uşaqlardan xallı Ariflə atsifət Turabxan yaxşı tullanır, di

gəl, onlar da Ciqana uduzurdu.

Taytax Nadirin səs-küyü aləmi başına götürmüşdü. Hətta zəfər harmoniyası ilə qanadlanaraq, arada bir dəfə cumub kənardan tamaşa edən lümpen-proletariat Əhlimanı paçabənd də elədi. O qələbə sevincindən kükrəyirdi!

Kəlləsi yerə dəyməyiylə lümpen-proletariat ürəkdağlayan səslə bağırdı.

Məğlubiyyət bizi artıq suyun dibinə çəkirdi. Sanki olimpiadada kapitalistlərə uduzurduq.

Vaynösə Sahibin və təpərsiz Mürşüdün təkidi ilə yarışa qoşulası oldum. Hətta, laçınlı göydodaq Ədalətin özü САПОГ-larımı çıxarıb, israrla məni ruhlandırırdı.

Demək olar, komandiri olduğum bölmə çökürdü, inanın, şərəfimin səsini eşidirdim...

Hərə üç dəfə tullanmalıydı.

Quş kimi idim.

Birincidə 4m. 20sm. ikinci dəfə 4m. 40sm, üçüncüdə isə uzaqdan güllə kimi gəlib, quş kimi havada süzdüm: 4m. 55sm.

Bu da rekord!

Hamını düz 15 sm. geridə qoymuşdum.

Bu an yaşadığım xoşbəxtliyi, kim izah edə bilərdi? Briqadamın əsgərləri də, bu xoşbəxtliyi çox sadəlövhlüklə mənimlə bölürdü.

Vaynösə ilə təpərsiz, məni qucaqlarına almaq istəyəndə, göydodaqla, qayışbaldır və xallı da onlara qoşulub, başları üstünə qaldırdılar...

Zəfər çalınmışdımı?

Cığallıq olmasın deyə Ciqanın əlavə cəhdlər etməsinə də razılıq verdik.

Taytax... İbrahimov və göy-göz, ha qarnını cırdı, Ciqan ha toparlandı, ha güc yığdı, ha şığıdı, tabdan düşdüyündən, heç əvvəlcə tullandığı 4m. 40sm. məsafəni də təkrar edə bilmədi.

Yalnız 4m. 36sm.

Zavallı götürüm düşdü. İt də getdi, ip də...

İndi də bizim uşaqların dili açılmışdı. Şərq küçəsinin gözmuncuqlarından olan Süzəndə xalanın sözü olmasın, həşir qoparmaqla onları lağ edib cırnadır... və həşəmətli, əzəmətli, sərkərdə, calallı, başqan, ulu, şanlı deyə-deyə qıjıxdan verib, gözgörəti Nadiri də çatdadırdılar.

Məxləs...

3 manat əvəzinə taytax yalnız "söz" verdi.

Tutaşma başladı. İtin dişi, motalın dərisi...

Nadir ciblərini eşələyib 1 manat çıxartdı və yerdə qalanını da, Tovuzda verəcəyinə and içdi.

Bu da müsəlman mərci!

Axşam КАЗАРМА-ya РОТА-yla qayıtdıq.

Yenicə КАЗАРМА-nın qapısına çatmışdıq ki növbətçi müjdə xəbər elan elədi:

-Salyanlı Adil Əliyev ДЕМБЛЬ-ə getdi!

Qulaqlarıma inana bilmədim. Əclaflıq eləyib, bizimlə vidalaşmamış o necə gedə bilmişdi?

İnanılmaz idi!

Sanki, damarlarımda qanım dondu...

Xoşxatir olmaq əvəzinə hamı cinləndi.

Kremldə oturan başbilənlərdən tutmuş, ta marşal Qreçkoya... Azvoyenkoma, Laçının, Kəlbəcərin hərbi komissarlığının böyüklərinə kimi...

Hamısının abavü əcdadına o məsələ!

Yitkanın məktubunu şəhərə getmək imkanı olmadığından ШТАБ-ın poçtundan avia-sifarişlə yola salası oldum... Sag-salamat getsin.

İslamdan, Qurani-kərimdən yazdığım bilgilərə görə bərk narahat idim.

Dünya üzərinə bağlı sərhədlərimizdən quş uça bilmədiyi halda... bu kəlmələr, sifarişli aviapoçtla getsə belə, konvertin içi müxtəlif gizli avadanlıqlarla oxuna bilərdi. Pis bir də o idi ki, məktub xaricə həm də sovet ordusunun müsəlman təbəəsi tərəfindən yazılmışdı.

Üstəlik də, tərslikdən kiçik СЕРЖАНТ idim.

Manya xalanın sözü olmasın, pənah pərdi qırana, Şərq küçəsinin də bir allahı var!

Xotuq Adili, eşşək Dyakiv rüşvət hesabına buraxmışdı. Bu həqiqəti bilməyən əsgər yox idi.

Ancaq əlimizdən nə gəlirdi?

Gecə gözlərimə yuxu keçmirdi...

Vətən anlayışı ilə haqsızlıq, təfəkkürümdə üsyan edirdi. Vətənin vicdanı olub, torpaq qorumaq hara ПОДПОЛКОВНИК-in aldığı rüşvət hara?

Manqurd köpəyin oğlu!

Haramçılıq, haqsızlıq və rüşvət malxulyası içərisində nə vaxtsa yuxuya keçərəm...

Salyanlı Adilin hamıdan əvvəl buraxılması mənə pis təsir eləmişdi. Odur ki, səhər yuxudan oyanan kimi bir bəhanə axtarıb, işə getmək istəmirdim. Azadlığaşərik ВОДОЗАБОР-a nifrət edir, oranı katorqaya bənzədirdim...

Bir həftə olardı... gözümə nəsə düşmüşdü. Yatanda, pıçalaqlayıb gözümü tuturdu. Elə, bəhanə üçün də bu yaxşı əsas oldu.

САНЧАСТЬ-a getdim.

Növbətçi həkim gözlərimi sarı sulu məhlulla yuyub təmizlədi və hansısa ağ rəngli ПОРОШОК-u pambığa səpib gözlərimə sürtərək:

-Sabah da ağrısa, ГАРНИЗОН-un mərkəzi hərbi hospitalına gedərsən, -dedi.

Bu faktın özü işdən imtina üçün bəs edirdi.

Zabitlər şövqlə, РОТА-nın МОЛОДОЙ əsgərlərinə: "Sağ... sol... sağ... sol..." -deyə-deyə ucadan komanda verib, ВОДОЗАБОР-a aparan kimi, gizlincə yerimə girdim.

Heç Bryusovun xəbəri də olmadı.

Saat 11:05-də oyandım və sonra nə qədər elədimsə yata bilmədim.

Durub ЛЕНКОМНАТА-ya keçdim.

Həm gündəlik, həm də fikrim vardı hamıya "Əsgər rubrikası." adı altında, son məktublarımı yazam. Qəlb yoldaşı. Əsgərin son məktubu!

Əsgərə məktubdan şərəfli nə ola bilər?

Bu gün, qonşu РОТА-da qulluq edən erməni Markaryan da, ОБХОДНОЙ alıb evlərinə getdi.

O da institutda oxuyurdu. Mənim kimi ali təhsilini yarımçıq qoyub gəlmişdi. Artıq, darıxmağa başlamışdım. Gərək, hərbi hissənin komandiri, qəhr olmuş ПОДПОЛКОВНИК Dyakivin adına, hərbi qanunların kontekstində, konstitusiyaya əsaslanan tutarlı bir РАПОРТ yazam.

Zaçot-imtahanlara nə qalır ki?

Sabah КОМБАТ-ın öz sürücüsü də gedir...

Bəs görəsən məni nə vaxt buraxacaqlar?

Əgər haqqa, ədalətə, qanunlara əsaslanıb götürsək, bax eləcə indinin özündə də, yarımçıq qalmış təhsillə əlaqədar məni çağırıb, hamıdan əvvəl, nənəmin sözü olmasın sözsüz-bezsiz buraxa bilərlər, ta... САМОВОЛЬЩИК, НАРУШИТЕЛЬ, düz, iyirmi üç ay sərasər ПЬЯНИЦА olmuş, ДИСЦИПЛИНА gözləməyən РАЗГИЛЬДЯЙ salyanlı Adil buraxılan kimi, rüşvətlə yox...

Bu fakt nəyinki РОТА-nın, hətta bütövlükdə ГАРНИЗОН-nun, batareyaların və eskadrilyaların, ümumiyyətlə götürəndə isə, СССР kimi hegemon bir dövlətin Silahlı Qüvvələrinə xələl gətirən çox böyük, rüsvayçı ЧП idi. Zira, bu fəlakətə aparar... Beynəlmiləl on beş respublikanın əlli illik ittifaqını... millətlərarası ayrı-seçkilik və bir də, baş alıb tüğyan edən bu rüşvətçilik içdən dağıda bilərdi.

Nədənsə heç sevinə bilmirəm. Elə, ilk əsgər gəldiyim günlərdə olduğu kimi, indinin özündə də malxulya içərisində hey vurnuxuram.

Başıma heç batmır ki, axı qəflətən evə ge-

də bilərəm. Halbuki, bizim tərxis olunacağımız haqqında marşal Qreçkonun özü əmr imzalayıb.

Sanki bu yuxuda ola bilər. Özümü inandıra bilmirəm ki, vaxt-vədə yetişib, hərbi xidməti artıq başa vurmuşam. Xəyal kimi gəlir bu mənə.

Təqvimdə də bütün ayları qaralamışam.

Açıqcadakı salxım üzümün gilələrində, artıq ağ gilə qalmayıb. Elə bircə, bu Zil-Qadə ayıdı qalan, o da ki artıq yaşanır... Sonuncu giləni də qaralamışam, çünki, Zil-Hiccə ayında, hərbi mükəlləfiyyətin artıq üçüncü ili başlayır.

Busa, mənə şamil oluna bilməzdi!

Ey, Ulu Tanrım! Doğrudanmı Komsomollu günlərim yenidən başlanacaq?

Heç inana bilmirəm.

İndi Komsomol da... çex Yitka kimi onuncu sinifdə oxuyur. Yayda orta məktəbi bitirəcəklər.

Şeytan olmasa, Fələkdən kam almağa elə də bir zaman qalmayıb.

Bircə qırmızı hərbi bilet əlimizdə olaydı!

Beləcə, xeyli düşünəndən sonra, son məktubları yazmağa başladım.

Nə az, nə də ki çox, düpbədüz, 18 məktub yazıb, tezbazar hazırladım:

OMSK-a Allaya... ОДЕССА-ya Dusya, Toma və Anya xalaya, bir də ki, ağcabədili Nazimə... СВЕРДЛОВСК-a Nataşaya...Daşkəndə axıska tülküsü Süleyman Zahidova... Bakıya institutumuzun ünvanına: Qasım İsmayılovlu Cekə və Daş

Salahlı Mahir Eminova... Ukrayna ilə, həmsərhəd olan МОЛДАВИЯ-nın ФЛОРЕШТЕ şəhərində hərbi xidmət çəkən Tariyel Muradova... Dağıstana Ruslan Şaşayevə... 375051, ГОР.ЕРЕВАН-51, УЛ.КОМИТАСА 54"a" 8-4 (arabkir) M.M. Milonyana... Kirovabad, Vəli Xuluflu küçəsi, ev 92 yalançı uşaqlıq dostum Xosuya... ЛЕНИНГРАД-da, ПАРГОЛОВО, УЛ. МИЧУРИНА, ДОМ 103-də yaşayan Viktor Timofeyevə... və 273100, ОДЕССКАЯ ОБЛ. ГОР. КОТОВСК-1, в/ч 43074 "B" Şirinov Akifə... mingəçevirli Qismətə... ağdamlı Bəhrəmə... lap sonda, dayım qara Sabirin xanımı dayıdostu Rənaya. Bərk yorulmuşdum.

Hamısına da yazdım ki, cavabı Bərdə ünvanıma göndərsinlər...

Çox hövsələsiz olmuşdum.

Nahardan sonra, yenə yıxılıb yatdım.

Oyananda, saat 18:05 idi... Heç yerimdən qalxmamış, balıncın altından Dostoyevskinin Cinayət və cəzasını çıxarıb oxumağa başladım.

POTA işdən qayıdana kimi 400-cü səhifəni oxuyub qurtarmışdım.

Briqadamın əsgərləri son vaxtlar mənimlə həddindən artıq mehribanlaşıblar. Hətta ağdamlı ЕФРЕЙТОР İlyas çarpayıma yaxınlaşıb, boynumu qucaqladı və sonra da nə fikirləşdisə, üzümdən marçamarçla öpməyə başladı:

-Yaman tullandın ha! -fəxrlə pişikləndi.

Görəsən, bu mərhəmlik nədən qaynaqlan-

mışdı, arxasında nə gizlənir, mərəzi nəydi?

Kirimirdi... Çox keçməz pərdəsi qalxar.

Lyudmiladan məktub gəldi!

İnanılmaz idi...

ВИННИТСК-li bu qız nə yaman sözünə düz çıxmışdı balam! Amma heyif ki, zərfin içərisində fotoşəklini göndərməyib. ОДЕССА ünvanını yazmışdı və ən qəribəsi də o idi ki... Sufərəsi məni öz toyuna dəvət edirdi: 12 noyabr 1972-ci il tarixinə, saat 16:00-da, АРКАДИЯ restoranında...

Vitali adlı xersonlu bəxtəvərə ərə gedir.

Məktubu maraqla oxuyub, özümə söz verdim ki, hərbi xidməti bitirəndən sonra, ОДЕССА-dan gedəsi olsam hökmən axtarıb onu taparam. Qatarda o sirli gecə, sübhə kimi hürr qoynunda dirigözlü yaşamışdıq. Cənnət quşları kimi göyün yeddinci qatında necə bəxtəvərliklə süzürdük.

Çaxır, havasızlıq, yuxusuzluq, tərli canımızın qoxusu da o gecə bizi uyudurdu. Yorğun canımız, məşəqqətin tavanına dırmaşmışdı.

Köhnə, nəfəsliyi bağlı ümumi vaqonda canışirin cüllütün o gecə mənimlə yaşadıqları, deyəsən onun ilk qəbahəti deyilmiş.

Demək, ortada hələ xersonlu da varmış.

Cavab yazmadım ona. Axı nə yazım? Bəs bu canı yanmışın Vitalisi vardısa, o gecə sübhə kimi nə oyundu mənimlə çıxarırdı?

Mən olmasaydım da, daşkəndli özbək əsgərlə o gecəni eləcə keçirəcəkdi.

Görəsən, o hər qatarla gedəndə, belə şəhvətli gecələr yaşayırdı? Doğrudan da, nə günəş aya çata bilər, nə də gecə gündüzü ötə bilər.

Axı dünya fırlanır...

Bu an, sinəmdən bircə söz qopdu:

"Qatarfərəsi!"

Eh... nəyisə... Heyf deyil bizim qızlar... Birinin yaxasından tutdular, qurtardı getdi! Elə bizə belə yaxşıdı, yoxsa çox hoqqabazlıq edərik...

Bu gün elə hey mülki həyatımla, xəyallara dalmışam. Ağ mirvari sırğalı Məhbubə xalayla, keçirdiyim o bir neçə gün necə unudulmaz idi!

Məhbubə xala, o bir neçə unudulmaz günlərdə sanki uşaqlaşmışdı. Gözləri necə yanırdı!

O... mənim, 19 illik ömrümün, ilk qadını olmuşdu! Həzz, ehtiras, cinsi yetkinlik, şəhvət, lüt qadın bədəni! İlk dəfə lümlüt qadın görürdüm...

O kişi həsrətinin qübarını necə çıxarırdı!

Düz iyirmi yaş məndən böyük idi.

Hamamda... uzun hörükləri açılıb kürəyinə tökülmüşdü... yeriyəndə yırğalanan enli yumşaq əndamını, saçları tamam örtmüşdü...

O gecə, döşəmənin taxtalarından tutmuş, ta, tavanın çilçırağına kimi, hər şey oyanmışdı.

Səssiz, cansız əşyalar da o gecə sanki kef çəkirdi... Döşəküzünün, balıncın ağappaq, kraxmallı və ütülənmiş pambıq ağlarının səsinə qədər, hər səsi iniltisindən, şappıltısından, cingiltisindən, xışıltısından ayırmaq olurdu...

Eh... nəyisə...

İndi, saat 23:10-dur.

Arzularımın qoynundayam.

POTA-nın yorğun əsgərləri daş kimi yatır.

СТАРИК-lərin çoxu ЛЕНКОМНАТА-dakı kiçik, ağ-qara televizora baxa-baxa mürgü vururdu.

КАНЦЕЛЯРИЯ-yada oturub, kədərlə gündəliyimi yazıram. Necə gözəl arzularım var: Bəh... bəh... Bircə ОБХОДНОЙ-u əlimə ala bilsəydim!

Azadlıqda məni nələr gözləmir?!

Düz üç il əvvəl, bu günkü gün Bakı-Ağdam qatarına bilet alıb Bərdəyə gedirdim. Xuramanla ilahi məhəbbətimi çox uğursuz qurtarmışdım.

O gün, sən demə Allah məni yeni sevdaya salacaqmış! O gecə qatarla gedəndə... hələ yer üzündə Komsomolumun yaşadığından xəbərsiz idim. Subaylığımın sultanlığını yaşayırdım.

Bəli bu qatarla Bərdəyə səfərimdə gələcək həyat yoldaşımı tapmağa gedirəmmiş! Hər şey, elə bil dünən olmuşdu...

Gözlərim tez-tez yumulanda qalxdım.

Yerimə girsəm də, yata bilmirdim...

Hey, o üz-bu üzə çevrilir, indi də azadlıqda məni gözləyən azad həyata qovuşacağım anları anbaan gözlərim qarşısında canlandırırdım...

Bəli, əzablı, keşməkeşli iki il yaşamışdım...

САНЧАСТЬ-da gözlərimə sürtülən maye və toz halında olan dərman öz təsirini göstərmişdi. Gözüm yorğunluqdan yumulsa da, qaşınmırdı...

Tofiq Xəzər

# Zarya Voraşilovqrad ilk dəfə SSRİ çempionu oldu! Neftçi Bakı yüksək liqanı, Qarabağ Stepanakert isə 4-cü zonanı tərk etdi...

*Pervomayski, 4, 5 və 6 noyabr 1972-ci il.*
*Şənbə, bazar və I günlər.*

Futbol üzrə, СССР-i birinciliyinin yüksək liqasında ВОРАШИЛОВГРАД-ın ЗАРЯ komandası ilk dəfə olaraq çempion oldu!

Bakının NEFTÇİ komandasısa hər il yüksək liqada birtəhər qalsa da... bu dəfə davam gətirə bilmədi. Yüksək liqada təmsil olunandan ardıcıl 12 il oynaya bilsə də, 13-cüdə... sonuncu yerləri МОСКВАНЫН ЛОКОМОТИВ klubu ilə birlikdə bölüşdürərək СССР-i birinciliyini tərk etdilər.

Onların yerində, Daşkəndin PAXTAKOR və son oyundan asılı olaraq ya ДОНЕТСК-in ШАХТЕР ya da ki ОДЕССА-nın ЧЕРНОМОРЕТС futbol klubu

oynayacaq. Ukraynada futbol təntənəsi yaşanır.

4-cü zonada DİNAMO Kirovabad 2-ci yerdə getsə də... bizim, Stepanakertin QARABAĞ klubu sonuncu yerdədir və o da, bu il 4-cü zonanı tərk edəcək. NEFTÇİ isə, gələn ildən 4-cü zonaya düşüb DİNAMO Kirovabadla qoşalaşa bilər.

1972-ci il Azərbaycan futbolu üçün biabırçı il oldu. Ümid qaldı gələn sezona...

Bu gün şənbə günüydü.

ПОДЁМ-da Bryusovun özü də gəlib çıxmışdı. Məcbur qalıb, səhər РАЗВОД-u üçün qalxdım.

Saat 05:30 idi.

Gecə çox gec yatdığımdan sübhün şipşirin yuxusundan növbətçinin bağırtısı məni kal oyatmışdı. Amma, neyləmək olar?

Gözlərimin pıçalağı xeyli azalsa da... hələ tam kəsilməmişdi. Odur ki, gözüm ağrıyır bəhanəsi ilə, gedib adımı САНЧАСТЬ-a yazdırdım.

İstirahət günü olduğundan, göz həkimi yerində olmadı... və növbətçi həkim kitabda adımı qeyd eləyib məni hospitala yazdı. Saat 10:30-da hospitalda göz həkiminin qəbulunda olmalıyam.

Bu gün hava bərk sazaqlı idi.

Bəxtim beləcə gətirdi. İsti КАЗАРМА-da qalıb xumarlanacaq... baş-başa verib, bu bomboz, şaxtalı qış günündə... iç dünyamla, təfəkkürümdə formalaşmış duyğularım, əlçatmaz arzularım və ünyetməz xəyallarıma bürünüb, məstanə yaşayacağam. Xəstəliyin də, xeyri belə olarmış!

Tülküdən də qurnaz Bryusova, pıçalağı az olsa da şabalıdı məstan gözlərimdə quruduğunu göstərib, dünəndən belə olduğumu... bu səbəbdən də, ВОДОЗАБОР-a, işə gedə bilmədiyimi aydınlaşdırıb, hələ bu gün də САНЧАСТЬ-dan hospitala yazdıqlarını bildirdim. İncə eyhamla da:

-Gözlə zarafat olmaz! -qımışaraq dedim.

Məsihi dinindən olsa da, peyğəmbərsiz allahsız ölkəmizdə dinsiz-imansız, pulgir rus zabiti Bryusovun deməyə elə bir sözü qalmadı.

Kabinetində patefona qulaq asırdı.

РАЗВОД-dan sonra МОЛОДОЙ əsgərlərə təkəbbürlə baxa-baxa, isti БУШЛАТ-ı soyunub, qapısından buğ çıxan КАЗАРМА-ya girdim.

Şənbə və bayırda sazaqlı qar havası olsa da, РОТА-nı işə apardılar.

Zabit Qreşnoy, МОЛОДОЙ-lara yenə xoruzlanır və hərdən bağırırdı: Sağ...sol... sağ...sol...

Kağız-dəftər, ağ zərf, açıqca və qələmimi götürüb, irsal-mərsulla məşğul olmaq üçün bəxtiyarlıqla ЛЕНКОМНАТА-ya getdim.

Bir qədər düşünəndən sonra... heyranedici bir şifahi hesablama apardım: Bu gün, hərbi xidmət çəkdiyim təqribən 700 gün imiş.

5 dekabr 1970-ci il... 4 noyabr 1972-ci il.

Yeddi yüz gün!

Gündəliyimi açıb, ağ bir səhifəni işləməyə başladım. Vərəqin bir tərəfinə УКРАИНА digər tərəfinə isə, AZƏRBAYCAN sözlərini, gözəl şriftlərlə

yazdım. Sonra УКРАИНА sözünün yanından, üzü AZƏRBAYCAN-a sarı havalanan, bir təyyarə şəkli çəkdim. Sərnişin təyyarəsi, guya havaya qalxıb məni Bakıya aparacaq.

Hətta, çəkdikcə heyranlığım aşıb-daşırdı.

Təyyarənin üstünə yazdım:"Salam, məsud Komsomol. Biryolluq gəlirəm!"

Sonra, göydə hələ buludların üstündəykən təyyarənin pişvazına çıxan, ağzında qızılgül tutmuş bir ağ göyərçin şəkli çəkdim. Günəş qızılı şəfəqlərini spektr şəklində bu göyərçinlə sərnişin təyyarəsinin üstünə sərir...

Təyyarənin arxa tərəfindən, "700 GÜN DƏ, BELƏ GETDİ" sözləri yazdım.

ПАРАД formasının üstündən kip əsgər şineli geyinmişəm. Günəşə və göyərçinə əl edirəm.

Ağ vərəqin digər üzünə, "TOFİQ KOMSOMOLU SEVİR!" və "ДМБ-1972" sözləri yazılmış möhürləri vurdum. Ədəb-ərkanla qol da çəkdim.

Təxəyyülümə tam azadlıq vermişdim.

Lap sonda, bir dialoq yazdım: "ÇOX GÜMAN Kİ, YOLUMU GÖZLƏYİRSƏN, HƏ?"

Guya, o da cavab verir: "BƏS SƏN NECƏ?"

Beləcə, nostalji hisslər qarışıq bu səhifəni rəngli qələm və kölgə verməklə bəzəyib, gələcəyin bəxş edəcəyi sonsuz ləzzətilə yaşadım...

Sonra yenidən:

"SON ƏSGƏR MƏKTUBU" başlığı altında xeyli məktub yazdım: Quba, Kommunist küçəsi 79,

Yusif Mütəllimov... РИГА-10, УЛ. РИПНИЩАВАС 4, кв. 9. АНИЦИНОЙ ЕВГЕНИЯ... 021650, ПОЛЕВАЯ ПОЧТА, в/ч 21650 “в” qonşu, Köçəri dayının oğlu Qərib Əliyevə... Yevlax, Füzuli küçəsi 19-da yaşayan Vidadi Rəsulova... Kirovabad, sovxoz Səfərəliyev (Sabirkənd) 2-53 və ikinci ünvanı olan, ДИМИТРОВ küç. bina 1, ev 79. Natiq Mamışevə... Yeri düşmüşkən, Natiq, Pervomayskidə hərbi xidmət çəkəndə, həmişə deyərdi: Yaxşı ki, iki bölünmüşük, beton qurğanlı Almaniya kimi, hələ dörd bölünməmişik...

Bir qədər də gündəlik yazdım.

Sonra, bir neçə qeydləri qurdalayıb, iki ünvanı dəftərimə köçürdüm: Kəlbəcər, Lev k/s, Elyaslar kəndi, Nağıyev Məzahir Behbud oğlu və Cavadov Maarifin ev ünvanı, Naftalan, Qasımbəyli kəndi. Xəyala qapılanda... hiss edirdim ki, Maarif doğrudan da, yaxşı oğlandı.

Poçt ənənəvi çığırtısıyla gəldi.

Bakıdan ütülənmiş nişastalı ağ köynək geyinmək, xobbisi olan qardaşım Rafiqdən məktub aldım. Sonuncu yeniliklərdən və institutun arayışı əsasında... Azvoyenkomatdan, vurulan teleqramdan yazmışdı.

Zərfin içərisindən iki ədəd göy beşlik üstümə düşəndə diksindim.

Sevinc canımı çulğadı.

Məsləksiz salyanlı Adil, son qəpiyimə kimi kartda udmuşdu. Sağ ol ay qardaş, ürəyimiz bir-

dir, nə bildin maddi vəziyyətimi?

Cəld pulları cibimə basdım. Görən olsaydı, POTA-da ruslu-müsəlmanlı hamı məndən mədəd umacaqdı. Özümsə, yol üstəyəm...

Başım məktublara, gündəliyə, şrift yazmağa, rəsm çəkməyə necə qarışmışdısa... qəflətən yadıma düşdü ki, hospitala gecikmişəm. Gec də olsa gedə bilərdim, hərçənd gözlərimin ağrısı tamam azaldığından həvəsim olmadı.

Cəhənnəm! Sabah gedərəm... Bu da, təhtəlşüurdakı əsl müsəlman psixologiyası.

Acmışdım. İştaham, ilan kimi şütülləyirdi.

Yazdığım məktubları aparıb, ШТАБ-ın poçtundan yola saldım. Sonra, kişi-kişi ВОЕНТОРГ-a girib, bir qutu СГУШЕННОЕ МОЛОКО aldım.

Bayıra çıxıb, sazaqlı havada ləzzətlə şirin südü içdim. Ruhuma hərarət yayıldı...

КАЗАРМА-ya qayıdıb УМЫВАЛЬНИК-də üzümü qırxdım və özümü səliqəyə salandan sonra, yerimə girib bir qədər uzandım...

Nahara qədər Dostoyevskini oxudum. Bu kitabı Bərdədə də bir dəfə oxumuşdum. Burda da, artıq ikinci dəfəydi oxuyurdum. Raskolnikov qəlbimə çox yaxın insan idi.

Nahar edəndən sonra da, yeməkxanadan çıxan kimi КАЗАРМА-ya tələsdim.

Cinayət və cəza, mənə ləzzət eləyirdi. Bayırda bərk şaxta olduğundan... isti КАЗАРМА-da, yatağa girib kitab oxumaqdan ləzzətli heç nə ola

bilməzdi! Arıq qılçalarımı qarnıma sıxıb yanı üstündə büzüşərək ürəyimdə oxuyurdum:

"Sonya-ucadan:

-Yox, yox, sən yaxşı oldu ki, gəldin..! -Mənim bilməyim yaxşıdır! -Bu daha yaxşıdır! -dedi.

Raskolnikov ürəkağrısı ilə ona baxdı.

Sonra qərara gəlmiş kimi:

-Doğrudan da. Bəlkə elə bu yaxşıdır! -dedi. -Axı bu elə belə də olmuşdur! Bilirsən nə var: Mən Napaleon olmaq istəyirdim, ona görə də öldürdüm... İndi başa düşdünmü?"

Kitabı qatlayıb örtdüm.

Gözlərimi yumub, xəyallarımla yatmaq istədim. Yuxum gəlmədi. Yenidən kitabı açıb, yerdə qalan səhifələrin nə qədər olduğuna diqqət elədim. İstəmirdim tez qurtara. 442 səhifə oxumuşdum, hələ 139 səhifəsi dururdu.

Dostoyevskini oxumaq ləzzətli idi.

Kitabın ilk səhifəsini çevirib, bir xeyli baxdım və adətim üzrə çox düşündüm: Dostoyevski romanı başlayanda niyə: "S. dalanında... K. körpüsünə..." -kimi sözləri bütöv yazmır? Görəsən niyə belə eləyir? Bunda nə hikmət var? Məgər bunu adıyla, düz göstərsə daha yaxşı olmazmı?

Bəzi, dünya şöhrətli yazıçılar romanı başlayanda: "18... ilin..." yazırdılar.

Dəqiq yazanda nə olur ki?

Beləcə düşünə-düşünə yuxuya keçərəm...

Oyananda, saat 18:52 idi.

Gündəliyi və kitabı götürüb... yenidən ЛЕНКОМНАТА-ya keçdim.

Bu günüm, hospitalın hesabına xoş keçdi. Əziyyətsiz, əsəbsiz... Elə hey azadlıq haqqında, mülki günlərdə quracağım, gələcək həyatla bağlı xəyallarımda şirin-şirin əridim...

Gecə, POTA kartof soymağa getdi və mən də soyunub yerimə girdim.

Gecələr bayırda şaxtalı sazaqlı hava olur.

Bu havada isti yataqda uzanıb xəyala dalmaqdan yaxşı nə ola bilərdi?

Gözlərimi bir xeyli yumub, ətrafımdan təcrid olunaraq... ОДЕССА-da, bənövşəgözlü Katerinayla son görüşümü xatırladım. Nədənsə bu dəfə onu yadıma salanda, onun kədərli duruşu, ləyaqəti, qətiyyəti, daraşa qalmış qarnı... acı göz yaşları axıdaraq, susmağı məndən israrla tələb etməsi və onu əbədi tərk edəcəyimi bildiyimdən, məstedici xoşbəxtliyin yerinə ağrı və utanc hissi gözlənilmədən məni bürüdü. Zira, günü-gündən irilib daraşa qalan qarnı, özünün razılığı ilə olsa da, günahsız olsam belə, yenə qəbahətim idi.

Günah Şeytan işidir.

Bəşəriyyətin əsli olan ilk günahkar insanlar Adəm, Həvva və övladları, Allahın yeri və göyləri yaratdığı gündən haram qıldığı Məkkədə yerləşmiş və yenə dinc dayanmamışlar.

Habil qardaşı Qabili öldürdü.

İran təbəəli nənəm belə danışardı.

İnsaniyyətin beşiyi Məkkə!

Qırğın-qiyamat, şər-şəbədə qoşmaq, qatillik, yalan, xəyanət, günah, dalda quyu qazmaq, çəlpəşikli işlər yer üzünü sel kimi basdı.

Ey, gözün görmə qüdrətindən yuxarılarda, aşağılarda və yanlarında yerləşən qalaktikanın bir nöqtəsi olan sonsuz, ucu-bucağı bəşər övladının günahlarıyla dolu məmləkət!

Sonra, məmnuniyyətlə sarıkirpikli Nataşanı, onun çiyələk ətirli nəfəsini...

Əvvəllər elə bilirdim onun döşləri yoxdur.

Utandığımı görəndə: "Sən axı nədən utanırsan Tofiq, kişi kimi hərəkət elə!" -deyib, məni ehtirasla bağrına basmasını, lümlüt olanda balaca, yumru, daş kimi bərk döşlərinin olduğunu və yataqda, şəhvətdən sinəsi hər qabaranda, döşlərinin çəhrayı gilələrinin arıq sinəmi deşməsini nostalji hisslərlə xatırladım.

Onun kafelli isti hamamı, şokolad, konyak, musiqi və НЕФЕРТИТИ siqareti...

Bakirə bildiyimdən, onu üzü üstə çevirmək istəyirdim, o bunu anlasa da, çönmək istəmirdi...

Arıq ayaqlarını aralayıb, nəfəsi tutula-tutula, boğuq səslə inlədi:

"Başla..."

Sən demə, qız deyilmiş...

Son günsə... ən gerçək sevgini də korlaya biləcək ədalətsiz və ölçüyə sığmayan hərəkətini, indi də yadıma salanda onu anlaya bilmirdim...

O mənə konyak içirib, hər КАЗАРМА-ya yola salanda, bir qədər nanə qurusu və bir neçə də mixək verərdi ki, yolboyu istifadə elə, patrula, ya zabitlərinlə ПРАПОРЩИК duyuq düşüb, içdiyini bilməsin. O necə məğrur idi...

Sonra qalib ədayla Qırmızı kostyumlu içkili Krasikin, o xırıltılı şəhvani səslə: "ТРАХАЙ... ТРАХАЙ..." -dediyi anı düşündüm.

O heç kəsi saymırdı... Dünya şöhrətli modelyerlər kimi geyinib-kecinsə də, evi şulum idi.

Düşündükcə heyrətə gəlirdim...

Necə oldusa, boz eşşəyin üstündə gələn, başı gül çələngli erməni qızı Haykanuşun, yayda Şuşadakı evlərində kirəkeş qaldığımız erməni Surenlə oynadıqları, əsl casuslaraoxşar planlarını xatırladım. Elə bil dünən olmuşdu.

Surenin saldığı qarğaşalıq ucbatından başacan alınmayan ilk cinsi aktımı və Haykanuşun göbəyi üstündə, yellənən lümlüt məmələri arasında, yupyumşaq qarnının üstünə yapışıb nehrədəki süd kimi hey yırğalanır, çalxanır və necə türfətüleyndə uyuşub qaymaqlayırdım!

Erməni qancıq, oyanıb qanla dolmuş, şişib dikələn və taxta kimi düpdüz qalmış duduşumdan cod barmaqlarıyla yapışıb, isti budları arasında isti, sürüşkən bir yerə saldı.

Qəhbənin "orası" duduşumu ocaq kimi tütür, cızhacız qovurur, olmazın ləzzətini yaşadırdı mənə. Şərəfsiz Suren dığa qırraşıb yelbizlədi-

yim axçi Haykanuşdan məni zor gücünə, özü də pis yerdə, pis məqamda dartıb qopartdı!

Fəqət, azca da dözsəydi...

Beləcə, başacan alınmadı ilk cinsi aktım.

Qızdan çox Suren şuris salırdı. Əclaf zəfər çaldığını... başını arxaya dartıb, bir qənədini şaquli sərərək yerlə sürüyə-sürüyə və hikkəylə yerində fırlanaraq, hərdən irəli-geri çəkilməklə şeşələnən ları xoruz kimi, müşərrəf olmuş erməni axçisi Haykanuşa və arandan gəlmiş müsəlman uşaqlarına gərdiş edə-edə fors, əda, müştəbehliklə nümayiş etdirir, latayır sözlərlə danışırdı.

Utanmırdı.

Gözüyumulu elə şirin əsnədim...

İlk başa çatan cinsi aktı, ağ mirvari sırğalı Məhbubə xalayla yaşamışdım.

Həmişə olduğu kimi bu gün də, o anları olduğu dəqiqliklə incələməyə başladım.

Son gecə, onların işıqlı hamamında ilk dəfə çiməndə sanki onu yenicə görürdüm. Saçları açılıb lümlüt kürəyinə tökülmüşdü,

Uzun hörükləri vardı.

Yataqda analüt soyunduranda, ehtirasdan heç vaxt ona diqqətlə baxmamışdım.

Yeriyəndə yırğalanan enli, yumşaq klassik azərbaycanlı qadın əndamını, nadir hallarda açdığı saçları örtürdü. Qaynar sudan çıxan isti buğ dumanı və sabun köpüyünün şəhvət oyadan qoxusunda, o hörüklərini yığıb başında yumruladı.

Qaynar sudan qaynaqlanıb havalanan isti buğ, əhənglənmiş beton tavana duman kimi yayılaraq soyuq damcı halına düşür... tavan boyu bu damcılar muncuq-muncuq gilələnib böyüyür, hərdən də bu gilələr, tavandan üzülüb... iri yağış damcısı qədərində lüt-üryan canımıza düşür, bizi diksindirir, amma, tez də ləzzət verir, ruhumuzu oxşayıb sakitlik gətirir və məstlikdən yaranan canımızdakı şirin yuxugətirici yorğunluğu tamam yaddan çıxarır, bədənimiz tənzimlənirdi...

Yuxum qaçmışdı. İsti buğ dumanı içərisində qaynar suyun və hərarətli lüt qadın bədəninin spesifik qoxusu, sabun köpüyünün xoş iyinə qarışıb, bizi yeni, sonuncu cinsi akta sürükləyirdi.

Onun sabun köpüyü içərisində olan sürüşkən, yumşaq canını arıq, qüvvətli qollarım arasına alıb, bərk-bərk, şəhvətlə özümə çəkirdim.

Və... əlimlə onun döşlərini oynadıb sıxmaq istəyəndə, sabun köpüyündə iri qara giləi döşləri sürüşüb əlimdən çıxırdı.

İsti su, çılpaq canımızboyu şırhaşır şırıldadıqca sonsuz ləzzət verirdi...

Xudaya xudavənda!

Əsgər hamamımız necə misgin gündəydi.

Narazı nadinc və amansız əsgərlər tərəfindən beton döşəməyə, divara, tavana vəhşicəsinə çırpıldığından, neçə yerdən qəsddən deşildiyindən və istismara yararsız olsa da, uzun illər boyu işlədildiyindən, necə deyərlər, CPOK-u çox-

dan bitmiş və alüminiumu əzik-üzük yerlərindən qaralmış, köhnə aşsüzənəoxşar dərin ТАЗИК-lərlə dolu iyrənc Pervomayski hamamıyla müqayisədə... gözəl, klassik Azərbaycan qadını obrazınabənzər çılpaq Məhbubə xalayla birlikdə gecənin ecazkar bir aləmində, bu hamam, aləməfruz kral hamamına bənzəyirdi.

Erotik vəziyyət yaranmışdı.

O hamamdan çıxanda başını dəsmalla qurulayandan sonra, qıvrım, gur saçlarını yığıb, iri ağ çalmayla taram çəkə-çəkə, çalmanın uclarını boynunun arxasında möhkəm çaldı və üstündən də digər bir quru dəsmala bərk-bərk bürüdü.

Sifəti qıpqırmızı, yanaqları od kimiydi.

Sonuncu cinsi aktı yaşayanda, o da gözlərini yummuşdu. Ağ dişləri görünürdü. Ehtirasdan dodaqları qupquruydu, hətta soyumuşdu.

Mən onun yumyumşaq isti ağuşunda, dayanmadan daha da dərinliyə güc edirdim.

Hər ikimiz, necə gərilirdik!

Son dəfə sakitləşib, yanaşı uzandıq...

O gün dan sökülməndə... bal arıları, müxtəlif növlü kəpənəklər dayanmadan işləyirdi...

O an... nədənsə... Sakariya kəpənəklərinin uzun bir körpü üzərində, hündür işıq direklərinin gur spektral işığında topalaşıb, oynadıqları, son ölüm rəqsini xatırlamışdım.

Günəşin qıpqırmızı şəfəqləri görünəndə, o arxamca bir kasa su atdı...

Şirin xəyallarımla necə məst idim!

Bu gün istirahət günü olsa da iş günü elan eləmişdilər. Zira, sabah və birisi gün bayram günüdür. Bu günün özü də, tarixi gündür.

Üç il əvvəlki, bu günümü düşünüb, xatırlamağa başladım.

5 noyabr 1972-ci il.

Düz üç il əvvəl, bu günkü gün, Komsomolumu ilk dəfə görüb necə deyərlər ona, nağıl sözü olmasın, bir könüldən min könülə vurulmuşdum. O gün, boynuna, yanaqları kimi qıpqırmızı pioner qalstuku bağlamışdı.

O, artıq oktyabryat yox, pioner idi!

İlk baxışda, mənə, uğursuz sonluqla nəticələnən, dəli kimi vurulduğum, ilk sevginin sehrini birlikdə yaşadığımız Xuramanı xatırlatmışdı.

Hər ikisinin yanaqları təbii qırmızı, saçları səliqəylə yığılıb daranmış, sadə...

İri, ifadəli gözləri vardı.

5 noyabr 1969-cu il idi...

O vaxtdan, düz 1095 gün ötüb. 1095 günün, düz 700 gününü onsuz, hərbi xidmətdə keçirmişəm. Qəfil ürəyimdən keçdi ki, kaş, çex Yitka da yanımda ola və gülə-gülə məni qucaqlayıb, bizi bu münasibətlə təbrik edə!

Səni ürəkdən təbrik edirəm, əziz Komsomol, Allah qoysa, biz ailə quracağıq!

Xuraman bunu bacarmadı...

Sonra Xuramanı xatırladım. Onu sevdiyim,

ona vurulduğum ilk gündən, 16 may 1966-cı il... tarixindən, artıq bu gün, düz 2363 gün keçir. 6 il, 5 ay, 20 gün! Görəsən indi onlar neyləyir?

Xuraman vəfasız, etibarsız çıxdı... Təkəbbürlü bu qızın, bəlkə də heç yadına düşmürəm.

Amma, bu unudulmaz günü tək mən özüm yox, bəlkə də Komsomolum, tənha olsa da, ürəyində qeyd edir. Bu gün, axı onun da həyatının ən unudulmaz, əlamətdar günü olub. Bəlkə bu günü, o daha ləyaqətlə qeyd eləyir?

Axı o azaddır!

Bu tarixi günü, təntənə ilə qeyd edə bilmirəm. Zira, Komsomol bilsin: Mən bu an, pulsuz, kasıb və imkansız, sözün əsl mənasında əlacsız bir əsgərəm. Gümanım, bir bu dəftər-qələmimə çatır və istəyirəm qəlbimi gündəliyə açıb-tökəm.

Gün gələr, oxuyar.

"Üç il əvvəl, 1 nömrəli məktəbin qarşısında boynu qırmızı qalstuklu, yanaqları qırmızı o qızı uzaqdan gördüm. Dərhal, ürəyimi nəsə titrətdi...

Üç-dörd saat sonra isə, necə oldusa, qonşumuz, dərisi üstündə yanmış, uşaqlıq dostum, topşəkilli yarpaqları olan mərovça yemək ölüsü, Araz Xıdırovla birlikdə doğmaca Şərq küçəmizlə yuxarı-aşağı gəzib veyillənirdik.

Nüşabə küçəsinə keçib, üzüyuxarı mərkəzə sarı gedəndə, mərkəzi bazara çathaçatda təsadüfən, bir dəstə öz yaşıdı olan qızlarla, qayğısız "o pioner" qızın dayanıb, bəxtəvərcəsinə, şi-

rin-şirin söhbət elədiyini gözüm aldı.

Dərhal ürəyim riqqətə gəldi.

Buratino Tariyelin anası, ətdən binəsib, bir dəri bir sümük, Xıdırov Araz kimi dərisi üstündə yanmış, Şərq küçəsinini gözmuncuqlarından sayılan Rəfiqə xalanın sözü olmasın: "Nöyütsatan Əmrahın nöyüt tükanının sağ yanının altıydı..."

Yeri düşmüşkən... ətdən yanıqlıqda, küçəmizdəki qadınların içərisində Rəfiqə xala kimi bir də, Xosunun anası Manya xala idi. Onlar, sanki bir nərdin atılan qoşa zərləriydi.

Köklükdəsə, Sehran xalayla, Zeynəb xala da başqa nərdin bir dəst iri zərləriydi.

Yerdə qalanlar, tərəzidə cüzi fərqlə fərqlənən orta çəkili qadınlar idi.

Nəsə, keçək əsas mətləbə.

Bu qızı, ilk dəfəydi küçəmizdə görürdüm.

Görünür, ya uşaq olduğundan fikir vermə-mişəm, ya da ki, heç bizim küçədə yaşamır.

Hara gedəsi olsaq, bizim Sərq küçəsinin çıxışı Nüşabə küçəsinə açıldığından, elə ora da bizim küçə deyirdik.

Qəsddən, onlar dayanan tərəfdən keçdim.

Və həyatımda ilk dəfə olaraq, onunla qarşılaşdım. Hələ heç nə duymamışdı.

Qızların hamısı bizi görəndə özlərini yığışdırdı. Hətta söhbətlərini də yarımçıq saxladılar.

Bu vaxt onunla lap üzbəüz oldum. Yanaqları qırmızı, boyca məndən kiçik bir qız idi. Ona

nə kök nə də arıq demək olardı.

Danışıb-gülməyi xırp saxladıqlarından, həyalı olduqlarını anladım və bir anlıq, o qızla gözgözə gəlib, qəribə bir duyğuyla sehrləndim.

O, qıpqırmızı qızardı və tez də iri gözlərini yayındıra bilsə də, çöhrəsində xoş bir təbəssüm ilişib qaldı. Yaranan bu xoş təbəssüm, nədənsə məni rahat buraxmadı.

Və özüm də narahat olub, nigarançılıq dolu bir həyəcanla, çönüb Arazdan soruşdum:

"O qalstuklu pioner qız kim idi?""

Bəli bu hadisə, düz üç il bundan əvvəl baş vermişdi. "Nöyütsatan Əmrahın nöyüt tükanının sağ yanının altıydı..."

1188 günlük ömrü olan, o ilahi illərdəki böyük məhəbbət dastanımın uğursuz, faciəvi sonluğundan, cəmisi 80 gün keçmişdi...

Hə, beləydi!

Bu təsadüfi qarşılaşmadan, düz iki ay iyirmi gün əvvəl... o böyük, ilahi məhəbbətim uğursuzluqla sona çatmışdı.

Sən demə, Xuramansız da... bu dünyada yaşamaq və hətta kiməsə vurulmaq da olarmış.

Eh, nəyisə o gün... düz 3 il əvvəlki bu gün, yenidən rahatlığımı itirdim.

Adilə ilə yaşanan uşaqlıq... və Xuramanla davam edən yeniyetməliyin əsl sevgi dastanından sonra, üçüncü dəfə vuruldum...

Atalar üçdən deyib!

Artıq bu gənclik dövründə baş vermişdi...

O gecə, onun pioner qalstuku səhərə kimi gözlərimin qabağından çəkilmədi. Çöhrəsindəki təbəssüm, iri gözlərindəki ifadə məni dəli elədi...

O vaxt ali məktəbdə oxuyurdum.

Çingiz İldırım adına Azərbaycan Politexnik institunun 2-ci kursunda axşam şöbəsində təhsil alırdım. Və Bərdəyə, bir neçə günlük istirahətə gəlmişdim. Bu hadisə də, elə o vaxt baş verdi.

Bax o gün... o pioner qızın duruşu, baxışı məni məhvərimdən çıxartdı. Və yana-yana sevməyə başladım... Yeri düşmüşkən, nəsə, üzdən sevə bilmirəm. Təmiz ürəklə xəyallarımda, artıq, yalnız onunla yaşadım.

O mənim Komsomolum idi!

İndi... yəqin o da bilir ki, bu gün, məhəbbətimizin tarixi unudulmaz gününün ildönümüdür...

İlk vaxtlar qorxurdum onu sevməyə, birdən bu da Xuraman kimi uğursuz sonluqla sonunclanar. Bu biabırçılıq olmazdımı? Ondansa, ölüm daha yaxşısı, daha abırlısıydı...

Əslində Xuraman eşidib bilsə ki, sonradan kimisə sevmişəm və o məhəbbətim də uğursuz alınıb, həqiqətən də rüsvayçılıq olardı.

Amma, orası da var ki, hamı, buynuzu içərisində olan Xuraman kimi vəfasız ola bilməzdi!

Və belə də oldu.

Hər şey yaxşı, ürəyimizcə qurtardı. Biz birbirimizi qarşılıqlı məhəbbətlə sevdik və o mənim

yolumu düz iki ildir, lap düzü 23 aydır sədaqətlə gözləyir. Çətin də olsa həsrətli günlər saysız-hesabsız da olsa, o mənə qarşı vəfasızlıq eləmədi. Mənə ümid verdi, qürbət eldə dayağım, səcdəgahım oldu. Əxlaqıyla hamıdan seçildi.

Bəli, o da sevdi!

Elə sevdi ki...

Bu onun ilk məhəbbəti idi. Komsomolum çox xoşbəxtdir! Axı hamının ilk məhəbbəti belə uğurlu alınmır. Leyli Məcnunlar, Romeo Cülyettalar, Otello Dezdamonalar məgər azdır?

Bəli ilk məhəbbətlərin çoxu belə uğurla nəticələnmir. Komsomol məndən şanslıdır...

İndi biz uzun müddətdir ki, bir-birimizi görə bilmirik, nə olsun, fəqət qəlbimiz bir vurur!

Məktubu nadir hallarda yazsa da onun son yazdığı cümlələr, hər an gözlərimin önündədir:

“Mənə məktub yazma... Amma, onu bil ki, səndən başqa heç kəsi sevməyəcəyəm.

Könlümü sənə vermişəm!”

Bəli bu cümlələri o öz toppuş barmaqlarıyla yazıb mənə, məhz Komsomolun özü!

İndi, hərəmiz vətənin uzaq bir nöqtəsində olsaq da, bu yubiley günündə... üzümü asimana tutub, saf və təmiz ürəklə deyirəm:

“Biləsən əziz Komsomolum, Səni sevirəm! Biz ailə quracağıq! Şərəfimə and içirəm!”

Ağ mirvari sırğalı Məhbubə xala da, bakılı Sarıkirpikli Nataşa da, ОДЕССА-lı bənövşəgözlü

Katerina da səni sevdiyimi bilir. PRAHA-lı Yitkaya da sənin haqqında danışacağam.

OMCK-lu Alla da СВЕРДЛОВСК-lu Nataşa da ВИННИТСК-li Sufərəsi də, subaylığın ötəri yaşanmış xatirələrdən başqa bir şey deyil.

Mənim xanımım yalnız sən olacaqsan!

Heç kəslə, daha qarşılıqlı məhəbbət yaşaya bilmərəm. Sən hamıdan məğrur, saf, etibarlı, ağıllı, ismətli, həyalı, məsum və cazibadarsan.

Amma, biləsən ki... Xuraman və Adilədən başqa, Yitka da olub həyatımda və mən sizi nə vaxtsa tanış edəcəyəm. Yitka çox səmimi qızdır. Sən də tanış olandan sonra, onu sevəcəksən! O çox şıltaq, ürəyiaçıq, düz və ərkəsöyün qızdır.

Onu toyumuza dəvət edərik.

Dost kimi birlikdə toyuna da gedərik.

Ömrümüz boyu sıx əlaqə saxlayarıq və nə vaxtsa uşaqlarımız bəlkə bir-birini sevib ailə qurdular. Mən sənin PRAHA-ya gedərəm, lap onu bizim bu qaca-quca Şərq küçəmizə də gətirərik.

Dünya elə də, çox fani deyil.

Kapitalist dövlətlərinə çıxışımız olmasa da, nə bilmək olar, bəlkə gün gələr, sərhədlər açılar, onda hürriyyətçilik olar və uşaqlarımız PRAHA-da avropa təhsili alar, daha nələr, nələr...

Bil ki, bu dünyada ölümdən başqa heç nə bizi ayıra bilməyəcək. Güvənə bilərsən mənə!

Yitka qənirsiz gözəldir, açıq danışan, utanmadan hər sözü üzə deyəndir. Mən ona məhəb-

bətimiz haqqında açıq etiraf etsəm, inanıram ki, o buna sevinəcək və mənə qoşulub səni sevəcək! O sənə qısqanclıq eləməz, o pis niyyətli ola bilməz, zira, avropalıdır.

O bizi sidq ürəkdən təbrik eləyəcək! Yitka belə demokratik qızdır. Mən ona çox inanıram.

Məhəbbətimizə hamı qibtə edəcək.

Biz xoşbəxt olacağıq əziz Komsomol!

Sən 23 aydır yolumu gözləyirsən. Bundan o yana fədakarlıq olmur. Namusla... vətənin vicdanı olan... növcavan bir əsgər sevgilisinin yolunu sədaqətlə gözləmək, hər 15-16 yaşlı yeniyetmə qıza nəsib olmur əzizim...

Görünür, ötən bu 23 ayda, sən də maraqlanıb haqqımda müəyyən şeylər öyrənmisən.

Adilə və Xuramandan savayı, başqa heç nə öyrənə bilməzsən. Onlar mənim orta məktəb sevgilərim olub. Hansısa niyyət üzərində qurulmayan, tər-təmiz, saf uşaq sevgisi!

Adiləni sevəndə... sən 4 yaşlı körpə, Xuramanda isə 10 yaşında olmusan.

Bunlar bizə qəbahət sayıla bilməz.

1966-cı ilin may ayının 16-dan, ta bu günə kimi 2363 gün keçmişdir. Bu qədər günlərin yalnız 80 gününü sərbəst, azad olmuşam.

Qalan 2283 günü isə sevib yaşamışam.

1188 gün Xuramanı... və bu günədək, söz yox ki hələlik, 1095 gün isə Komsomolu.

Sonsuz əzablar, iztirablar, əziyyətlər, həs-

rətli günlər keçirmişəm. Bu 2363 məşəqqət dolu günlərin əvəzindəsə, Komsomolu qazanmışam.

Gələcək ömür-gün yoldaşımı.

Buna çox məmnunam.

Çox az qalıb... bu, püxtələşmiş möhtəşəm sevginin təntənəsi, sözsüz yaşanacaq!

Və bir şeyi də indi vurğulaya bilərəm ki, artıq Adilə və Xuraman çoxdan geridə qalmış keçmişim kimi görünür.

Qatardakı kimi göz yaşlarına daha qərq olmayacağam, göz yaşlarından şişmiş sifət daha heç vaxt görünməyəcək.

Amma, mən bu keçmişimə də sonsuz ehtiram və mərhəmətlə yanaşıram. Onlar gizli sevgim, oğrun baxışlarım olub. Onlar mənim uşaqlığım, orta məktəb illərimdir. Parta, çanta, əlifba, mürəkkəb, çəkiləndə, dərhal onları xatırlayıram.

Onlar mənim beşguşəli qırmızı oktyabryat ulduzum, pioner qalstukum, komsomol biletimdi. Kamal attestatını onlarla biryerdə almışam.

Və indinin özündə də... sinif adı, məktəblə bağlı bütün sinonim sözlərlə başlayan kəlmələr eşidən kimi kövrək hisslərlə onlar yadıma düşür.

Fəqət!

Məhəbbət qarşılıqlı olmalıdır.

Adilə məni seçdi, mənsə Xuramanı...

Xuramanın ölçülüb-biçilmiş dönüklüyünün, vəfasızlığının, kobud və hörmətsiz tərzdə vurduğu tənəli yaralarını... Komsomolun sədaqəti, eti-

barı, əhdi, vəfası sağaltmışdı.

Özümü hətta xoşbəxt hiss edirəm. 6 il 5 ay 20 günlük sonsuz intizarlı əziyyətlərim itməyib. Söz yox ki, bəhrəsini görəcək, Komsomolla qibtəediləcək bir ailə həyatı quracağam.

Növrəstə Xuraman, cəmiyyətin daha yüksək təbəqəsindən... özünə könül dostu tapmaq ümidiylə əhdindən dönsə də... sevgisinə dönük çıxsa da, əvəzində mənə... ilk məhəbbətin dilini, dadını, kədərini, iztirabını yaşamağı öyrətdi.

Eybi yoxdur!

Mən həyatımdan razıyam... Hərbi xidmətə gəlməyimə də heç peşman olmamışam, hər şey yaxşı qurtarır. Yolumu gözləyənim var.

Xuramanla pozuluşmuşuq, amma gün gələcək o da seçimində yanıldığına şahid olacaq...

Həyatımdan razıyam.

Yaşıdlarımın həyatı ilə müqayisədə, yenə öndəyəm. Peymanını sındırmaq, yaxşı iş deyil.

Xosrov Kirovabadda, evlərində kirayənişin qaldığı bir yerli qızla nişanlandı və üstündən bir neçə ay sonra soprano səsli, nömrəbaz nişanlısını başqa bir oğlanla evindəcə lüt-üryan tutdu.

Gördü iş şuluqdu.

Sarkazm onu qaplasa da, şuluqluq salmaq əvəzinə, içindən xata çıxmamış ürəyində, tfu, bu qancıq qəhbəymiş ki, deyə-deyə, başını götürüb aradan birtəhər çıxa bildi.

Hələ bu harasıdı?

Bəni-növi-bəşərin nəzərində... hörmətdən düşən, q.Bahar arvadın, tünbətün tamada oğlu, silsiləcünban Vaqif, vəzifəli bir kişinin xurafatdan uzaq qızına nişanlandı, bir ay sonra hərdən təşrif buyurduğu Nizami kino-teatrına öz köhnə məşuqəsiylə gedəndə təsadüfən, kinoda film gedəgedə nişanlısını başqa bir oğlanla... öpüşdükləri yerdəcə, fövrən yaxaladı.

Və şuriş salmaq əvəzinə... dabanına tüpürüb qaçdı. Düyəsi yad əllərdə olsa da... zavallı, yalandan da olsa, dayça kimi soncuqlamadı!

Qarşılıqlı ittihamlardan sonra ağıllı sözlərə ehtiyac qalmadığından... üzüklər çıxarılıb qaytarıldı və vidalaşmamış ayrıldılar.

Öz qarğı çəpərini qoyub... yüksək vəzifəlinin beton qurğanına dırmaşmağın sonu elə belə də olmalıydı.

Onlar sevməmişdilər.

Hansısa bir gizli sövdələşmənin, pullu yerin, ya vəzifəli kişinin övladı olsun ki, bunlara bahalı maşın, dəbdəbəli ev alıb, ağ günə çıxartsın. Bir də yüksək vəzifə. İstədikləri bax buydu.

Sərvət naxoşluğu!

Ruhən naxoşlar...

Hər dəfə də, onların ailə qurmaq fəndlərini xatırlayanda, belə məqsədyönlü, iyrənc sevgiyə heyrətlə yan çevirirəm.

Bu da sonu...

Tüpürüm belə məhəbbətə!

Manya xala ilə q.Bahar xalanın son sözləri belə olmuşdu: “Sıçalarca belə məhəbbətin içinə, bu nəydi aaz, aaz... başımıza açdılar...”

Kim açmışdı başınıza o oyunu?

Kimdi müqəssir?

Kimlər ki, uşaqlarına bu tərbiyəni aşılayıb, günahkar da elə onların özüdür!

Hər ikisinin atası məhbus həyatı yaşamışdı. Günahın bir qismi də buradan qaynaqlanırdı. Analarının savadsızlığı, cahilliyi də şərt idi... Üstəlik cavan, ağ maya q.Bahar xalanın qonşu kişilərlə çıxartdığı incə qəbahətlər!

Həyat çox mürəkkəb bir imtahandır... və heç bir yamaq götürmür. Siz də yamaqlarsınız!

Eyy cümləpərdaz Vaqif Hüseynov, ey körpəlikdən gopçu və yalançı Xosrov Mamedov!

Məhəbbətin mayası haram götürmür!

Doğrudan da, ailənin təməli saf məhəbbət üzərində qurulmadısa heç nə...

Qurtaranı, bu yubiley günündə son sözüm belədir: Əziz Komsomol! Səni sevmişəm... sevirəm... sevəcəyəm də!

Əmin də ola bilərsən ki, xoşbəxt olacağıq!

Bizim məhəbbətimiz saf sevginin üzərində qurulub. Biz hələ ömrümüzün süd çağını yaşayırıq. Birgə uğurlarımız söz yox ki, qabaqdadır.

Qoy gələcək nəsillərin özləri şahid olsun: Halal sevgi üzərində qurulan ailə ilə... məkr, siyasət, hansısa bəd niyyət, haram məqsəd üzə-

rində qurulan ailənin son aqibəti necə olur.

Varlı kişilərin, vəzifəli məmurların çoxunun portmanatlarının, sonda boş qaldığını, çox oxuyub, çox eşidib, filmlərdən də çox görmüşük.

Cavanlara üzümü tutub, son sözümü deyirəm: "Sevməmiş evlənməyin!"

Nəsə, hələlik bu qədər: Sadəlövh, göyçək, pak simalı, xeyirxah saf qızcığaz Adiləni də...

Cin atına tez minən, hədsiz təkəbbürlü və eqoist, elə də gözəl olmayan Xuramanı da...

Heç nəyə məhəl qoymayan, azad, şıltaq çex Yitkanı da öz vətənində...

Görüm səadətə qovuşsunlar.

Tənha qalacaqlarından qorxub, kim gəldi, ya hansısa məqsəd güdərək tələsməsinlər, ailə qurmaq üçün lazım gəlsə, sevgiləri naminə lap valideyinləriylə də olsa, qətiyyətlə üsyan qaldırsınlar. Gecələr sevgililərinin yolunda balışları islanınca göz yaşı töksünlər.

Nigahlarını şeytan kəsməsin.

Hər üçü xoşbəxt olsun!

Mən hissiyyatlı, qəlbi lərzəyə gətirəcək bir məhəbbətlə sevdiyim, Allahın sevimli bəndələrindən olan Komsomolumla ailə quracağam...

Bu şəksizdir!

Bu gün həm də, düz 700 gün əvvəl Bakıda dostlarımla vida məclisi qurduğum gündür.

O gün qarşıda məni 720 günlük çətin, çox çətin ayrılıq günləri gözləyirdi. Tələbə dostlarım,

hansı ki, müxtəlif institutlarda təhsil alırdılar, Politexnik institutunda mənimlə, ya paralel qruplarda oxuyan yoldaşlarım, qonşu cavanlar, Bakıda yaşayan, bərdəli orta məktəb dostlarım... qardaşım Rafiqin yaxın dost-tanışları... qohum tələbələr və bərdəlilər.

O gün necə kövrək idim...

Bəli 700 gün əvvəl Bakıda yaşayan dostlar yığışıb məni yola salırdılar.

Və bəxtimdən hərbi komissarlıqda qəfil xəbər yayıldı ki, ОТПРАВКА sabaha qaldı.

Biz yenidən qucaqlaşıb, dağılışası olduq.

Bakıdan çıxmaq da asan məsələ deyilmiş.

Hərbi komissarlıqda nəsə bir intizamsızlıq, pərakəndəlik, laqeydlik və lap düzü, zabitlər arasında harınlıq açıq hiss olunurdu.

Bu vəziyyətin özü, o vaxt məni üşəndirmiş, içimdə ümidsizlik yaratmışdı.

Səhəri günü bizi sürü kimi qabaqlarına qatıb, bir köhnə alabaş avtobusla Biləcəriyə gətirdilər. Və... artıq, düz 700 gündür burada, Taras Şevçenkonun doğma vətəni böyük Ukraynada, Biləcəridəki kişinin sözü olmasın, “paxat” edirik.

Amma yaşanan əzablı, çətin günlər arxada qalıb. Əsgər həyatı mənə çox şey öyrətdi. Bu iki ili küll halında götürüb araşdırsaq, hədsiz çətin bir həyat məktəbi keçmiş və bibimin sözü öz yerini almışdı: “Əsgərə kişilər gedər!”

Bu gün hava çox da soyuq deyildi.

ВОДОЗАБОР-a getdik. Yenicə çatmışdıq ki, görünməmiş bir ЧП baş verdi.

İşə hələ başlamamışdıq.

Təpərsiz Mürşüdün qoltuğunda, kağız torbaya bükülü mülki paltar var idi. POTA komandirinin gənc müavini, baş leytenant Qreşnoy bunu necə duymuşdu bilmirəm, qəfil dartıb onu təpərsizin qoltuğundan qopartdı.

Qovğa də bundan sonra qopdu.

Gözlənilmədən Mürşüd onunla tutaşdı və heç kəs hələ nə baş verdiyini anlamamış, bir də gördük, mərəzli Mürşüd mərdümazar Qreşnoyu yerə yıxıb, kişi kimi üstündə oturdu.

Yumruğunu düyünləyib ağzında sıxsa da, vurmağa ürək eləmədi.

Qreşnoy torbanı əldən vermirdi.

Aşağı rütbəli zabit heyəti, yerli mülki texniki işçilər, bir də ki xristian məzhəbli СЕРЖАНТ-lar tökülüşərək təpərsizi o ki var çırpıb, ayaqları altında çığnadılar...

Heç kəs də, laəqəllən araya girib onu müdafiə eləmədi. Yaxşı oldu, son bir-iki aydı tüllab tünd gedirdi. Mürşüd hara göylə getmək hara? Bayramdan sonra da, onu hauptvaxta basacaqlar. Laçın dağlarında, lalə yanaqlı, burnu fırtıqlı, qolu zorlu, canı kirri kəndçi oğlanlarla mərə qurub, mərəkəylə mərəköçdüm oynamaq yeri deyil ey, bura hərbi tikinti obyekti sayılan ВОДОЗАБОР-dur. Əsgərlərin aylarla can qoyduğu məkan.

Uşaqların işini böldüm.

Qan udmuş Mürşüddən heç soruşmadım da ki, o əldən çıxan kimin mülki paltarı idi.

O da bir söz demədi.

Hava yaxşı olduğundan hamı söhbət elə-yə-eləyə malaaltı taxtaları qoyub, malakeşlə ya-vaş-yavaş divar suvayırdılar.

Mürşüdün, gənc zabit Qreşnoyu yıxıb, üs-tündə oturması və sonra da... babat döyülməsi hamıya ləzzət eləmişdi.

Hey danışıb gülüşürdülər.

Nahar fasiləsində uşaqlar yamaca toplaşıb dirədöymə oynayanda, gördüm, napnazik cavan bir kənd qızı yaxınlıqda ot yığır. Yanında da, bir körpə uşağı özbaşına oynayırdı.

Onların yanına gəldim. Qız kəndli olsa da, vurduğu ətrin qoxusu yolduğu saralmış çəmənin ətrinə qarışıb adamı bihuş eləyirdi.

Onun çit çantasını, yolduğum saralmamış göy otla doldurdum. Yaman işvəylə mənə baxır, əyilib gah sinəsindəki ağ yumru döşlərini göstə-rir, gah da ki, ayaqlarını aralayıb ətli baldırlarını bilərəkdən açıqda qoyurdu. Amma, canı yanmış gülə-gülə, işvə-naz sata-sata, ora-burasını açıq-ca göstərə-göstərə ağlımı başımdan alsa da ge-cəyarı xəlvət görüşməyə razılıq vermədi.

Sən demə məni məsxərəyə qoyurmuş.

Kənd qəhbəsi!

Kor-peşman geri qayıtdım.

İş, saat 17:00-a kimi davam elədi.

Hərbi hissəmizin komandiri, Dyakivin xaki rəngli maşını düz yanımızda dayandı... O, hərbi şineldə, iri cüssəsiylə ağır-ağır ВИЛЛИС-dən düşdü. ПОГОН-larındakı iri ulduzlar, ona çox yaraşırdı. МЛАДШИЙ КОМСОСТАВ sayılsam da, yaxınlıqda yüksək rütbəli zabit olmadığından özümü səliqəyə salıb, cəld qarşısına yeridim və hərbi qaydada təzim edib, işlərin vəziyyəti haqqında məruzə edəndən sonra... fürsəti fövtə verməyərək üzlülüyümə salıb, dedim:

-ТОВАРИЩ ПОДПОЛКОВНИК, əgər məni bu ay tərxis eləməsəniz mən bir il də təhsildən geri düşə bilərəm. Dekabr ayında zaçotlar, yanvarda isə imtahanlar başlayır. İnstitutun müvafiq arayışı əsasında Azvoyenkomatdan da bu barədə sizə teleqram gəlib...

Düşünmədən, əsəbi halda kəsə dedi:

-Teleqram gəlməyib, gələr, sonra danışarıq. ПОКА СЛУЖИТ БУДЕМ...

Heyrətə gəldim və yanıb-yaxıldığımdan da var gücümlə qışqırdım:

-ЗДОРОВЬЕ ЖЕЛАЕМ... ТОВАРИЩ ПОДПОЛКОВНИК! СЛУЖУ СОВЕТСКОМУ СОЮЗУ!

Birdən nə fikirləşdisə, iri gözləri işıq saçaraq, isti ağzından buğ çıxa-çıxa:

-ТОВАРИЩ МЛАДШИЙ СЕРЖАНТ..! Bayramdan sonra danışarıq, -dedi.

Çox pərt qayıtdım!

Əclafın saymazyana danışığından da belə başa düşdüm ki, onun hələ məni buraxmaq fikri yoxdu, bayramdan sonra danışarıq sözü də boş xülyadı. Görünür umacağı var...

Bədxah adamlar qəddarlıqlarından qalmır.

Mənimsə, rüşvət vermək fikrim yox idi.

Zira, haqq-ədalət tərəfimdəydi.

POTA-yla birlikdə təpik vura-vura KAZARMA-ya qayıtdıq. Təpik səsləri canımdan dilxorçuluğu və tutqun əhval-ruhiyyəni müəyyən qədər götürdü. Son vaxtlar malxulyaya meyilli olmuşam.

Axşam yeməyindən sonra taytax Nadiri də götürüb, kitabxananın qiraətxanasına getdim.

Yeni qəzetləri qarşıma töküb oxuyurdum.

Taytax axmaq, kütbeyin olsa da, əlində bir qəzet gətirdi. Sən demə, kim isə Azərbaycan dilində BAKI axşam qəzeti qoyub gedibmiş.

Görünür, azərbaycanlı həkimdən qalıb.

Ana dilimizdəki qəzeti acgözlüklə, oxumağa başladım. Doğma dil məni duyğulandırırdı:

"Müğənni İslam Rzayev Fransaya gedib." Hətta yazırdılar ki: "ЧЕХОСЛОВАКИЯ-da da olub." Deməli Azərbaycan musiqisi PRAHA-da səslənib Yitkanın ana torpağında.

İlahi! Necə mütəəssir oldum!

Görəsən Yitka afişaları oxuyub?

Bəlkə konsertə gedib... Yenə məni kövrək duyğular bürüdü.

İslam Rzayevə paxıllığım tutdu...

Yamanca sentimental olmuşam.

On səkkizinci əsrin ikinci yarısı, on doqquzuncu əsrin də əvvəllərində, Avropada meydana gəlmiş ədəbi cərəyan olan sentimentalizm mənim ruhuma sonsuz dərəcədə yaxındır.

Sentimentalizm və sensualizm.

Duyğunun... idrakın yeganə mənbəyi olduğunu iddia edən sensualizm fəlsəfi cərəyan tərəfdarları olan sensualistləri də... son vaxtlar elə mən özüm də dəstəkləməyə başlamışam.

Çox nazikürəkliyəm.

КАЗАРМА-ya qayıdanda, mənə bir açıqcalı teleqram verdilər. Bakıdan qardaşım Rafiq, bayram münasibətiylə yollamışdı.

Çox sevindim. Bu ötən iyirmi üç ay ərzində qardaşlarım Rafiq və Vidadinin qayğısını, diqqətini daim üzərimdə hiss eləmişəm.

Qardaşım Vaqif isə qara daş kimi susur...

Axşam yeməyindən sonra, yıxılıb yatmaq istəyirdim. Amma, televizorda qəribə film göstərirdilər. РОТА yığışıb КАЗАРМА-da baxırdı.

Film romantik olduğundan dərhal məni tutdu və yerimi rahatlayıb sonsuz maraqla baxmağa başladım. Dördgöz baxırdım.

Xaricdən gələn iştirakçılar СОЧИ-də keçiriləcək festivala düşmək üçün nələr etmirdilər...

Rumıniyalı bir oğlan şərqi slovyanlı rus qızını sevir və birgə elə də gözəl oxuyurdular ki!

Tans da oldu.

Xüsusilə: Я, ТЫ, ОН, МЫ, ВЫ... НАЧИНАЕМ... bir də... ОТ ЗАРИ, ДО ЗАРИ, mahnılarını necə də şövqlə oxuyurdular. Xudaya-Xudavənda!

Onlar bir-birini necə sevirdi...

Geyimlərinə də söz ola bilməzdi. Film məni valeh elədiyindən, mütəəssir olmuşdum.

Film qurtaranda artıq yuxum yox idi, elə bil rahatlığımı əlimdən almışdılar.

Həddindən artıq həssasam...

İç yanğımı söndürməliydim, odur, gündəlik yazmaq qərarına gəldim.

ЛЕНКОМНАТА-da yenicə rahatlanmışdım ki, leytenant Kuzmiçenko hövlan içəri girdi. Yüyrək üstümə sarı cocuyub, tələsik qoluma girərək... - bacarmır, bacarmır deyə-deyə fınxırıb məni zorla ayağa qaldırdı:

-Yüyür Bryusovu çağır gəlsin. Kuruskanov içkilidir, ПРОВЕРКА-nı apara bilmir, РОТА bir-birinə qarışıb... Tez, tez... Cəld ol...

Bryusovun evlərinə tərpəndim.

Yazıq təzəcə oturub yemək yeyirdi...

Axşam yoxlamasından sonra da, yata bilmirdim. Film məni yamanca tutmuşdu. Gənclər üçün örnək olası film idi. Musiqisinə də, söz ola bilməzdi. Yerimdə o tərəf, bu tərəfə çevrilir, yata bilmirdim. Üç il əvvəlki gecə tək, yenə hissə qapılmışdım. Amma, nə vaxtsa yuxuya keçərəm...

Sanki, kimsə quyudan bağırırdı.

Sən demə, sübhün şipşirin yuxusunda daş

kimi uyuduğumuz yerdəcə, növbətçi var gücüylə çığırıb: QALXIN! -əmri verirmiş.

Hamı kiməsə söyə-söyə, kiminsə qarasına söylənə-söylənə qalxıb geyinirdi.

Əsgər həyatı kimi ləzzətli, həyatda heç nə ola bilməz. Yəqin inanmadınız, hə?

СТАРИК olsan onda inanarsan.

СТАРИК olmaq üçün də nə az, nə çox, düz il yarım, Biləcəridəki kişinin sözü olmasın ПАХАТ eləməlisən. İndi özün seç...

Bu gün Biləcəridən çıxdığım düz 23 ay idi. Bəli, 23 ay da getdi. Bu gündən sonuncu 24-cü ay başlayır... Zarafat-zarafat son ay da gəldi.

Dyakivlər hansı tərəfdən yanaşsalar, necə hesablayıb ləngitsələr də, dalana dirəniblər.

Hətta, bircə ay da qalmayıb.

Vaxt vardı, СТАРИК-lərə həsədlə baxır, hər dəfə ay tamam olanda, yanıqlı-yanıqlı yazırdım:

"Bir ay getdi... İki ay getdi... Üç ay getdi..."

İndi yazıram: "Sonuncu, 24-cü ay da girdi!"

Bəxtəvərlik, ta nəyə deyirsən?

Bü gün iş günü deyildi.

Gecə bərk yağış yağmışdı... Göy üzü hələ də buludlu olduğundan cansıxıcı, darıxdırıcı gün idi. Asfalt olmayan yerlər zığ-batdaq olmuş, səhər yeni açılsa da, elə bil axşam toranı çalmışdı.

ШТАБ-da ПОЛИТЗАНЯТИЕ-ni ilk dəfə olaraq yeni təyin edilmiş ШТАБ rəisi keçdi.

Ona qulaq asmaq əvəzinə, Kuruskanovun

oxuyub, yanına qoyduğu kitabı götürüb baxdım.

F.M.Dostoyevskinin rus dilində, nəfis şəkildə çap olunmuş, Karamazov qardaşları romanı idi. Kitabı götürüb, gizlincə bir xeyli vərəqlədim və çox maraqlı bir yeri gəldi.

Kitabdan, olduğu kimi yazıram:

"Qruşenka Alyoşaya vaxtilə aşpaz qadın Matryonamdan eşitdiyi bir təmsili danışdı:

"Burda acıqlı, olduqca acıqlı bir qarı vardı və o vəfat etdi. O, özündən sonra, heç bir yaxşılıq qoymayıb getdi.

Əcinnələr götürüb onu alovlu bir gölə atdılar. Onu qoruyan mələklər dayanıb düşünür:

Onun, hansı yaxşı əməlini yada salım ki... Allaha da bildirim. Xatırladı və Allaha dedi:

O, bostandan bir baş soğan çıxartdı və dilənçi qadına verdi. Allah da ona cavab verir:

Bax həmin o soğanı götür, göldə ona uzat, qoy ondan tutsun və dartılsın, əgər onu göldən dartıb çıxarsan, o halda cənnətə düşsün, soğan qırılsa, onda qoy arvad olduğu yerdə də qalsın.

Mələk qarının yanına qaçdı və ona soğanı uzatdı: Arvad, yapış və dartın.

Və o, ehtiyyatla onu dartmağa başladı və az qala dartıb çıxaracaqdı, amma, göldəki digər günahkarlar da, onun dartılıb aparıldığını görüb, ondan yapışdılar ki, onları onunla bir yerdə dartıb çıxarsınlar.

Qarısa... acıqlı, olduqca acıqlı idi, ayaqları

ilə onları təpikləməyə başladı:

"Məni dartırlar, sizi yox, soğan mənimkidi, sizinki deyil."

Bu sözlər ağzından çıxmamış, soğan qırıldı. Bəli, qarı gölə yuvarlandı və bu gün də, yanmaqda davam edir.

Mələksə ağladı və oradan uzaqlaşdı."

Dostoyevskinin təmsili içimi silkələyib, məni bərk təsirləndirdi... və bir xeyli də, bu hikmətə təəccüb edib düşündüm. Yadıma düşdü ki, belə adamlardan Bərdədə də var, hətta ətrafımda fırlanıb, yalmanan insanlardan da heç xali deyil.

Bərdədə hamının tanıdığı, qəbahətdən kasad olmayan Kubra və Rahilə müəllimələrin qardaşları, daim ondan-bundan çırpışdırdığı müftə siqaretdən püflədə-püflədə hırıldayan İlham Babayev... Satıcı dostlarını, iş yoldaşlarını daima sistem işçilərinə xəlvəti yerdə satıb güdaza verən Bəşir Əliyevin, hardansa götürüb saxladığı, cinsi bilinməyən, şərəfsiz, işverən oğlu Növruz Əliyev... q.Bahar arvadın böyük oğlu, nişanlısını başqa kişiylə öpüşəndə tutan, Süzəndə xalanın sözü olmasın: "Öz gözləriylə görən oğrac!" nitqpərdaz Vaqif Hüseyinov...

Onlar heç o soğanı da verməyiblər.

Verməkləri cəhənnəm Bərdədə düşən yas mərasimlərindən oğurluq da edirlər. Yerli bərdəli Şərifov Əliş, Muradov Mütalibin oğlu Şəhriyar, Gülara həkimin oğlu Adil Yusifov, bizim küçənin

gözmuncuğu Xosu, qaqa İsmayıl, aptek Saday, keçəl Aydın Əhmədov onları ifşa da edib.

Bəylər, özü başqasının evini, mağazasını qardaşı Şəfi ilə talan edirdi, böyük oğlu Vaqif isə diş həkimliyi oxuğuğu halda indidən sünnət toylarında, prokuror, ispolkom məclislərində tamadalıq edib, yas məclislərindən oğurluqla pul çırpışdırır, maşın almaq istəyində bulunurdu.

Neynirdi haram pulla alınan bu maşını?

Əməliyyat da çox sadəymiş... Yas dəftərini açır, cibindən qatlanmış 1 manatlığı çıxarıb arasına qoyur... və dəftərin arasında toplanmış pullardan 90 manat sayıb ehmalca cibinə basır, guya 100-lük qoyub, qalıq götürür...

Düdük!

İlham Babayev isə, ailəlikcə oğurluq edir. Arvadı, özü, qızı, baldızları, qız nəvələri, baldızı qızları, bir sürü... qonaq getdikləri evləri, gəzdikləri mağazaları alt-üst edirlər.

Ölüm olsun sizə!

Bu qədər də şərəfsizlik olar? İnsan bu qədər də nanəciblik edər? Manya xalanın sözü olmasın: “Anası bunu doğandan sonra heç tərbiyə verməyib bəyəm, burnun silib küçəyə atıb?”

Bunların da hərəkət planı çox sadəydi.

İlham Babayev arvadıyla birgə satıcını, ya qonaq getdiyi evin sahiblərini söhbətə tutub başını qatır, dəstə hərəkətə keçib, əlinə keçənləri qoynunda, tumuşunda, qızıl əşyalarını lifçiyində

və digər bərk yerlərində gizlədir.

Bir dəfə Bakıda ələ keçib, qadın və qızları 3 sutka təcridxanada yatıblar da...

Yatdıqları yeri də bütün bərdəlilər bilirdi:

Bakı, Binəqədi rayonu, 7-ci milis bölməsi.

Kişilərisə o vaxt aradan çıxa bilmişdi.

O yanar göldə siz də yanacaqsınız. Soğan uzadanınız da olmayacaq çünki, kimsəyə soğan da verməmisiniz.

Məfkurəsizlər!

Məşğələnin qurtarmasına az qalmış, Dyakiv də gəlib çıxdı... Çıxış edəndə, bərk-bərk tapşırdı ki, elə edin bayram günlərində ЧП baş verməsin. Hər şey siz əsgərlərdən asılıdır. Komandir ОТДЕЛЕНИЕ-lər yerlərində olsa, hərə öz istirahətini düzgün qursa... hərbi hissədə qanun pozuntusu qeydə alınmaz və buna oxşar öyüd-nəsihətlər. Bayram münasibəti ilə təbrik də etdi.

Bizim nə vaxt buraxılacağımız haqqındasa kəlmə də olsun danışmadı...

Qurumsaq!

Elə sən də tamada Vaqifin, alverçı Marusanın yeznəsi İlham Babayevin, işverən Novruz Əliyevin tayısan də!

Manya xala elə yerində deyirdi:

“Milisə iş verməkdənsə, filan yerini versən ondan yaxşıdır, a Noruz...”

КАЗАРМА-ya qayıdanda yenə yağış başladı. Heç yazmaq həvəsim yoxuydu. Bilmirdim nə

edəm. Yamanca darıxırdım.

Başaldadıcı heç bir şey də yox idi. Tərs kimi, bayram günü olduğundan, kitabxana da işləmirdi. Bəs nə edəydim?

Bircə ВОЕНТОРГ mağazasına ümid qalırdı.

Hərə, öz qəpik-quruşunu gizlindən çıxarıb, tək-tək mağazaya gedib-qayıdırdı.

Zəyəmli Vahid də mağazaya gedirdi. Bilirdi ki, məndə pul yoxdur, olan-qalanımı qumarda salyanlı Adilə uduzmuşam.

Mənə birlikdə getməyi təklif eləmədi.

Dünyanın malı, cahü-cəlalı bu dünyada da qalasıdır. Bu an Vahidi çağırıb tərifləsəm, yəqin utanacaqdı, təki pul istəməyim.

Salyanlı Adili xatırladım.

Görünür indi o azadlıqda, Salyan kabab-xanalarının birində oturub, ya mazaqlaşdığı qadınla, ya da dostlarıyla mazaq etməklə, araqdan içib dəmlənir. Nədənsə onu məhz bu vəziyyətdə düşündüm. Adil sabahını düşünənlərdən deyildi.

Hərbi xidmətin son günləri yaşandığından, daha heç kəs-heç kəsə əl tutmurdu.

Kəlbəcərli Sahib Əkpərov tez-tez deyirdi:

“Artıq, bu riskli məsələdir...”

Başa düşmürdü ki, 3, ya 5 manatın özü nə dəyərdə olan şeydi ki, riski də nə çəkidə ola.

Yaxşı ki, qardaşım Rafiq iki şaxlı göy beşliyi КОНВЕРТ-də göndərmişdi...

ЕФРЕЙТОР İlyasa da, 1 РУБЛЬ pul lazım idi.

Zəyəmli Vahid və xallı Arifdən borc istəsə belə, heç biri risk eləyib verməmişdi. Zavallı КАЗАРМА-yla ВОЕНТОРГ mağazasının arasında qalmışdı. İlyası, kənara çəkib özümlə mağazaya apardım. Beşliyin birini xırdalayıb ona da 1 РУБЛЬ verdim. ЕФРЕЙТОР İlyasın iri gözləri yaşardı...

Elə bil, soğandan ikiəlli yapışıb, yanar göldən çıxmışdı. Artıq soncuq atırdı.

Özlüyümdə hamını qınayır, hirslənirdim ki, gör bir mənə pul təklif edən heç var? Axı hamısı bilirdi cibim boşdur.

Sanki hamıdan umurdum.

Düşünür, özlüyümdə xiffət çəkir, azərbaycanlı əsgərlərdən ucdantutma küsürdüm...

Amma üzüm tutsa, utanmayıb istəsəydim, bəlkə də hansısa kişilik edərdi...

Kimiydi, qürbətdə özündən başqa dostunu da fikirləşən: Bəlkə pulu yoxdur, ürəyi nəsə istəyir, ya niyə qaş-qabaqlı, qəm-qüssəlidir...

Bəlkə də, ağlı kəsən yox idi.

Mağazadan bir qutu ТУ-134 siqareti aldım. Və ВОЕНТОРГ-un yanındaca, yağış tutmayan bir yerdə dayanıb iki ədəd siqareti dalbadal çəkdim.

Sanki, uşaqlardan intiqam alırdım.

Yağış şırıltıyla tökəndə və bu vaxt, cibdə siçanlar oynayanda, siqaret sümürmək çox yaxşı şeydir. İnanmırsınız? Qoy əsgər getməyənlər bəribaşdan bilsinlər bunu ki, tədbirli olsunlar.

Acı tüstü, nədənsə adamın içini rahatlayır.

Qardaşım Rafiq o pulu, iki göy beşliyi göndərməsəydi indi nə edəcəkdim?

Çox düşünüb-daşındım.

Pulum olanda... babat bədxərclik elədiyim üçün öz-özümü xeyli danladım. Siqaretləri çəkib qurtarandan sonra, elə yağış başıma tökə-tökə, əlimi cibimə qoyub КАЗАРМА-ya qayıtdım...

ЕФРЕЙТОР İlyasla hamama getdik.

İlyas öz xebe forması ilə birlikdə, mənimkini də yudu. Bir manatlığın hökmü, yeri gələndə yüzlüyü diz üstə çökdürür. İlyas oxuyurdu:

"Ağdam bir gözümdür, Bərdə bir gözüm!"

İnanmırsınız?

Sabah bayram günüdür.

Ona görə hazırlıq görürdük. Özüm də kirli idim. Çoxdandır çimmirdim. Başım qaşınır, saçlarım yağlı, çirkli və həm də babat quaxlıydı.

Belə vaxtlarda, özümün-özümdən zəhləm gedir. Zira... əsgər olsam da, tələbəydim və canımdan əziz sevdiyim Komsomolum vardı.

İndidən malxulyaya qapılmaq, ya ona sarı meyllənmək mənə heç yaraşmazdı.

ЕФРЕЙТОР İlyas Mamedov əlim çatmayan yerlərimi yaxşıca sabunlu maçalkayla sürtdü. Bir saat uşaq kimi isti su ilə oynadım. Və axırı özümü, urəyim istəyən kimi təmizə çıxartdım.

Qayıdıb КАЗАРМА-ya gəldik.

РОТА gündəlik qayğısıyla yaşayırdı.

ЕФРЕЙТОР İlyas, xebeləri СУШИЛКА-da isti

boruların üstünə sərdi...

Yeməkxanada nahar edəndən sonra, yerimə girib Cinayət və cəzanı oxumağa başladım. Kitabın lap qaymaq yerləri gəlmişdi.

Xeyli oxudum.

Artıq tor görəndə, kitabı örtərək, gözlərimi qapayıb... Raskolnikov, Sofya Semyonovna və Lebezyatnikov haqqında xeyli düşündüm.

Nə vaxtsa, yuxu məni aparar.

Oyananda... şər qarışmış, toran qaranlığa çevrilmiş, yağış da kəsmişdi. Yaxşıca dincimi almışdım. Qalxıb geyindim. Yerimisə yığmadım.

Növbətçi bir məktub gətirdi.

Fırtına Tahir Ağayevdən idi. Tbilisinin görməli bir mənzərəsi olan ОТКРЫТКА göndərmiş və yeni bir xəbər yazmışdı:

"Qardaşım Rafiq müəllim МОСКВИЧ markalı minik maşınını satıb. Yenisini alacaq. Amma, hələ piyadadır..."

Axşam yeməyindən sonra, kinoya getdim.

РИГА çəkən adi bir film olsa da, pis deyildi.

Axşam ПРОВЕРКА-sında, cərgədə dayandım. РОТА komandiri Bryusov hərbi hissə üzrə növbətçi idi. Taram geyinib gərdiş edirdi...

Tofiq Xəzər

# *Klubda təntənəli bayram mərasimi...*
# *Serjant rütbəsi aldım!*
# *Daldan atılan daş kimi bir şey...*

*Pervomayski, 7 və 8 noyabr 1972-ci il.*
*II və III günlər.*

Bayramla əlaqədar POTA-ya: QALXIN!-əmrini səhər saat 07:00-da verdilər.

Ağ tuman-köynəklərdə tökülüşüb cərgəyə düzülən kimi, siyasi işlər üzrə müavin, СТРАТЕГ saydığımız baş leytenant Boyko, ilk olaraq bizi bayram münasibəti ilə təbrik etdi.

Baş СТРАТЕГ-imiz Bryusov hərbi hissə üzrə növbətçi idi, hərbi qanunları pozaraq gecə bizim POTA-yla birlikdə КАЗАРМА-da yatıb yuxusunu qədərincə alsa da POTA-nı təbrik eləməyi nədənsə unutmuşdu.

Səhər yeməyindən sonra РАЗВОД oldu.

Hərbi hissə, bütünlüklə ПАРАД forması geyinmişdi. Kiçik komanda heyətinin dördüncü rüt-

bəsi sayılan СТАРШИНА gözə dəymirdi.

Dünən ЕФРЕЙТОР İlyasın hamamda yuyub СУШИЛКА-da qurutduğu, tərtəmiz xebe formamı ütüləyib dolabçama qoymuş, əynimə, bayramla əlaqədar ПАРАД forması geyinmişdim.

РАЗВОД-da, digər СЕРЖАНТ-larla yanaşı ön cərgədə durmaq əvəzinə, СТАРШИНА olmadığı üçün, keçib onun kiçik zabit heyəti üçün ayrılmış qürurverici yerində dayandım.

Necə deyərlər СТАРИК-lik elədim.

МОЛОДОЙ-lar artıq mənə qibtə edir, həsədlə baxır, həsrətlə köks ötürürdülər.

Çoxuna da, ünyetməz bir zirvəydim.

Azadlıqla aramda cəmisi bir neçə gün qalmışdı, əslində əsgər həyatının ən yaşamalı günləri indidir, zira, hamıya və hər şeyə yuxarıdan aşağıya baxa bilirsən. Xətrinə dəyib dərinə gedən zabit heyətindən də kimsə olmur, çünki artıq qonaq sayılırsan.

Hərbi xidmətin sultanlıq dövrüdür.

Hamı bayram əhval-ruhiyyəsində, bayram libasındaydı. Elə gözəl gün çıxmışdı ki... Elə bil, şəfəqləriylə, günəşin özü də bizi təbrik eləməyə gəlmişdi. Bu an, hərbi qulluğa yenicə gəlmiş əsgərlərin nəzərində... bitkin xarakterli, heyrətamiz ağıllı, dərin düşüncəli, hürriyyətə can atan bir əlçatmaz qəhrəmanı xatırladırdım.

Hərbi xidmət dövrümüzün son bayramıydı ki, belə təntənəli surətdə keçirəcəkdik.

Son bayram...

Ooo!

Hərbi hissə kimandiri Dyakivlə Maltsev göründü. Onlar elə gözəl zabit forması geyinmişdilər ki... ПОДПОЛКОВНИК Dyakiv bütün orden və medallarını, hətta döş nişanlarına kimi hamısını sinəsinə düzmüşdü. İt oğlu generala oxşayırdı.

ШТАБ rəisi ДОЛОЖИТЬ elədi.

Və... hələ bu günə kimi ОТРЯД: "ЗДОРОВЬЕ ЖЕЛАЕМ ТОВАРИЩ ПОДПОЛКОВНИК!!!" -sözlərini, belə şövqlə deməmişdi. Xorla elə ucadan deyildi ki, ШТАБ-ın pəncərələrində də, bu sözlər əks-səda verdi. Şüşələr cingildədi!

O bizi təbrik edəndə: УРА! УРА! УРААА!!! -nidaları altında qışqırmağımız da, çox möhtəşəm və heyrətamiz alındı.

Sanki, ayağımızın altında yer titrədi!

Çox həvəslə, ucadan qışqıra-qışqıra və ən əsası da... birlikdə çaşmadan, ləngimədən xorla harmoniyalı şəkildə deyə bildik.

Sonra, bir az danışdılar və SSRİ Müdafiə Naziri Marşal Qreçkonun, bayramla bağlı əmrini oxudular. Ölü susqunluqla dinlədik.

Növbəti hərbi əmr verildi.

СТРОЕВАЯ ШАГ-la necə inamla addımlayırdıqsa, bu an artıq əsl hərbi xidmətdə, vətən vicdanı olduğumuzu qürurla hiss edirdik.

РАСТВОР daşıyıb, suvaq vurmaq məsələsi tamam yaddan çıxmış, bizim ГАРНИЗОН-a Sovet

Ordusu, ümid işartısı kimi sanki indicə gəlmişdi.

Özümü çox qürurlu, yüngül, gümrah hiss edir və bu an daxilimdə düşünürdüm:

"Çox sadəlövh və hədsiz dərəcədə çılğınam. Heç kəsi ittiham etmək lazım deyil... mənəvi durumumda... yavaş-yavaş, ehtiyyatlı olmağı da öyrənməliyəm. Kifayət qədər aydındır ki, o inanılmaz hadisə baş verəcək! Döz, nə qalıb?"

Bu gün taytax Nadirə, öz fərziyyəsinə görə kiçik СЕРЖАНТ rütbəsi verilməliydi. Hamı onunla zarafatlaşırdı. Nadir, söz verəni ciddi qəbul edərək, indidən özünə yeni ВОРОТНИЧОК, ПОГОН və ЛИЧКА-lar da almışdı. İstinad etdiyi adam kim idi bilmirəm, amma kimsə, qətiyyətlə taytağa rüsxət vermişdi ki, fikirləşmədən liçkaları alsın.

Zavallı verilən vədlə bağlı bəs deyincə baş sındırsa da, sonda əminliklə inanmışdı.

İndi də cırnatmağa yönələn qəlb istəyi ilə, tez-tez mənə xoşagələn zarafatlarla sataşırdı:

"Sənə niyə СЕРЖАНТ rütbəsi vermirlər, elə biz gözümüzü açandan, sən kiçik СЕРЖАНТ qalmısan, inan ki, ta təngə gəlmişik, bu məyusluğa mən tab gətirə bilməzdim..."

Taytax Nadir beləcə mənimlə məzələnirdi.

Qanqaraldıcı heç nə yox idi.

ПЕРЕКУР eləyəndən sonra, РОТА-yla birlikdə КАЗАРМА-da televizora baxmağa getdik.

Hərbi əmr idi.

Moskvadan birbaşa yayımlanan, izdihamlı

ПАРАД-ın açılışına baxmalıydıq.

Doğrudan da, bizim, ucu-bucağı görünməyən vətənimizin hərbi qüdrəti çox böyükdür. Bu, düşmənlərimiz tərəfindən də, açıq etiraf edilən, danılmaz bir faktdır.

Kreml necə möhtəşəm görünürdü!

İlahi, necə qürur duyurdum!

Söz yox ki, indi... qardaş respublikalar da, sosialist ölkələri də, lap elə kapitalist ölkələrinin özləri də, bu ПАРАД-ı çox yaxından izləyir.

Bəlkə, Yitkamın özü də, PRAHA-da rahatca əyləşib, qara çex pivəsini marçıltıyla içə-içə, bu möhtəşəm ПАРАД-a baxır.

Doğrudan da, bizim Sovet ölkəsi hegemon dövlətdir və dünyada bizə tay ölkə ola bilməz!

Kremldəki, bu möhtəşəm ПАРАД-ı izləyən hər bir kəs bu həqiqəti görər və bu qənaətə gələ bilər. Qızıl Meydan dünyaya meydan oxuyurdu.

ПАРАД... inanılmaz atəşfəşanlıqla qurtaran kimi, dərhal bizi cərgəyə düzüb kluba apardılar.

Klubda təntənəli yığıncaq keçirilməli, sonra da, təltifetmə mərasimi olmalıydı.

Yığıncaqda kiməsə ГРАМОТА, kiməsə məzuniyyət, kiməsə pul mükafatı, kiməsə də rütbə veriləcəkdi. Ən maraqlı məqam da, elə burada yaşanmalıydı. Nadirin ulduzu parlayacaqdımı?

Sonda da, yekun bayram konserti!

Bir il əvvəl, bu günkü günü xatırlayırdım:

“7 noyabr 1971. O gün də, klub indiki kimi

belə izdihamlı, içərisi tünlük idi.

Qələbəlik yaşanırdı.

Hamının kefi kök olduğundan, ГАРНИЗОН-da əsl bayram təntənəsi hökm sürürdü. O vaxt, yaman həyəcanlı idim. Gizlində isə... sevincimin həddi-hüdudu yox idi, zira, mənə hərbi rütbə verilməliydi. Adımın qeyd edilməsini dəqiq bilsəm də, yenə adımın çəkiləcəyinə inanmır, intizarla, həyəcanla elan olunmasını gözləyirdim.

Səmimi rəğbət və könül ağrılarıyla düşündüyüm ailəmizə, dostlarıma... titrəyişlə xatırladığım Komsomola da, əvvəldən heç nə bildirməmişdim. Sürpriz eləmək fikrindəydim.

Və... elə belə də oldu.

Rütbə verilənlərin siyahısında, mənim də adımı oxuyub: Kiçik СЕРЖАНТ rütbəsi verdilər.

Necə sevinirdim, İlahi!

Alın tərimlə, həmyerlilərimin zəhməti və əllərimin qabarı hesabına o vaxt almışdım bu hərbi rütbəni. Orduda kiçik komanda heyətinə daxil olan bu rütbəni almaq, hər bir sıravi əsgərin xəyali arzusuydu. Və məndə çin olmuşdu.

Karnavallarda olduğu kimi... başımın üstünə, uzun, ilanvari rəngbərəng lent, adıyla desək, serpantinlər səpənim olmadı.

Bu rütbə halalım idi.

Zira, o vaxt həmyerlilərimin xilası naminə atmışdım bu addımı... Rahat işimi, Rodkinlə keçirdiyim sərbəst həyatımı qurban vermişdim..."

O gündən, düz bir il ötüb, 365 gün.

Ömür yarpaq-yarpaq tökülüb.

Son hərbi xidmət günlərimi yaşayıram...

Bayram təntənəsinin açılış mərasimindən, çıxış edənlərin cansıxıcı xoş sözlərindən sonra, yenə əsas məsələ, təltifetmə hissəyə keçdilər.

Və gözləmədiyim halda möcüzə baş verdi. Əlində tutduğu uzun siyahını oxuyan zabit, yeni ШТАБ rəisi elan etdi:

"2-ci РОТА-da, 2-ci ВЗВОД-un, 4-cü ОТДЕЛЕНИЕ-sinin komandiri, kiçik СЕРЖАНТ TOFİQ ƏLİ OĞLU BABAYEVƏ СЕРЖАНТ rütbəsi verilsin!"

Necə diksindim!

Qulaqlarım yenə küylədi...

Müsəlman və erməni əsgərlərin demək ola bilər, hamısı tökülüşüb məni təbrik edirdilər...

Qulaqlarıma inanmırdım. Bu əsl xoşbəxtlik idi! Heç ağlıma belə gəlməzdi düzü... Məni, yalnız buradan tez getmək maraqlandırırdı. Bir ay geciksəm, institutda bir il də geri düşə bilərdim.

Təhsilim isə, hər şeydən vacib idi.

Belə götürəndə gecikmiş, çox gecikmiş bu СЕРЖАНТ rütbəsi... daldan atılan daş topuğa dəyər, misalı kimi görünürdü.

Çoxlarının, xüsus da, özü haqqında yalançı təsəvvürlər yaradan, vaynösə Sahibin arzuladığı əlçatmaz zirvəyə çatsam da, qəfil rütbə almış cavan əsgərin sevincini yaşaya bilmirdim.

Rütbə artıq məndən aşağıdaydı.

Amma, hər halda çox maraqlıydı, kim onu yazdırıb mənim adıma? Bu kimin təşəbbüsüydü görəsən? Savabı qazanan, hansı xristian zabiti olub? Hərçənd bu çoxdan baş verməliydi.

Deməli СЕРЖАНТ-am?!

Sovet ordusunda hərbi mükəlləfiyyəti yerinə yetirən əsgərin ala biləcəyi yüksək rütbə. Bu rütbə orduda kiçik komanda heyətinə verilir ki, bunu da hər yetənə vermirlər. Ya, əsgər düşdüyün hissədə ağlınla, təhsilinlə və boy-buxununla seçilməlisən ki, yüz çağırışçının arasından səni seçib... altı aylıq serjantlıq kursuna göndərələr, oxuyub bu rütbəni alasan, ya da mənim kimi, zillətlə zülm çəkib, zorla alasan.

Müsəlman əsgərlər qiyam qaldırmış, onlar məcburiyyət qarşısında qalaraq bu rütbələri təxsis edib, mənə vermişdilər.

Artıq əmr elan olunmuşdu. Həqiqət buydu.

Lakin, bu harasıydı?

Təntənəli yığıncaqda ikinci möcüzə də baş vermişdi: ШТАБ-ın yeni rəisi, uzun siyahıları oxuyub qurtardı və qəfil, öz adından təltif olunanları bir daha təbrik elədi.

Nə taytax Nadirin nə də Vartek Avoyanın adı çəkildi! Hamımız heyrətlə çönüb onlara baxdıq. Dözülməz rüsvayçılıq olsa da, bu baş verdi.

Əsl tragikomediya idi.

Gülməkdən hamı qəşş edərək, qarnını qucaqlamışdı. Onlar, neçə günlərdir təltifə hazırla-

şır, hətta ЛИЧКА-ları da ПОГОН-larına tikmişdilər. Avoyan ЕФРЕЙТОР, taytax isə kiçik СЕРЖАНТ.

Hamı tökülüşüb Nadiri lağa qoymağa başladı və yalandan əl uzadıb onu təbrik edirdilər. Ermənilər də Vartekin baş-gözünə vurub, zarafatla onu dolayırdılar:

"Töycünü düz verməmisiniz!"

"Gedin yəhudilərin müqəddəs Tövratını tapıb oxuyun, bəlkə gözünüz açıla..."

"Tövbələtmə dərsi aldınızmı?"

Yığıncaq başlamazdan qabaq taytax Nadir zəyəmli Vahidə kişi-kişi dirənmişdi ki, qalstukunu ver taxım, bəlkə məni də qabağa çıxarıb söz verdilər. Beləcə, hamının kefi kökəlmiş və məmnunluqla Nadiri ələ salıb əylənirdik.

Nadirə baxanda, elə bil, bir dramatik teatr tamaşasına baxırdıq...

Taytax, qisas almaq üçün qovrulurdu.

Üzümü ona tutub, ironiyayla dedim:

-Nadir, sənin bir yolun var, o da, iman gətirib hicrət etmək və namaz qılmaqdır. Xilaskarlıqla nənəm həmişə deyərdi: "Namaz səbrin tən yarısıdır..." İndi səninki qaldı nənəm deyənlərə...

Bayramdan-bayrama əsgər həyatının belə şən səhnələri olurdu...

Axı hamının feyz almaq haqqı var.

Ruslar demiş, ПРЫЩАВЫЙ zəyəmli Vahidlə ətdən düşmüş Qəmbər Alxasova ГРАМОТА vermişdilər. Hələ, mənim adımı sonradan, yenə də

çəkmişdilər: УНР tərəfindən mənim və Zaytsevin briqadasına БЛОГОДАРНОСТЬ elan olunmuşdu.

Bu bayram, mənimki gətirdi. Ötən ilki 7 Zil-Qadə bayramı kimi bu ilki də düşərli oldu.

Təntənəli yığıncağın rəsmi hissələri başa çatıb konsert başlayanda, biz də, taytax Nadirə fitva verməklə konsert çıxarırdıq.

Bu ilki konsert keçən ildəkindən pis keçdi. Bircə hansısa tamahkar niyyətlər güdən ermənilərin çıxışı yaxşı oldu.

Qalanı heç...

Sona qədər baxmadıq.

Klubdan çıxıb yeməkxanaya getdik.

Yolboyu, məni görənlər gəlib görüşür, təbrik edirdilər. Lap ürəkdən sevinənlər isə, göygöz Eldar, çənə Telman, ЕФРЕЙТОР İlyas və Şahmar idi. Bir də tülküsifət, şivərək xallı Arif!

Sonradan məlum oldu ki: Sən demə, bizim əsgərlər 4-5 gün əvvəl ВОДОЗАБОР-da işləyəndə ПЕРЕКУР vaxtı, istiqlaliyyətdən, hərbi qayda-qanunlardan halallıqdan, demokratiyadan, haqq və ədalətdən, azadlıqdan, super gücə malik dövlət olduğumuzdan dəm vuran gənc zabit xamıtpaça Qreşnoyla mübahisə ediblər.

Xallı Arif, əlindəki zikr təsbehi ilə yoxlama ayini edərək, bunları, xam ələ salmaq kimi dəyərləndirib və qayıdıb Qreşnoya tərs cavab verərək, cəsarət dolu saymazyana deyib:

“General-deputat Krasikin... bu ГАРНИЗОН-

unda hər şey rüşvətlədir. САМОВОЛЬЩИК, üç cüt bir tək də iş görməyən salyanlı Adil, iki illik hərbi xidmətinin çox hissəsini hauptvaxtda keçirirdi.

Oğru, alkaqolik və qumarbaz olub.

Onu niyə hamıdan əvvəl buraxdılar?

Babayevin ali təhsili bir il də gecikə bilər, onusa buraxmırlar. Nersesyan hərbi xidmətə bir ildi gəlib, ona СЕРЖАНТ verdiniz, fədakarcasına 23 aydır işləyən Babayevə isə yox. Vasilyev hər gün piyan olur, onlara ЛИЧКА verirsiniz, Babayev isə bir ildir ki, kiçik СЕРЖАНТ-dır. Biz bilmirik ki, bütün bunların arxasında rüşvət dayanır? Kimdi inkvizitorluq edən? Bunu, bələkdə inqa, inqa-inqa edən uşaq da bilir. Əstəğfürüllah deyib tövbə edin, istiğfar qılın!"

Beləcə, zabit Qreşnoy xamuş olub...

Mən bu söhbəti eşidəndə evolyusionist tərəfdarı kimi tez barmağımı dişlədim. Deməli fədakarlıq edən Arifin dediklərini olduğu kimi gənc Qreşnoy Dyakivə çatdırıb. Odur ki onlar da əvəzində bu sürprizi hazırlayıblar.

Həzarpeşələr!

Göygöz kirpikli Eldar sevinə-sevinə ЛИЧКА alıb gətirdi mənə və bu an, ona həyəcansız baxmaq mümkün deyildi.

O, ağ sülh göyərçinini xatırladırdı.

İndi bu yeniliyi məktubla yazıb göndərmək olardı. Və artıq, ПОГОН-larıma СЕРЖАНТ ЛИЧКА-larını fəxarətlə tikə bilərdim.

Yeməkxanada uşaqlar elə hey Nadiri dolayıb cırnadır, onu lağa qoyub, eninə-boyuna gülürdülər: Bura cırdaxan deyil əə, kəndinə gəl...

Taytax yaman hazırlaşmışdı, heyif alınmadı. Humanistcəsinə desək, onu aldatdılar.

Necə deyərlər 1:0 Dyakivin xeyrinə!

Taytax Nadir acığa düşüb fəğan elədi:

-Öz payına deyirəm anasını belə-belə eləyim bu gündən işləyənin. Düz evə gedənə kimi, içkidən içib САМОВОЛЬЩИК-lik eliyəjəm.

Duduşlar!

Və bu kimi, yanğısöndürən həzm cihazı.

КАЗАРМА-da РОТА cərgəyə düzüləndə, ağdamlı ЕФРЕЙТОР İlyas Mamedov dəstədə yaxası açıq, çox saymazyana dayanmışdı.

Törpügörməmiş Bryusov, onun üstünə üç dəfə dalbadal qışqırdı:

-БЕГОМ КАНЦЕЛЯРИЯ!

Di gəl ki, daşdan səs çıxdı, həlim İlyasdan səs çıxmadı. Sanki cansız heykəl idi.

ПРАПОРЩИК Bandısik... qəfil arxadan yapışaraq İlyasın ayaqlarını yerdən üzdü və quçağına qaldırıb, düz КАНЦЕЛЯРИЯ-ya kimi sürütlədi.

İlyas nə qədər çapalasa da, Bandısikin dəmir barmaqlarından canını qurtara bilmədi.

Bryusov, baş işarəsiylə məni də çağırdı.

Birlikdə getdik.

Çatan kimi, üzünü donuzaoxşar Bandısikə tutub, ucadan rəsmi qaydada əmr elədi:

-Dərhal bu HAVNO-nu bas hauptvaxta.

Hünər göstərirmiş kimi... lovğalanıb mənə də göstəriş verdi ki, bu saat onun РЕМЕН-ini aç. Bu МУДАК iki ildi qulluq edir, məni hələ yaxşı tanımayıb deyəsən... Gethagetdə, СТАРИК-lik eləmək eşqinə düşüb БАЛВАН!

Üzünə baxa-baxa gülümsəyib öz dilimizdə arxayınlıqla dedim:

-Səni əcinnələr tanısın, İlyas yox...

-РАЗГИЛДЯЙ! -qışqırdı İlyasın üstünə.

Ağdamlı ЕФРЕЙТОР İlyas, qorxusundan limon kimi saralmışdı. Ağzı kilidlənmiş halda, dinib-danışmadan papağıyla РЕМЕН-ini açıb mənə verdi. Və gözlənilmədən, qəmli-qəmli Kor ərəbin mahnısını züm-zümə eləməyə başladı.

Hüyrətə gəldim. Onlar tələsik çıxdı.

Bir qədər gileylənib, atılıb-düşəndən sonra Bryusovu yumşaltdım. Qımışıb, məzələndi:

-Yaxşı, bayram günüdür, get qaytar onları!

Bryusovun halı tez-tez dəyişir, hərdən də ları xoruz kimi başını dartıb, yaman burulurdu...

Cəld xallı Arifi də götürüb, yüyürə-yüyürə tərpəndim. Bir də gördüm çənə Telman, İlyas və Bandısik birlikdə qayıdıb gəlir. Sən demə, bayram olduğundan hauptvaxta qəbul yoxuymuş...

Bandısiklə ЕФРЕЙТОР İlyası qabağıma qatıb, КАЗАРМА-ya gətirdim.

Bryusov, ilyası görən kimi dərhal bağırdı:

-КАНЦЕЛЯРИЯ-nı yu, БАРАН!

Kələk də elə bunun başındaymış!

РЕМЕН-ini bağlayıb, papağı başına qoyub, İlyas vedrə, ТРЯПКА dalınca getdi. Düz 23 aydır, o beləcə, itaətkarlıqla döşəmə yuyur, çəkmə təmizləyir, НОСИЛКА-yla beton daşıyır, meşox-meşox kartof soyurdu. Tərxis olunacağı günə sayılı günlər qalanda... yaxası açıq, cərgədə saymazyana durub СТАРИК-lik iddiasına düşəndə bilmirdi ki, çanaq başında çatlayacaq?

ЕФРЕЙТОР İlyas döşəməni yumağa başlayanda uşaqlarla yığışıb futbol oynamağa getdik.

Bir qədər oynamışdıq ki, Şamxor ermənisi Alik Ohanesyan gəldi. Çox sakit tərzdə, təmkinini belə pozmadan, yad adam haqqında danışırmış kimi astadan dedi:

-КОМЕНДАТУРА-nın növbətçi patrulları, САХАРНЫ-da taytax Nadirlə Səbuhini kefli tutub hauptvaxtın əvəzedici kamerasına basıblar.

Elə o təmkində də, mən soruşdum:

-Nədi, çapqınlıq ediblər?

Gözləri hədəqəsindən çıxmış halda, taytax and içmişdi ki, ЛИЧКА-ları gecələr taxıb, şəhərdə ПАТРУЛЬ-luq eləyəcək. Daha fikirləşmirdi ki, axı axsaq adamdan ПАТРУЛЬ olmur.

Di get! Dincəldinmi?

Ancaq onu da qınamırdım, çünki cilik-cilik olmuş ЛИЧКА arzusu onu bərk yaralamışdı.

Bəs Səbuhini cin atına mindirən nəydi görəsən? O nədən qoşulmuşdu Nadirə? Sonradan

o da məlum oldu: Sən demə... saxladığı cilvəkar qadının nə kələyi varmışsa, bu dəfə barbarlıqla ona dirsək göstərib.

Görünür qadın azadxahlıq istəyirmiş.

Axı ruslar, ukraynalılar, ümumiyyətlə xristianlar hürriyyətpərvər olur. Ola bilər çox məzəmmət edib, Səbuhini abra sala bilməyib. Sondasa zərərdidə qadın bu yolu seçib.

Səbuhi də abdal Nadirə qoşulub sərsərilik etməyə başlayıblar. Kişilər dəsxoşa gedib.

Nə isə, əlimizdən heç nə gəlmirdi. Maraqları olsa onlara yalnız zabitlər kömək edə bilərdi.

Bir də ki, qoy ağılları başlarına gəlsin...

Saat 17:30-da klubda kinoya getdim.

Xarici film idi: "ВРЕМЯ ЖИТЬ." Yaman xoşuma gəldi. Oğlan bizim kimi ШТУКАТУРЩИК olur. Çoxluca işləyir, arvadını gəzdirməyə aparmırdı. Axırı arvadı bezib təkbaşına restorana gedir.

Yeyib-içir, çıxıb şəhərdə veyillənir və sonda, çimərlikdə bir oğlanla tanış olur. Çox götürqoy edir ki, o oğlanla gəzsin, ya yox. Oğlanın da arvadı olur və axırda hər ikisi, səhv elədiklərini anlayıb dərk edir, ailələrinə həngamə yaratmırlar və sonda halallıqla hərə öz evinə dönür.

Film xoşuma gəldi.

Bu günüm də, bu münvalla kecdi.

Zamanında olmasa da... böyük əhəmiyyət verdiyim yeni xəbəri ОДЕССА-ya Nazıya, Tbilisiyə Tahirə, Bərdəyə qardaşım Vidadiylə Əlövsə-

tə, ФЛОРЕШТЕ-yə Tariyel Muradova, Daşkəndə axıska türkü və tülkü Süleyman Zahidova yazıb göndərdim. Partiyaya keçə bilməsəm də, heç olmasa СЕРЖАНТ ola bilmişdim...

КОЙКА-mda uzanıb Dostoyevskinin kitabını açdım. Cinayət və cəzadan oxumağa başladım:

''Raskolnikov cinayət üstündə tutulan... və tutulduğu üçün də, qorxan balaca bir uşaq kimi pıçıldadı:

-Mən öldürməmişəm.

Porfiri öz dediyinə qəti surətdə inanan bir adam kimi ciddiyətlə pıçıldadı:

-Yox, siz öldürmüsünüz, Rodion Romanıç, siz öldürmüsünüz!"

Yuxu nə vaxtsa məni aparar...

Oyananda, kitabı yorğanın üstünə düşmüş gordüm. Nədənsə, intəhasız dərəcədə çox yatdığımı düşündüm...

Bayram günü olduğundan, bu gün də, PO-TA-ya QALXIN! -əmrini saat 07:00-da vermişdilər.

Yaxşi yatıb dincəlmişdim. Özümü çox rahat, gümrah, sapsağlam hiss edirdim. Bədənim xeyli canlanmışdı. Yuyulub ütülənmiş xebələrimi əynimə geyindim. Boynumdakı ağ ВОРОТНИЧОК ağappaq, uzunboğaz əsgər çəkmələrim tərtəmiz idi. Saçlarım da səliqəylə vurulmuşdu. Güzgüdə özümün-özümdən xoşum gəldi. Evə gedənə kimi saçımı vurdurmasalar, yaxşı olacaq.

Bircə evə gedən günüm olaydı...

Hər dəqiqə fikir dəryasına qərq olur, institutumuzu, tələbə dostlarımı, evimizi... ağ mirvari sırğalı Məhbubə xalanı, Komsomolu və bir də, çex Yitkanı olduqca çox düşünürəm.

ЛЕНКОМНАТА-da, divardan asılmış dünyanın xəritəsinin qabağına tez-tez gəlirəm... ЧЕХОСЛОВАКИЯ-ya, Azərbaycana baxır, baxmaqdan da doymur, elə hey həsrətlə tamaşa edirəm.

Əlimə keçən qəzet və jurnallardan PRAHA haqqında məlumatlar oxuyuram.

Deyəsən, DUKLA PRAHA futbolçuları, bizim Bakının NEFTÇİ futbolçularından cox güclüdür.

Bax beləcə, düşüncələrlə yaşayıram. Artıq əsgər həyatı mənə yadlaşıb. Sanki, qonağam...

POTA-nı kartof soymağa apardılar.

САНЧАСТЬ adı ilə aradan çıxmışdım.

САНЧАСТЬ-ın yanındakı asfalt meydançada xəstə-xüstə rus əsgərlərə qoşulub, bir qədər futbol oynadım. Abı rəngli rezin top, deşik olduğundan yaxşı oynaya bilmirdim, ləzzət eləmədi.

КАЗАРМА-ya döndüm.

ЛИЧКА almaq bəhanəsiylə... kuybışevli Hüseyindən borc pul almaq istədim. Amma, üzüm gəlmədi. Nə qədər elədim özümlə bacarmadım.

Saat 12-03 idi.

Hələ СЕРЖАНТ rütbəsini ПОГОН-larıma tikməmişəm. ЛЕНКОМНАТА-da oturub gündəlik yazmağa başladım. POTA-nın МОЛОДОЙ-ları kartof soyur, СТАРИК-ləri isə orda-burda girələnir, hərə

öz qayğılarıyla, hərbi xidmətinin yükünü çəkirdi. Şaşki, domino oynayan kim, ДЕМБЛЬ-ə hazırlaşan kim, paltar yuyan, üz qırxan ВОРОТНИЧОК tikən, САПОГ mazlayan kim, televizora baxan, radioya qulaq asan, məktub yazan kim ...

Özünü öyməklik olmasın, yeri düşmüşkən onu da vurğulayım ki qarnizonun bütün əsgər və zabit heyətləri arasında, yeganə adam mən idim ki, gündəlik yazırdım.

Heçə-puça vaxt keçirən deyildim.

Klubda kinoya getdim. ЗОЛОТОЙ ТЕЛЕНОК filmini göstərirdilər, xoşuma gəlmədi. Zira... zövqümə yatmadı. Düzü, gülməli, komedik, fantastik və macəra janrında çəkilən filmləri sevmirəm. Kədərli, elmi, tarixi və əsası da, romantik sevgidən bəhs edən həyati fimləri, daha çox bəyənirəm. Uşaq vaxtı hind filmlərinə baxıb, çətinə düşənlərin halına dəyanətsizliklə necə ağlayardım!

Çox sadəlövh idim. Çox... Elə, sadəlövhlüyüm ucbatından da təkəbbürlü Xuramanın məkrinə vaqonda keçirdiyimiz gecəyə kimi inana bilməmişdim. İlahi, o ayağı yanıq qızı, necə ürəklə sevirdim! O gecə, qatarda, qəlbim sınandan çox sonralar, dərk elədim ki, o heç gözəl də deyilmiş və hətta bir ayağı yanıqmış.

Amma, onu qəlbimdə dəfn eləmişəm. Məzarlıqda yox. Mən onu sevəndə, bizim 15-16 yaşımız vardı. Hər ikimiz ülvi hisslərlə sevişmişdik!

O, 17 yaşından sonra, qəfil məkrləşdi...

Onunla yaşanan hisslərim, ilahi hisslər idi. Onun özünü daha heç vaxt qəbul edə bilmərəm. Ancaq hisslərimi, ona olan ilk sevgimi və onunla bağlı olan bütün xatirələrimisə, ölüncə ürəyimdə yaşadacağam. Pərvərdigarə onu sevəndə nağıllara necə inanırdım! Biz orta məktəbdə bir sinifdə oxuyurduq. Krılovun təmsillərini oxuyub... inanırdım ki, quşlar və heyvanlar da öz dillərində danışa bilir, hətta bir-birləriylə sevişirlər.

Qarasuyun saralmış qamışları üstünə qonan müxtəlif quşlarla ürəyimdə pıçıldaşar, Xuramanı sevdiyimi onlara danışıb... dərdimi onlarla bölüşərdim. Ağacda civildəşən sərçələrlə də pıçıldaşardım. Bax belə sadəlövh idim!

Nə isə...

Bu gülməli filmə axıracan baxmağa səbrim catmadığından, kinodan yarımçıq çıxdım.

Qulağım daim səsdə idi. Bəlkə indicə hansı zabitinsə çöhrəsində, çox mənalı və bir tarixi təbəssüm, çağırıb məni deyəcək: “Get hazırlaş!”

Mənə ehtiyyat yolpulu lazım idi.

Qardaşım Rafiqin zərfindən çıxan 10 manatın üstündən xərcləmişdim... Yolda, təsadüfən kuybışevli Hüseyinlə qabaqlaşdıq və onun təkliyindən istifadə edib 1 РУБЛЬ borc istədim, daha utanmaqdan kecmişdi. Pul gələndə, qaytararam deməyi də unutmadım.

O, kəlmə də dillənmədən əlini cibinə salıb, üç-dörd manat pul çıxartdı və ovucunda mənə

uzatdı... Onun 20 yaşı olsa da, işləməkdən artıq kobudlaşmış əlindəki üc-dörd təklikdən... yalnız birini gotürdüm. O pulu cox ürəklə uzatdığı üçün ikincisini gotürməyə utandım.

Becid, ВОЕНТОРГ-a tərpəndim.

Bahalı ЛИЧКА almaq istəyirdim, olmadı, o biri mağaza da bagli oldu...

Televizorda futbol olyunlarını göstərirdilər. Moskvanın СПАРТАК futbol kulubu, İspaniyanın ATLETİKO Madrid komandasıyla 4/1 finala çıxmaq uğrunda yarışırdı.

СПАРТАК 2:0 hesabı ilə uduzurdu.

Sona yaxın bir top vura bildilər. İki oyunun cəminə görə bu СПАРТАК-ı növbəti 4/1 final mərhələsinə çıxartdı.

ДИНАМО КИЕВ isə, ГУРНИК ПОЛЬША-yla oynayırdı. Bizimkilər güclü idi.

Oyun ВАРШАВА-da keçrilirdi.

İlk görüşdə, kiyevlilər 2:0 hesabıyla qələbə qazanmişdı, bu dəfə də, nəsə eləməliydilər.

Elə də oldu.

Hesabı ukraynalılar acdı... Sonra polyaklar iki qol vura bildi və səfər oyununda vurduğu bir topa görə, ukraynalılar da 4/1 finala cıxa bildilər.

Yerevanın ARARAT futbol kulubu da Syurix komandasını 4:2 hesabıyla udub, 4/1 finala çıxmağı, tülkülər bacardı...

Nahar yeməyinə saat 15:00-da getdik.

Oturan kimi... qabdakı, buğlanan yeməyin

içindəki ətin yaxşı tikələrindən bir-neçəsini alüminium boşqabıma cəkdim. Ümumiyyətlə ət yeməyi sevmirəm və fikrim vardı ki, ЕФРЕЙТОР İlyasla böləm. O Bryusovun qəzəbinə tuş gəldiyindən hələ də КАЗАРМА-da ПАХАТЬ eləyir və elə buna görə də gecikirdi.

Təpərsiz Mürşüd də mənə baxıb, çaparaq qabdakı tikələri öz qabına tökdü.

Yerdə qalan uşaqlarasa, hec nə qalmadı.

Təpərsiz Mürşüdlə ağızlaşdım və acıqla əl uzadıb onun qabını qarşıma çəkdim. Öz qabımdakı tikələri də onun qabına əndərərək dedim:

-Al, gözün doymursa bunları da ye...

Məzəmmətlə, hərə bir tərəfdən onu qınayıb məsələyə müdaxilə eləyəndən sonra, sakitləşib yeməkləri yenidən böləsi olduq.

Diksiyası aydın olmayan Mürşüd, son günlər yamanca baş aparır... Bayramdan sonra onu hauptvaxta basacaqlar.

Allah axırını xeyirli eləsin.

Tahir Ağayevdən və СВЕРДЛОВСК-lu Nataşadan bayram münasibəti ilə açiqca aldım. Təbrik edirdilər. Sonra bir teleqram da gətirdilər. Bunu da... Yevlaxdan atamın katibəsi göndərmişdi, qarayanız, gur, qıvrımsaçlı Rəfiqə. Bu üc nəfərdən başqa hec kəs məni təbrik eləmədi...

Cinayət və cəzanı oxuyurdum.

Gözəlovdan xəbər gəldi ki, ermənilər yığılıb sizi gözləyir. Futbol oynayırsınızsa, gedib ya-

rışa bilərsiniz, onlar artıq stadiondadır.

Birdən necə oldusa, həvəsə gəldim və qalxıb müsəlman uşaqlarımızı toplamağa getdim.

ГАРНИЗОН üzrə Azərbaycanla Ermənistan arasında futbol yarışı keçiriləcək, ideal oyun alınacaqdı. Amma uduzsaq, biabırçılıq olardı.

Stadiona yığışdıq. Hər komandadan yalnız 9 nəfər tapıb yığa bildik. Razılaşıb, elə doqquzdoqquza da oynamağı qərara aldıq.

Biz ağ, alt əsgər köynəklərində, onlar isə çılpaq bədəndə oynayası oldu.

Hakimlərisə rus əsgərlərdən seçdik.

4:2:2 sistemi qurdum.

Oyun başladı...

Birinci hissə demək olar, bizim tam üstünlüyümüz şəraitində kecdi. Uzaqdan və kəllə ilə cərimə meydançasından vurduğum, güclü zərbələri Karcikyan məharətlə qaytara bildi. Kirpikli, göygöz Eldarın uzaqdan vurduğu topsa, qapı dirəyinin azca üstündən vıyıldayıb keçdi.

Hakim, ermənilərin qapısına 11 metrlik cərimə zərbəsi təyin elədi və Turabxan yalvardı ki, qoy mən vurum.11 metirlik cərimə zərbəsi də dirəyin yanını yalayıb kecdi.

Bizimki, demək olar gətirmirdi.

Onların müdafiəçilərinin səhvindən istifadə edərək topu aldım... və qapıya yaxınlaşıb güclü zərbə vurdum. Top, qapı dirəyini silkələyib, geri qayıtdı. Bir sözlə, ermənilərin bəxti gətirir, sanki

hesab açılmaq istəmirdi.

Onlar demək olar ki, bir dəfə də olsun təhlükəli qol vəziyyəti yarada bilmədilər. Beləcə, birinci hissə dava-dalaşsız heç-heçəylə başa çatdı. Ümid qaldı ikinci hissəyə.

Rus hakimini hər iki komanda eşidirdi.

İkinci hissə, heç gözləmədiyimiz halda onların çox güclü hücumu ilə başladı.

Müdafiəçimiz xallı Arif üstünə gələn güclü zərbənin qarşısını ala bilmədi və top onun ayağına dəyərək, istiqamətini dəyişib qapımızın torunu silkələdi. Qapıçımız Ələkbər, heç Ədalətin sözü olmasın dəbərə bilmədi.

İkinci hissənin başladığı cəmi 5 dəqiqə idi.

Çərdəymiş ermənilər hesabı acdı.

Mərkəzdən başladıq... Və dərhal da, güclü hücuma atıldıq. Geriyə yol yoxuydu.

Göygöz, kirpikli Eldar... qayışbaldır Turabxan... baş-beyni aparan Adilov, dəmdəməki Gözəlov, hamısı ayaqlarına top düşən kimi, gözləri məni axtarır və məni zərbə mövqeyinə çıxarmaq istəyirdilər... Şappıltı ilə yerə dəyməyimlə ayağa qalxmağım bir olurdu.

Topu ələ kecirən kimi... özümdən xeyli qabaga atır, ardınca sürət götürüb qaçır və hamını arxada qoya bilirdim. Və belə hücumların birində, axır ki, toru silkələyə bildim!

1:1...

Oyun yamanca qızışmışdı.

Meydançada əsil mübarizə gedirdi.

Diqqətəşayan Ələkbər, qapımızı çox yaxşı qoruyur demək olar etibarlı oynayır, şücaət göstərirdi. Hətta, kəlbəcərli, az aşın duzu olmayan Sahib Əkbərov çır-çır çığıraraq mənə dedi:

-Görürsən necə fədakarlıq edir də... belə-sini günün günorta çağı çıraqla axtarsan da, nə Kəlbəcərdə, nə də ki, Bərdədə heç vaxt tapa bilməzsən. Bu ayrı zırıltıdı!

Daim yanımda iki erməni dayanırdı.

Amma hər dəfə də onlardan yayınır, qaçır, müdafiələrində çaşqınlıq yarada bilirdim.

Oyunun qurtarmasına 10 dəqiqə qalmışdı. Mərkəzdə topu qəbul eləyib, yenə irəliyə ataraq arxasınca götürüldüm və qabağıma çıxan ermənilərin hamısını bir-bir aldadaraq, qapıçı ilə təkbətək qaldım və güclü, sərrast zərbəylə toru silkələdim. İnanılmaz oldu.

Qol! Qol! Qol!

Uşaqlarımız sevincdən məni basmarlayıb yerə yıxdılar və hər gələn də, hoppanıb bir-birinin üstünə mindi...

Hesab 2:1 bizim xeyrimizəydi.

Artıq diqtə edirdik... Oyunun qurtarmasına lap az qalırdı... Ermənilər, demək olar hamılıqla hücuma atıldı. Amma bizim Araz aşığından, Kür topuğundan olan uşaqlar fədəkarlıq edir, özlərini az qala öldürürdülər. Əlhəmdüllah udurduq.

Axır ki, hakim rus əsgər, fitini çalıb oyunun

qurtardığını, qollarını yuxarı qaldırıb, sonra mərkəzi göstərməklə bildirdi.

Bizimkilər dağ daylaqları kimi... hara gəldi, soncuqla-soncuqla qaçmağa başladılar!

Sevincimizin həddi-hüdudu yoxuydu.

Ermənilərin çırağı söndü.

Aşığı alçi durmuş göydodaq Ədalət üzünü Stepanyana tutub, ironiyayla dedi:

-Aşıqqoz oynamaq deyil eyy, futboldu bu, gedin, kirvələrinizdən hələ öyrənin siz...

Hamı bir-birini qucaqlayıb, tarixi qələbənin eyforiyasını yaşayırdı.

Aşına su qatılmışlar, yamanca pərt olmuşdu. Öz aralarında ermənicə danışıb, hirs-hikkəylə mübahisə edirdilər...

Qan-tər içində КАЗАРМА-ya qayıtdıq.

Stepanyan xahiş elədi ki, əgər gələn bazar gününə kimi ДЕМБЛЬ-ə getməsəniz, təkrar bir də oynayaq. Ya xan ölər, ya eşşək məsəli kimi, biz də dərhal razılaşdıq.

Qələbəmiz mühüm və əhəmiyyətli idi.

Ermənistan-Azərbaycan məsələsi, əsrlərlə olduğu kimi, yenə ortalıqdaydı...

Yuyunma otağında yuyunub, nəmli, ağ alt gecə köynəklərimizi qurudub, dəyişəndən sonra suşilkada, isti boruların üstündə uzanıb, xeyli bu sevinci birlikdə, bəxtəvərliklə bölüşdük.

Hərə öz qəhrəmanlığından gopladı da.

Müsəlmançılığa xas olan bir şey...

Çarpayımın yanındakı dolabçamdan Cinayət və cəzanı götürüb, ЛЕНКОМНАТА-da oxumağa başladım. Kitabın ən şirin yerləri olduğundan birnəfəsə oxuyub, axırına çıxdım.

Xırda şriftlərlə yazılmış 600 səhifəlik, belə, qalın bir romanı axır ki, oxuyub qurtardım. İndiki çapdan əvvəl çap olunmuş başqa kitabda şriftlər bir qədər iri olduğundan duz 700 səhifə idi.

Kitab 1866-cı ildə yazılıb.

O dövrdə, Rusiyanın özü təhkimçilik hüququndan təzəcə azad olmuşdu... Ya, Avropa kimi kapitalist inkişaf yolunu, ya da ki, sosializmi seçmək ərəfəsindəydi. Bu ziddiyyətli dövrdə, Dostoyevski Rusiyanın gələcəyini... inqilab və ədalətli sosial quruluşda yəni bizim indi yaşadığımız cəmiyyətdə yox, xalqın... rus pravoslav dininə tapınaraq, yalnız mənəvi kamilləşmə yolunu tutmasında görürdü. Düz kimdir, gələcək göstərəcək.

Dahi söz ustası... fəlsəfi düşüncəli, insanın iç dünyasını açan bu romanı çox sərrafliqla yazmışdı. Ağlın və məntiqin qəbul etdiyi həqiqəti... insan qəlbi və insan mənəviyyatı qəbul etmir.

İnsanlar adilərə və qeyri adilərə bölünür.

Adi insanlar... sadəcə nəsil artırmaq üçündür. Qeyri adilərin məqsədi isə... tarixdə yeni yol açmaq və bəşəriyyəti irəli aparmaqdan ibarətdir.

Kitabı oxuyub qurtaranda mənə yaman pis təsir elədi. Raskolnikov bir qoca gərəksiz qadını öldürüb və onun var dövlətinə sahib olmaqla, bu

kiçik cinayətin müqabilində cəmiyyətdə özünü təsdiq edib, yüzlərlə xeyirxah işlər görməklə, ismətini satan cavan qızları belə xilas etməklə günahını yumaq istəyir.

Sonda... ideyası ilə mənəviyyatı, ağlı ilə öz ruhu arasında qalaraq, iztirab çəkir... Sonya ondan təkidlə tələb edir ki, şəhər meydanına getsin... və orada diz çöküb torpağı öpsün, hamının qarşısında törətdiyi cinayəti etiraf etsin.

İnsanlardan və Allahdan üzr istəsin.

Çünki, o torpaq, insanlar və Allah qarşısında günahkardır. Raskolnikov, diz çöküb torpağı öpür, Allahdan bağışlanmasını rica edir, ancaq, meydandakı insanlardan üzr istəmir. Axı onu ələ salan insanlardan üzr istəmək, onun heysiyyatına toxunur. O, o insanların nəyindən əskikdir?

Bax bu, onun mənliyini sarsıdır. Onun qəlbində mərhəmət hissini tükəndirir...

Raskolnikova 8 il həbs cəzası verdilər.

Yanına, uzaq Sibirə... yalnız Sonya gedir. Raskolnikov məhkum olunan kimi, dərhal onun dostu Razumixinə ərə gedən, sevdiyi Dunya da görəsən əriylə Sibirə gedəcəkmi?

Bu xəyanət ortalıqdaykən...

Kitab məni yaman tutmuşdu. Rus dilində, ağır oxusam da, çox maraqlı, dərin kitab idi.

Doğrudan da, bütün ziddiyyətlərin həlli, insanın kamilləşməsindən keçir. İnsanın həyatda ən böyük qələbəsi, özü üzərindəki qələbəsidir.

Özünün, öz ehtiraslarının, təmannalarının qulu olan insan azad sayıla bilməz...

Roman, məni yamanca duyğulandırmışdı.

Pullu filmə də, şam yeməyindən sonra verilən pulsuz filmə də baxa bilmədim.

Kitabı əlimdən yerə qoya bilmirdim.

Çox yorğun idim.

Həm futbol, həm də ki kitab, məni tamam əldən salmış, göz qapaqlarımı ağırlaşdırmışdı.

Sabah da iş günüydi.

Yerimə girəndə də, Cinayət və cəzanı düşünür, götür-qoy edir, fikirlərləşir, hər şeyi gözlərim önündə canlandırırdım.

Amerikalı Drayzer, türk Rəşad Nuri Güntəkin, ya Stefan Sveyq, Gi de Mopassan, ya bizim Salam Qədirzadə, Əlfi Qasımov, Həsən Seyidbəyli və digərləri... çox oxunaqlı, sadə, şirin dillə yazsalar da, F.M.Dostoyevski ağır oxunsa belə, o əlçatmaz düha idi...

СЕРЖАНТ rütbəmi bu gün də ПОГОН-larıma tikə bilmədim. Hərbi xidmət dövrümüzün sonuncu bayram günü də beləcə sona yetdi...

# Taytax Nadirin çin olan hauptvaxt arzusu...

# Şamxor teatrında yaşanan vəlvələ

*Pervomayski, 9 və 10 noyabr 1972-ci il,*
*IV və V günlər.*

Səhər yeməyinə gedəndə, yolüstü Səbuhi və taytax Nadirlə qarşılaşdıq. Onları, yevlaxlı ПАТРУЛЬ Hüsən qabağına qatıb, sürüdən ayrılmış quzu kimi, hauptvaxtdan ЗАКАТОВКА-ya gətirirdi. Müticəsinə başlarını aşağı dikmişdilər.

Görüşdük.

İtə dönmüş Nadir məni yaman qucaqladı!

Hauptvaxt onu yamanca kövrəltmişdi. Sən demə, əsəblərini cilovlaya bilmədiyindən ona işgəncə verib məsxərəyə qoyan uzunboy belorus-lu МОЛОДОЙ rus СЕРЖАНТ-ı babat vurub.

Hauptvaxtda olan СЕРЖАНТ və zabitlər də tökülüşüb, onu, o ki var isladıblar.

Burnu şişmişdi. Qarnı ağrıyırdı… POTA-da çox iri-iri danışır, çox hauptvaxt arzulayırdı.

Gecələr yatdığı nəm beton döşəmənin üstünə xlor məhlulu tökürlər… və iştux səhərə kimi gözyaşardıcı tünd xlor iyindən çimir kəsə bilmir. Yalvardı ki azərbaycanlı həkimə xəbər verin məni bu gecə buradan çıxartsın. İt də getdi, ip də. İtaətdən çıxmışam, məsələ qəlizləşib, itlə-pişik kimi dolanırıq. Başqa əlac yoxdu.

Amma, nə qədər ki, bu xarabaya düşməmişdi, zavallı çox yelli gedrdi.

Hauptvaxt sakinləri ayrıdı!

Salyanlı Adil hauptvaxta gedəndə, heç vecinə də almırdı. Görünür ki hər yerin öz sakinləri var. Hapa-gopa basmaqla deyil…

İşə gedəndə Qreşnoyun: PA3, PA3, PA3… -ına təpikdən atdıqca, özümü gümrah hiss edirdim. Sanki, dünənki futbol məni yorub, əzələlərimi gərərək göynətməyib.

Bu payız günü yaxşı da gün çıxmışdı.

Günəş, qıpqırmızı şəfəqlərini kəndin üzərinə necə salmışdısa, hər yan qızılı rəngə çalırdı.

Amma, havada soyuqluq hökm sürürdü.

Adamın burnu, qulaqları və əl barmaqları üşüyürdü. Təpik döysəm də… fikrim orda-burda dolaşırdı. Kəndin ayağındakı hündür şam ağacının üstünə iri bir keçələkərkəs qonmuşdu. Görünür kənd çəpişlərindən hansınısa qaralayıb.

Ağlıma hardan girdisə, öz uşaqlarımızdan maraqla soruşdum:

-Kim son dəfə ЮЖНЫЙ БУГ çayını keçib al-

ma bağına getmək istəyir, keçini bostana buraxmaq vədəsi yetişib...

Deyəsən, heç kim getmək istəmədi.

Heç hayıma hay verən olmadı. Yanaşı addımladığımız Şahmarla Çimkənd şəhərinin Çapayev kolxozundan olan, həmişə fikirli və dalğın görünən Sərvər Toşenov səsimə səs verdi… və necə oldusa, qəflətən məndən soruşdu:

-ТОВАРИЩ БАБАЕВ, ilkindi vaxtı, nə vaxtdı?

Düzü, bu sualdan diksindim. Danışıqda işlətməsəm də, dəfələrlə bu sözü kitablardan oxusam da, fərqinə, elə də varmadığımdan çaşdım, tutuldum və özümü toparlayaraq kəkələyib:

-Günün günortadan sonrası… axşama yaxını, -pıçıldadım.

Elə bu vaxt…

İkimərtəbəli kənd evinin taxtapuşundan bir məktəbli oğlan dəstəmizi görüb bağırdı:

-БЕГОМ!!!

Bütün POTA çönüb bu uşağa baxdı, ruslar gülümsəsə də… bizim üşaqlar öz dilimizdə üşağın ana-bacısından, abavü əcdadına kimi babat yağladılar. Söyməyənlərsə kirli barmaqlarını suyu axan ağızlarına salıb, fitlədilər.

Biz beləyik.

Bizim Şərq küçəsində, bu yaşda uşaqların çoxu gözü qıpıq olar, ənizəlik eləməzdilər.

Vasvası və tələbkar Qreşnoy səsi yetdikcə uzada-uzada çığırırdı:

-ВЫШЕЕ, ВЫШЕЕ НООГ!

Mənə elə gəldi ki, onun boğazı deşildi.

Əhəngli divarından iri güzgü asılmış, kürsülü evin artırmasında… taxta məhəccərə söykənmiş, başı narıncı rəngli yun şalla bağlı, bir işvəkar cavan gəlin… keçiayaq Qreşnoyun çığırtısına cavab olaraq, özünəməxsus bir ədayla qışqırıb, cır səsiylə dedi:

-ВОЛЬНО!!!

Butun əsgərlər bu qadına əl elədi…

ВОДОЗАБОР-da РОТА dağılan kimi, iş icraçısından görüləcək tapşırığı alıb, əsgərlərin arasında böləndən sonra, kuybışevli Hüseynə БУШЛАТ, РЕМЕНЬ və ПИЛОТКА-mı verib… Şahmar və Sərvər Toşenovla ЛОДКА götürməyə getdim.

Biz qayığı götürəndə… yaxınlıqda işləyən əsgərlərin hamısı bizə baxırdı. Zabitlər də görə bilərdi. Ancaq, hər şeyi gözümüzün qabağınaca alaraq, tamamilə bəlli riskə getdik.

İstiqaməti yana götürərək, taxta ЛОДКА-nı lam axan çay axarı boyunca suya salıb, avarları üzü almalığa sarı çəkə-çəkə, ЮЖНЫЙ БУГ çayını piratlar kimi adlayıb, o taya keçdik.

Sanki, abi-zəmzəm arxasınca gedirdik.

Qayığl sahilə çıxararaq içərisinə dolan bulanıq suyu boşaldıb, avarları içinə ataraq, arxası üstə cevirdik. Köhnə taxta qayığı qaydasına qoyub, kənd yoluyla, üzü yuxarı dırmaşmağa başladıq. Alma bağları bir qədər aralıdaydı…

Ağaclarda demək olar yarpaq qalmamışdı. Alma deyilən şey də, üstündə yoxuyudu. Bağın içərilərinə doğru getdikcə, yerə düşmüş tək-tük çürümüş almalara rast gəldik. Çılpaq bağda yarım saata qədər gəzib-dolaşandan sonra, alma yemək bəhanə olsa da, bir neçə budaqda müxtəlif yerlərindən… qurdlayıb saralmış alma tapıb şirin-şirin yeyə bildik. Qalınqaş Şahmar ağzında türkü zümzümə eləyir, tez-tez də deyirdi:

"Kaş yanımızda, bir tütəkçalan da olaydı. Türkü oxuyanda təpəmdən tüstü çıxır."

Bu an, əsas məsələ oydu ki, azad idik.

Biz yeniyetmələrə, azadlıq… nağılabənzər sönən qürub kimi, əlçatmaz olmuşdu.

Geri qayıdıb, sahilə çatanda… uzaqdan iki əsgərin gəldiyini gördük və cəld, taxta qayığı çevirib, hər ehtimala qarşı aradan çıxmaq istədik.

Amma, gec oldu.

Onlar bizi artıq görmüşdü. Yaxınlaşan kimi gördüm, seyrəkbığ Kuruskanovla Turabxandır.

Atsifət, qayışbaldır Turabxan onu dilə tuturdu ki, bu barədə heç kimə deməsin.

Kuruskanovu aldatdıq ki, bu taydakı kənddə bir zabit yaşayır ondan lavsan ПАРАД mundiri almaq üçün getmişdik.

-Bəs hanı aldığınız mundir? -qəfil soruşdu.

-Evdə tapa bilmədik onu, -dedim.

Bir az da, Kuruskanova qılıqlandıq ki:

"Sonalama taa, ДЕМБЛЬ-ə gedirik dəə…"

Hərçənd, Kuruskanov conucda sıyılsa da, amma çox ciddi və səmimi şəkildə:

-Sizi görməmişəm! -dedi.

Qayıqla qayıdıb iş yerinə gəldik.

Uşaqlar məni görən kimi… ucundan tutub, ucuzluğa getdilər: Bryusov gəlib səhərdən səni axtarır, hərəmiz bir bəhanəylə başını qatmışıq.

Saat 11:27 idi, qəfil çığırtı qopdu.

Beş TATRA maşını ЩЕБЕНЬ gətirdilər.

Və dərhal musəlman əsgərləri işdən ayırıb meydançaya tökdülər. Torpaq yol uzunu özüboşaldan maşınlar bir-birindən 15-20 metr aralıya, ЩЕБЕНЬ-ləri boşaldıb gedirdilər.

Nahara kimi, НОСИЛКА və bellə ЩЕБЕНЬ-i dağıdıb yol düzəltdik…

Yeməkdən sonra istirahət vaxtında beş-beşə bölünüb, yamacda futbol oynadıq.

Hesab 12:12 oldu.

Bizim komandanın vurduğu 12 topdan 11-nin müəllifi özüm oldum. 11 qolunsa, yalnız birini 11 metirlik cərimə zərbəsindən vurmuşdum.

Yaman yorulmuşdum.

Saat dördə işləyəndə iş yerinə getdik.

Uşaqlar yavaş-yavaş işləyir, futboldan danışıb, deyib-gülə lağlağı eləyirdilər.

Toran çalanda, ЩЕБЕНЬ-ləri yayıb qurtara bildik. Hava bərk soyusa da… isti БУШЛАТ-larda, əməlli-başlı tərləmişdik.

Turabxana ПЕРЕВОД pul gəlmişdi.

Onu almaq üçün hərbi hissəyə tez getməli idi. Əks təqdirdə ШТАБ-ın poçtu bağlana bilərdi. Turabxana pul verdim ki, bir БУТЫЛКА limonad, iki ədəd də halqavari yumru bulka alsın mənə.

Xumba, çənə Telmana da tapşırdım ki, işdən qayıdanda, Rizvanla müştərək gəzdiyi Klaragildəki çamadanıma... çoxdan alıb qoyduğum 250 qramlıq arağı da götürüb, özüylə КАЗАРМА-ya gətirsin. Gecə kefimizi açarıq.

Axşam işdən qayıdanda əsl СТАРИК-lər kimi РОТА-dan arxada qalıb, kuybışevli Hüseyinlə dərdləşə-dərdləşə gedirdik... Ancaq belə söhbət adama ləzzət vermirdi, zira, РОТА yeyin gedirdi.

Axşam yeməyindən sonra... bərk yorunuq olduğumu, ağırlaşdığımı hiss etdim və elə hərbi formadaca başımı atıb yerimə girdim.

Heç gözlərimə yuxu keçməmiş, durğuzdular ki, ЛЕНКОМНАТА-da Boyko iclas keçirir.

Hərbi tapşırıq idi. Naəlac durub getdim.

İclasdan sonra, vaynösə Sahibə tapşırdım ki, ОТБОЙ-da məni durğuzsun və birlikdə gedib СУШИЛКА-da arağı içəyin.

Qayıdıb, yenə КОЙКА-mda çul kimi yerimə sərildim. Yaman üzgün idim.

Kəlbəcərli Sahib Əkbərov ОТБОЙ-dan sonra, nə qədər silkələyər məni durğuza bilməz...

Gecə, saat 01:00-da ТРЕВОГА oldu.

Hərbi hissənin komandiri, ПОДПОЛКОВНИК Dyakivlə Maltsev КАЗАРМА-ya gəlib, növbətciyə

əmr veriblərmiş. Çaxnaşma düşmüşdü.

Dərin yuxuda olsam da səs-küyə, horra kimi yuxudan oyandım.

Bir-bir, adbaad hamını yoxladılar.

POTA yerindəydi.

Yenidən ОТБОЙ verilən kimi, arağı çıxarıb, vaynösə Sahiblə kuybışevli Hüseyni də özümlə götürüb СУШИЛКА -ya keçdik.

Vaynösə, çörəklə soğan da gətirdi. УЖИН-də halqavari bulkaları limonadla yemişdim.

Arağı içən kimi kefim kökəldi...

Yerimə girəndə... nə qədər elədimsə, yata bilmədim. Arağın təsirindən, elə hey Bərdəni düşünürdüm. Qürbət eldə nə qədər zəngin, nə qədər səviyyəli yaşasan da, anlayırsan ki, it də öz qapısında ağadır. Azadlıq ancaq vətəndə olur!

Yadıma hardansa qonşu Sərxanın ağıldan kasıb, qızbibi oğlanları düşdü.

Bizim qoca Şərq küçəsinin... oğlanları arasında birçə onlar, ev quşları kimi bir şeydi. Necə ki, ev göyərçinlərini qəfəsdə saxlayıb... yedirdib-içirdər, arada-bir də əllə tutub havaya qaldıraraq uçurdar, fıştırıqla da istədikləri vaxt geri qaytarardılar, bax bunlar da eləcə idi.

Bizsə azad quşlar kimi havada süzər, istəyəndə budağa qonar, istəyəndə qanad açıb səmanın ənginliklərində qıy vurardıq.

Hələ kəhriz göyərçinlərinin özü də, elə bu ev göyərçinlərindən nisbətən azad idilər.

Birdən, Xuraman fikrimə gəldi.

İlahi!

Onu necə sevirdim! O, niyə elə təkəbbürlü oldu? Axı, təkəbbür özü şeytan əməlidir. Niyə o bu yolu tutdu? Nəydi görəsən mənim günahım?

Bizi xəlq edən Ulu Tanrının özü... Leyliylə Məcnun kimi... bizi də, yer kürəsində fırladıb, bir sinfə niyə gətirib çıxartmışdı? Bu gen dünyada doğulmağa, ya oxumağa yer tapılmırdı bəyəm?

Qismətimiz deyildimi?

Mən şikara çıxmamışdım ki?

Xuramanın ayağındakı eybəçər yanıq yeri də, mənim gözlərimdə neçə əziz idisə, o ətürpədən yanıq yerini, inanın ki, mən görə bilmirdim!

Şikəsteyi-fars muğamı oxunanda yanaqlarımdan yaş gilələri axardı...

Sonra da nitqpərdaz tamada Vaqif yadıma düşdü. O, bu iki ildə, içini tam büruzə verdi. İndi az qalıb, bu gün sabah doğma yurda qayıdacağam. Bəs o mənim üzümə nə üzlə çıxacaq?

Amma, orası da var ki, dopdoğmaca atasını ayaqları altına salıb, cığnayan qurumsaqdan, başqa nə gözləyəsən? O, bir dəfə də olsun bayramlarda məni təbrik eləmədi.

Eh, sağlıq olsun...

Hicri qəməri, klassik ərəb təqvimi ilə... bu gün Zil-Qadə, İran və Əfqanıstanın qəbul etdiyi hicri şəmsi təqvimiylə Bəhmən, bizim təqvimlə isə, noyabr ayının 10-nu idi.

Biləcəridən çıxıb əsgəri eşelon-qatarda bir neçə gün gecələyəndən sonra, gələcək 2 il ömrümüzü sürəcəyimiz hərbi hissəyə qədəm basıb ilk gecəni КАЗАРМА adlandırdıqları yerdəki mənə ayrılan boş КОЙКА-nın birinci yarusunda... Laçın və Kəlbəcərin yarğanlı, uçurumlu və sarp dağlarının qoynundan gələn, dağ daylaqları kimi soncuqlayıb süstəlmiş və kiminsə kövrək səslə, hərdən hıçqırtıyla zümzümə etdiyi, Qayabaşı mahnısının sədaları altında səhərağzı çul kimi yuxuya keçmişdim. Bütün bunları xatırlamaq, indi necə də, dondurma yemək kimi asandır.

Ardınca...

Üç günlük uzun yol yorunuqluğundan sonra, kiminsə ilk hərbi əmrlə: QALXIN! -bağırtısına oyanan günümüzdü bu gün.

Fəcr vaxtıydı.

İndi üstündən düz 23 ay kecirdi.

O gün, ilk gün idi ki, əsgər həyatına hərbi formada başlayırdım. O səhər, böyük bir vəlvələ içərisində həyacanla ayılmışdım.

Elə bildim zarafat edirlər. Bu vaxt da adam durğuzarlar? Vur-tut bir saat yatmışdıq.

Hamı tələsik tökülüşməyə başlayanda hiss etdim ki, bunlar gerçəkləyir.

O şaxtalı, çovğunlu qaranliq səhərdə, artıq mülki, azad adam deyildik

Özbaşınalıq dövrüm bitmişdi!

İndi bizim özümüzü də ev göyərçinləri elə-

yib, КАЗАРМА-qəfəslərə salacaq, isdədikləri vaxt da fışqırığa basmaqla geri cağıracaqlar.

Mənim kimi estetizmə mailli bir gənc üçün bu dözülməz və olduqca çətin olacaq... hərçənd əsgəri xidmət günlərindən esselər yazmaq üçün təbii məqamlar yaranacaqdı.

O gün, tələm-tələsikdə əsgərlərə hamının ПЕРЕКУР dediyi, siqaret çəkmək üçün vaxt veriləndə, Bərdəyə ilk iki məktubumu yazdım.

Biri Komsomola, o vaxt o PİONER idi, digəri isə, 19 il özümə dost bildiyim Aydın İbrahimova. Bərdədə onu hamı Məmmədhüseyin kişinin oğlu kimi tanıyırdı.

İlk unvanımı yazıb onlara bildirirdim.

Artıq... yaşayacaq sirli, sehrli, əsrarlı daimi ünvanım, məhz bura olacaqdı.

Azərbaycanla Ukrayna arasındakı körpü.

İndi o körpünün altında, düz 23 aydır sular axır. Və bu sular, çox günahları yuyub aparmış, çox həqiqətləri də təmizə çıxarmışdı.

İndi ilk yox, hamıya son əsgər məktubları yazıb yollamışam.

Bəli, indi xoşbəxtəm... çünki ağır, əziyyətli uzun bir həyat sürdüm. Zəhmətə alışdım. Əsgər forması geyinib, ilk səhəri açanda, özümü... ələ keçmiş, ürəyinin çırpıntısı əl titrədən ətcə sərçə balası kimi hiss edirdim.

Ələ keçmiş milçək, ya ilbiz kimi köməksiz, nə baş verdiyini hələ doğru-düzgün anlamayan,

ya da ki... qəfəsə salınan, azadlığı zorla əlindən alınmış, ürkək bir maral balasıydım o vaxt...

İndi isə, azadlığa buraxılacaq şahin kimiydim. Səmanın əsrarəngiz ənginliklərinə, ən uca sıldırım sal qayaların zirvəsinə həsrət kimi.

Gözəl xəyallar içində yuxuya keçərəm...

Bu gun də, fəcr vaxtı oyatmışdılar.

Ağ tuman-köynəklərdə səhər gimnastikasi eləyib, yeməkxanada səhər yeməyi yeyəndən sonra növbəti РАЗВОД oldu. Və boz ulaq balasınaoxşar, xotuq Qreşnoy, yenə bizi qabağına qatıb qoyun sürüsü kimi təpik döydürməyə başladı: РАЗ... РАЗ... РАЗ... РАЗ, ДВА, ТРИ!

İşə getdik.

ВОДОЗАБОР-da Falyanla Gözəlovu da gətirib mənə təhvil verdilər və briqadamda 12 nəfər СТАРИК əsgər oldu.

Uşaqların işini bölüb verdim.

Meydança düzəltməliydik.

Əvvəl 55 sm. qazmaq, sonra yerinə 26 sm qum tökmək və üstündən də 16 sm. qalınlığında ЩЕБЕНЬ-i yaymaq lazim idi. Bütün bu həngamələrdən sonra, meydançaya asfalt salınmalıydı.

Uşaqlar yaxşı işlədi.

Gözəl də gün çıxmışdı. Səmada ağappaq pənbə buludlar havadan asıla qalmış, sanki, yaz fəsli yenicə gəlmişdi.

Hərbi hissənin komandiri Dyakivin xüsusi tapşırığıyla bizə bir БЕЛОРУСЬ markalı traktor da

ayırdılar. Qazma işləri traktorsuz qeyri-mümkün olduğundan, məcbur qalıb vermişdilər.

Nahara kimi çox effektli işlədik. Belimiz kaman kimi əyilmişdi. Gözəlov, üzünü gənc leytenant Qreşnoya tutub, öz dilimizdə məzələndi:

-Kamran oldunmu əə?

Nəinki Qreşnoy, heç azərbaycanlı uşaqlar da, bu sözün əsl mahiyyətini başa düşmədi.

Kəlbəcərli Sahib Əkbərov qəfil qışqırdı:

-Muradına çatdınmı deyirsən dəə!

Qalınqaş Şahmar, dodağının altında nəsə mızıldandı və kəsrətli inamla:

-Kamran... Murad... adam adlarıdı, yox?

Hamı onun sadəlövhlülüyünə qarnını tutub şaqqanaq çəkdi. Kəmetiqadın anladığına bax!

Kəmərin altını bərkitməyə getdik.

Nahardan sonra, yeməkxanadan çıxanda, yenə xoşnudluqla razılaşıb yamaca futbol oynamağa qərar verdik.

Əvvəlki tək, beş-beşə.

Ötən dəfə, 12:12 hesabıyla heç-heçə qurtarmışdıq. Sülh və bərabərliklə.

Bu dəfə isə, 7:2 hesabıyla qələbə çaldıq.

Bütün qolları özüm vurmuşdum.

Yenidən mübahisə elədik... Və sonra, belə qərara gəldik ki, mən olmasam bu tərəf oynaya bilməz. Və kəlbəcərli Sahib Əkpərov dedi ki, indi sən keç biz tərəfə, bizdən də onlar kimi istəyirsə götürsün. Baxaq, necə olacaq...

Mən keçdim rəqib komandaya. Belə də razılaşıb, ardını oynamağa başladıq.

Oyun qızışdı və hesab 7:2-dən dəyişərək 13:16 ya qalxdı. Bu dəfə də, köhnə oyunçularım cığalladı... Və sonda, mənsiz oynayası oldular.

Bu dəfə isə, qol vurulmadı.

Bəli, gün kimi aydın idi. Əsas oyunçu mən idim, Braziliyanın Pelesi!

Axı Kəlbəcər, Laçın nədi futbol nədi? Eşənəkdə yumurta axtarmaq deyil ki futbol?

Saat 14:57-də oyunu saxladıq.

Kuruskanov arxamızca gəlmişdi. İş yerinə qayıtmalıydıq. Cərgəyə düzülüb götürüldük...

Hərbi hissənin komandiri Dyakiv, РОТА komandiri Bryusov və müavinləri Qreşnoyla Boyko da gəlib çıxdı. Əsl hünər göstərməli vaxt idi.

Dyakiv kimi istəsə, günü sabah tərxis edə bilərdi. İnstitut məsələm də qaşla-göz arasında!

Məxləs, qollarımızı çırmaladıq.

БЕЛОРУСЬ traktoru da, bizə çox yaxından köməklik elədi. Qaş qaralana kimi mən göstəriş verir, traktor işlədən əsgər isə yeri hamarlayırdı.

Dyakiv əclaf sonda, bizi nə vaxt ДЕМБЛЬ-ə buraxacağı barədə bir kəlmə də olsun demədi.

Nəsrani çaqqalı!

İşdən qayıdanda, КАЗАРМА-ya girməyimlə növbədəki ДНЕВАЛЬНЫЙ əsgər mənə, düz, dörd ədəd КОНВЕРТ uzatdı.

Ayaq saxlayıb tələsik ünvanlarını oxudum:

Ögey dayım qara Sabirin xanımı, dayıdostu Rənadan, Qardaşım Vidadidən, Maarifdən və OMCK-lu Alladan idi.

Alla oktyabr bayramı münasibətiylə açıqca göndərmişdi. Şəklin arxasını yazıb, məni təbrik edir, uğurlar diləyir, tezliklə və sağ-salamat doğma el-obaya dönməyi arzuladığını bildirirdi.

Vidadi, qonşumuz Köçəri dayının oğlu Qəribin əsgərliyə getməsini indi yazmışdı. Eyvah ki mən onunla artıq məktublaşırdım. Uşaqlıq yoldaşımız olan Qərib, qardaş sosialist dövləti olan ЧЕХОСЛОВАКИЯ-ya düşüb... Yitka Zahalkovanın ana vətəninə. Bəxtəvər, hərbi xidmətini Avropada keçirəcək. Həm də yazmışdı ki, 50 manat pul göndərəcəyik, yol pulu eləmək üçün. Sonuncu...

Komsomoldan heç nə yazmamışdı.

Rənanın sifarişli məktubu çox maraqlıydı. Yeni evlərindən, həyət-bacalarından, körpə Mahirin və adını şəxsən mən qoyduğum Müşfiqin böyüməyindən, romantik bir məktub yazmışdı...

Xülasə məktublar məni çox sevindirdi, amma cavab yazmaq istəmədim... cünki, həm bərk yorunuq idim, açığı, heç ayaq üstə dayana bilmirdim, həm də yazmağıma artıq dəyməzdi, tərxis olunmağıma sayılı günlər qalırdı.

Futbol məni tamam əldən salmışdı.

Özümü zorla çarpayıya saldım.

Bərk yorğun olsam da... gözlərimi qapayıb yatmaq istəyir, ancaq yuxuya keçə bilmirdim.

Aldığım məktublar və Raskolnikov haqqında xeyli düşündüm. Nədənsə Dostoyevskini qəlbimə yaxın adam kimi təsəvvür edirdim. Mən də iç dünyama qapanıb aləmi unudar, hər eşitdiyim sözə çox həssaslıqla yanaşardım...

Dunya, Razmuxin, Sonya və öldürülən qoca sələmçi qadın heç yadımdan çıxmırdı.

Sentimentallıq, romantiklik, fədakarlıq... və millətçilik ruhumda, canımda, qanımdadır.

Birdən necə oldusa, fövt olmuş Azərbaycan futbolu yadıma düşdü.

NEFTÇİ futbol klubunun yüksək liqanı tərk etməsi və APAPAT-ın 4/1 finala cıxması məni çox qıcıqlandırır, ermənilərə paxıllığım tuturdu.

Xarici futbol kulublarının oyununa baxandan sonra, mənə elə gəlirdi ki, NEFTÇİ futbolçuları oynayanda, elə bil kadrları saxlayıb, nədənsə МЕДЛЕННИ göstərirdilər. Rəqib komandasının oyunçusu bir dəfə künc zərbəsinin yaxınlığından AYT atırdı. Bir də gördüm, top düz qapıya girdi. Yaxşı ki, hakim bu qolu hələ hesaba almadı, zira, top heç kəsə toxunmamışdı... AYT-dan atılan topu qapıçımız tuta bilmədi.

Bu əsl biabırçılıq idi.

Bir dəfə də bizim müsəlman futbolçular rəqib meydançasının yaxınlığından AYT atmalıydı. Ərindiklərindən heç kim topu atmağa getmirdi.

Ona görə yüksək liqanı tərk elədilər dəə...

Ordan-burdan düşünüb xəyallarımla yaşa-

dığım vaxt, Şamxor ermənisi, isəvi Alik Ohanesyanla yevlaxlı kamanqaş ПАТРУЛЬ Hüsən mənə yaxınlaşdı və çarpayıda oturub, bir ağızdan sual verdilər: “Zəhər nədi, zəhr nədi, zəqqutun nədi, zəhrimar nədi? -bizə aydınlaşdır. Mübahisə eləyib, 1 manatlıq əsginasdan kəsəmət kəsmişik.”

Bir qədər düşünüb, zarafatla dedim:

-Bedheybət Mürşüd, gecənin yarısı uşağın gözünə görünəndə, ya qarşısına çıxanda uşağın zəhri yarılıb, qorxudan ölə bilər. Zəhr sözü belə yerdə işlənir. Zəhərlə zəqqutunsa bir-birinə yaxın sözdü, mənasını yəqin bilirsiniz. Zəhrimar da ki, onun kimi bir şeydir.

Alik uduzmuşdu.

Onlar gülüşdülər. Alik, sən demə zəhr sözünü elə zəhər bilirmiş...

ПАТРУЛЬ Hüsənə mübarəkbadlıq elədik.

Yaxınlıqdakı çarpayıda, yenə əşkbar, mayıf Mamed göydodaq Ədalətə yalvarırdı:

“Əşədd Turabxan ştanımı su eləyib, səndə qurusu var, sən cijiyin canı ver dəyişim...”

Ədalət də, çarpayıda... boynunun arxasını daraqlamış halda uzanıb:

“Əə hüşdürüm gədə, əl çək insafın-mürüvvətin olsun. Lüt gir yerinə, ştanı da СУШИЛКА-ya sər, səhərə kimi quruyacaq. ПОДОШВА kimi, az dirəş. Gözlərini yum, yüzə kimi say, yuxuya keçəcəksən. Ağrılarımı dəbərtmə ...”

Onların bu söhbətinə ürəkdən gülüşdük.

Sonra şamxor ermənisi gülə-gülə dedi:

-Sizə bir gülməli əhvalat danışacam:

"Şamxora Bakıdan artistlər gəlmişdi. Teatr tamaşası göstərirdilər. Birdən... necə oldusa, artistlər tutaşdı. Əvvəl elə bildik, səhnə verlişi belədi. Sonra necə yumruqlaşıb təpikləşdilərsə birbirini al qana boyadılar.

Səhnənin arxasındakı, suflyor, rejissor, nə bilim daha kimlər araya qatıldı. Söyüş söyən artistlərin pis ana söyüşündən sonra, tamaşaçılardan anlayıb-qanan diribaşları, yüyürüb səhnəyə qalxdılar. Haraya çatanlar onları aralayır artistlər isə bir-birindən qopmaq bilmirdi.

Kənardan dalaşan yaşlı aktyorların üstünə əl aynası, əsgi-püskü, daraq, qələm kim nə tapdı tolazlayır, onları fişqırığa basırdılar.

Bir qoca arvad, öz baş-gözünə döyüb çığırırdı: "Bunlar niyə bir-birini xingal kimi doğrayır?"

Bu vaxt dəhşətli bir partlayış olur!

Səhnədə və tamaşaçılar arasında, nə qədər başbiən gözüaçıq vardı, hamısı başlarını tutub yerə sərələnir.

Sən demə, bu mərmi yalançıymış!

Parisi partladıb yerlə yeksan edən: Dərviş Məstəli şah və müsyö Jordandakı, barıt kimi bir şey... Və səhnənin bütün dekorasiyaları dağılır.

Dərhal milis şöbəsinə zəng vururlar.

Bir ВИЛЛИС dolu milis işçiləri tökülüşüb gələndəsə, tamaşaçılar dalaşanları artıq ayırıbmış.

Səhnə, ildırım vurmuş kimi dağılır.

Ohanesyanın bu komedik söhbətinə, o ki var güldük: “Əsl dram yaşanıb ki!”

Elə bu vaxt, ilanı diliylə yuvadan çıxaran, yerli qəzetin bir neçə əməkdaşı özünü yetirir.

Maraqlıydı, həm də ona görə ki, bu davanı kütləviləşdirmək görəsən kimə lazım imiş?

Ya kimin marağındaydı?

Cavan bir sənətkar aktyor... qanına qəltan edilmiş yaşlı aktyor tərəfdaşına qahmar çıxaraq, rejissorun orduna necə qoyubsa... rejissor bu il ölmüsən, bildir ölmüsən, limon kimi saralıb tirtap yerdə uzanır və ağzındakı qayırma dişləri uçub, havada qövs cızır.

Səhnə inqilab meydanını xatırladırdı.”

Klubda əsl vəlvələ yaşanırmış...

Tofiq Xəzər

# Bryusovun yalançı mötədilliyi Səmərqəndə "çağırışçı" arxasınca getdilər

*Pervomayski, 11 və 12 noyabr 1972-ci il.*
*Şənbə və bazar günləri.*

Siyasi məşğələni bu gün, fəcr vaxtı ШТАБ-ın rəisi mayor Knyajeviç aparırdı. Arada məni də ayağa durğuzub, sınayıcı nəzərlərlə soruşdu:

-L.İ.Brejnevin tutduğu vəzifənin adı nədir?

Duruxmadan, hərbi and içirmişik kimi:

-ГЕНЕРАЛЬНЫЙ СЕКРЕТАР ЦК КПСС, -dedim

O, başıyla təsdiqləyib, məni oturtdu...

Bu gün, iş yerinə Vertelovun özü gələsi idi. Ona görə, hərbi hissənin butun POTA-larının əsgərləri birlikdə işə gedəsi oldu. Və böyük bir əsgər ordusunu, dəstəylə, qatar-qatar Knyajeviçin şəxsən özü apardı. Yolboyu, POTA komandirlərinin özləri hərbi qaydada sayırdı:

РАЗ, РАЗ, РАЗ... РАЗ, ДВА, ТРИ... və əsgərlər

də, var güclərilə təpik döyür, adamın fərəhdən ürəyi atlanırdı. Qatarlanmış sümsütül əsgərlərin nizami qaydada cərgəyə düzülüb, birlikdə təpik döymələri insanda vəsfəgəlməz hisslər oyadır.

Və çox da əsrarlı bir şeydir.

Mənim kimi romantik, gənc əsgərlər dərhal havalanır. Vətən hər şeyi, hətta doğma yurd-yuvanı, yolunu səbirsizliklə gözləyən sevgilini, gözü yolda qalan ana-bacını belə üstələyir.

Artıq Vətənin vicdanı kimi oyanır və dərhal döyüşə atılıb ya düşməni, ya da özünü, sərhəd, torpaq uğrunda məhv eləyə bilərsən.

Bu an, Şərq küçəsi, institut, nə bilim daha nələr, arxa plana keçir. Müharibələrdə bir-birinin ardınca sıralanıb dəstə-dəstə qırılan az olub?

Dalı qatda, üzü üstə, yanpörtü qıvrılıb qalmış və qalaq-qalaq əsgər cəsədlərinin üstündən barbarlıqla tank tırtılları keçəndə, onu sürən də, yad dildə danışan başqa bir əsgər olmurmu?

Vətən təhlükəsi yarananda... insan özünü düşünmədən fəda edə bilir. Mükəmməl formalaşmış insan, məhz belədir. Günləri sayırsan ki, ev-eşiyinə gedəsən. Amma vətən yolunda, ölümə belə, düşünmədən, hər an hazırsan.

Hərçənd, biz qul kimi istismar edilirdik.

Doğrudan da, bu səhər hər şey möhtəşəm görünürdü. Fəxarətlə hiss edirdik ki, biz də şanlı sovet əsgərləriyik. Baxmayaraq ki, müsəlman idik və yüksək rütbəli zabitlər bizi görəndə, qaş-

qabaqları yer altından gedərdi. Lakin iranlı ögey dayım... qara Sabir Çopur oğlu Qəhrəmanov və bir də, əsgər dostum Qadmalıyev demiş: Zato...

Bombatökənlər qatar-qatar hücuma keçsə və biz də torpaqlarımızı müdafiə etməyə qalxası olsaq... qartımış cəsədləri dalımızda daşıyacaq, ЛОПАТА-larla xəndəklər qazıb, meyidləri basdırmalıyıq. Yoxsa üfunətdən qoşun arxaya qaçar, torpaq əldən gedər, ordu məğlub olardı.

Hələ bu harasıdır, sipər çəkməli, səngərlər qurmalıydıq. ТРАНШЕЙН-lərlə ora-bura qaça-qaça döyüşənlərə ərzaq daşıyıb, xörək ЗАКАТОВКА eləməliydik, ac əsgər necə vuruşar? Bu da əhəmiyyətli bir işdir, qarnı toxdan nə desən çıxar.

Hələ КОМСОСТАВ məsələsi də var. Arxaya çəkilən, ya irəli gedən batalyonların СТРАТЕГ-lərinə müvəqqəti sığınacaqlar qurmaq məsələsi.

Müharibə-filan olsa, СТРОЙБАТ-lara ehtiyacı çox olacaqdı vətənimizin. СССР kimi bir ölkəni əldən verəsi deyildik ki?

Kəsə qarabağı durum beləydi...

СТРОЕВАЯ ШАГ-la biz ВОДОЗАБОР-a çatanda Arnaut da, kapitan Malsev də artıq oradaydı.

Hərbi hissəyə УСТАВ-la: DAYAN! FƏRƏĞƏT! NƏZƏRLƏR SAĞA! -füsunkar əmri, hərbi qaydada verib, Knyajevic Dyakivə, КОМБАТ Dyakiv də, öz növbəsində Arnauta ДОЛОЖИТЬ elədi...

Arnaut ittihamkar mühakimələrlə danışdı.

Bizim РОТА-nın komandiri Bryusovla, kapi-

tan Maltsevi o ki var danladı. Manya xalanın sözü olmasın, lap: İtin götünə soxub çıxartdı.

Briqadaların adını çəkərək yeni göstərişlər verdi... tənqid edib, nizam-intizamın aşağı səviyyədə olmasından gileyləndi.

Düz də deyirdi. Başda ABŞ durmaqla kapitalist dünyası ilə soyuq müharibənin vüsət aldığı dövr yetişib. Hamımız ayaqda olmalıyıq.

ПАТРИОТ əsgər belə də düşünməlidir.

Hələ yaxşi ki, bu gethagetdə mənim briqadamın adını çəkib, arvadbaz Dyakivə ip ucu vermədi. ПРИКАЗ, ОБХОДНОЙ və ДЕМБЛЬ məsələsi haqqında isə, kəlmə də olsun demədi.

İmperialist dairələrin... beynəlxalq münasibətlərdə gərginlik yaradan və yeni bir müharibə ocaqları alışdırmağa doğru yönəldilən, düşməncəsinə təcavüzkar siyasətdən, bizə heç bir dəxli olmayan... haralardasa gedən vətəndaş müharibəsindən, dövlətlər arasında mütəşşəkkil silahlı mübarizədən xeyli danışdı.

Sonda, yenə ДИСЦИПЛИНА-ya keçdi.

Axır ki, AZAD OLUN! -əmri verildi.

Və ПАХАТЬ eləməyə başladıq.

Dünənki yerdə qalan yarımçıq işləri görüb meydançanı tamam qurtarmalıydıq.

Qreşnoy... qatanqaz Ovçinnikov və МУДАК Kuzmiçenko, bu gün yenə də ПРИЗЫВНИК dalınca getdilər. Nədənsə sevinirdilər...

Yeni ПРИЗЫВ-niklər gələcək!

ХЕРСОН, КИШИНЁВ və Səmərqənddən yeni çağırışçılar gətircəklər! Bəli, şikari papağını yan qoyub, yedəklərində tazı-tula gəzdirərək ov elə-yən, ya müxtəlif peşə, təhsil... sərbəst yaşayışlı azad adamlar gələndən sonra... bizim işlərimiz daha da yüngülləşəcək...

Nahar yeməyindən sonra, futbol oynamaq istəyirdik. Məlum oldu ki tüllab Boyko, elə indicə rezin topu çox soyuqqanlılıqla çaya tullayıb.

Uşaqlar çay aşağı, piyada yamacla gedir... mən də qayıq götürüb, qayıqla topu axtarmağa başladım. Təəsüf ki, rezin topu tapa bilmədik.

Bir kilometrə qədər çay axarı getsək belə, top görünmədi ki, görünmədi.

Axırda qayıqla kənara üzüb, uşaqlar gələn səmtə yaxınlaşmağa başladım.

Uşaqlara catan yerin lap yaxınlığında, ça-yın demək olar kənarında, ada kimi bir yer var-dı. Hər yanı su idi.

Avarlarla çox əlləşib, bu adanın yanındaca qayığı ram edə bildim və birtəhər köhnə qayığın burun hissəsini torpağa çıxardım.

Tərslikdən hava bərk soyuq, həm də, sey-rək dumanlı olduğundan, çayda dalğa vardı və ləpələr sahili əməlli-başlıca döyəcləyirdi.

Əsgərlərim sahildə dayanıb mənə tamaşa edir, nə edəcəyimi maraqla izləyirdilər.

Ağlıma hardan düşdüsə, soyunub çimmə-yə qərar verdim. Və... hava soyuq, dumanlı olsa

da məğrurluq inadımdan dönmədim.

Görəsən, nədən bu fikrə düşdüm?

Köynəyinin qolu, boynu sör-söküntülü olan Boykonun, rezin topu çaya atmasıyla bağlı yarana biləcək səhlənkarlıq, hirsi yatırmaq, ya acığı soyutmaq məsələsi deyildi ki bu hərəkət?

Əsgərlərimiz БУШЛАТ-da üşüyür, mənimsə içim kükrəyir, qaynayırdım... Bəlkə, ЮЖНЫЙ БУГ çayında son dəfə çimmək arzusu, istəyi idi bu?

Məhz indi maraqlıydı, birdən-birə bu ilham mənə hardan gəldi? Bəlkə, heç özüm də doğru-düzgün dərk edə bilmirəm?

Yoxsa, çağlayan gənclik ehtirasıydı?

Soyunub, heç nə düşünmədən özümü qayıqdan çaya atdım.

Su bumbuz imiş!

Soyuqdan nəfəsim kəsildi! Və cəld, suyun üzünə çıxıb, tələsik üzməyə başladım. Soyuq su adamın nəfəsini kəsir, iliyinə işləyirdi. Hətta, demək olar, dəhşətli idi. Üzə-üzə, uşaqların yanına sarı səmt aldım. Sahilə çıxanda, canımdan buğ çıxır, hərçənd bədənim soyuqdan qıpqırmızıydı.

Beləcə son dəfə ЮЖНЫЙ БУГ çayında çimdim. Uşaqlar bu vüquata baxıb, məəttəl qaldı.

Belə soyuqda çimmək əsl fədakarlıq idi.

Paltarlarımı geyinəndən sonra, qayığı çayın axarına qarşı aparmalı idim. Yenidən qayığı suya salıb, avar çəkməyə başladım.

Uşaqlar yamacla piyada qayıdır, mən isə,

üzüyuxarı avar çəkirdim.

Kəndin ayağında, ВОДОЗАБОР-un bərabərliyində qayığı sahibinə təhvil verəndə, arıq barmaqlarım tələsik və dayanmadan avar çəkdiyim üçün, əməlli-başlıca suluq atmışdi.

Çox iddialı idim: Bu qiyamatda... hər özündən deyən kəs, özünü çaya atıb üzə bilməzdi.

Təbir caiz görülsə, bu əsl qəhrəmanlıq idi.

Elə bu məqamda kuybışevli Hüseyin söylənə-söylənə özünü yetirdi ki, bəs səni səhərdən komandir Bryusov axtarır.

Kim eşidirdi ki, indicə çayda lüt çimmişəm inanmırdı. Belə soyuqda da çimmək olar?

Göydodaq Ədalət qayışbaldır Turabxanla söz güləşdirirdi ki, Babayev sətəlcəm olacaq...

Bryusovu axtarmağa başladım.

O məni görəndə sanki sevindi. Nəsə sözlü adama oxşayırdı. Qolumdan tutub boş bir otağa çəkdi və əlini cibinə salıb qırmızı onluq çıxartdı. Və dodaqlarında, iztehzalı bir təmkin qarışıq:

-Götür bu onluğu... on da vermişdim, qaldı on... onu da verəcəyəm!

Pulu əlində tutduğu qolunu geri itələyib:

-Ayıbdır, bəsdir, dedim. -Bağla bu söhbəti, axı biz ötən dəfə danışmışıq. Orta Asiyanın qədim tayfaları kimi əlində təbərzin tutmaq əvəzinə nə yapışmısan ey, bu qırmızı onluqdan?

-Vicdanım yol vermır, -dedi. -Gecələr sanki bu onluq boğazımda tıxanıb qalır... və az qala

nəfəsimi kəsir. Götür bunu, yerdə qalan sonuncu on manatı da qaytaracam.

Yenə etiraz elədim... Və pul tutduğu qadın kimi zərif əlini nəzakətlə geri itələyəndə, əfi ilan sancmıştək, qəflətən qışqırdı:

-ВОЬЗМИ, ПРИКАЗЫВАЮ!

Köpəyoğlu, ciddi hərbi duruş alıb, üstümə necə qətiyyətlə çəmkirdi.

Sövqi-təbii, pulu əlindən qapdım.

Ürəyinəcə ağrım! Çətinə düşəndə, adama heç söykək duran da deyilsən, ürəyimdə dedim.

Onsuz da bir-iki həftə qalıb, gedirəm. Guya sən təbiətən təmiz zabitsən? Sən 23 aydı pul deyib şivən qoparır, dad döyür və açıqca əl açıb dilənirsən. Bəlkə də müsəlman əsgərlərdən yüz bu qədər onluqlar məzdəmisən. İndi otuz manat qaytarmaqla təmizə çıxacaqsan?

Sovet ordusu... təhsil, cəmiyyət, sosializm quruluşu... təbii hal kimi, rüşvət bataqlığında gəzir. Gün gələcək batacaqlar!

Sən mənə nəyi tələqin eləmək istəyirsən?

Onsuz da, hər şey kəllə-mayallaqdır. Leninin, Stalinin səpdiyi həqiqət toxumu, artıq şübhəli bar verir. Belə də sövdə olar?

Bryusovun nitqinin ahəngindən bəs qədər özünəinamlıq, haqq, ədalət və zafta duyulurdu.

Daha onu məzəmmət eləməkdən vaz keçdim. Vicdansız danışırdi. İki illik hərbi xidmətin dolanbac yollarında elə bilirdi ki, hər bir şey ört-

basdır olub keçib. Üzünün suyu tökülmüş, əclaf!

Qonşumuz Sərxanın ətbala oğlanları deyiləm ki, hər şeyi tez də unudam. Və özümü dost kimi göstərib maskalanam.

Darvazalarından üzərlik asan riyakarlar!

Üzünə ələk tutmaq əvəzinə, hələ aldığı iki-üç min civarında pul və hədiyyələrin müqabilində, 20 manat qaytarıb, öz-özlüyündə... düzlüyü, etibarı, sovet zabitlərinin halallığını ehtiva edir.

Üzü astarından baha oturacaq sizə.

O əsl cuvəllağı idi!

Onsuz da... onun danışdıqları bu qulağımdan o birinə, o birindən də haralarasa vızıldayıb uçurdu. Ancaq, qoz-qoz oynamağın da faydası yoxuydu. Pulumun az olduğu vaxtda, lap yerinə düşmüşdü, qapını üzünə çırpmaq əvəzinə:

-Siz alicənabsınız! -dedim.

Zavallı bu sözdən lap əriyib getdi. O, tərifə sonsuz dərəcədə meyilli adam olduğundan, bu söz ona ən böyük töhfə oldu.

Ürəyimdəsə dedim:

“Səni görüm yanıb çıldağ olasan!”

Cındır məni yandırıb dağımı, közümü, cızdığımı, çıxarırdı. Bir köynək ayrı olsa da, dayım qara Sabir, bu sovet zabitindən, gələcəyin ordu generalından on dəfə qeyrətliydi.

İki illik vaxt kəsiyində, mən onu tam oxuya bilmişdim. Həyətlərindən nərdtaxta səsi əskik olmayan, bizim qoca Şərq küçəsində, məsxərə-

yə qoyulası xiyarlardan idi.

Pulu əlindən alan kimi əvvəl üzünə qan çiləndi və bir an sonra, dərhal da bənizi soldu.

Yazıqlaşıb yetimləşdi...

Sanki ağrıları dəbərdi və bozarmış üz-gözünü turşudub, taqətdən düşmüş halda:

-Sənin ДЕМБЛЬ gününə bircə həftə qalıb... istəsəm verməzdim, onsuz da, özün istəmirsən. Amma, mənim zabit vicdanım buna yol vermir. Qoy ürəyim təmiz qalsın.

Təəccüblə, onun alışıb yanan, yaşıl girdə gözlərinə baxıb, fəğan etdim:

-Əsl mötədil adamsan!

Ürəyimdəsə yaylımı güllə vurdum:

"Föhşiyyata müğayir xristian!"

Rüşvətxor olsa belə, bu rus zabiti hərdən xərcləməyi, hərdən mərhəmətli olmağı da bacarırdı. Çox erkən rüşvətə qurşanıb generallıq eşqiylə çulğansa da, onun qulağını deyəsən bərk burmuşdular. Zira, iki gün əvvəl erməni Stepanyanın Erevandan onun öz ev ünvanına yolladığı konyak dolu bağlamanın КВИТАНЦИЯ-sını aparıb ПОДПОЛКОВНИК Dyakivə göstəribmiş! Görünür... onu rüşvətxorluqda təhdid edirmişlər.

Böyük qalmaqal olacağından qorxub... yəqin bu addımları ardıcıl atır. Dönə-dönə təvəqqe elədi ki, təhrif eləmədən... müsəlman əsgərlərin yanında danışım ki, Bryusov borcunu qaytardı.

Bəli, o öz məkrli hiyləsini, tutduğu rüşvət-

xorluq yolunu borc adıyla realizə edirdi. Bu onun müstəsna diribaş olduğuna bariz misal idi. Həm də ki görünür... yuxarılarda da güclü havadarlıq eləyəni-filanı yoxdur.

İstirahət günü yəni şənbə olduğundan saat 18:00-da iş qurtarmalıydı. Hələ vaxta vardı.

Kostyaya НАРЯД bağlatdırdım:

НОСИЛКА-yla 60 m/3 torpaq və 30 m/3 qum daşınmasını və demək olar ki traktorun gördüyü işin də yarısını əl ilə daşınmış kimi göstərdik...

Gərgin işdən sonra, yorunuq olsaq da bizi КАЗАРМА-ya СТРОЕВАЯ ШАГ-la apardılar.

Bu gün, pullu məktublar həsrətində olsam da, təəssüf ki, heç pulsuz məktub da olmadı...

Axşam naharından sonra kino verilməliydi.

POTA tam düzlənib pulsuz kinoya gedəndə dolabçamdan gündəliyi çıxarıb, ЛЕНКОМНАТА-ya keçdim. Fikirlərim dolaşıq idi. Hardansa, yadıma Dəlidağ, İstisu tərəflər düşmüşdü: Tatarlar çayının kənarında qurulan alaçıqlar, şər qarışana kimi yerdən, palaz-kilimlərin üstündə oturub lavaş bişirən yaşlı qadınlar... zərif çiyinlərində səhəng, o həssas kövrək qızların çisgin və dumanda bulaq başına getmələri... isti su çıxan qayalıqların arasında soyunub vanna qəbul edən, kök qarınlı arvadlar, yanlarındaki çəlimsiz qara qızlar...

Və uzaqdan onlara xəlvəti tamaşa edən, heyvani ehtirasdan kələyi kəsilmiş gənclər...

Qayaların arasında gizlənib, hamıdan təc-

rid olunmuş bu yeniyetmələr, çiçək dolu çəmənliklərin, ürəkvuran əsrarəngiz qoxusunda, ruhlarını bürüyən çılğın ehtiraslı kobud şəhvətdən alışıb yanar və yanğılarını əlləriylə söndürərdilər.

Bir dəfə İstisu sanatoriyasına Bakıdan bir qadın alim gəlmişdi. İsti yay aylarında dincəlməyə gəlmiş və alaçıqlarda yaşayan ətraf rayonların ətbala cavan oğlanları yığışıb... sərt qayaların arasından, çeşmə kimi pıqqapıq qaynayıb çıxan və süzülüb... yaxın çökəkliklərdəki qayaların arasında bir neçə göl əmələ gətirmiş, müalicəvi əhəmiyyətli isti-suda o qadının nə vaxt soyunub çiməcəyini saatlarla gözləyərdilər.

Bu, qaynar bulaqlar, təbiətin möcüzəsiydi!

Təbii sərvət olan bu qaynar su qaynadıqca burum-burum buxarlanıb, qayanın içindən necə də çıxa bilirdi? Ecazkar təbiət!

Nuh nəbidən mövcud olan, sərt iqlimi, yağışı, küləyi, yandırıcı günəşi, qozdan iri buz dolusu, sis-duman-çəni və çaxan qorxunc ildırımları sayəsində qapqara qaralmış yarğanlı qayaların üzəriylə süzülüb axan bu qaynar bulaqlar, axıb keçdiyi yerləri yandırıb dümmağ və hədsiz dərəcədə hamar eləmişdi.

Qarşıdakı dağın zirvəsindən bura baxanda sanki qayanın üzəriylə ağappaq çay axırdı...

Qayaların arxasından onu hey güdərdilər.

Söz yayılmışdı ki... bu qadın alim olsa da, hələ özünə ailə həyatı qurmayıb.

Tərslikdən qadın, çılpaq çimən qadınların arasında lüt soyunmadı.

Nədənsə, gecə köynəyində çimdi!

Amma, sudan çıxanda nazik gecə köynəyi bədəninə necə yapışmışdısa, bütün əzaları görünürdü. Düzünü deyim ki, onu mən də görmüşdüm. Və o qadının gözəl olsa da... gücsüz olduğunu açıq bildirən incə belinə, nazik qollarına və zərif əllərinə heyrət dolu həsəd qarışıq, heyvani acgözlüklə dirəşib baxanda... sanki, sirr ilə dolu, heyranedici bir sehrə düşmüşdüm...

O gün, cüvəllağı uşaqların çoxu eşşəkdən, danadan tapıb qayaların arxasına dartdılar...

Mənim təbiətimdə tərslik vardı.

Qalmaqal olan yerlərdən heç əskik olmaz, cığallıq eləyənlərlə daim tutaşardım. Qonşumuz çilli Sərxan dayının o ətbala oğlanlarından fərqli olaraq, heç vaxt yenilməzdim.

Sərxan dayının oğlanları olan nə Vaqifi, nə də ki, Arifi bəyənmirdim. Onlar dediyim kimi, fitə havadan yenib yuvalarına girən ev göyərçinləri kimiydi. Mən isə qaynayırdım.

Bir iş tutanda görsəm ki... qarşıda uçurum, ya sərt qayalıqdı, ya günəş şuası düşə bilməyən sıldırımlı bir yarğanlıqdı, yenə razılaşmaz, amalım, məsləkim, əqidəm uğrunda... arxamda yaşıl düzənlik belə olsa, yenə geri dönməzdim.

Çox inadkar və qorxmaz idim!

Müharibədə olsam, vətən yolunda düşmən

tankının altina belə girə bilərdim.

Hərçənd ki, əclaflar məni partiya sıralarına keçirmədilər. Onsuz da ali təhsil alıb, azadlıqda yaşayaraq işləyəndə atamın bu arzusunu yerinə yetirəcəyəm. Lakin hərbi xidmətdə buna nail ola bilsəydim, ayrı ləzzəti olacaqdı.

РОТА, səs-küylə klubdan КАЗАРМА-ya qayıdanda, dəftər-qələmimi götürüb, tez ЛЕНКОМНАТА-dan çıxaraq əsgərlərimizə qoşuldum...

ОТБОЙ! -əmrini ПРАПОРЩИК Bandısik verəsi oldu, zira, КОМСОСТАВ-dan heç kəs yoxuydu.

Növbəti bir əsgər günü də belə yaşandı...

730 günlük, yoğun gövdəli çürümüş qoca ağacın saralmış son yarpaqlarından, bir, irisi də fırlana-fırlana hərlənib nəm torpağa düşdü.

Çürüyəcəkdi...

Bu gün istirahət günüydü.

Sübhdən РОТА-ya ПОДЪЁМ! -əmri veriləndə КАЗАРМА-da zabit olmadığından, növbətçi qarnını cırsa da əsgərlərin çoxu cərgəyə düzülmürdü.

Səhər yeməyinin vaxtına kimi heç mən də qalxmadım. СТАРИК deyilik bəyim?

Yeməkxanada ermənilərlə danışıb razılaşdıq ki, futbol oynayaq. Onlar ilk məğlubiyyətlərinin qisası həsrətindəydilər.

Bütün ГАРНИЗОН-un əsgərləri neçə vaxt idi ki, ermənilərin acınacaqlı məğlubiyyətini məsxərəyə qoyub, lağla, məzəmmətlə danışırdı.

Nəsə, razılaşdıq...

POTA kartof soymağa getdı.

Mən oyunçularımıza KET tapmalı idim. Düşüb POTA-POTA axtarmağa başladım. Hər yana, bu gün keçiriləcək oyun barədə xoş söz-söhbət yayılmış, əsgərlər arasında fəğanla danışan əfsanəçilər və əbədi düşmənlər peyda olmuşdu!

Bir ucdan, ГАРНИЗОН-un hər tərəfindən erməni və azərbaycanlı əsgərlər axnaşıb gəlirdi.

Hava soyuq olmağı bir yana qalsın, havada seyrək duman da vardı. Çiskin olduğundan, meydançada nəmlik də hiss olunurdu. Onsuz da daha danışılmışdı, sel də getsə xeyri yox idi.

Uzun axtarışdan sonra, 9 ədəd köhnə-külüş KET tapa bildim.

Xəbər yayıldı ki, ermənilər şəhərin idman mağazasından 11 ədəd təzə KET alıb gətiriblər...

Saat 11:07-də POTA kartof soyub qurtardı.

KAЗAPMA-da, futbol oynayacaq oyunçuları seçdim. Yenə də seçilmək üçün hamımız alt əsgər tuman-köynəyinin, ağ pambıq köynəklərində oynamalı olacaqdıq.

Ermənilər keçən dəfə lüt oynasalar da, bu dəfə ağ KET-lərlə bərabər əşsiz futbol forması da alıb gətirmişdilər. Yamanca tünd gedirdilər!

Yığışıb stadiona yollandıq.

Hamı əynini dəyişdi.

Demək olar, əsgər çəkmələrində oynayan qalmayacaqdı. Doqquz-doqquza oynamalıydıq.

Artıq hamı hazır idi.

Top mərkəzə qoyuldu.

Baş hakim, ОДЕССА-lı СЕРЖАНТ Qrinko idi. O seçib, özüylə iki yan hakimləri də gətirmişdi.

Hamımız ölüm-dirim mübarizəsinə, yüksək ruh, dəmir iradə və mətanətliliklə hazir idik.

Ermənilər qisas almaq eşqiylə alışıb-yanır, quyruq kababı kimi, manqaldakı közdə cızhacız, qovrula-qovrula cızıldayıb cızdaqları qalmışdı.

Meydançanın kənarına, çoxlu məccani əsgər azarkeşlər toplaşmışdı.

Oyunçularımızı ruhlandırmaq üçün, kuybışevli Hüseyin yarım kiloqram konfet də, alıb gətirmişdi. БУШЛАТ-ının cibindən çıxarıb, bir-bir hamımıza payladı.

ГАРНИЗОН-un yığma futbol komandasının müdafiəçisi, yeməkxanada işləyən erməni oğlanı da, onlar öz heyətlərinə salmışdı.

Onların komandasında, erməni dəllək də 9 nömrəli köynəkdə idi. O çox güclü oyunçuydu.

Qapıları seçəndən sonra, СЕРЖАНТ Qrinko alabəzək düdüyünü çaldı.

Qiyamat başladı.

Qapıçıları ilk vurulan zərbəni qaytarsa da, heç bismillah eləməmiş iki cıvıldız müdafiəçilərini və irəliyə çıxmış qapıçını da aldadıb topla bərabər özümü tora saldım.

Ermənilər cıqqır belə çıxara bilmədilər.

Hər şey bir göz qırpındaca və gözlənilməz olduğundan əməlli-başlı sevinə də bilmədik.

Hesab açıldı!

Erməni əsgərlər naçar qalıb bütün komanda ilə hücuma atıldı.

Qırğın gedirdi.

Xırxır və ПРЫЩАВЫЙ Səbuhi Qadmalıyev ermənin birini kobudcasına badalaq verib, cərimə meydançamızda yıxdı.

Ermənilərin hamısı birdən çığırışdı.

ОДЕССА-lı hakim СЕРЖАНТ Qrinko, dərhal düdüyünü çalıb, 11 metirlik nöqtəni göstərdi.

Ələkbər sağa, topsa sola uçdu.

1:1

On dəqiqə keçməmiş, ermənilər ikinci topu qapımızdan keçirdi.

2:1

Birinci hissənin qutarmasına az qalmış birneçə erməni dığasını aldadıb, cərimə meydançasına girdim... Arxadan badalaq vurub yıxsalar da, elə yerdə yıxılı vəziyyətdə imkan tapıb, topu boş qapıya istiqamətləndirə bildim.

2:2

İkinci hissə başlayan kimi, heç gözümüzü açmağa macal tapmamış ermənilər üçüncü topu quşqun bağlayan Ələkbərin qapısından keçirtdi.

Yenə hesabda geri düşdük.

2:3

Oyunun axırına kimi, fədakarlıqla aramsız hücumlar elədik. Di gəl... hesabı bərabərləşdirə bilmirdik ki, heç olmasa əlavə vaxt qazanıb, qə-

ləbə topunu vura bilək...

Nəhayət sonuncu dəqiqə gedəndə, erməni qapıçının irəliyə atdığı top təsadüfən qayışbaldır Turabxanın qılçasına dəydi və istiqamətini dəyişib gözlənilmədən ermənilərin qapısından keçdi.

Hakim mərkəzi göstərdi...

İnanılmaz oldu!

Hesab bərabərləşdi.

3:3

Sevincimizdən, qışqırtımız ərşə qalxdı...

Duman bir az da seyrəldiyindən artıq meydança əməlli-başlı görünürdü.

Beləcə oyun heç-heçə başa çatdı.

ОДЕССА-lı hakim, fitini çalıb oyunu bitirəndən sonra, qalibi müəyyən eləmək üçün, hər biri 15 dəqiqədən ibarət... əlavə, iki hissə oynamağı təklif elədi və hamımız razılaşdıq.

Bir qədər istirahət eləyib, meydançaya girmiş azarkeşləri çıxarandan sonra, yenidən oyuna başladıq. Yeri düşmüşkən... ОДЕССА-lı hakim oyunu, demək olar qərəzsiz idarə edirdi.

Yenə ölüm-dirim mübarizəsi başladı.

Meydançada yaşıl otun keçəl hissələri çox olduğundan, oyunçuların qol-qılçası sıyrıq-sıyrıq olmuşdu. Keçəlləmiş yerlərdə, torpağın üstü sürüşkən palçıqlı olsa belə... altı quru və çox bərk olduğundan yıxılanı sıyrıq-sıyrıq edirdi.

Əlavə edilmiş 15 dəqiqəlik birinci hissənin qurtarmasına azca qalmış, məni gözündən qoy-

mayan ГАРНИЗОН-un müdafiəçisi Sarkisyan şehli çəmənlikdə sürüşüb yıxıldı və mən, yerdə qalanları aldadaraq, sol ayağımla güclü zərbə vurub hesabı artırdım.

İlahi!

Top toru silkələyəndə... ürəyim sevincdən necə titrədi!

4:3

Hesabda irəliyə çıxdıq. Arxaya çəkilib oyunu bu hesabla başa vura bilərdik. Necə oldusa, ermənilərin vurduğu top göydodaq Ədalətin əlinə toxundu və dərhal da hakim Ələkbərin qapısına ikinci 11 metrlik cərimə zərbəsi təyin elədi.

Ermənilərin 9 nömrəli oyunçusu olan, dəllək Akopun vurduğu topu Ələkbər tuta bilmədi. Halbuki, o topun istiqamətini təyin edə bilmişdi.

Hesab 4:4 oldu!

İkinci 15 dəqiqə əsl mücadilə idi.

Hamı qan-tər içində, sıyrıq-sıyrıq...

Dəfələrlə ermənilərin qapısına güclü zərbə vursam da, qapıçıları topu qaytara bilirdi. Bizim uşaqlar fədakarlıqla oynayır, məni dayanmadan topla təmin edirdilər. Di gəl, ermənilər aman vermir, onlar da özlərini şəhid edirdilər.

Demək olar, onların cərimə meydançasında oturmuşduq. Qapıçımız Ələkbərin özü də riskə gedərək, qapını boş qoyub köməyə gəlmişdi.

Axır ki, zəhmətimiz öz bəhrəsini verdi.

Oyunun qurtarmasına ikicə dəqiqə qalmış,

ardıcıl edilən hücumların birində, kəlləylə guclü zərbə endirib yerə vurduğum top, torpağa dəyib yerdən qalxdı və istiqamətini dəyişib tora girdi.

Necə çığırışırdıq!

Sevincdən futbolçularımız cumub üstümə tökülüşdü və məni yerə yıxdılar. Hamı bir-birinin üstünə hoppanıb minir, əsl qələbə mərəkəsi yaşanır, Azərbaycan! Azərbaycan! -adı səslənirdi!

Meydançanın kənarında olan azərbaycanlı əsgərlərdən başqa, müsəlman azarkeş əsgərlər də meydançaya axışıb girdi.

Ermənilər dəli olmuşdu.

Vurduğumuz beş topun dördünü mən vurmuşdum. Axırıncı vurduğum qələbə qolu isə lap möhtəşəm alınmış, oyunun son dəqiqələri qaldığından, bu da bir tərəfdən xeyrimizə işləyirdi.

Oyun bərpa olunan kimi, ermənilər qapıçılarıqarışıq hücuma atıldı.

Və son iki dəqiqəni onlarla bərabər, biz də əsl fədakarlıq göstərdik.

Ermənilərin bütün cəhdləri boşa çıxdı.

Üstəlik... bizim Eyvazovun güclü zərbəylə vurduğu top da, ermənilərin qapı dirəyinə dəyib geri qayıtdı. Və bu onların son ümidlərini qırdı.

Baş hakim, ОДЕССА-lı СЕРЖАНТ Qrinko, üç dəqiqə də vaxtı uzadıb, axır ki... alabəzək düdüyünü çaldı və oyunun qurtardığını bidirdi.

Doqquzumuz da qucaqlaşdıq... və bir-birimizə sarıldıq. Sevincimizdən bilmirdik nə edək.

Hava tam açılmışdı.

ПРЫЩАВЫЙ Səbuhi Qadmalıyevlə xallı Arif də yaxşı oynadılar... Kuybışevli Hüseynin fasilədə bizə yedirtdiyi konfetlər də, öz bəhrəsini vermişdi. Millətin şərəf və ləyaqət məsələsi gələndə, şəxsi ambisiyalar cılızlaşır... İndi hamı bir-biriylə qucaqlaşır... bir-birini bağrına basıb fərəhlə təbrik eləyirdi. Zəfər çalınmışdı!

Bu da... Ukraynanın Pervomayski şəhərindəki erməni dığalarının üzərində çalınan, əvəzsiz bir qələbəmiz oldu.

Tarixi kirvələrə tarixi dərs verdik!

Erməni kirvələrimizin çöhrəsindən zəqqum yağırdı. Hələ, ürəklərinə dağ-dağa gətirməyimiz azmış kimi, zəif damarlarını tutub, onlara zarafatla söz də atır, onları qəsddən cırnadırdıq da.

Hərçənd, КАЗАРМА-ya birlikdə qayıtdıq.

УМЫВАЛЬНИК-də yaxşıca yuyundum.

Nahardan sonra gəlib СУШИЛКА-da, isti boruların üstünə БУШЛАТ-ımı sərdim... və üzərində uzanıb, oynadığımız futbolun həzziylə mürgüladim, sonra da necə oldusa, fəzilət və zəlalət əhli arasında fərqləri axtarıb, aramağa başladım...

Oynayanda saat 16:02 idi.

Xebələri geyinib kino-kluba getdim.

Səkilərin kənarında əkilən müxtəlifrəngli iri payızgülləri açdığından baxdıqca adama ləzzət verirdi. Di gəl bu xrizantemlərin qoxusu gəlmirdi.

Heyif deyildi bizim qızıl güllər?

İngilislərin çəkdiyi iki bölümlü film göstərirdilər. Bilet pullu idi.

70 qəpik ödəyib, TOM CONSON filminə baxmağa qərar verdim. Elə də pis film deyilmiş...

Kinodan çıxanda 19:03 idi.

КАЗАРМА-da növbəti ПРОВЕРКА gedirdi.

Axşam yeməyinə getməliydik. POTA, cərgə ilə yeməkxanaya gedəndə nəsə iştaham yox idi.

Dəstədən xəlvəti geriyə qalıb, КАЗАРМА-ya qayıtdım və dolabçamdan gündəlik, zərf, ağ vərəqlər götürüb ЛЕНКОМНАТА-ya yollandım.
Gündəliyi yazıb son günləri başa vurmaq, həm də bir neçə məktub yazmaq istəyirdim...

Tahirlə Maarifə, tez-bazar cızma-qara eləyib sadə məktublar yazdım.

Qardaşım Vidadiyə isə, çox ətraflı yazdım ki, göndərdiklərim məktubları ehtiyyatlı bir yerdə saxlasın ələlxüsus da PRAHA-dan, СВЕРДЛОВСК, ОМСК və ВИННИТСК-dən gələn məktubları.

Komsomolum və digər azərbaycanlılardan gələn məktubları onsuz da o atmaz və heç kəs də o zərflərə toxuna bilməzdi.

Gündəliyi qurtarıb, təkrar kinoya getdim.

Pulsuz film xoşuma gəlmədiyindən tamam zəhləmi apardı və durub yarımçıq çölə çıxdım.

Görünür düz deyiblər:

“Pulsuz şorbanın dadı olmaz...”

Soyunub yerimə girmişdim.

Kuybışevli Hüseyin və kəlbəcərli vaynösə

Sahib Əkbərovla söhbət eləyirdik. Hüseyin maraqlı bir hadisə danışdı:

"Ağdamda sürücü işləyən Tələt adlı bir nəfərin, orta məktəbin 7-ci sinifində oxuyan qızını oğurlayıb qaçırırlar. 13 yaşlı qızı, bir həftə saxlayandan sonra öldürür və böyük diametrli bir borunun içərisinə atıb gedirlər.

Milis şöbəsi uzun axtarışdan sonra meyidi tapıb ailəsinə qaytarır... Tələt kişi yaxın ətrafıyla zorlanmış məsum qızının cəsədini torpağa basdırıb evinə qayıdandan iki gün sonra, səhər-səhər oyanıb həyətinə çıxanda, gördüklərinə inana bilməyib, vəhməli halda baş-gözünə döyə-döyə, var gücü çatdıqca bağırır və dizləri üstə çökür.

Səsə, evdən həyat yoldaşı hövl içində yüyürüb çıxır və o qızının məzardan çıxarılmış kəfəndəki meyidini görüb necə çığırırsa, havalanır.

Səsə tökülüşüb gələn qonum-qonşu... qohum-əqraba vəziyyəti görüb, heyrətə gəlirlər.

Qızı yenidən dəfn edir və sonrakı bir ayda bu hal daha iki dəfə təkrarlanır. Və hələ... bu azmış kimi, ikinci arvadından olan 2 yaşlı qızını da oğurlayıb öldürürlər. Ağdamda şok yaşanır...

Sürücü Tələt, sən demə... heç kəsə bildirməsə də, özünün düşmənini yaxşı tanıyırmış.

Bir neçə ay da keçir... və o, düşmənini girələyib güllələyir, dizlərini sinəsinə qoyaraq qanını ovuclayıb içir... və milis şöbəsinə üz tutur.

Məhkəmə Tələtə 8 il iş kəsir..."

Tofiq Xəzər

# Bryusovun on manat oyunu ...
# Dyakivin təqvimi...
# Nasionalist

*Pervomayski, 13, 14 və 15 noyabr 1972-ci il,*
*I, II və III günlər.*

Səhər-səhər bərk yağış tökürdü.

Bu gün, ПИЛОТКА-ları təhvil verdik və yeni qış papaqları paylananda... mənə çox köhnə bir papaq düşdü. Həm... başa qoyulası deyildi, həm də ortasındakı beş ulduzlu qırmızı ЗНАЧОК-u yoxuydu. Demək olar, bu nimdaş papağın istifadə müddəti adlamışdı.

Yenə siçan-pişik oyunu başladı.

Hərbi hissələrin hamısında beləydi. Kimin ki, güman edilirdi pulu var... bu ondan rüşvət qopartmaq taktikasıydı. Yəni, hörmətsizlik əlaməti yox, imkana söykənən iş idi. Bu işin strategiyası da sadə, yəni müsəlmanlara qarşı yönəlmişdi.

РОТА yağış yağdığından РАЗВОД-a durmadı və elə başlarından su süzülə-süzülə, cərgədə

dayanmış РОТА-nın əsgərlərini işə basdılar.

ЕФРЕЙТОР İlyas və xırxır Səbuhi Qadmalıyevi də götürüb, donuzxana tərəfdən aradan çıxa bildim. ШТУКАТУРЩИК САМОВОЛЬЩИК СТАРИК olmağın da, belə-belə işləri var də!

Donuzxanada xeyli ləngiyib, yağışın kəsilməsini gözlədik... Xırxır Səbuhi, ona bərk soyuq olduğunu söylədi və dərhal СТАРИК ЕФРЕЙТОР, ağdamlı İlyas Mamedov bir göz qırpımındaca kimin nəsə düşünməsinə macal vermədən özünəməxsus təmkinlə, ПРЫЩАВЫЙ Səbuhinin qaxaca dönmüş belini kobud barmaqlarıyla hövkələməyə başladı və çoxbilmiş qoca arvadlar kimi:

-Möhkəm qulunc tutub səni, -dedi.

Yağış kəsmək bilmirdi... İlyas, havanın nəmiş olduğunu arqument gətirib, mənim də boynumun kökünü xeyli ovuşdurdu.

Arada yağış səngidi... cəld, donuzxanadan çıxıb kəndə doğru götürüldük. Kənd mağazasından tum, kefir və altı ədəd də КОРЖИК aldıq.

Soyuq havada araq olmadısa, kasıb malı olan КОРЖИК-lə qatıq yaman tuturdu...

КОРЖИК-lə qatığı görməmişlər kimi, acgözlüklə yeyib, ВОДОЗАБОР-a tərpəndik.

İş yerində işləyən yoxuydu.

Hamı yağış tutmayan yerlərdə daldalanıb, sel-suyun kəsməsini gözləyirdi.

ГАРНИЗОН-un bütün əsgərləri, demək olar, yağışdan gizlənmişdi...

Briqadirləri ПЛАНЁРКА-ya yığdılar.

Axtyorkinlə Bryusov bizi dilə tutdu ki... nahara kimi işləyin... tamam suya batsanız, nahardan sonra КАЗАРМА-ya gedərsiniz.

Onsuz da hamı az da olsa suya batmış və yağışla bərabər hələ üstəlik bərk şimal küləyi də əsməyə başlamışdı.

Uşaqları toplayıb bir yerə cəm elədim.

İşləməyə qərar verdik.

Dəliyə yer ver, əlinə bel. Başımızdan cılxa su axa-axa, sevincək, səs-küy və qışqırıq sala-sala, zilan qaraçıları kimi işləməyə başladıq.

Bir az keçmişdi ki hay-harayımıza Bryusov özü də gəlib çıxdı. Və üstümüzə çığırmağa başladı ki, bu nə səs-küydü, çapqınçılarsınız siz?

Mən uşaqları öz dilimizdə başa salıb qızışdırır, özümsə onunla mübahisə eləmirdim.

Uşaqlar... gözləri çanağından çıxmış Bryusovla çox cəhl çəkəndən sonra qəfil o cırnadı və qışqırdı ki: Sizi hauptvaxta basaram.

Vaynösə Sahib üz-gözündən su süzələnə-süzələnə qabağa çıxdı və bozarmış halda:

-Aparmayanın atası, anası, əvəjdadı belə-belə... Cəhənnəmdən biletsiz qaçan oğraş!

Öz dilimizdə söysə də əclaf başa düşdü.

Və hərbi əmr ilə, ona 3 СУТКА elan eləyib, qabağına saldı ki, Sahibi hauptvaxta aparsın.

Öz dilimizdə uşaqları başa saldım ki... hamısı əllərindəki belləri birədi atıb, Sahibin dalına

düşsünlər, bunu duzağa salmaq lazımdır.

Buzlaq dövrü deyil ki!

Elə də eləyib, cəhlkar cəlayi-vətənlər:

“Birə-yüz biz də gedirik,” -qışqırışdılar.

Bryusov, yerə atılmış ЛОПАТА-lardan sanki təşvişə düşüb diksindi. Və mənə yaltaqlanmağa başladı ki, uşaqları birhovurluq sakitləşdirim.

Nəyisə, çox mübahisədən sonra, vaynösəni hauptvaxtdan azad eləyib... belləri də yerdən götürərək işləyəcəyimizə kişi sözü verdik.

Sülh bağlandı.

Meydançaya ЩЕБЕНЬ, qum yayırdıq. Saat 12:00-a kimi işlədik. Tərslikdən yağış da kəsdi.

Bryusovun yanına gəldik ki, bizi КАЗАРМА-ya qaytarsın. Necə oldusa, əclaf, vaynösə Sahibin БУШЛАТ-ının iç tərəfini açıb yoxladı.

Tərslikdən БУШЛАТ-ın iç tərəfi, çox da elə su deyildi. Bunu bəhanə eləyib, amiranə tərzdə:

-Hələ işləyin, -dedi.

Yağış kəsdiyindən daha batası deyildik.

Ona görə, uşaqları öyrətdim ki, birər-ikişər aradan çıxıb, çaya getsinlər və orada bir-birlərinin БУШЛАТ-ının içini sulasınlar.

Qoy cılxa su olsun!

Beləcə sözü bir yerə qoyub... ЮЖНЫЙ БУГ çayında БУШЛАТ-larımızın iç tərəfini suladıq.

Bryusova БУШЛАТ-ların içini göstərəndəsə, əclaf yağışın kəsdiyini bəhanə eləyib, sözündən qaçdı. Əl çəkmədiyimizi görəndə isə qışqırdı:

-КАЗАРМА-ya getməyəcəksiniz!

Kor-peşman geriyə qayıtdıq və ЛОПАТА-ları atıb, bu gün işləməməyə qərar verdik.

Boş bir otaq tapıb içinə doluşduq. Artıq, su canımıza işləyirdi. Soyuq olduğundan, kimdə nə qədər pul vardı, qoydu qara Vəlinin ovucuna.

Çaxır alıb içmək istəyirdik ki, canımızı birtəhər qızışdıraq. 5 manat 50 qəpik düzəldi.

Və Vəli getdi...

Nahara 5 БУТЫЛКА qırmızı çaxırımız vardı. Yeməkxanaya girib, СТУЛ-da oturan kimi КИСЕЛləri içib, gizlincə СТОЛ-un altında КИСЕЛ КРУШКАlarını çaxırla doldurduq. ПРАПОРЩИК Bandısiklə Kruskanov yaxınlıqda olsa da, ağlagəlməz iş idi!

İştahayla yeməkdən yeyib çaxırdan içirdik. Kənardan heç kəs, heç nə başa düşmürdü.

Səbuhi Qadmalıyev Bandısiklə Kruskanovun arasında oturmuşdu. Bandısik onunla nəsə danışır, hərdən də saçından bir tük çəkirdi.

Qara Vəli çaxırla dolu КИСЕЛ КРУШКА-sını əlinə alıb, cəld ayağa qalxdı... və gözlənilmədən onların СТОЛ-una yaxınlaşaraq... КРУШКА-nı Səbuhiyə uzadıb, öz dilimizdə bildirdi ki, duyuq salmasın, КРУШКА-nın içərisindəki çaxırdı.

Qırmızı kəmturş çaxırı... Səbuhi ağzını turşutmadan belə birnəfəsə içəndə, biz gülməkdən uğunmuşduq. Düz birhəftəlik güldük!

Kruskanovla ПРАПОРЩИК Bandısikin, heç ağlına da gəlməzdi ki, yeməkxanada, qulaqları-

nın düz dibindəcə, Səbuhinin içdiyi КИСЕЛ yox, məhz, qırmızı çaxırdı.

Etiraf edək ki, əclaf, peşəkarlıqla içdi!

Qonşu СТУЛ-larda oturan əsgərlərin də yuxusuna girməyən iş olduğundan... heç kim bizə əhəmiyyət belə vermirdi.

Çaxırları içib qurtardıq.

БУТЫЛКА-lar birər-birər boşaldıqca, əcinnə qara Vəli БУШЛАТ-ının altında gizlədib çölə çıxır və boş şüşələri tez də harayasa atıb qayıdırdı.

Yağışın nəmi çöldən islatsa da içəridən bizi çaxır qızışdırıb dingildədirdi.

Artıq, əməlli-başlı səs-küy salmışdıq...

Yeməkxanadan çıxıb bir qədər havada gəzişəndən sonra... soyuq külək yenidən bizi üşütməyə başladı. Demək olar, bütün hərbi formalarımız suyun içindəydi.

Yığışıb, qır tiyanının altında yanan ocağın kənarına gəldik. İçdiyimiz çaxırlar ucuz qiymətə olduğundan içimizi az müddətə isidib keçmişdi. Çırtaçırtla şirin yanan ocağın kənarında isti vurduqca, БУШЛАТ-larımızın suyu buğlanırdı.

Demək olar ki... axşama kimi vaxtımızı qır tiyanının kənarındaca keçirdik. Özüm, uşaqlara tapşırmışdım: Bryusovun acığına... bu gün daha işləmək yoxdur. Ara-sıra Bryusovun özünün, ya da Qreşnoyun yanımıza gəlməsinə baxmayaraq selə düşdüyümüzü bəhanə eləyib işləmədik.

Bu günün də axşamı belə gəldi...

POTA-yla КАЗАРМА-ya gəldik və КАЗАРМА-ya girən kimi yeni xəbərlər aldıq: Cunquş Neçepurenko ДЕМБЛЬ-ə gedib!

Uşno ОБХОДНОЙ alıb!

Kruskanov da, iki-üç günə ОБХОДНОЙ alır. Bizim müsəlman əsgərlərdən isə xəbər-ətər yox idi. Yenə dilxorçuluq məni basdı. Bilmədim ki nə edəm. Yamanca darıxmağa başladım.

Axı hamıdan vacibi mənəm, təhsildə daha bir il də niyə itirməliyəm ki?

Pulum da yox idi, rüşvət verəm əclaflara...

Qəfləti ağlıma nə verdisə, БУШЛАТ-ımı soyundum və vaynösə Sahibdən papağını istədim.

Mənimkinin ulduzu yoxuydu.

Papağı başıma basıb, ШТАБ-a tərpəndim. Axı, Dyakiv demişdi ki... bayramdan sonra danışarıq. İti addımlarla ШТАБ-ın qabağına çatanda, Bryusov və Boykoyla qabaqlaşdıq.

Dərhal hər ikisi bir ağızdan soruşdu: "Hara gedirsən, nəyə gedirsən, kimi axtarırsan?"

Tez vəziyyəti onlara başa saldım. Bryusov bərk-bərk, qorxmuş halda, dönə-dönə tapşırdı:

"Birdən, papağın ulduzu... ya БУШЛАТ-ların islanması barədə ağzından söz qaçırarsan a..."

Boyko da onun sözünə qüvvət verdi:

"Səni qorxutmuruq... Amma, yaxşı iş deyil, POTA-nın adını qorumaq lazımdır..."

-Bəs mən sovet vətəndaşı, ya sizin POTA-nın komandirlərindən deyiləm? Bəs iki ildir, və-

tən yolunda can qoymuram? Bəs hansı səbəbə görə, məni ali təhsildə bir il geri salmaq istəyirsiniz? Bir həftə də, qır tiyanının kənarında özümü ocağın tüstüsünə verməklə siz, ya vətən... nəsə qazanacaqsıınız? Onsuz da, iki ildi, təhsilimi yarımçıq saxlayıb, hərbi xidmət çəkirəm dəə... Bəs salyanlı Adil və ya, digər САМОВОЛЬЩИК-lər niyə belə tez tərxis olundular? Mənim kimi institutda zaçot-imtahanları başlayırdı? Hə? Bəlkə kiməsə babat rüşvət veriblər? Nə vaxtadək fəraq, həsrət içində üzüntü keçirməliyəm?

Həşir qopardığımı görüb, təəccüb və heyrətlə üzümə baxa-baxa həşəmətli komandirlərim dinmədi. Həssaslıqla, əlləri sustalmış susdular...

Gədəbaşılar!

Onları arxayın salıb, ШТАБ-a getdim.

ШТАБ-ın rəisi təsadüfən dəhlizdə mənimlə qarşılaşdı və görən kimi də, dərhal gülümsəyib:

-Yoldaş СЕРЖАНТ, get hərbi biletini götür, möhür vurulub, -xeyirxahlıqla dedi.

СЕРЖАНТ rütbəsini təsdiq etmək üçün hərbi biletimi almışdılar.

Qoca dığdığ, dıydıq, dıbırıq və diftiringidən qırmızı hərbi biletimi götürdüm.

Sonra da qayıdıb hərbi hissə komandirinin meşinüzlü qapısı ağzında dayandım. İstəyirdim, tək olsun ki, rahat danışa bilim.

Xeyli gözlədim.

Yanına tez-tez zabitlər çıxıb girirdi. Həyətə

düşüb, ciyərlərimə bir qədər təmiz hava aldım.

Darıxırdım...

Növbəti dəfə geri qayıdanda Dyakivlə elə onun kabinetinin qarşısında rastlaşdıq... O məni görən kimi, lovğalıqqarışıq bir saymazyanalıqla:

-ЧТО БАБАЕВ, ДЕМБЕЛЬ ХОЧЕШ?

Lap yaxına gəlib, hərbi vəziyyət almadan, ДОЛОЖИТЬ eləmədən, səmimiyyətqarışıq utancaqlıqla, arvaddöşlüyə dedim:

-Yoldaş ПОДПОЛКОВНИК, axı institutda mənim qış sessiyam başlayır. Əgər məni onca gün də ləngitsəniz, ali təhsildə bir il də geri düşürəm. Azvoyenkomatdan da sizə teleqram gəlib...

Gözlərini ağzıma dikmişdi.

Xeyli, xoş sorğu-sual eləyib, harada, hansı institutda, neçənci kursda oxuduğumu soruşdu. Və birdən nə fikirləşdisə, necə oldusa o qayıdıb kabinetə keçdi və məni də içəriyə dəvət elədi.

Bu vaxt Maltsev də, qapını açıb içəri girdi.

Dyakiv kürsüsünə yayxanıb eynəyini taxa-taxa, ağzını marçıldadıb mızıldandı:

-Həə, deyəsən... elə bir teleqram gözümə dəymişdi axı... БАБАЕВ... БАБАЕВ...

Sevincimdən içim əsdi... Və bu sevincimin nəşəsi, sanki Maltsevə də sirayət elədi.

Teleqram, indi taleyin mənə ərmağan elədiyi bir dürlü göhvər idi!

Agız-burun bəhəm eləməklə:

-Baxaram, elə olsa, buraxmaq olar, -dedi.

İçim tələtümə gəldi.

Və qulaqlarım sanki tutuldu.

Sözü ağzında tökülməklə Maltsev də nəsə dedi, amma nə dedi eşidə bilmədim.

Dyakiv qırmızı qələmlə qarşısındakı 1972-ci il təqviminin səhifəsinə nəsə qeyd elədi.

Gözlərim yaşardı.

Axı, ağzımdan hələ süd iyi gəlsə də... mən vətənə olan borcumu ləyaqətlə yerinə yetirmişdim. Hərbi xidmətdə bir həftə artıq qalmaq təhsilimdə məni düz bir il dala atmaq deməkdir.

İnsafsızlıq, nadanlıq olmazdımı?

Ağlayıb-sıtqamaq təbiətimə yaddır.

Rüşvət verməyə də pulum yoxuydu. Nəydi başqa günahım? Nəydi qəbahətim?

Nədi çarə?

Birdən ağlıma nə verdisə, kövrəlmiş halda:

-Axı mən Vətənimizi çox sevirəm, mən torpağımızın hər qarışı uğrunda, ölümə belə gedə bilərəm. Vətən bəs vətəndaşının qayğısına qalmalı deyil? Əsgəri, təhsildə ağlar günə qoymaq kimə lazımdır? Ağızaalınmaz ifadəyə nə hacət?

Maltsev də, çönüb Dyakivin üzünə baxdı.

Dyakiv kövrəlmiş halımın, dolmuş gözlərimin, yerli-yataqlı danışığım və safqəlbliliyim qarşısında tab gətirə bilmədi və zarafata keçib:

-Yoldaş СЕРЖАНТ narahat olma sabahdan sənin işinlə məşğul olaram, -dedi.

Səsindən, səmimiyyətindən hiss elədim ki,

bu dəfə başdan eləmədi...

Hərbi təzim edib, çölə çıxdım.

Elə bil üstümdən dağ götürülmüşdü. Sanki hərbi xidmət başa çatmış, КАЗАРМА-lar gözümdə nimdaş bir keçmişə bənzədi.

Əsgərlər tanrının bədbəxt, talesiz bir bəndələri kimi gəldi mənə...

Bu vaxt beynimdən bir atalar sözü keçdi:

"Qərib quşa yuvanı Allah yetirər..."

Ərəsat sevinirdim!

Uçmağa bircə qanadım çatmır... Artıq məsələm gündəmdədir və işıq yolu tapılmışdır.

Ey Ulu Tanrım! Əgər iş düzələrsə, o mənə sabah ОБХОДНОЙ verə bilər.

Bu inanılmazdır!

Düz iki il... gedəcəyim bu günü, günbəgün saymışam, əzab-əziyyətə qatlaşmışam.

İndisə, ərištə doğramışdım!

Əclaf Bryusov... və Boyko kimi bədbəxtlər. Dal ayaqları ilə qulaqlarını qaşıyan tünəkələr!

Doğrudan da, dayça nə qədər bərk qaçsa da, arabanı çəkən at və eşşək olar.

Dairənin baş-ayağı olmasa da... bir ucunu əlimə keçirib, işimi görmüşdüm.

Bir də baxdım, sevincək özümü yeməkxanaya yetirmişəm.

МОЛОДОЙ-lar borş horuldadırdı!

Olayı uşaqlarımıza əkəc-əkəc, olduğu kimi danışdım. Fərəhdən az qalırdım uçam.

Axşam yeməyindən sonra POTA komandiri Bryusov məni dəftərxanaya çağırtdırdı.

Getdim.

Əkə-bikə adamlar kimi... yer göstərib otuzdurdu... əlini cibinə saldı... qurdalandı və əzik bir onluq çıxarıb, həqarətlə:

-Bu da sonuncu borcum. Daha ələlbaş olduq! -deyib, pulu qarşıma qoydu.

Nə qədər elədimsə geri götürmədi, minnət və məzəmmət dolu inadkarlıqla dedi:

-Yox, götürməlisən, mənim vicdanım təmiz olmalıdır. Mən Böyük Ayı bürcüylə Kiçik Ayı bürcü arasındakı, göyün şimal yarımkürəsində yerləşən əjdaha bürcündənəm... 30 manat əsginas almışdım, sentinə kimi otuzunu da qaytardım...

Ürəyimdə dedim:

"Yalansa atana lənət!"

Pulu götürəndən sonra, açıq söhbətə başladı və sanki, ötən iki ilin etirafını eləyirdi.

Mənim üçün, çox mühüm əhəmiyyət kəsb edən məxfi sirrin də üstünü açdı. Sən demə, bir dəfə hərbi hissə komandiri ПОДПОЛКОВНИК Dyakiv... ikinci POTA-nın siyasi işlər üzrə komandir müavini Boykonu yanına çağırıb:

"Sizin POTA-da... böyük bir НАЦИОНАЛИСТ var: Tofik Ali oqlı Babaev! Bundan xəbərin var? -dövlət çevrilişindən sovuşurmuş kimi soruşur."

Bəli indi başa düşdüm nədən qəzazədə olmuşam: Partiya sıralarına niyə məni qəbul elə-

mədilər, əlimdə 15 günlük ОСВОБОЖДЕНИЕ ola-ola niyə məzuniyyətə buraxmadılar. İnstitutdan, Azvoyenkomdan teleqram gəlsə də... niyə məni yubadırlar. Hm...

Deməli buymuş çıxarılan hoqqaların kökü!

Tünbətün Bryusov, iki ildir ürəyində məkrlə gizli saxladığı sirrləri bir-bir açıb danışdıqca çox qaranlıq məqamların üstü açıldı.

Niyə mənim qarşıma sədd qoymuşdular?

СЕРЖАНТ rütbəsini yubadıb, hərbi xidməti qurtara-qurtarda verdilər. Axı elə adamlar partiya sıralarına qəbul olunur, elə adamlara ЕФРЕЙТОР, kiçik СЕРЖАНТ, СЕРЖАНТ, rütbəsi verilirdi ki onlar buna qətiyyən layiq deyildi.

Bəs görəsən qatı millətçi damğasını mənə vuran kim imiş?

Bryusov cəsarətlə açıb, onu da dedi.

Sən demə, qəzavü qədərin başında duran hərbi hissə üzrə komsomol təşkilatının 1-ci katibi СЕРЖАНТ Belov imiş! Hələ bu azmış kimi, solçu, opportinist köpək oğlu Belov... yazılı şəkildə həm РОТА-nın komandirinə, həm hərbi hissənin komandirinə, həm də ki, ГАРНИЗОН komandirinə məlumat veribmiş.

Sən demə, hələ onu da öyrədən olub.

Öyrədənin kimliyini öyrənəndəsə, saçlarım qabardı. Alik Ohanesyanın başçılığı ilə yeddi erməni və 4 rus əsgərləri!

Aman Allah! Xudanəkərdə!

Axı bu Şamxor ermənisi mənim ən güvəndiyim əsgər dostlarımdan idi?!

Bəli, bütün işləri korlayan, yenə ermənilər imiş... Əvəz əmimin kəbinli arvadı, Valyanın qızı Silviyanın, Azərbaycan Respublikasının Maliyyə naziri Baxşalı Baxşalıyevin doğma qardaşı Oruc müəllimin arvadı, Bərdədəki 2№-li orta məktəbdə, rus dilindən dərs deyən Lusiya müəllimənin, həmkəndliləri olan kirvələrimiz!

Xudaya-xudavənda!

İki ildə, xudbin Alik Ohanesyanı mən necə olub, tanıya bilməmişəm? Gicavarmış ki, bu!

Nə qədər sadəlövh olmuşam!

Xüsus, Bryusov ürəyindəkiləri səmimiyyətlə ortaya qoyandan sonra, onunla yenidən dostlaşdıq. Söz verdik ki, daim əlaqə saxlayaq, məktublaşaq və məzuniyyət vaxtlarında bir-birimizə qonaq gedək. Hətta... gələcəkdə qohumluq əlaqələri yaradaq, yəni qız alaq-qız verək...

Bəli, mülki vaxtlarda hökmən görüşərik və azad insanlar kimi, istədiyimiz yerdə, istədiyimiz qaydada yeyib-içər, gəzib-dolaşarıq...

Lap axırda, Bryusov bir az da irəli gedərək boynuna götürdü ki, Dyakiv onun rəyini soruşsa, elə həmin gün də, buraxılmağın vacibliyini başa salacaq. Etiraf da elədi ki mənə qarşı, xüsusi ilə, partiya sıralarına qəbul olunmamaqda, çox ədalətsizlik olub...

Dəryadakı balıqla göydəki quş satılmayan

kimi, mən də əqidəmdən dönən deyiləm.

Mən, millətçi də olmamışam.

Amma həmyerlilərimi, vətənimi həddindən çox sevirəm. Onların rahatlığına rəğmən, Rodkinin yanındakı isti işimdən olmuşdum.

ОДИНОЧКА-da nə vardı xidmət eləməyə?

Çox söhbət eləyib dərdləşdik.

Sonda, dönə-dönə mənə bildirdi: "Gündəliklərindəki yazılarından nə vaxtsa nəsə bir kitab yazası olsan, məndən pis yazma! Quruluşumuz belədir. Nə mənfi qüsurumuz, gicalov işimiz varsa, ordunun yox, kremldə oturanların bəlasıdır...

Mən qapıdan çıxanda, o kədərlə soruşdu:

-Sabah işə gedəcəksən?

Qayğılı-qayğılı:

-Nə bilim? -dedim.

Özüm də son dərəcə kövrəldim. Bəli, daha reallıq ortalıqdaydı. Yalan olmasın, cənub-şərqi Asiya və Malay adalarında yaşayan uzunqollu gibbonlar da bilirdi ki, artıq... mən hərbi xidməti şərəflə başa vurmuşam.

Dəftərxanadan çıxıb, КАЗАРМА-ya girən kimi, vaynösə Sahibdən xoş bir xəbər aldım:

-Sənə ПЕРЕВОД pul gəlib, 50 РУБЛЬ!

Lap yerinə düşmüşdü.

Bu an, sevincim o qədər böyük idi ki, daha sevinə də bilmirdim... Məni qınamayın, deyəsən sevincin də, bir həddi var.

Rifahım yaxşı olduğundan... gecə yata bil-

mir, yerimdə hey qurcuxurdum.

İstədim durub Rodkingilə gedəm və onlarla vidalaşam. Dərhal da fikirləşdim ki olmaz, çox gecdir ОБХОДНОЙ-u əlimə alıb sonra getsəm daha yaxşı alınar. Hətta feyzyab olarlar...

Arzular, xəyallar məni qoynuna alıb aparırdı: "ОДЕССА-ya bilet alıb... bənövşəgözlü Katerinanın yanına gedirdim. Sonra, oradan da təyyarəylə ОМСК-a, СВЕРДЛОВСК-a uçuram. Alla, Nataşa ilə görüşürük. Onları Bakıya dəvət edirəm."

Pərvərdigara! Yəni doğrudanmı Dyakiv sabah mənə ОБХОДНОЙ verəcək? Birbaşa Pervomayskidən qatarla Bakıya çıxsam, üçcə gündən sonra, 16 noyabrda xoşbəniz Komsomolla görüşər və: Salam ey qoca Bərdə, deyə biləcəyəm!

Bütün bunlar uşaq nağıllarına bənzəyirdi! Qıpqırmızı hərbi biletimə Dyakiv möhür vurub, mənə uzadanda, necə hisslər keçirəcəyəm!

Çarpayım da, КАЗАРМА da, yan-yörəmdəki əsgər və zabitlər də, artıq, gözlərimdə yadlaşırdı... Böyrümdəki qəzet, jurnal, gündəlik, məktub və teleqramlar yığdığım dolabça da, artıq gözlərimə miskin görünürdü.

Nə vaxtsa, yuxuya keçmişəm...

Növbətçinin çığırtıyla: PPOTAAA QAALXX! - əmrinə diksinib, ilk günmüş kimi sıçrayaraq səksəkəylə qalxdım. Bu da son!

Bu gün ОБХОДНОЙ alıram?

Görək!

Qalxıb, tənbəl-tənbəl geyindim...

ПОЛИТИНФОРМАЦИЯ-dan sonra, POTA növbəti iş gününə başlayacaqdı... Fikirləşdim ki, nahara kimi, mən də ВОДОЗАБОР-a gedəm.

Bəlkə də, son iş günü olacaq!

Gözəl gün çıxmışdı.

Duyğusal insanlar üçün yaşanası anlar idi. POTA cərgədə şövqlə təpik döysə də, arxaya qalıb tək-tənha, iç dünyamla sakitcə irəliləyirdim.

Bu da iki ilin son saatları...

Günəşin qırmızımtıl şəfəqləri altında kənd evlərinin şüşələri bərq vururdu. Sanki, kənd çimib hamamdan yenicə çıxmışdı. Hər yan gözəl görünür, nədənsə, bu an ritmlə təpik vuran vətən vicdanlarının yaratdığı musiqi də möhtəşəm səslənirdi. Yəqin ki... sonuncu gündür ümidiylə, kəndə acgözlüklə baxırdım.

İndinin özündə də, bu cümlələri gündəliyimə köçürəndə, kənd və o kəndin uzun yolu gözlərimdə, tipik rus mənzərəsi kimi canlanırdı.

Əyri-üyrü palçıqlı yollar, taxtapuşlu evlər, dəbdən düşmüş geyimli qırmızıyanaq adamlar...

Doğrudanmı bu sonuncu hərbi gün idi?

Eh... Dyakivlərə nə etibar? Dünyanın özü kimi, zabitlərin də sifəti bombozdur.

Çox keçmədən... ВОДОЗАБОР-da yenə qul istismarı başlayacaq. Xəstə də, dərdli də, dərdsiz də baş-başa verib işləməlidir.

Satqın Ohanesyanlar, OKEAN-203 radioları-

na səs verib... müsəlmanlar əleyhinə növbəti fitnəkarlıqları haqqında plan cızacaqlar...

Şər olmasa, şeytan olmasa nə var ki yaşamağa. Bu rüşvəti, bu hərbçilərin canına salana lənət, özü də min lənət.

Ey gidi dünya!

Yol kənarında tum satan yaşlı bir kişidən 2 stəkan tum aldım, kişinin toz-torpağa batmış papağı köhnə əsgər papağıydı.

Eynən mənimki kimi.

Bircə ulduzu yox idi, hərçənd keçərdi, zira, yağla yovşan da yeyilər!

Papağının qulaqlarını bağlayan ipi, kökündən qopduğundan, tula-tazı qulaqları kimi sallanırdı. Üzünün tükü də... mütəmadi əl-üzünü yumadığından tozlu, çirkliydi. Kişiyə... kişi yox, tum satan içki ölüsünə tumun pulunu verəndə, Azərbaycan folklorundan oxuduğum bir nağıl yadıma düşdü və dərhal olduğu kimi, lakin öz dilimizdə, bərkdən tələffüz edə-edə... Şərq küçəsinin gözmuncuqlarından olan Manya xalanın sözü olmasın: Kişiylə məzə cırtdatdım:

“Badi-badi giriftar, hamam-hamam içində, xəlbir saman içində. Dəvə dəlləklik eylər, köhnə hamam içində. Qarışqa şıllaq atdı, dəvənin qılçı sındı. Hamamçının tası yox... baltaçının baltası, orda bir tazı gördüm, onun da xaltası yox ...

Tum satan, çırağı sönmüş kişi, ölgün gözləriylə üzümə maddım-maddım baxırdı.

Talesiz binəvaya öz dilimizdə dedim:

Qoca kaftar! Bu gün hərbi mükəlləfiyyətdə son günümdür, tərxis olunum gəlim, müştərək ticarət işi qurarıq. Hələlik heç kəsə bildirmə, çiy tum alıb, qovurub kənd yolunda satarıq.

Necədir ağsaqqal, bilirsənmi biz tərəflərdə iki dostun arasına girməzlər, sizdə necə?

O məni başa düşmürdü. Ancaq, girdə, ölgün gözlərində, nəsə bir işıq işartısı sezildi...

Zarafatca, kirli qulağına qışqırdım.

-БУДЕМ СОВМЕСТНО ТОРГОВАТЬСЯ! ОТ ЗАРИ, ДО ЗАРИ ЖДИ МЕНЯ...

Ümidsizcəsinə xırıldadı:

-НЕ СГОРЕМ?

POTA uzaqlaşdığından dabanıma tüpürüb, dəstənin arxasıyca götürüldüm.

Ürəyimdə: "НЕ СГОРЕМ! НЕ СГОРЕМ!" -desəm də, öz dilimizdə bərkdən qışqırdım:

-Boymadərən deyil ey, müftə yığasan, satasan və milyonları qazanıb sandığa çinləyəsən. Nə vaxtsa buralara gəlsəm, onda boynunun dalını, qulağınln dibini görərsən. Öləsən səni...

ВОДОЗАБОР-da meydançanın və çəkiləcək asfalt yolun, qumla ЩЕБЕНЬ-ini yaymalıydıq.

Uşaqları, işin ağırlığını nəzərə alıb... bərabər gücdə böldüm... Çex istehsallı, özüboşaldan iri TATPA yük maşınları gecəynən, ЩЕБЕНЬ, qum və qırma daş, xırda çınqılları boşaldıb getmişdi.

Həvəslə işə girişdik.

Təqribən, saat yarım-iki saat keçmiş, hərbi

hissə komandirimiz, ПОДПОЛКОВНИК Dyakiv özü də gəlib çıxdı. Yenə medallı, nişanlı, qızıl ulduz düyməli, ağılaparan hərbi mundiri əynindəydi.

Hamımız ürəklə, canıdildən işləyirdik.

Öz ana dilimizdə uşaqlar dirəndi ki, yaxınlaş Dyakivlə görüş... əgər sənə bir söz deməsə, yadına sal, vədini xatırlat.

İstədim yanaşıb soruşam... amma, dünən axşamkı səmimi söhbətdən sonra, ayıbıma gəldi, lap düzü utandım.

Bu, Şərq küçəsinin, bizə verdiyi əxlaqdan irəli gəlirdi. Lazım gəlsə, özü bir söz deyərdi...

Həm də çox tezdi, yenə axşama yaxın olsaydı, üzümə "ələk" tutub, bir söz soruşardım.

Uşaqlar üz vurub, əl çəkməyəndə dedim:

-İndi ki belədir... mənim ayıbıma gəlir, çox tezdir. Hamınız əli ЛОПАТА-lı gedin... soruşun ki, Babayevin işi nə yerdədir, axı o imtahan sessiyasına gecikir. Buna nə hacət var, deyərsiz?

Dediyim təklif, əsgərlərin lap ürəyindən oldu. Dyakiv ikinci mərtəbəyə qalxmışdı. Razılaşdıq ki, aşağı enəndə, bizim СТАРИК əsgərlər onu dövrəyə alıb, sözlərini desinlər.

Daha utanmaqdan keçib.

Onsuz da bir-iki həftəyə hamımız çıxıb evəşiyimizə gedəcəyik.

Bir yerə cəmlənib, bellərə söykənərək şirin söhbət elədiyimiz yerdə, Bryusov özünü yetirdi.

Qətiyyətli addımlarla mənə yanaşıb, uşaq-

ların da eşidəcəyi xeyirxah bir tonda dedi:

-Gəl gedək kombatdan soruşaq görək bəs nə vaxt səni buraxacaq?

Cəld əlimdəki beli atıb, onunla tərpəndim.

Bəxtimizdən Dyakiv özü qabağımıza çıxdı. Və Bryusov başlamaq istəyəndə... Axtyorkin də, bir neçə zabitlə yanımızda peyda oldu.

Tünlük yarandığından heç yeri olmasa da, Bryusov dinc dayanmadı.

Soruşdu.

ПОДПОЛКОВНИК Dyakiv, heç yeri olmadığının fərqində olduğundan əsəbiliklə dedi:

-Onun sənədləriylə məşğuldurlar,1970-ci il dekabr ПРИЗЫВ-ları hələ xidmət çəkir, əziyyətlə vətənə qulluq edir, işləyir, zəhmətə qatlaşır...

Nəsə, əclaf dolaşıq, qarışıq danışdı.

Rəngim qaçdı. Bu niyə nala-mıxa vurdu?

Bryusov tutulduğumu görüb kişiləndi:

-Təhsiliylə bağlı, istisna hal kimi, bir nəfəri tərxis etmək olmazmı yoldaş ПОДПОЛКОВНИК?

Elə bil cızhacız yanan ürəyimə Bryusov su çilədi... Bir neçə iş icraçısıyla, bir neçə РОТА komandirləri də yanımıza gəldi.

Dumbulla gələn, zurnayla gedər.

Dyakiv mənə əmr elədi:

-Sən get öz əsgərlərinin yanına. Bu günkü normanı yerinə yetirin, МЫ ПОТОМ РАЗБЕРЁМСЯ.

Ayaqlarım sanki yerə mıxlanmışdı.

Bryusov cəsarətlənib, növbəti basmaqəlib

addımını atdı, həyasızcasına dirəşib:

-ТОВАРИЩ ПОДПОЛКОВНИК! Butsyakın briqadasıyla birlikdə buraxmaq olar. Onlar noyabr ayının 17-də ОБХОДНОЙ alacaqlar...

Daha gerisini eşitmədim.

Yenə əsəbiyyət və həyacandan qulaqlarım tutuldu. Key kimi ağızlarının açılıb-yumulmasına tamaşa edirdim. Qulaqlarım yaman uğuldayırdı.

Onlar nəsə hiss etdilər.

Buryusov əliylə məni itələdi ki, gedim.

Danışıqlarını eşitməsəm də... sifətlərindəki ifadədən və qırımlarından başa düşdüm ki, nəsə əngəl yaranıb. Keçiyə bir sürü qoyundan, bir keçi irəlidir məsəli də deyidi. Çünki, müsəlman olsam da, salyanlı Adil kimi pul versəm buraxardı.

Özümü ələ alıb, bir söz demədən geri qayıtdım. Ürəyimdə qisas hissi baş qaldırdı. Bu nə əclaf imiş! Bu tərsliyi ilə, axı nə qazanacaqdı?

Nə istəyirdi məndən?

Ölsə də, rüşvət verən deyildim.

Vaynösə Sahib məni görən kimi, nə başa düşdüsə, dərhal həyəcanla soruşdu:

- Heyva kimi niyə saralıbsan?

Məsələni olduğu kimi uşaqlarımıza danışdım. Məni dinləyəndən sonra fikirləşib dedilər ki, istəyirsən heç birimiz işləməyək.

-Yox... belə də olmaz! Çıxış yolu başqadır. Görünür o rüşvət istəyir və almayınca da, məni gecikdirəcək. Ehtimal edir ki, institutda bir il geri

düşməmək xatirinə, nə yolla olur-olsun pul tapıb ona rüşvət verəcəm...

Bu vaxt Bryusov göründü.

O bu gün gözlərimdə xabi-cəhalətdən ayılmış və katoliq kilsəsinin təşəbbüsü ilə dinsizlərə qarşı, səlib müharibəsinə hazırlaşan general kimi bərq vururdu. Qıpqırmızı sifəti, taram bağlanmış nazik qalstuku, par-par parıldayan uzunboğaz qara xrom çəkmələri, xaki rəngli zabit mundiri onu gözlərimdə göylərə qaldırdı.

O, sözünü deyə bilən zabit imiş!

Generallıq bir yana... Bryusov gözlərimdə ümid çırağına döndü.

Maraqla onu dövrəyə aldıq.

Qalib xoruzlar kimi qıpqırmızı qızarıb, şax, dayanmışdı. Qəfildən əllərini belində birləşdirib, kəkəş-kəkəş gərdiş eləməyə başladı.

"Necə oldu, yoldaş komandir?"-az qala hamı birdən xorla soruşdu.

O, özünü bir qədər də çəkib, kişiləndi:

-Butsyakın briqadası ilə buraxacaq! Noyabrın 17-də. Onlara ОБХОДНОЙ paylananda...

Deməli 3 gündən sonra?

Bu da pis deyildi!

Amma, buna da inana bilmirəm... Zira, heç onun danışığı məni açmadı. O, nəsə bu işi uzatmaqda maraqlıydı. Bryusov isə narahatlığımı və nigarançılığımı görüb, qətiyyətlə coşdu:

-Gedəcəksən!

Hamımız birdən, heyrətlə içimizi çəkdik:

-Baa?!

İrişdi... Yaman da irişdi!

Hiss eləyirdim ki, o məni arxayın salmaqla vaxt udmaq yox, briqadanın işində yaşana biləcək qalmaqala görə də yox, sadəcə yaxşılıq eləmək niyyəti güdürdü.

Bryusov gedəndə, məni elə bir həyəcanlı hiss bürüdü ki! Bu hisslərə, məqsədli də demək olmazdı. Bəs nəydi bu hisslərin kökündə?

Yaman getməyə köklənmişdim.

İndi, bəs nə edim? Uşaqlar da mənə ürəkdirək verirdi: "Buraxmasalar, işi pozarıq!"

Beləcə, məsələ açıq qaldı.

Üç gün də gözləyək, görək necə olacaq? Ancaq inanmıram, zira, inanmıram, inanmıram.

Yaxşı ki, inanmırdım.

Artıq inansam, bəlkə də sevincdən ürəyim dayanardı. Bəli, yenə hər şey, sual işarəsi altında beynimdə ilişib qaldı.

Görək...

Bu gün hava çox xoş idi.

Yenə gömgöy, tərtəmiz səmada, ağappaq pənbə buludlar havada lal dayanıb göydən asıla qalmışdı... O buludlara baxıb duyğulanırdım.

Əsgərlərimdən ayrılıb, düz toran qarışana kimi, tək-tənha... ЮЖНЫЙ БУГ çayının kənarında veyilləndim. Sentimentallıq da ayrı şeymiş!

Axşamtərəfi, kəndin ayağından keçən qa-

tarın uzaqdan gələn fit səsi, məni daha da kövrəltdi. Eşalon qatarı ayrı, sərnişin qatarı ayrı.

Azadlıq nə qədər yaxınımda olsa da... ona qovuşmaq da o qədər müşkülə dönmüşdü.

Qatarın yaxınlaşması... yaxınlığımdan takkatukla ötüb keçməsi, nə qədər nostaljı idi!

Xudaya xudavənda!

Xəyallarımla, düşüncələrimlə, arzularımla, düşdüyüm vəziyyətlə... necə həmahəng idim!

Pəncərədən baxan mülki sərnişinlər, necə bəxtəvərdilər! Hürr içində, qayğısız...

Qatar, qənşərimdən səs-küylə ötüb keçsə də, təsirindən çıxa bilmir, arxasınca nisgil, həsrət, ürəyimdə qalan o məmnuniyyətsizlik hissiylə və dərd, kədər, qüssəylə dolu nigarançılıqla baxırdım. Ey, gidi dünya...

Uşaqlarıma tapşırmışdım işləməsinlər.

Qatar uzaqlarda gözdən itəndən sonra qayıdıb iş yerinə getdim və 50 manat ПЕРЕВОД pulu almaq bəhanəsiylə Bryusovdan icazə istəyib, hərbi hissəyə qayıtdım.

Kənd yollarında tum çırtlaya-çırtlaya gedirdim. İstədim Rodkingilə çönəm.

Və bu an, onun arvadı yadıma düşdü.

Necə mehriban idi!

Üzü, gözləri gülərdi. Solğun, qansız bənizi çox nurlu idi. Rodkin özü də, yaxşı adamdı.

Hərçənd yenə fikrimdən daşındım.

Birdən özü evdə olmaz. Yoldaşı tək olar...

Rodkin mənim müdirim olduğundan, onun həyat yoldaşının üzünə baxmağa belə utanırdım.

Bu hiss... Şərq küçəsinin verdiyi əxlaqdan, o tozlu küçəsi, çiy kərpic hasarlı evlərində yaşayan kasıb, dünyadan təcrid ailələrdə uzun illərlə formalaşan... qadınlarında ismət, həya, namus, kişilərində bığ, papaq, bağışlanmayan xəyanət, qeyrət anlayışlarından qaynaqlanırdı...

Babalar, nənələr qəlyan çəkə-çəkə və tini düşəndə deyərdilər: Kişinin bığı olar a bala... Filan kənddə, filankəs ərinin papağını yerə soxdu!

Bizim küçədə beləydi...

Xəyallarımaca qapanıb, sakit kənd yoluyla gedirdim. Kənd evlərinin bizdəki kimi, hündür çiy kərpic hasarları olmadığından, alçaq, taxta məhəccərli həyət-bacalarının içi appaydın görünürdü. Taxtapuşlu kiçik evlərin bacalarından çıxan burum-burum tüstülər, kəndə xüsusi bir yaraşıq verirdi. Hərdən baxçalarda solmuş çiçəklər, xaltalı tazı-tulalar da gözə dəyirdi.

Hamı öz qayğıları ilə məşğul olduğundan, hec kəsə əhəmiyyət vermədən dolanırdılar.

Hərdən həyətlərdə, cavan qızlar görünəndə, əsgər olduğumu görüb, mənə sataşırdılar...

КАЗАРМА-ya qəzasız gəlib çıxdım.

БУШЛАТ-ımı soyunub, hərbi biletlə ШТАБ-ın poçtuna getdim... Atamın göndərdiyi 50 РУБЛЬ-u aldım. Özümdə də, 26 manat vardı. Birlikdə, 76 manat pulum oldu. Artıq... demək olar, yolpulum

hazır idi. Yağmasam da, guruldaya bilərdim.

Hərçənd gedəndə, az da olsa, yolxərci də verirdilər və bu hərbi qanun idi.

Pulu götürüb, ВОЕНТОРГ-a tərpəndim.

Və armudlu sarı limonadla halqavari bulka alıb, elitar mədəniyyətiylə həzm elədim...

Sonra qayıdıb, КАЗАРМА-da СУШИЛКА-nın isti borularının üstünə, isti, qış БУШЛАТ-ımı sərib, dünyanın mövcud sərt siyasi və hərbi qüdrətinə meydan oxuyurmuş kimi, Stalinsayağı uzandım.

Zira, bir incə fikir məni içdən üzürdü:

"Bəlkə, Dyakivin nəslini kəsim?"

Dərhal da, yadıma bir atalar sözü düşdü:

"Muşqulatçun bir saqqız çeynə!"

Öz-özümə xeyli güldüm...

Bir qədər keçmiş, çənə Telmanla, Şamxor ermənisi, canlı qəzet Alik Ohanesyan gəldi.

Və... hər ikisi mənə bildirdi ki, artıq danışıb razılaşıblar, Butsyakın briqadası ilə gedəcəklər. Sabah yox, birisi gün ОБХОДНОЙ-ları alacaqlar.

Görək, mənə də ОБХОДНОЙ verəcəklərmi? Nəyə görəsə, ürəyimdə şübhə toxumu getdikcə daha çox cücərir, rüşvət məsləki üstələyirdi.

Alikdən məsləhətlə soruşdum:

-Bəlkə, birlikdə ГАРНИЗОН-un siyasi məsələlər üzrə komandir müavini Qordiyenkonun yanına gedək? Axı təhsil məsələsi ciddi işdir. Niyə on gün gec buraxsınlar ki, mən də təhsildə bir il geriyə düşüm? Bəs vətəndə kimə bel bağlayaq?

Alik idiotcasına razılaşmadı, gülümsünüb:

-Özünü cəncələ salma, -dedi.

-Nə cəncəli var? -On gun əvvəl, ya on gün sonra, onsuz da buraxmalı deyillər ki?

O qıpqırmızı sifətiylə, qımışıb:

-ПЕРЕВОД pul gəlib sənə. Apar 50 РУБЛЬ-u qoy Bryusovun, ya da ki Boykonun cibinə. Onlar özləri həll eləsin. Zəhər gələndə acı qaçar...

Əslində düz deyirdi. Bu yolla getmək daha asan olardı. Amma, ümidimi hələ tam üzməmişdim. Qoy bir-iki gün də səbr eləyim.

Zərurət insana hər şeyi öyrədər...

Uşno, hamıyla bir-bir qucaqlaşıb, öpüşüb, halallaşıb getdi! Əmanət КНИЖКА-sında düz 300 РУБЛЬ pulu da varmış. Onu da almışdı... Sabahdan isti yurd yuvasında azad həyat sürəcək.

O mənimlə görüşəndə az qaldım ağlayam.

Getmək üçün vidalaşmaq, necə əzizmiş...

Yenə ЛЕНКОМНАТА-da oturub xeyli məktub yazdım və hamıya da bildirdim ki, cavabı Bərdə ünvanıma göndərsinlər. ВИННИТСК-li Llyudmilanın da məktubuna bu gün cavab yazdım. Sabah hamısını yola salaram. Bəlkə də, daha heç kəsə heç vaxt... bu КАЗАРМА-dan məktub yazmayacağam. Kaş, bu tezliklə baş verə!

Gecə fikir-xəyaldan heç yata bilmirdim. Nə qədər intizarla gün keçirmək olar axı?

Səhər ПОДЪЁМ-unda Qreşnoy gəlmişdi.

Nə qədər elədisə durmadım, rişxəndlə:

-Başım ağrıyır, -mızıldadım.

Qırımımdan, dirəşməyin faydasız olduğunu anlayıb, əl çəkəsi oldu.

Amma, qurumsaq əclaf... Bryusova şikayət eləmişdi. O da ərklə gəlib, məni oyatmaq istədi. Nə qədər dilə tutub zarafatla qıdıqladı, komandir olduğumu önə çəkdi və nəzakətlə hərbi intizamı xatırlatdı, gözlərimi açmadım.

Əvəzində, başımı ikiəlli bərk-bərk sıxıb:

-Beynim dağılır, -pıçıldadım.

Naəlac qalıb, Bryusov da mürəxxəs oldu.

Özünü yüngülsaqqal eləməkdənsə, vəziyyətimi gərək göydə başa düşəydi.

Donuzaoxşar rüşvətxor arvadbaz... tamam ruhdan salmışdı məni. Acığa düşüb, heç səhər yeməyinə də getmədim.

Göy guruldayırdı.

Hansısa bir МОЛОДОЙ rus əsgəri, СТАРИК-lər döymüşdü... Zavallının anqırtısı göyə qalxıb, göy gurlamasına qarışmışdı. Tez-tez də, şimşək çaxırdı. Anan ölsün ay bala, hələ çox fəraq edib həşir qoparacağsan. Bu harasıdır?

Selləmə yağış səpməyə başladı.

Pəncərəmi döyəcləyən iri damlalar, isti yerimdə canıma ləzzət eləyirdi.

POTA məcbur qalıb... КАЗАРМА-da cərgəyə düzüldü. Və elə leysan tökə-tökə də işə getdilər.

Saat on olardı, yağış kəsəndə...

Tənbəl-tənbəl gərnəşib yerimdən qalxdım.

Tələsmədən geyinib nəm havaya çıxmaq istəyəndə növbədə olan ДНЕВАЛЬНЫЙ bildirdi ki: Bu gecə... zəyəmli, ПРЫЩАВЫЙ Vahid Həsənovun qolundan saatını açıb və çamadanından da lavsan hərbi formasını oğurlayıblar.

Növbətçi Qalko idi ...

Geriyə qayıdıb dolabçamı yoxladım və hər şey qaydasında oldu.

Yetmiş iki dərədən, əsgər yığıb gətirəndə belə olacaq də. Yaxşı ki, özünü oğurlamayıblar.

Yerimi yığdım.

ПОСТЕЛЬ-imin kənarını səliqəylə düzbucaq formasında düzəltdim. Çarpayıya baxanda adamın ürəyi açılır, ruhu təzələnirdi.

Çox hamar alınmışdı.

УМЫВАЛЬНИК-ə girib, güzgüdə üz-gözümə baxdım. Üzümü, başımı tük basmışdı. Yuyunma otağında soyuq su ilə yuyunub, üzümü də soyuq suyla təraş elədim.

Özümü... formamı, əsgər çəkmələrimi səliqəyə salsam da, başımın tükü çoxalmışdı.

Boynuma yeni ağ ВОРОТНИЧОК da tikdim. Başımın tükü mülki azad adamlarınki kimi uzanmışdı. İstədim, son dəfə dəlləyə gedəm, amma nədənsə həvəsim olmadı. Pulum da vardı.

Bəlkə iki günə tərxis olunub getdim...

Son günlər yaman arıqlamışam.

Tuman-köynəyim də kirli idi... Soyunub əynimdən çıxartdım. Sonra da, acığımdan götürüb

başqa çarpayıların üstünə tolazladım. Əvəzində çamadanımdan mülki mayka götürüb geyindim.

Və tələm-tələsik КАЗАРМА-dan çıxıb, yeyin addımlarla ВОЕНТОРГ-a tərpəndim.

Mağazada demək olar, heç kəs yox idi.

Bir БУТЫЛКА limonadla 2 ədəd halqavavari bulka alıb, elə ordaca yedim.

Bütün РОТА-lar işdə olduğundan, sakitçilik idi. Sözün əsl mənasında, sükut hökm sürürdü.

Vitrinin şüşəli gözünə və piştaxtanın yanyörəsinə xeyli baxdıqdan sonra... bir АВТОРУЧКА gördüm. İşıq yeri də vardı.

Artıq, ömrünün payızını adlamış... əynində kişi kürkü olan bu satıcı qadın, qələmi nümayişkəranə şəkildə, dalbadal bir-neçə dəfə yandırıb-söndürdü. Hətta, ürəyi soyumayıb işığı düz gözlərimin içinə tuşladı.

АВТОРУЧКА çox xoşuma gəldi.

Di gəl, qiyməti baha idi: 7 manat 50 qəpik. Pribaltikada, Riqa şəhərində istehsal edilmişdi.

Dilini, ruhunu, musiqisini və adət-ənənəsini başa düşə bilmədiyimiz, ey doğma vətən!

Satıcı sürtülmüşün əlindən, АВТОРУЧКА-nı alıb, təkrar özüm yoxladım.

Özü də, gur spektri onun gözlərinə saldım.

İşığı əməlli-başlıca yanırdı.

Demək, işıqlar sönəndə, qaranlıq düşəndə yazmaq olar. Mənimki yazmaq-oxumaqdı dəə.

Birdən ağlıma gəldi, bu hədiyyə üçün ölür!

Komsomol 10-cu sinifdə oxuyur.

Gecə məktəbə getməsə belə... onun üçün maraqlı olar, həm də bizim hərbi hissənin 2 illik əzablı keçmişindən ona hədiyyə qalar.

Pulu səxavətlə sayıb, АВТОРУЧКА-nı aldım.

Qayıdan başı, onsuz da ona nəsə almalıydım. Qələm ən yaxşı hədiyyə olardı...

Bir qutu НЕФЕРТИТИ siqareti də götürdüm.

ПОГОН, СА hərfləri, boyun üçün sarı rəngli, bərbəzəkli ipək parça da seçib, pulunu saydım.

62 manat pulum qaldı.

КАЗАРМА-da oturub, hələ əynimə geyinmədiyim təptəzə xebe formamın boynuna sarı ipək ВОРОТНИЧОК-u tikəndə, necə gözəl göründü!

Bu gecə istəyirəm, Dyakivin yanına təkrar girəm. Görüm nə deyəcək, sonu necə olacaq?

Günortadan sonra çənə Telmanla Klaragilə getmək istədim, onlardakı çamadanımda olan ПАРАД formama, bu gün aldığım ПОГОН-ları tikmək lazım idi. Zira, hər saat məni çağırıb, hərbi xidmətdən tərxis edə bilərdilər.

Nahara az qalıb.

Başqa elə bir yenilik olmadı... və bir az da, ЛЕНКОМНАТА-da oturub bu günkü qəzet və yeni çıxan jurnalları oxudum...

Rəngli jurnallardakı USSR, PRAHA sözlərini görən kimi ürəyim atlanırdı. Bütün yazıları sətirbəsətir oxuyur, əbəs olsa da şəkillərdəki fotodan Yitkayla Danonu axtarırdım...

Kuryer poçtu gətirəndə, əhəmiyyət vermədim. Daha hansısa maraqlı, gərəkli bir məktub gözləmirdim, çunki, çoxu elə bilirdi ki, bəlkə də Pervomayskini tərk eləmişəm.

Amma, gözlədiyimin əksinəcə oldu: Tahir Ağayevdən 2 məktub birdən gəldi.

Məktubları sevincək açdım.

Komsomolumdan xəbər ala bilərdim. Həm də görüm, o özü nə vaxt tərxis olunacaq? O da, mənim kimi, axı tələbə idi... Amma, Tahirin heç vecinə də deyildi, bir il dala düşdü, ya qabağa.

Onsuz da oxumurdu!

Məktubların hər ikisini birnəfəsə oxudum. Elə bil zalımın oğlu candərdi, eləcə adı olsun ki, kişi "məktub yazıb" kimi, səthi yazmışdı.

Heç bir yenilik sadalamırdı. Bircə onu yazmışdı ki, hələ Tbilisidədir və dekabrda tərxis olunacağı gözlənilir. Bunun yazdığına bax!

Malı qırov öldürər, qışın adı bədnamdır.

Onun məktubları məni məyus elədi...

Nahardan sonra çənə Telmanla getdim.

Qreşnoy məni iş yerində görəndə, gözlərinə inanmadı. Hətta çaş-baş qaldı və gözü su içmədiyindən od ilə su arasında qalıb mumladı.

Çənə Telmanla Klaragilə getdim.

Klara yenə Rizvanla idi. Çaxırdan içib, kart oynayırdılar... DURAKİ oynayıb, çaxır pulunu Rizvan uduzubmuş, indisə POKER oynayırdılar.

Yarım kiloqram hisə verilmş kolbasa pulu-

nu kim udsa, oyun qutaracaq, yavrucuğa tumar vermək başlayacaqdı...

Naftalinli çamadanımı açib paltarlarımı havaya verdim... Lavsan formamın yaxalığı üstünə ПЕТЛИЦА və qolunun üstünə, sapsarı rəngi olan ЕМБЛЕМ-i tikdim. ПОГОН-ları, ЛИЧКА-ları və iynəsapı da özümlə götürdüm ki, bunları da gecə КАЗАРМА-dakı isti suşilkada oturub tikəm.

Saat 16:00-a kimi Klaragildə kart oynadıq.

Uduzanın başına hamı çırtma vururdu.

ВОДОЗАБОР-a gəldim.

Bu gün görülən işlərin НАРЯД-ını bağlamalı idim. Zira, hər an tərxis olunub gedə bilərdik...

Rus əsgərləri tərxis olunub gedəndə hamısının КНИЖКА-sında pul olur... ancaq müsəlman əsgərlərinin hamısı vətənə borclu qalır necə deyərlər səkkiz yumurta verib, doqquz çıxarırdılar. Bu da, qüdrətli Sovet ordusunda... hegemon rus xalqının ali irq hesab olunduğunu əks etdirirdi.

Düzəməlli ağır əmək sərf eləməyən, alkaş, САМОВОЛЬЩИК... və hauptvaxtın daimi sakinlərinin hamısının КНИЖКА-sında pul vardı, nədi-nədi milliyyətcə şərqi slavyanlıdır.

Təki rus ol!

ВОДОЗАБОР sürətlə tikilirdi. İlk dəfə biz buraya ayaq qoyandan sonra, nə qədər işlər görülüb! Baxdıqca adam heyrətə gəlir.

Uşaqlarımın yanına gələn kimi yeni xəbər verdilər: Kəlbəcərli vaynösə Sahibi, mənim yeri-

mə təyin ediblər... POTA komandiri Bryusov, bu təyinatı belə əsaslandırıb: "СЕРЖАНТ Babayev... artıq mülki vətəndaşdır!"

Qulaqlarıma inanmadım.

Hərçənd nə qədər yubatsalar da... bilirdim ki, son günlərimi keçirirəm.

Qəflətən belimdən kəskin bir ağrı tutdu.

Biz tərəflərdə, söylənilən yel xəstəlikləri kimi belim qəfil sancdı, yerinə şirin bir istilik yayıldı və az keçmiş də qurudu.

Artıq əyilə bilmirdim.

Bir də gördüm ki, hərbi hissə komandirimiz ПОДПОЛКОВНИК Dyakiv kənardan mənə tamaşa eləyir. Nə qədər elədim, əlimə bel, ya kürək alıb, yalandan olsa da, bir-iki dəfə ЩЕБЕНЬ, ya qum yayam, qurdalansam belə, bacarmadım.

Nənəmin diaqnozu olmasın, belimi yel tutmuşdu. Elə bircə bu çatmırdı! Yaxşıca deyiblər:

"Dərd gələndə batmanla gəlir."

Görəsən... gethagetdə bu həngamə nədən başıma açıldı? Hansı günahımı yumalıydım?

КОМБАТ özünü görməməzliyə vurub üzünü yana çevirdi. İnanın, öldürsələr, it köpəyoğlunun qanı da axmazdı. Bunun kimə rəhmi gələrdi ki?

Dyakivlə Qreşnoyun... iti, qırğı gözlərindən xəlvəti yayınıb, əsgərlərimə belə hec nə bildirmədən КАЗАРМА-ya qayıtdım.

Fikrim САНЧАСТЬ-a getmək idi.

Çənə Telmanla qayıdırdım.

O yolun yarısından məni yola salıb, geriyə qayıtdı. Çənə vecsiz oğlan idi. Ağdam haqqında heç vaxt düşünmür, heç gedəcəyi günün də hayına qalmırdı. Səbir edən muradına tez çatar da deyildi onunku. Savadsız və ağ yalançı idi.

Xeyirxahlığı da yoxuydu.

Beləydi çənə Telman!

Heykəl kimi şax dayananda, belimdəki ağrı, o qədər də hiss olunmurdu. Əyilmək istəyəndəsə, canıma elə bil iynə batırırdılar.

Canım çıxırdı...

Düz САНЧАСТЬ-a getdim.

Azərbaycanlı həkim-zabit qurşağa kimi soyundurub yoxlayandan sonra, ağlına nə gəldisə, məni çarpayıya uzatdı.

Belimə nəsə maz sürtdü və üstündən tokşüa verib xeylicə qızdırdı. Kürəklərim, onurğam, belimin nazik və boş yerləri qızışdıqca, canıma bir rahatlıq yayılır, ləzzətlə də mürgüləyirdim.

Beləcə, isti şüanın altinda xumarlanır, həkim-zabit isə, bir ucdan üyudüb tökürdü.

Birdən necə oldusa, qəfil inamla soruşdu:

-Deyirlər sabah gedirsən?!

Heç gözləmirdim. Kəkildəyib, tərəddüdlə:

-Hə, hə elə deyirlər, Bryusov da söz verib, görək... Butsyakın briqadasıyla birlikdə mənə də ОБХОДНОЙ verməlidirlər.

Gözlənilmədən, o mənimlə dilxoşluq elədi:

-Eşitmişəm səndə iki maqnetafon bir dənə

də patefon var. Gedəndə, birini mənə verərsən?

Qəliz bir çılğınlıqla ona sarı çöndüm:

-Yox, yox, burda bir maqnetafonum vardı, onu da, bizim müsəlman əsgərlər qurdalayıb xarab eləmişdilər, gördüm qırılıb... göndərdim evimizə, siz deyənlərin hamısı Bərdədədir.

Bir göz qırpımındaca, həyasız-həyasız irişib, ehtiyyat-filan eləmədən dik üzümə dedi:

-Bərdədən göndərə bilməzsən?

Çaşdığımı və heyrətlə... üzünə dikilən sürəkli baxışlarımı görüb, danışığını yumşaltdı:

-Muğam üçün yamanca darıxmışam... -tütəyin dilini çəkdi.

Onun bu üzlülüyü məni mat qoydu.

Mən hərbi xidməti qutarıb gedirəm. Bu isə, hələ, 25 il də burda qulluq edəcək. Demək, heç vaxt görüşəsi də deyilik. Bəs nəyə görə... üzünə salıb məndən maqnetafon istəyir? Mən, bunun kimiyəm ki, bu da bu qədər ərk edir?

Tüstüsüz yandım.

Naməhrəm kişidən yaşmanan anasından, ya övrətbaz atasından nə əcəb istəmirdi?

Sırtıq olduğuna görə ürəyimdə ondan zəhləm getsə də, biixtiyar könülsüz pıçıldadım:

-Yaxşı göndərərəm...

O inandı və dərhal Bakı və Bərdə ünvanlarımı da soruşub, iri bloknotunda qeyd elədi.

Zavallının üzündə gün doğdu.

Belim əməlli-başlı qızışıb, ağrısı kəsmişdi.

Geyinib ayağa qalxanda, ürəyimdə fikirləşirdim ki, bu niyə beynimi köhnə-kürüş maqnetafonla xarab eləyir ki? Hələ danışanda da, gözlərini utanmadan düz gözümə zilləyirdi.

Mümkün qədər laqeyd görünməyə çalışır, üzünə bozarmaq da istəmirdim. Hiyləgərliklə:

-Boğazını yaşlamağa da, bir şey göndərərəm, üstündə də yaşılbaşı!

КАЗАРМА-ya qayıtmaq istəyəndə bərk-bərk özü də, rəhm dolu səslə tapşırdı ki:

-Belini soyuğa vermə! Bir də, maqnetafon amanatı! Patefon da olsa, olar... Erkək ördəklə Azərbaycan konyakı yollamasan da keçinərik.

Hərçənd ki, bir tərəfdən bu adamı da başa düşmək olardı. Bəlkə, valideyinləri hədsiz dərəcədə kasıbdı, yoxsa, mənim izzəti-nəfsimi niyə sınağa çəksin? Doğma yurdun sovqatı ayrıdır...

Ya zavallı, cin çolpası kimi zılğa-zılğa, südəçər körpəli kasıb kənd ailəsindən çıxıb?

İşlər şuluqdu deyəsən...

СУШИЛКА-da, isti buxar borularının üstündə xeyli oturdum, bir qədər də uzandım...

Artıq özümü rahat hiss edirdim.

РОТА işdən qayıdana kimi, xeyli qəzet-jurnal da oxuyub, vaxtımı beləcə öldürdüm.

ПОГОН-ları qayışbaldır Turabxana verdim. СА hərflərini o hamıdan yaxşı tikirdi.

Dyakivin yanına təkrar girmək istəyirdim.

Bryusov canıyananlıq eləyib başa saldı ki,

bu gün qanıqara və çox hirslidir, sabaha saxla. Sən onsuz da mülki adamlar kimi azadsan. Hesab elə, hərbi xidməti artıq bitirmisən. İndi bizim qonaqsan! СТАРИК-lik elə də, nə tıncııxırsan?

Onun məlhəm sözləri məni sakitləşdirdi.

Düzdü, cərgə-filan mənim üçün bitmişdi.

Bu öz yerində... Ancaq getmək üçün darıxır, əldən-ayaqdan gedir, çox əsəbiləşirdim.

Təhsildə yarana biləcək uğursuzluq, məni çox narahat edirdi. Bir il də gecikə bilərdim...

Kor-peşman yerimi açıb uzandım.

МОЛОДОЙ əsgərlər vurnuxur, КАЗАРМА-nın əsgər həyatını yaşadırdılar.

Məktub oxuyan, namə yazan, yanıqlı səsi ilə oxuyan, gitara çalan, siqaret çəkən, üz təraş edən, döşəmə yuyan, televizora baxan, uzanıb radioya qulaq asan, ПОГОН, ЗНАЧОК, ВОРОТНИЧОК tikən, uzunboğaz əsgər çəkmələrini yuyub, təmizləyib mazlayan, mundir şotkalayan...

Tofiq Xəzər

# Butsyakın briqadası obxodnoy aldı, 20-əsgər ... Alik Ohanesyan da gedir...

*Pervomayski, 16 və 17 noyabr 1972-ci il, IV və V günlər.*

Sübh açılandan bərk yağış tökürdü.

POTA-ya: QALXIN! -əmri veriləndə, ПРАПОРЩИК Bandısiklə Boyko КАЗАРМА-da peyda oldu. Qışqırdılar ki, yubanmadan qalxın, bəs Majarov gəlib, ПОДЪЁМ-da şəxsən özü iştirak edəcək...

Naəlac qalıb, yerimdən sıçradım. Və belim dərhal səpdi. Sonra da, sol hissədən sancmağa başladı. Qəddimi düzəldə bilmirdim.

Odur ki, səhər РАЗВОД-unda dayanmadım. Yerimə Boyko vaynösə Sahibi apardı.

Elə, qoca kişilər kimi ikiqat gedib, birtəhər ki, özümü САНЧАСТЬ-a yazdıra bildim.

Xəbər yayıldı ki... səhər РАЗВОД-unda Majarov yenə qan əkir: Başı normadan artıq tüklü, ВОРОТНИЧОК-u, çəkmələri kirli olanı birbaşa ha-

uptvaxta göndərir. Canımı yaxşı qurtarmışdım.

САНЧАСТЬ-da azərbaycanlı həkim yenə də belimi ТОК-ЛАМПА şüasında xeyli qızdırsa da nədənsə əclaf işdən ОСВОБОЖДЕНИЕ yazmadı.

Özü də məndən maqnetafon gözləyir...

Bəlkə də, elə bildi mən artıq gedirəm. Ancaq utandım deməyə ki, deyəsən bu hələ jurnalıdı, konsert qabaqdadı...

İçəri xəstə-xüstə əsgərlərlə doluydu. Spirt iyi dəhlizi də bürümüşdü.

İsti şüa qəddimi düzəltdi.

КАЗАРМА-ya qayıtdım.

Mənim də, saçım normadan çox idi. Cəfəri çağırıb, qayçı ilə qulaqlarıma çatan uzun tükləri, boynumun arxasını səliqəyə saldırdım. Saçlarım az qala qulaqlarıma girirdi.

ВОРОТНИЧОК-umu da dəyişib, uzunboğaz əsgər çəkmələrimi də mazlayıb, sürtdüm.

Par-par parıldadı.

Bu gün ВОДОЗАБОР-a getmək fikrimdə yox idi. Səhər yeməyindən sonra, РОТА işə getmək üçün düzlənəndə getmək istəmədim.

Boykoyla Bryusov bir-birinin bəhsinə girib, cərgəyə durmağımı ucadan əmr etdilər.

-Belim ağrıyır, getmirəm, -deyib dirəşdim.

Birdən kirimək bilməyən Boyko qışqırdı:

-Gedərik həkimin yanına, ОСВОБОЖДЕНИЕ yazmasa, ВОДОЗАБОР-a getməlisən.

Tərəddüt eləmədən, sakitcə:

-Gəl gedək, -dedim.

Bu vaxt nədənsə Bryusov da, düşmənçilik eləyib, tələm-tələsik bizə qoşuldu.

Bəlkə də komandirlik qürurunu sığışdırmadı, özü dura-dura müavini niyə baş aparsın axı?

САНЧАСТЬ-a sarı gedəndə... həkimlə yolda qabaqlaşdıq. Hər dəqiqə bir fikrə düşən paxıl və qəddar Bryusov Boykonu qabaqlayıb, heç kəsə məhəl qoymadan, qəzəblə həkimdən soruşdu:

-Bu СЕРЖАНТ БАБАЕВ-ə... ОСВОБОЖДЕНИЕ verəcəksiniz, yoxsa yox?

Azərbaycanlı həkim izahedilməz bir tərzdə qımışıb, murdar bir plan qurulduğunun fərqində:

-Özüm yazmadım, axı o evə gedir... -yazıq bir görkəm alıb, soyuq səslə az qala pıçıldadı.

Onun yerinə çox pərt oldum.

Boyko yenidən qızışıb, Bryusovu saya salmadan, ədəbsiz bir axmaqlıqla kal, xırıltılı səsini kəskin şəkildə ucaltdı:

-КАКОЙ ДОМ?

Heyrətə gəldim... Bu nə azğın məlumat idi, deməli belə? Heç kimin mənə rəhmi gəlməsinə səbəb ola biləcək xidmətim yox idi yəni? Ömrümün iki ilini şərəflə yolunda xərclədiyim Vətənin son ərmağanı buydu mənə?

Ədasına bax bunun!

Boyko, qətiyyət və marağıma zidd olan bir özünəəminliklə davam elədi:

-КОМБАТ səni buraxmayacaq!

Yanıb yaxıldım, necə yəni buraxmayacaq? Elə də iş olar? Tünbətün olmuş, sübhün tüluunda qanımı zəhərləyib, tünd getdi.

Hirs başıma vurdu. Acı nəticəsi ola biləcəyini belə düşünmədən, onları elə orda, yolun ortasındaca qoyub, ШТАБ-a tərəf götürüldüm.

Bryusov arxamca qışqırdı:

-КОМБАТ-ın hirsini tutdurma, acığı tutsa səni 31 dekabrda buraxacaq!

Heç nəyə fikir vermədən ШТАБ-a girdim.

Dyakivin qapısı ağzına çatanda, Boykoyla həkim məni haqladı. Amma qapını açа bildim və elə oldu ki, içəriyə hamımız birlikdə daxil olduq.

Belimin ağrısını tamam unutmuşdum.

ШТАБ-ın rəisi, başqa zabitlər də içəridəydi. Rəngimin qaçdığından, üsyankar vəziyyətdə olduğumdan, tüpürcəyi qurumuş həkim və Boykonun qırımından... ziyafətinə gəldiyim Dyakiv hər şeyi anlayıb, özünü tülkülüyə qoyaraq:

-Teleqram gəlib, dərslər hələ dekabr ayında başlayacaq, -quru və soyuq tərzdə dedi.

Hirsimdən uçalanırdım. Boyko fərəqət forması alıb, yanımda heykəl kimi dik durmuşdu.

İkrah dolu kövrək səsimi qaldırıb, ironiyayla, həqiqəti birnəfəsə sadalamağa başladım:

-Yoldaş ПОДПОЛКОВНИК Sovet İttifaqında, respublikalarda, muxtar vilayətlərdə elə bir institut, universitet, texnikum, peşə məktəbi yoxdu ki orada, dərslər sentyabr ayının biri əvəzinə... de-

kabr ayında başlasın. Siz eləsini tanıyırsınız?

Buzlaq dövrü deyil ki?

Mənim dərslərim sentyabrda başlayıb, dekabrda artıq zaçotlar, yanvardasa imtahanlarım başlayacaq... Bəs mən hazırlaşmalı deyiləm?

Milçək uçsa səsi eşidilərdi.

O, əyilib seyfin aşağı gözündən bir karton qovluq çıxartdı. Üzü sürtülüb yeyilmiş qovluğun qara rəngi, düzü heç məni açmadı.

Bumbuz sükutu, acı istehzayla pozdum:

-Yoldaş komandir! Düz on üç gündən sonra qış sessiyası başlayacaq. Siz məni nəyə görə gecikdirirsiniz? Bir il təhsilimin uzanmağı sizə axı nə verir? Vətən təhlükədədir?

-Məgər mən Sovet vətəndaşı deyiləm?

Yaman üyüdüb tökürdüm. otaqdakı bütün zabitlər heyrətlə mənə tamaşa edirdi.

-Kremlə şikayət teleqramı vurum?

Sanki, dağ küləyi bulud pərdəsini sıyırdı.

Karvanqovan başlamamış, hərbi hissə komandiri Dyakiv saxta təmkinlə qovluqdan Azvoyenkomun göndərdiyi teleqramı çıxarıb hamının eşidəcəyi bir tərzdə, tələsik oxumağa başladı.

Açıqca yazılmışdı ki... Azərbaycan Politexnik institutunda təhsil alır, qış sessiyası başladığı üçün xahiş edirik birinci növbədə tərxis edəsiniz, əks təqdirdə bir il də geriyə düşə bilər...

Bəli, hər şey açıq-aydın qeyd edilib!

Bəlkə də Dyakiv bu teleqramı ilk dəfəydi ki

oxuyurdu. Özü də, qurtaranda təəccüblə ağzını büzdü, qaşlarını dartıb, diqqətlə təkrar oxudu ...

Görünür, teleqramda mənim adımı görəndə, heç mətni oxumayıb, məzmunu da bilməyib.

Əclafın niyə məndən belə zəhləsi gedirdi? Yəni rüşvət qanundan bu qədər irəli idi? Onsuz da hamı bilirdi ki, o müsəlmanları sevmir.

Özü də qatı millətçi idi.

Teleqramda açıqca göstərilirdi ki, imtahanzaçotlar, qış sessiyası dekabr ayında başlayır.

Azvoyenkomun teleqramı nə dəyərliymiş!

Bu qiymətli teleqramı atam vurdurmuşdu... Ürəyimdə atamla fəxr elədim, həmişə də onunla qürür duymuşam. Heç vaxt, heç vaxt bizi darda qoymayıb. O əsl kişi, azərbaycanlı timsalıydı.

Dyakiv dirsəklənib, əlini çənəsinə dayayaraq bir xeyli fikrə getdi. Nədənsə bu sükut mənə çox uzun, darıxdırıcı, amma, ümüdverici göründü. Hannan-hanasa dilləndi:

-Danışanda yavaş danışın. Kremlin adıyla da bizə hədə-qorxu gəlməyə ehtiyac yoxdur. Bu gün УИР-dən vəziyyəti öyrənərik, əgər razı olsalar, Bryusovla Boyko sənə xəbər eləyər!

Deyəsən... səmimi etiraflara baxmayaraq, yenə fırladırdı. УИР kimdi? УИР-in nə işinə qalıb? Mənim hissəmin komandiri bu ozü ola-ola, УИР-lə niyə iş çevirir? Millətçi donuz!

Boyko ilə azərbaycanlı həkim qolumdanca tutub, daha ağzımı açmağa qoymadılar.

Çölə çıxan kimi Boyko zəhərli ifadələr əvəzində qətiyyət və sevinclə kürəyimə vurub, dedi:

-İŞİN DÜZƏLDİ!

Bu sözlərdən sonra... hərbçi komandirlərimin çıxartdıqları ilginc hoqqaların eyforiyasında çaşbaş qalıb, onları qınamaq əvəzinə, ümidsizliklə... hazırlaşmadığım fəndən imtahan verirmiş kimi həyəcanla soruşdum:

-İŞİM DÜZƏLDİ?

Boyko qaşlarını çatıb məni intizarda saxlayaraq həkimə müraciət elədi:

-ОСВОБОЖДЕНИЕ ilə Dyakivi acığa salmaq lazım deyil, qoy bu gün işə getsin...

Sonra da üzünü mənə çevirib, kirimədi:

-Bir günlə heç nə olmaz. Onsuz da, iş yerində işləmirsən ki? Axşam da, məsələ həll olunacaq. Özünə edam hökmü verib... məni də naqolay vəziyyətdə qoyma!

Onun səsi, əməlindən məmnun qalan adamın səsinə bənzəmirdi. Yenə, nəsə iş çevirirdi.

Necə də iyrəncdi!

Çöhrəmə qürurdan isti işıq yayıldı. Boykonun dik üzünə qısa və КОНКРЕТ dedim:

-Xəstəyəm və ВОДОЗАБОР-a da qəti gedən deyiləm. Əsəbdən belim quruyub. Əyilə, tərpənə bilmirəm. Birtəhər, ayaq üstə dayanmışam. Kim qıcıqlanır özü bilər, mənə min cür bəhanə də lazım deyil, xəstəyəm, başa düşürsənmi?

Boyko bizi yolda buraxıb, hiddətlə tüpürdü

və çaşqınlıq içində ana söyüşü söyüb, öz-özünə deyinə-deyinə itilib getdi.

Dərhal həkimin nitqi açıldı və o saat, doğmalıqla gülümsünüb, içdən gələn sevinclə dedi:

-Yaman dedin! Buraxacaq! Mənə elə gəlir buraxacaq. Əgər axşam buraxmasa, get şikayət elə! Dəvədən böyük fil var. Teleqramda hər şey açıq-aydın göstərilir. Pul-zad da verib qudurtma.

Elə bu vaxt, ciddi və özündənrazı Bryusov bizə yaxınlaşdı və üzünü həkimə tutub:

-Onda, buna bir ОСВОБОЖДЕНИЕ yaz...

Həkim qımışıb, təkidlə onu yumşaltdı:

-Yazaram, amma neynəyirsiniz? Qoy qalsın dincəlsin, radikulitdi, xəstəlik tərsikə bilər!

Bryusov həkimin iradəsinə tabe oldu.

Qayıdıb КАЗАРМА-ya gəldim.

POTA növbəti iş gününə başladı... və hərbi marşın sədaları altında ВОДОЗАБОР-a getdilər...

Sevincimdən az qala belimin ağrısını unutmuşdum. Cəsarətlə cələsə qurdum haa!

Boyko görünür ki, КОМБАТ-ın otağında baş verənləri olduğu kimi Bryusova çatdırmışdı.

Artıq demək olar, POTA-da qonaq idim.

Teleqramın mətnini yadıma saldıqca, içimi sevinc və ümid hissləri bürüyürdü.

Artıq, Dyakiv də dalana dirənmişdi. Və söz yox ki, qəzəbimin odunda hələ çox yanacaqdı...

Əlimdə işə salmadığım iki kartım da vardı:

Kreml və Marşal Qreçko kartı...

Teleqram vurub, hərbi xidmət dövründə və tərxis məsələsində baş verən rüşvətxorluğu, süründürməçiliyi, müşkülü, hərc-mərcliyi... qatı millətçiliyi, müsəlman əsgərlərə qarşı irqi-ayrı seçkiliyi, Vətəndə cəlayi-vətən olmağımızı bildirə bilərəm... Sadaladıqlarımı bir göz qırpımında düşündüyümdən, sanki başıma qan vurdu və dərhal da yanaqlarımın alışıb-yandığını hiss etdim.

Neyləyim, bəlkə qorxalar!

Hamımızın taleyi onların əlində idi.

Bu anlaşılmaz Dyakiv, mülki vaxtda əlimə keçsəydi, çılpaq yanlarını nə çubuqlayar:

"Yaxşı yadda saxla bunu, unutsan, bu dəfə payayla döyüləcəksən!" -deyərdim.

Onda ağlı başına gəlib, hayımıza qalardı.

Öz-özümə mehribancasına gülümsədim.

Axşamacan gah ЛЕНКОМНАТА-da oturaraq ağ-qara televizora baxdım, gah da СУШИЛКА-da, isti boruların üzərində arxası üstə uzanıb qəzet-jurnallarla günümü öldürdüm.

Bel sancmalarım, istinin təsirindən əməlli-başlıca səngimişdi. Hərçənd... hər əyilib-qalxanda, çox ustuf tərpənirdim.

Günsə keçmək bilmirdi.

Tülküdurmazdan duran РОТА... işdən qayıdan kimi, dabanıma tüpürüb ШТАБ-a tərpəndim.

Dyakiv kabinetində qara meşin kreslosuna yayxanıb dili dolaşa-dolaşa ağ telefonda kiməsə donquldanırdı, nə dedilərsə qəfil qəhqəhə çəkdi.

Hədsiz tələşlə içəri keçmişdim.

İlk dəfəydi, ona qarşı mən belə sayğısızlıq göstərir, küçə qaraçıları kimi sırtıqlıq eləyirdim.

Ancaq bunu, cavanlıq səmimiyyəti kimi də başa düşmək olardı... Gecə-gündüz, vaxt-bivaxt qapısını kəsdirmirdim ki?

Heç çalpaşıq əsgər də deyildim.

Dəstəyi yerinə qoyan kimi, vahəsrəta:

-УИР-in rəisini... bu gün görə bilməmişəm. Məsələni o həll etməlidir. Sabah, sabah hökmən öyrənərəm. Sən hələlik, ВОДОЗАБОР-a işə get...

Vaxsey!

Bu yenə fırlatdı...

Dəhşətəngiz xəbərdən vahimə məni götürdü. Artıq məni bıqdırırdılar! Çiyrənirdim...

Di gəl, əlacsız qalmışdım. Neyləyəydim?

Yenə ümidsizləşib, söz çevirmədən bayıra çıxdım. Qoy görək sabah nə deyəcək?

Bir gün də dözək!

Acıqdan dodaqlarım əyilsə də... həyasızlıq etməyin də yeri deyildi.

Bainhəmə, səbirlə КАЗАРМА-ya qayıtdım.

Briqadamın əsgərləri, mənə yeni bir xəbər gətirdi: "ПЛАНЁРКА-ya təpərsiz Mürşüd gedibmiş. Axtyorkin məni soruşanda Dyakiv deyib:

-O ДЕМБЛЬ-ə hazırlaşır..."

Qürur məni mindi!

Qırışmal Boyko da, sevindirici baxış atıb:

-Səni hökmən, hökmən buraxmalıdı! Əgər

buraxmasa get Qordiyenkoya şikayət elə, teleqram sənin alibindir! -Hündürdən necə qışqırdısa, səsi qulaqlarımda cingildədi.

O saat da, ümidsizliyim çönüb təbəssümlə əvəzləndi. Və az qaldım, qanad açam.

Nədənsə... elə bu vaxt, ОДЕССА-lı Katerina yadıma düşdü. Hətta bənövşəgözlüylə son dəfə görüşmək qərarına gəldim.

Qəmalud görkəmi olsa da, onun çöhrəsində, əsasən rus qadınlarına xas olan ötəri gözəllik yox idi. O, müsəlman qadınları kimi həyalı, ismətli, dilkeş, dilrüba və məsum idi.

Görəsən qarnındakı uşaq böyüyüb?

Butsyakın briqadasındakı cəfakeş əsgərlər götürdükləri akkordu, bu gün şərəflə sona çatdıraraq, axırıncı boruları da düzüb qurtardılar.

Daha sabahdan işə getməyəcəklər. Hərbi hissənin komandri Dyakiv də, Axtyorkin də artıq akkordun НАРЯД-ına qol çəkiblər...

Gahdanbir ПОДПОЛКОВНИК Dyakivi qanına qəltan eləmək istəyirdim. Eləmək istəyirdim deyəndə ki, mətləbə keçmək yox, sadəcə bu barədə, nədənsə incə detallarına kimi düşünürdüm.

Bəlkə də, Komsomol, institut, çex Yitka və Şərq küçəsi olmasaydı...

КАЗАРМА-da hey vurnuxur, gah СУШИЛКА-ya girir, gah da, dəli kimi ora-bura girib-çıxırdım.

İnanın mənə:

Hərdən, ШТАБ-a həmlə eləmək istəyirdim.

Yaman da darıxırdım.

Dəli dostun olunca, ağıllı düşmənin olsun deyiblər... Bryusov qəti addım atsa, bəlkə mənə də ОБХОДНОЙ verərdilər. Amma o da özünü dəli kimi aparırdı. Gah xeyrimə danışır, gah da ziyanıma. Əxlaqa müğayir hərəkət eləmədiyi bir yana dursun, hələ könlündən də keçir ki, hərbi xidmətdən sonra bizə qonaq gəlsin...

Özün öləsən, gözlə, pişvazına çıxacam.

Al qana qəltan olasınız, xərəbatilər!

İlahi, kaş bircə işim tez düzələydi. Bu mənə görəsən niyə bu qədər mümkünsüz görünür? ПОДПОЛКОВНИК Dyakiv: ПОКА СЛУЖИТ БУДЕМ... - desə də, ДЕМБЛЬ əmri verilib. Axı, hər bir halda, barmaqla sayılacaq sanılı günlərim qalıb.

O, qəsddən səhv rəy də söyləyə bilərdi.

Bir qədər təmkinli olmalıyam.

Əgər, ШТАБ-dan kimsə qəfləti məni çağırıb ОБХОДНОЙ versəydi, sevincin eyforiyasında ürəyim partlamazdımı?

Onu, bir Allah bilir!

Məzahirlə КАЗАРМА-da oturub, Turabxanın hazırladığı ПОГОН-ları ПАРАД formamın çiyinlərinə tikirdim. Sonra lavsan formaya da ПОГОН tikməyə başladıq: Qırmızı, üstündə də sarı ЛИЧКА! Əla çıxdı. Sonra da, ПОГОН-ları lavsan formanın çiyinlərinə tikdim. Və sonda geyinib baxdım.

Oldum halal-hümmətcə СЕРЖАНТ ВАВАЕВ!

Bircə qalırdı şinel. ОБХОДНОЙ-u alan kimi,

onu da zabitlərə qol çəkdirə-çəkdirə, müsəlman əsgərlərimə tikdirib hazırlada bilərdim.

Danışırdılar ki, sabah Bytsyakın briqadası ilə birlikdə, Şamxor ermənisi Alik Ohanesyanla, ağdamlı, lazım gəlsə tüpürdüyünü yalayan çənə Telmana da ОБХОДНОЙ veriləcək.

Bəlkə mənə də verdilər?

Elə olsa, lap birlikdə də gedərdik. Və hətta danışdıq ki əgər bu reallaşarsa, КАЗАРМА-da əsgər çəkmələrimizi soyunub, ayaqyalın yüz kərə КАЗАРМА-boyu yallı gedərik.

Tarix yazılsın deyə...

Sevincim aşıb-daşsa da, hələ, 50 faiz gümanım vardı. Amma, teleqrama çox güvənirdim. Bu teleqram sevgimin səsi, haqqımın möhürü... və ədalətimin zəfər tağı idi.

Təntənəsi də yaşanacaqdı!

Nənəm həmişə bizə danışardı, a bala oxuyun, o Böyük Qurani-kərimdə Allah Məhəmməd peyğəmbərə vəhy edib ki... Mənə namaz qılmasanız da günahlarınızdan keçərəm... təki, yazın, oxuyun elm dalınca gedin.

İndi bu allahsızlar nə istəyirdi məndən?

Əgər buraxmasalar, şikayətə gedəcəyəm. ГАРНИЗОН-un komandiri də baxmasa, acıqca fərarilik eləyib düz Moskvaya gedib çıxacam.

Nə olacaq, qoy olsun!

Bu nə cür vətəndir?

Marşal Qreçkonun adına teleqram vursam

da qorxacaqlar. Elədir ki var, qorxacaqlar.

Özünəəminliklə rahatlaşdım...

СУШИЛКА-da oturub dərdləşirdik.

Qayışbaldır Turabxan hansısa bir cılfır əsgərin nə vaxtsa tərxis olanda unutduğu, içi ərp bağlamış Nikolaydanqalma, köhnə bir çaydanda КИПИТИЛЬНИК-lə çay dəmləyirdi. Su pıqqapıqla qaynayıb paravoz kimi səs salmışdı.

КИПИТИЛЬНИК-i çıxartdı... içərisinə bir çimdik quru çay atdı və çaydanın üstünü yıpranmış buşlatla bərk-bərk basdırdı.

Görünür ürəyində yəqinlik hasil etmişdi ki, bundan yaxşısını heç kəs hazırlaya bilməz.

Baxışları bunu deyirdi.

КАЗАРМА-da son günlərimizi yaşayırdıq.

Dünyada bundan da şirin, öyünüləcək, iftixarlı və üzücü, darıxdırıcı heç nə ola bilməzdi.

Ucdantutma hamımız, Kommunist Gənclər İttifaqının üzvləriydik. Qəbahətimiz nəydi?

Fələk bizdən niyə üz döndərmişdi bəs?

Poçt kuryeri məktubları, günün qəzet-jurnallarını, açıqca və bağlamaların bildiriş kağızlarını gətirdi. Dərhal, КАЗАРМА-da səs-küy qopdu.

Əsgərin ümidi və yaralı yeriydi məktub.

Əlövsətdən, fələyin güdazı tutmuş məktub aldım, Kirovabaddan yazmışdı.

Bir dənə də olsun dolğun, maraqlı cümləsi yox idi. Elə bil... təpikləyə-təpikləyə sözləri yanyana düzmüş, söz-sözə zorla calanmışdı. Bircə

başa düşülən o idi ki, yazırdı:

"Nə vaxt Pervomayskidən çıxsan mənə teleqram vur, bilim."

Görünür Komsomolu, qohum-əqrəbanı və yaxın dost-tanışla qonum-qonşunu muştuluqlamaq istəyir. Dəllək Nüsrətin sısqa oğlu, qəlyanboğaz Əlövsət çox sakit, ağıllı oğlan idi.

Di gəl, yazdığı yazıya bax.

Yenə qəm dəryasına qərq olmuşdum.

Bircə gecə düşsəydi, bircə hovur yata bilsəydim, sabahla açılan yeni xəbərlərlə, yeni nəfəs alardıq. Bu vaxt necə oldusa, bir atalar sözü yadıma düşdü və tez beynimdə, təkrarladım:

"Zahid məni aldatma... cəhənnəmdə od olmaz, onlar ki yanırlar, odu burdan aparırlar!"

Nədənsə mənə elə gəlirdi ki, fələk göydən yerə ensə də, sabah işim düzələcək.

Qəmalud olsam da, ümidliydim də...

Nə isə, bu günü də СУШИЛКА-da, ЛЕНКОМНАТА-da və ВОЕНТОРГ-da veyillənməklə birtəhər ki keçirdik. Sonuncu ПРОВЕРКА-dan sonra, bəlkə də sonuncu ОТБОЙ əmrimiz verildi.

Yerimə girib, bir xeyli o üz-bu üzə çevriləndən, qurcalanandan sonra, gözlərimi açıb, balışın altından Komsomolun fotoşəklini çıxartdım. Onun xoş təbəssümlü çöhrəsiylə danışa-danışa, yenə xəyallara daldım: ОБХОДНОЙ-u əlimə alan kimi, hamıyla vidalaşmaq, ünvanları son dəfə də yoxlayıb dəqiqləşdirmək... möhürlənmiş, qıpqır-

mızı, üzərində qürurverici СССР sözü qeyd olunmuş hərbi bileti əlimə alıb gedəndəsə, bütün əsgərlərlə qucaqlaşıb halallaşmaq...

ВОДОЗАБОР-a son dəfə tamaşa eləmək və bəlkə də ЮЖНЫЙ БУГ çayıyla əbədi vidalaşmaq, yeri gəlmişkən, buralara nə vaxtsa gəlib... mülki, azad adamlar kimi, Pervomayskini gəzib-dolaşmaq istəyim, arzum vardı ürəyimdə...

ШТАБ-ın poçtundan qəmdidə Tahir Ağayevə, qəlyanboğaz Əlövsətə, qardaşlarım, -dünya malında gözü olmayan Rafiqlə... hələ uşaq olsa da, pul görəndə, indidən didərgin düşən... amma, əlinə düşəni də, səxavətlə sağa-sola xərcləyən Vidadiyə teleqram vurmaq.

Qoy iki-üç gün əvvəldən bilsinlər.

Və mən gələn günəcən şərqiyyunlular kimi həyəcanla, iştiyaqla həzz alıb, şövqlə ürəklərində sevinsinlər. Qoy, Vətəni layiqincə qoruduğuma rəğmən, gecələr sevinclərindən yata bilməsinlər. Pişvazımda cöngə kəsilsin.

Pəhriz saxlayan ixtiyar qocalar da ürəklə yeyib-içsinlər.

Xuraman düşünsün, Komsomol sevincdən vəcdə gəlsin! Ağ mirvari sırğalı, Məhbubə xala əsgərə səcdəemə rəsmiyyətçiliyi ilə dodaqlarımdan öpsün. Evin kişisi olsa belə, xanımı Xanım xalaya arvadlıq eləyən Sərxan dayı, qucaqlayıb məni bağrına bassa da, qızbibi oğlanlarına görə ürəyi qan ağlasın. Hələ həşəmətli q.Bahar xala!

Yeniyetmə boy-buxunum, təravətli dodaqlarım və şorgöz baxışlarıma həsədlə baxa-baxa, dodaqlarımqarışıq narın tüklü bığımdan, isti nəfəsiylə öpə-öpə cavanlığa nisgil həstətiylə baxıb ağ maya sinəsinə dəlicəsinə və şəhvətlə sıxsın. Cavan olsa belə, yeddi uşaq doğduğundan, cavanlıq harmoniyası pozulmuş, boyun-boğazı və ağ sifəti lət bağlamış, gözlərinin ətrafı qırışmağa başlamış şərməndə q.Bahar xala!

Uşaq vaxtı şəninə şeir qoşduğum, çəpər-bir qonşumuz. O şeirin ilk kupleti beləydi:

Eyvanınız qarşısında
Bir alça ağacı vardı.
Sallanıb nazik budaqlarından
Səni görmək üçün
Gecəni gündüzə qatıb
Hey yellənərdim...

"Sərfəli nigah" axtarışına çıxmış, bircə barmağını kəssən əgər haqqdan dönən, cümləpərdaz Vaqif Hüseynovun anası, q.Bahar xala...

Milis rəisinin xüsusi tapşırığı ilə, mağazadan oğurladığı malları, milis işçiləri dalına şəlləbib... qoca Şərq küçəsiylə üzüyuxarı, mərkəzlə, piyada şöbəyə apartdırdığı oğru, haramzada və əlhəzər Bəylər Hüseynov.

Atamdan, anonim şikayət ərizələri yazan!
Kəbinli arvadı, qəbahətli q.Bahar xala...
Gözlərimə yuxu gəlmək bilmirdi.
Xəyallarla, sentimentallıqla düşünürdüm:

Dost-tanış, qohum-əqrəbaya, ən əsası da Şərq küçəsinin digər sakinlərinə xəbər yetişsin.

Hitlərəoxşar donbagöz Qanboy kişi, eşidib çötkəsindən çırtmasıyla babat bir daş da şaqqıldatsın! Yəni: Bu da belə, ta oğlum Ələsgər kimi saxta sənədlə fərarilik yolu yox!

Dodaqlarından təbəssümü əskik olmayan, uşaq kimi qayğısız, sakit və xoşbəxt Komsomolum özü də gecələri sevincdən qovrulsun. Məni düşünsün. Lap şirin düşüm.

Artıq, ailə qurmaq vədəsi yetişir.

Son qərarım belədir. Görək necə olacaq?

Bu gün ali təhsilli, şəşbər bığlı belarus Korolenkoya da ОБХОДНОЙ vermişdilər... Saymazyana, təmkinlə zabitlərə qol çəkdirirdi.

Sabah gedir.

Ona necə həsədlə baxırdım...

Çox hövsələsizlik eləyirəm. İki ildir dözmüşəm, son bir, lap iki həftə qalmış olsun, nə olub məgər? Nənəmin sözü olmasın:

“Toyun küllükdə çalınır?”

Nəsə... nə vaxtsa yuxuya keçmişəm.

Yuxuda gördüm: “Qardaşım Vaqif bir uzun yoğun ağ çubuqla, Dyakivin açıq götünə-götünə var gücüylə yun kimi çırpır və günüqara Dyakiv də, atlanıb düşə-düşə, əti soyulurmuş kimi bağırır: “Öldüm daha, qoy bir hovur çimir eləyim!”

İstirhamla elə hey mələsə də... Vaqif onun üstünə evfemistik ifadəylə dayanmadan qışqırır:

“Azər müəllimə deyəjəm, toyda ayaqyalın oynayan, qırçın donlu bajını filan filan eləsin...”

Dyakiv də, dağ daylağı kimi soncuqlayırdı.

Sonrasa gördüm orta məktəb yoldaşlarım: İsgəndər Tağıyev və buratino Tariyel Muradov, dükançı Muradın qızı Sevda Əliyevaya deyirlər:

“Kağız quş düzəlt, at havaya uçsun, dalıyca qaç. Harda kağız quş yerə düşsə, sevdiyini orada axtar. Sonra da Sevda cəzə-fəzə etməklə onların üstünə qışqıra-qışqıra giriz vurdu:

“Mən Xuraman kimi cadugər məhəbbəti istəyirəm, belə formada yox...”

Yeri gəlmişkən Sevda çox ağıllı, əxlaqlı və həddindən artıq da istiqanlı, mehriban bir qız idi. Yanağında, eynən mənimki kimi, il yarası vardı.

Ağırtəbiətliydi.

Sonra da... sinfimizin qızları yığışıb, İsgəndərlə Tariyelə çox səxavətlə ənam payladılar...

Və bir də baxdım ki, Xırda müəllimənin oğlu Bəşirov Fəxrəddingilin geniş və baxımsız həyətlərinin ayağında Ərəstun, İsa Şükürov və cındırından cin ürkən, axıska türkü, tülkü Süleyman Zahidov, cığırından çıxmış Məmməd Fətəliyevə qoşulub, şərməndəliklə ağlaşırlar.

Məlum olur ki, Məmmədin doğma atasını vətən düşməni kimi həbs ediblər və Məmmədin anası Pəri xala da, ağlayıb-sısqamaq əvəzində, şüşəbəndli eyvanda fikirli oturub, siqaret çəkir...”

Növbətçinin çığırtısına səksənib oyandım.

POTA-ya səhər ПОДЪЁМ-u verilirdi.

Peşmançılıq çəksəm də, neyləmək olardı?

POTA-nın əsgərləri... peydərpey tökülüşüb, növbəti hərbi xıdmət gününə basabasla cərgəyə düzlənməklə başladı. Bu hər gün təkrarlanırdı...

Yamanca yaxşı yuxu idi.

Hamı ağ tuman-köynəkdə səhər idmanına gedırdi. Yuxudan yarımçıq ayılmışdım.

Könülsüz qalxıb, dümələnə-dümələnə geyinməyə başladım və sinif yoldaşlarımı düşünə-düşünə yuxunu yadıma salıb, uşaq kimi kövrəldim. Sevda niyə Xuramana bənzəmək istəyirdi?

Bu fikir beynimdə ilişib qalmışdı...

Butsyakın briqadasında 23 əsgər vardı.

22-si rus, gürcü, moldovan, belarus, erməni idi, yalnız bir nəfər azərbaycanlı vardı, o da ki çənə Telman. Dyakiv 22 əsgərə ОБХОДНОЙ vermiş, çənə Telmanın adını isə... xaç şəklində, çalın-çarpaz pozmuşdu.

Azərbaycanlı... Şamxor ermənisi olan Alik Ohanesyana da ОБХОДНОЙ verdilər.

Telmanla mən qaldıq!

Ayrı-seçkiliyi görürsünüzmü, Peyğəmbərlik olmasın, bu artıq, əl içi kimi faş idi.

Bizim barəmizdə hələ söz-söhbət, peyğam yoxuydu. Əclaf Dyakiv açıq-aşkar azərbaycanlıları sevmirdi. Hərçənd, ən maraqlısı oydu ki, bu bəd xəbər, heç Çənənin vecinə də deyildi.

Deyib-gülür, hırıldayıb ortalıqda hərlənirdi.

Hətta КАЗАРМА-da МОЛОДОЙ əsgərlərə yeri düşdü-düşmədi təpinir, bundan sonsuz ləzzət alır və çənəsini irəli verib şeşələnirdi.

Belim yadıma düşdü və dərhal, həqiqətən sol tərəfimdən bir ağrı tutdu... Cəld, САНЧАСТЬ-a tərpəndim. Maqnetafon məsələsini xatırladıb tok -şüa götürəndən sonra, ОСВОБОЖДЕНИЕ aldım.

Pəncərələrin qarşısına... yarpaqsız tikanlı, ətli gövdəsi olan, iri maldili dibçəkləri düzülmüşdü. Maldili cənub bitkisi olsa da, görünür, azərbaycanlı həkim şüa əleyhinə gətizdiribmiş.

Yalan-gerçək danışırdılar ki... bu ev bitkisi, guya, şüanı tutub saxlayır, zərərsizləşdirir.

Bu gün də işdən azad oldum. Həkim mənə bu gün də, əvvəlki diaqnozu qoydu: RODİKULİT!

Əvvəl eşidəndə bərk qorxmuşdum:

"RODİKULİT nədi?"

"Belə təxmin eləyirəm, elə, çox da qorxulu bir xəstəlik deyil, qorxma..."-demişdi.

Bircə çıxıb evə gedə bilsəydim hər şey özözünə ötüb keçəcək. İndi isə belim bərk sancırdı. ТОК-ŞÜA qəbul eləsəm də, ağrı keçməmişdi.

СУШИЛКА-da yenə iri isti boruların üstündə uzandım. Borular əməlli-başlı belimi əzsə də bel sancmaları azaldırdı...

Bryusov, səhər РАЗВОД-una mənim yerimə qulaqlayıb, vaynösə Sahibi apardı.

Çənə Telmanı fırlayıb, yenə, mənim briqadama verdilər. Dünən axşam da kartof soymağa

o mənim briqadamla getmişdi.

Halalca briqadamı Sahibə tapşırmışdılar.

Deyəsən, 2-ci POTA artıq məni mülki adam kimi tanıyıb. ПРОВЕРКА-lara da durmuram.

Belimin ağrısıyla ОБХОДНОЙ arasında hələk qalmışam, əməlli-başlıca vuruşuram. Hələlik bir şey yoxdur, amma üstündə nanə yarpağı tək əsirəm. Namüəyyənlik davam edir.

Əyilə bilmirdim.

Səhər-səhər rusların ПОРТЯНКА adlandırdıqları ayaq sarıqlarımı xallı Arif geyindirdi...

Xülasə, РАЗВОД-dan sonra Dyakiv qəfil yoxa çıxdı. Boyko Knyajeviçdən Dyakivi, sonra da mənim məsələmin nə yerdə qaldığını soruşdu.

Knyajeviç süni coşğunluqla:

-Dyakiv mənə tapşırıb. Dünən getdim tapa bilmədim. Bu gün həll edəcəyəm.

Yenə başladım həsrətlə gözləməyə...

Bir göz qırpımındaca, her şey dəyişə bilər. Bu xarabadan nə vaxt çıxacağam görəsən? Lap tıncıxmışam. Heysiyyətimi gözləyərək dözürəm.

Neyləyə bilərəm?

Kaş bu azman dövlətimizin öz vətəndaşlarına qarşı münasibəti kökündən dəyişəydi. Niyə orduda vəziyyət belə napak idi görəsən?

Malxulya içərisindəydim...

Düzdür, iş yerində heç bir əziyyət-filan çəkib eləmirdim. Elə mülki, azad adamlar kimi də, günümü keçirir, nəticədə istədiyimi yeridirəm.

Məni düşündürən incə məqamsa ayrıdı:

Axı niyə, 2 il qulluğunda şərəf və ləyaqətlə durduğum, min-bir əzab əziyyətinə qatlaşdığım, tonlarla yükünü çəkdiyim vətən arxamda dayanmır? Vətənin... kapitalizmə qarşı düşmən çəpəri olan mənimtək yeniyetmə əsgərlərinə qarşı qayğısı, sayğısı niyə belə üzdəniraq olsun axı?

Yeri gələndəsə, bir qarış torpağı üçün milyonlarla mənim kimi əsgərini, ya mülki vətəndaşını qurban verməyə hazır olduğu halda, vaxtı-vədəsi yetişəndə niyə onu belə ələ salır, əzab verir, rüşvət umurdu görəsən?

Düzdü, icimdə nəsə, ümid kimi bir hiss qımıldanırdı: Bu azman dövlətin... Kremldə oturan başbilənləri, marşalları bütün bu azğınlıqlardan bəlkə də xəbərsizdi. Ancaq, belə də olmazdı.

Vətən məni əl amanda qoymuşdu.

Təhsilimi bir il də geriyə atmaq sovet zabiti, ПОДПОЛКОВНИК Dyakivi heç narahat eləmirdi.

Gör o namusunu satmış necə vicdansızdı.

Öz oğlunun başına bu müsibəti gətirsələr, nırx təyin eləsələr, görəsən xoşuna gələrdimi?

Düşüncələrim xırman kimi sovrulurdu.

Bircə mürüvvət edib buraxsaydılar!

Mən də mürəxxəs olub gedər, isti ocağımızın qapısını tıqqıldadıb, sevdiyim, yolumu 2 il gözləyən Komsomolun pəncərəsini gizlincə dınqıldadardım... İndi, Bərdədə isti qış günüdür...

Dolmuşdum yenə...

Nənəmin sözü olmasın, çırtma vuran olsa, qanım axardı. Göz oxşayan al qan...

Pervomayskidə ilk günləri yada salırdım:

İlahi, biz gələn gün necə soyuq idi!

Şərq küçəsinin isti qışından çıxıb, Ukraynanın boz çovğununa düşmüşdüm.

Kirpiklərimi qırov tuturdu.

Sanki, bütün bunlar dünən olmuşdu.

Kitab oxumaq əvəzinə, taxta НОСИЛКА-da, gücüm çatmayan ağırlıqda beton daşıyırdım...

Namusuma qısılıb fikirləşirdim ki, Vətənin vicdanlarıyıq. Vətən qoruyuruq. Bəs indi, niyə o vətənim ayrı-seçkilik salmışdı? Hər şey batman, mütəkəbbir Dyakivin gözləri qarşısında olmuşdu axı. Yoxsa, yenə, müstəmləkə buxovlarında çırpınırıq? Yad ölkədəyik?

Ruhumun həssas nöqtəsi!

Neftimizi yağmalayıb... eşalon-eşalon talayanların sifəti, qul kimi bizi işlədən nankor, mütrüb Dyakivkimilərin gözləri işım-işım işıldayır və canavartək açıq-aşkar qanımıza yerikləyirdilər.

Zalımın qəsdi-qərəzi tükənmirdi.

Söz verir, bir addım aralanan kimi də, onu sanki müsəlman xofu basırdı.

Müxtəsəri, ПОДПОЛКОВНИК Dyakiv, qapqara yağmur olub, azərbaycanlıların başına yağır, şərqiyyunları görən gözü yox idi.

Yaşılgözlu donuz!

Fikirləşdikcə, səbrimin bacası sökülürdü.

F.Dostoyevskinin Raskolnikovu kimi, bunu baltalayıb, üzü bumbuz Sibirdə çürüməkmi?

Kövrək hisslər məni bürüdü.

Başılovlu axan dəli Kür çayımız gözlərimin qarşısına gəldi: "Kürün ətrafı meşəlik olsa belə, bu meşələrdə ceyran-cüyür olmaz, oralarda, daha ov heyvanlarına rast gəlməzdin...

İyun-iyul-avqust, qorabişirən aylarda sərinləmək, ya, manqalda quzu kababı bişirib yemək üçün, tay-tuşlarla yığışıb, bu kürqırağı meşələrə gedərdik. Onda da, ağcaqanadlar, eşşək arıları, atlı qarışqalar imkan verməzdi.

Buraların milçəkləri də adamı sancırdı.

Böyüklər həmişə yeyib-içməyə Şuşanın cıdır düzünə, İsa bulağına... sənətkar və qəllaşlarıyla məşhur erməni kirvələrin kompakt yaşadığı Mardakertə, ya da Murov dağının ətəklərinə sarı gedərdilər. Göygöl, Maralgöl, Hacıkənd...

Bərdə yayda isti, susqun olardı...

Kür çayı Tərtər çayı kimi burum-burum burulmaz, geniş yatağında lal axardı.

Meşələrində quşlar oxuyardı... Ov heyvanlarından heç dovşanı da olmasa, ancaq, turac-qırqovuldan bol idi...

Uşaq idik, onda biz.

Bir samovar çay qaynadanadək, üst-başımız his, əl-ayaqlarımız kömür olardı.

Kirpiklərimizdən kül asılardı...

Bu meşələrin ceyran-cüyürlərini, Kremldə

yemişdilər. Daha qalmamışdı.

Yeyən əfəndiləri həddindən ziyadə çox idi. Qədimdən sərvəti karvan-karvan daşındığından, indi Bərdədə sınıx bir körpü, bir də, bu tayından baxanda, o tayı görünən xan meşəsi qalmışdı.

Bərdə hökmdarı Nüşabənin şərəfinə ucaldılmış Nüşabə qalasının başındakı minarəsinin üstü vaxtı ilə ruslar tərəfindən dağıdılıb uçurulmuş və enli, hündür, Torpaq qala adlanan əzəmətli tarixi hasarı viran qoyulmuşdu.

Çox sonralarsa... sovet dövründə, sement, beton tikintidə istifadə ediləndə, erməni sənətkarları tərəfindən bu minarənin üstü qədimiliyini, tarixiliyini saxtalaşdırmaq məqsədi ilə kobud bir formada betonlanmışdı... Bizim tarixi kirvələrimizin məfkurəsi beləydi. Bilmirdim, axı niyə bu an bunları düşünürdüm..."

Qarnı və sifəti ağ, bədəni göy rəngdə olan, köçəri Qoraley quşlarını düşünmək olmazdımı?

Gözlərimə sanki qor tökülmüşdü.

КАЗАРМА-dan çıxanda, meydançada təsadüfən ПОДПОЛКОВНИК Dyakivlə qarşılaşdıq. Heç özümə gəlib, hərbi təzim etməmiş, süni tərzdə:

-Niyə işə çıxmamısan? -soruşdu.

Hərbi vəziyyət alıb, fərəğət formasında təzim edərək, məğrur və üsyankarlıqla:

-ОСВОБОЖДЕНИЕ-m var...

Və tez də, gizli bir qeyzlə soruşdum:

-Yoldaş komandir bəs nə oldu?

O müzürr qaş-qabağını tökərək mənə fikir də verməyib əlini yellədi və öz-özünə nəsə donquldanıb getdi...

Elə başa düşdüm, əl çək yaxamdan deyir..

Mən ki, menşevik deyildim!

Bu işə bircə nöqtə qoyulsaydı...

Yenə bulud kimi tutuldum. Xilqətim buydu, tez inciyər, tez də küsərdim. Dərhal uşaq pərtliyi tutdu məni. Xiffət eləməyə başladım və bu dəfə nədənsə, Xuramanı xatırladım... Ağlıma hardan girdisə, kədərlə pıçıldadım: "Sevgim səni, nədən riqqətə gətirə bilmədi görəsən? Nədən, sevgimə layiq söz tapa bilmirdim sənə deməyə axı..."

Əfsus, indi Xuraman yeri deyildi.

Birdən ağlıma verdi ki, bu nə deməkdi? Bu imansız adam deyəsən məni ələ salır, dolayır.

Sanki, nitqim batdı.

Melanxoliya içərisindəydim.

Qayıdıb КАЗАРМА-ya girdim. Və birinci zabit rütbəsi hesab edilən ПРАПОРЩИК vəzifəsində hərbi qulluq edən Bandısik niyabət edərək xəbər gətirdi ki, Dyakiv Butsyakın briqadası və mənim işim üçün, şəxsən УИР-ə gedib.

Mərhəmətoyadıcı hisslər qəlbimi çulğadı...

İndi, saat on birdən azca ötüb.

O hələ qayıtmayıb.

İntizarla, həm də qorxa-qorxa, heyvərənin yolunu gözləyirəm. Yaşıl gözlü donuz! Görəsən, cavabı nə olacaq? Bu məni üzürdü. İki illik ağır,

iztirablı, əzablı keşməkeşli, əsgər həyatının son həlqəsini bağlaya biləcəkmi bu gün? Bu gün hər şey həll olunmalıdır. Görək...

Yerimə girib, intizarıma son qoymaq üçün bir qədər yatmaq istədim. Nə qədər elədim, yata bilmədim. Belimin ağrısı da artmışdı. Çarpayıda o yan-bu yana çönür, ağrıdan qıvrılırdım. Qalxıb yenə СУШИЛКА-dakı isti boruların üstünə uzandım. Həyəcandan kirpiklərim titrəyirdi.

Dəmir borular məni əzsə də, başqa cür rahatlaşa bilmirdim. Ağrı artdıqca, əsəblərim daha da gərginləşir, gərilir və öz-özümə son qərar verirdim: Əgər ОБХОДНОЙ-u verməsə... düz Qordiyenkonun qəbuluna gedəcəm, vəssalam!

İndi qoy qayıtsın, baxaq...

Bircə, bu intizara son qoyulsaydı!

ХЕРСОН-dan, 100 nəfər çağırışçı uşaq gətirdilər. Bütün РОТА-lardan, işə getməyənlər yığılıb, maraq üçün onlara baxmağa tərpəndi.

Mən də tamaşaya getdim.

Bir xəbər, hadisə, baş verən kimi ağrılarım dərhal azalırdı. Başları uzun tüklü, köhnə-küləş, nimdaş paltarlarda gələn bu uşaqlara baxıb ürəyimdə, canıyananlıqla fikirləşdim:

Bədbəxtlər!

Sınıx-sökük, taxta bortlu maşınların içərisini təmizləyirdilər. Sanki Biləcəridəki kişinin sözü olmasın, yaxşıca ПАХАТ eləmək üçün yaranmışdılar. Əksəriyyətinin çöhrəsində, çətin ifadə olu-

nan bir nigarançılıq, qorxu, qəribçilik duyulurdu.

Aralarında qəvi uşaqlar da vardı ki, onlara meydan açılacaqdı. Amma, baxır hünərə.

Əsgərlik yaşına çatmış, bu yeniyetmələrə baxanda, nə qədər bəxtəvər olduğumun fərqinə vardım, ДЕД-СЕРЖАНТ sayılırdım.

Niyə qan ağlamalıyam axı?

Bu gün olmasın, lap üstündən iki həftə də ötmüş olsun. Nə olacaq ki? Təhsilim lap bir il də geciksin qoy, hə, nə olsun?

КАЗАРМА qətlgahdı? Ölmərəm ki?

Nə isə, ПРИЗЫВНИК ХЕРСОН-luları cərgəyə düzdürüb yeməkxanaya apardılar. Görünür, kəf getmək elə buradan başlayacaq. İri qənd, çörək, yağ tikəsi uğrunda. Sonra da əsl pəstaha klubda qopacaq. Baş qırxılma, mülki paltarlara əlvida...

Nənə-babalarımız Həvva və Adəmtək lümlüt, rusların ТАЗИК adlandırdığı köhnə ləyənçələr əldə etmək naminə yaranan gərginlik, soyuq və isti suların axdığı kranların qarşısındakı, tələmtələsik itələşmə, sabun kirtiyi üstündə düşən ilk süpürləşmələr, cılızların qəvilər qarşısında qorxudan doğan nəzakəti xatirinə növbə gözləməsi.

Alüminium dolçayla tökülən ilk qan.

Və ПРАПОРЩИК-in qışqırıb verdiyi ilk hərbi əmriylə hansısa СЕРЖАНТ tərəfindən САНЧАСТЬ-a qaçırılan ilk uğursuz.

Nə əsgər, nə də ki, mülki vətəndaş... zira, hələlik çağırışçıyla əsgər arasında sayılacaq, sı-

radan bir nəfər cavan, aciz və bəxtsiz adam.

Zərərdidə!

Şərqi slavyanlı gözmuncuqları, indidən bilin ki, dəva vəkilləri olmur burda, dəst-paça olur.

İqbalsızlıq, nikbət tutma başlayacaq.

Hələ, ПАТРУЛЬ görməyən САМОВОЛЬЩИК-lər, gələcək ДЕЗЕРТИР-lər, ДИСЦИПЛИНА pozub НАРУШИТЕЛЬ adıyla sübhəcən döşəmə yuyacaq zavallılar, salyanlı Adil kimi ПЬЯНИЦА-lar ortalığa çıxacaq. Dərədən-təpədən gələn dəstgirləri də, dərdəsərliləri də olacaq.

İlk gecədəsə, КОЙКА, ПОСТЕЛЬ müharibəsi başlayacaq. Meşədə olduğutək, burada da, güclülər gücsüzlər üzərində zəfər çalacaq.

İztirab və əziyyət verən dərdimi dağıtmaq üçün qarnizonun ərazisində tək-tənha gəzib-dolanırdım: Ey gidi dünya...

Bir azərbaycanlı əsgərlə tanış oldum.

Qonşu РОТА-da qulluq edirmiş. Təzə gəlib. Ali təhsilli idi. Ruslar demiş bir il СЛУЖИТЬ eləyəcək. Uzun, qarayanız oğlan idi.

Bu oğlan da, nöqtəbənöqtə bizim q.Bahar arvadın tamada oğlu Vaqif Hüseynov kimi, silsiləcümban, nitqpərdaz idi.

Sən demə... Füzuli rayonunun, Komsomol komitəsinin birinci katibi işləyirmiş! Məndən dörd yaş böyük idi. Qoçaq oğlana oxşayırdı.

Birlikdə söhbət eləyə-eləyə, hospitala sarı getdik. Zahirdən batinə yol var, -deyirdi tez-tez...

Hospitalın həyətində ağappaq... iri baldırlı, cavan bir qız uğrumuza çıxdı. Bu qız həddindən artıq qısa geyindiyindən, qara, uzun kapron corabdan göz çıxarıb, can aparan şümal baldırları, cilvəli gözləri, enli yançaqları ürək vururdu!

Komsomol katibi olan füzulili, süstəlmiş halda, şitlik eləyərək şivəkar qızın baldırlarına gözlərini zilləyib, dodaqlarını yaladı və:

-Uxay! Uxay! Bütün əzəməti verib baldıra, bir oğul lazımdır onu qaldıra! -dedi.

Qız xristian olduğundan heç nə anlamasa da, söhbət onun baldırlarından getdiyini anlayıb, qımışaraq rus dilində, yanaqlarında təbəssüm:

-Görünür kasadlıq çəkirsən... -qaş atdı.

Gülməkdən qarnımı tutub uğundum.

Bu an hər ikisi məzəli idi. Məzəli başlanğıc alınmışdı. Di gəl əyilib, qulağıma pıçıldadı:

-Yolumu gözləyən adaxlım var, xəyanətlə barışmaz, yerin də qulağı var. Özün giriş...

Mənsə, yol üstəydim.

Bizim müsəlman qızı olsaydı, başı papaqlı qohum əqrabası qalmamışdı ki, başına toplayıb şivən qopara və bir ikisini də güdaza verə.

Uğura qənşər gələsən qız!

Heyif ki, mən bir-iki gunə tərxis olunub gedirəm, yoxsa şəksiz dostuq eləməli oğlanıydı.

O hələ... yeni bir xəbər də verdi ki, qonşu POTA-ya göyçaylı bir əsgər gətiriblər.

Şairdi, yaman da yazır...

Qərara gəldik ki, onu da mənimlə tanış etsin. Füzulili oğlanın adı Nəbi idi.

Nəbi Muxtarov!

Sözləşdik ki, o eynəkli şairlə də tanış olaq. Ədalət adlı bu oğlanın, kiçik bir şeir kitabı da çıxıbmış. Nə yaxşı! Müəllif yerində adı da yazılıb:

Ədalət Əsgəroğlu!

Füzulili komsomolu yola salıb qayıdanda, yolboyu, elə hey onun dediyi bu iki misranı ürəyimdə, öz-özümə pıçıldayırdım:

"Bütün əzəməti verib baldıra...

Bir oğul lazımdır onu qaldıra!"

Birdən də, mənim PRAHA-lı Yutkamın bacısı Dano yadıma düşdü. Onun da, baldırları belə yoğun, şümal, ağappaq və gözçıxaran idi...

ШТАБ-a gəldim.

Butsyak, 22 əsgərinin hərbi biletləri əlində ШТАБ-da oturmuşdu. O da Dyakivi gözləyirdi.

Başıyla başa saldı ki, hələ qayıtmayıb...

КАЗАРМА-ya qayıtdım.

Butsyakın briqadasında işləyən əsgərlər ДЕМБЛЬ-ə hazırlaşırdılar. Maqusevlə Xaçaturyan artıq şinellərini alıb düzəldirdilər. Onlara yaman paxıllığım tutdu. Keçini bostana buraxmışdılar...

Alik Ohanesyan, özünə lavsan ПАРАД forması almağa getmişdi.

Onlar, artıq yol tədarükü görürdülər...

КАЗАРМА-da canlanma, səs-küy vardı. Hamı nəsə axtarırdı. ДЕМБЛЬ-ə getmək nə yaxşıdı!

Mənimsə vəziyyətim qaranlıq qalırdı.

Nə hə, nə də ki yox...

Ağdamlı, üstünə ildırım çaxmış tərneftli, şit çənə Telman, isti СУШИЛКА-da xorultuyla yatırdı. Bərk-bərk tapşırmışdı ki, tünbətün Dyakiv gələn kimi onu da durğuzum.

Tünd gedib, şikayət eləmək istəyir, görək.

Halım yaman pis idi, təcəddüd istəyirdim.

Təbir caizsə, bir də təbərzinim çatmırdı.

Çənə Telmanı da götürüb, şair oğlanla tanış olmağa getdim. Ədəbiyyatı çox sevirdim.

Naharı, öz yeməkxanalarında eləyirdilər.

Hospitalın həyətinə çatanda, Füzuli rayon Komsomol katibinin, ağ eynəkli bir oğlanla nəsə oxuyub, ürəkdən güldüklərini gördüm.

Çənə Telmanla yaxınlaşıb, onlarla boy-boya verdik. Nəbi bizi səmimiyyətlə tanış elədi.

Kağızdakı şeiri verdilər ki, ucadan oxu.

*****

Görüb, “göt”düyünü üzə çəkirsən
Belə 2 başlı demə, Zəlimxan.
Xoruz pipiyində mərdlik gəzirsən
Belə 2 başlı demə, Zəlimxan.

*****

Arana gedirsən, Qaxdan gəlirsən
Aza ağız büzüb, coxdan gəlirsən.
Xordan gələnlərə xoxlar gəlirsən
Belə 2 başlı demə, Zəlimxan.

*****

Çəpəki baxaram, eldən olarsan
Kəsərəm dilini, dildən olarsan
2-yə bölərəm 1-dən olarsan
Belə 2 başlı demə, Zəlimxan.

*****

Söz desəm, sinənə neçə çat düşər
Dəymişin şah durar, kalın mat düşər
Çəkərəm silahı partapart düşər
Belə 2 başlı demə, Zəlimxan.

*****

Mən Əsgəroğluyam adım Ədalət
Arifdən dərs aldım, haqqdan cəsarət
100 dəfə, 1000 dəfə şeytana lənət
Belə 2 başlı demə, Zəlimxan.

*****

Sən demə Gürcüstan azərbaycanlısı olan, əsasən təcnis qoşan bu gənc aşıq, göyçaylı şair Ədalət Əsgəroğlunu hər görəndə, sataşırmış.

Zəlimxan Yaqub, fenomen yaddaşa, gözəl nitq qabiliyyətinə malik, sinədəftər, saz çalan bir cavan oğlan, müstəsna coşğunlu şair-aşıqmış.

Ədalətə kəc baxdığından axırda, o bu şeiri kəmali-diqqətlə, zarafata salıb yazıb.

Və poçtdan da sifarişlə evinə göndərib.

Zəlimxan Yaqub Ədalət Əsgəroğlundan iki yaş böyuk olduğundan, gözü onu yeyirmiş.

Şeir, mənim də xoşuma gəldi.

Ədəb-ərkanla rica edib, üzünü köçürdüm.

Mənim də yazıb-pozduğumu eşidəndəsə:

-Təcnis nədi? -soruşdu.

İmtahan verirəmmiş kimi üyütdüm:

-Cinas üzərində qurulub, ya 3, bəzən də 5 bənddən ibarət olan, klassik və aşıq ədəbiyyatında işlədilən lirik şeir növü...

Heyif ki, bu iki istedadlı oğlanla cox geç tanış olmuşduq. Bir xeyli də, ordan-burdan söhbət eləyib qayıtdıq. Geriyə qayıdanda belimin ağrısı yadıma düşdü və elə o saat da, həqiqətən belim ağrımağa, arabir də sancmağa başladı...

Yenə məni bir qəribəlik bürüyürdü.

Fikirləşirdim... elə yaxşı deyiblər: Dəli dövran sürər, ağıllı vaxt gözlər. Dyakiv özünü dəliliyə vurmuşdu. Mən isə... səbir edib, bir neçə gün də hələ gözləməliydim. Zaçotlar isə başlayır.

Mən də, ГАРНИЗОН-un ərazisində, sallanıb gəzməliyəm... Tütəkdə çalınan çobanbayatısına qulaq asıb, ya da əlimə çomaq götürüb, çobanı rəqsi oynamağım qalıb bircə.

Çobaniti köpək oğlu!

Çoban qoyunu qırxan kimi, ümidlərimi necə soyuqqanlılıqla əlimdən alırdı.

İnsanlığa çıtək!

Dyakivi qıcıqlandırıb... işi tərsə salmaq da, lazım deyildi. Hərçənd ki ümidsizləşir, gedənlərə paxıllığım tutur, tez-tez bulud kimi dolur, kövrəlir və qəribsəyib nostalji hisslərə qapılırdım.

Mahtablı gecən olmasın!

Görəsən, bu gün cavabı necə olacaq?

Partiya sıralarına keçməyə məni qoymadı, 15 günlük ОСВОБОЖДЕНИЕ-m ola-ola, məzuniyyətə buraxmadı. Məni lap çiyrəndirib...

Hələ görək, bu sonuncu necə qurtaracaq?

Bryusovla Boyko da bu məqamlarda mənə əməli kömək eləmir. Bu məruf idi. Pul ölüləri.

Özlərini pərsəng aparırdılar.

Qoduqlar!

Demək hərbidə mərhəmət edən olmur hə? Bu qənaətlə də fırlanıb КАЗАРМА-ya qayıtdım və СУШИЛКА-da isti boruların üstünə sərildim.

Füzulili Nəbinin dediyi o iki misranı elə hey təkrarlayıb, PRAHA-lı Danonu xatırlayırdım.

Birdən yadıma düşdü ki, cəmisi 6 gündən sonra, onun ad günüdür, 18 yaşı tamam olacaq.

1954-1972.

O 23 noyabrda anadan olmuşdu. Tez, dəftər-qələm götürüb ЛЕНКОМНАТА-ya keçdim.

Belə bir mətn hazırladım:

“ЗДРАВСТВУЙ ДАНО! ПОЗДРАВЛЯЮ ВАС ЖЕЛАЮ СЧАСТЬЯ И УДАЧИ!

СЕГОДНЯ ЗДЕСЬ МОЙ ПОСЛЕДНЫЙ ДЕН В СЛУЖБЕ. ЗАВТРА, УЕЗЖАЮ ДОМОЙ! ИТКА ПОЧЕМУ ПИСЬМО НЕ ПИШЕТ..? ПИШИТЕ ПИСЬМО ПОКА ПО АДРЕСУ: СССР, 374320... АЗЕРБАЙДЖАНСКАЯ ССР, ГОРОД БАРДА, УЛ. ШАРК 57. ПОКА! ДО СВИДАНИЯ!

СССР... УКРАИНСКАЯ ССР... НИКОЛАЕВСКАЯ ОБЛАСТЬ, ГОРОД ПЕРВОМАЙСК, 17.11.1972 г.

Zərfin içərisində Bakıdakı Qız qalasının və Dənizkənarı bulvarın da şəklini göndərdim.

Zərfin ağzının quru kleyini də, dilimlə isladaraq yapışdırdım və qaça-qaça gedib, ШТАБ-ın poçtundan, özü də sifarişlə yola saldım.

Salamat getsin, uğur gətirsin.

Şamxor ermənisi, canlı qəzet Ohanesyan Alik növbəti məxfi xəbəri ГАРНИЗОН-un əsgərləri arasında nüxatib edərək yaydı:

"Yeni gələn 100 çağırışçı gənc ХЕРСОН və КИШИНЁВ-dan gəlib... Gələn, yüz uşağın da, düz 42-si artıq həbs olunub, məhbəsdə məhkum həyatı yaşamış yeniyetmələrdir.

Göstəriciyə bir diqqət yetirin. 42 faiz çağırışçı gənc, artıq, türmə yatıb çıxıb!

O bizi piltələmir, mazaq da eləmirdi.

Fakt budu!

Müsəlmana asi kəsilmiş arvadbaz, yoldaş ПОДПОЛКОВНИК Dyakiv, ali təhsilə mane olanda, bax vətəndaşlarınız belə acı tale yaşayır.

Bu işləri Allah tənzimləyir!

Bəs nə olacaq, bu 42, dünənin bapbalaca uşaqları, sosializmin ilk yol açan baniləri sayılan pionerlərinin gələcəyi? Mazarat kimə dəyəcək?

Fərqə bax!

СУШИЛКА-da yenicə pinəki vururdum, qəflətən bizim КАЗАРМА-dan bayırda qışqırtı qopdu. Cəld çölə götürüldüm. İlahi! Mişoppa Butsyakın briqadasına ОБХОДНОЙ paylayırdılar. ДЕМБЛЬ-ə gedən əsgərlər sevincdən çığırışır, ulaşırdılar.

Kim olursan ol, bəxtin olsun.

Həbsdə yatıb çıxmış da САМОВОЛЬЩИК-lər də, hayuptvaxt kəndarlarından əskik olmayanlar da gedirdi. İkiəlli başımı tutub, dizlərimi yığaraq pəncələrim üstündə çömbəldim.

Sanki bozqırda tənha və dilxun qalmışdım.

Saata baxdım: 13:00 idi.

Cəld özümü yığışdırıb dik qalxdım. Və birbaşa ШТАБ-a cumdum. Elə yenicə tərpənmişdim ki, həyətdə Dyakivlə qarşılaşdıq.

Məni görən kimi mısmırığını salladı:

-Son sözümdür, dekabrın 27-də gedəcəksən. Şalapaylıq eləmə, işə çıx!-dedi.

Və sonra da, öz-özünə mır-mır mırıldadı.

Elə bil beynimdə ildırım çaxdı və şam kimi söndüm! Doğrudan da, Allahın milyonlarla məxluqatı, yalnız məsxərə üçün yaradılıb deyəsən... Heç mən özüm də, hələ görünür iradə kamilliyinə çatmamışam. Hərçənd anlayırdım ki... o özü də bilərəkdən mənə işgəncə verir.

Hirsimdən dizlərim əsdi. Ağappaq olmuşdum. Birdən rus dilində, ağılumulmaz dərəcədə qəzəblə qışqırıb, ağac-ağaca qoydum:

-Niyə?

Sonra da, yanıb-yaxıldığımdan, öz dilimizdə şalğamladım:

-Anana-bacına sataşmışam?

Əsgərlər, zabitlər bilməsin deyə, mətərədə araq içən, ağbağır köpək oğlu!

Şalğam şorbasında turp özünü yağ sanar.

Boynuyoğun! Hələ biz bildiyimiz: Şamxorlu əl ermənisi Alik Ohanesyanın qarşısında diligödək olmağı bir yana qalsın, arsız-arsız dilxoşluq edib, yetənin üzünə hırıldayan təzəgəlintək:

- УИР-dən icazə vermədilər, -nırç elədi.

Sanki: “Köhnə bazara, təzə nırx?” -dedi.

Səni görüm dilim-dilim olasan. Hiddətlə:

-Vətən xainiyəm? -yenə qışqırdım.

Bəlkə də, mənim haqqımda УИР-ə heç nə deməyib. Xeyli mübahisə elədim. Elə bil ki, qüvvəsiz idim, tükənmişdim... Səs-küyə, Maltsev də dəhlizdən çıxıb yanımıza gəldi.

Bəli, açıq-aşkar məni buraxmaq istəmirdi! Nə deyirdimsə... q.Bahar xalanın sözü olmasın, heç qozuna da almadı və xaki rəngli ВИЛЛИС-inə doğru getdi. Mən də əl çəkməyib o maşına oturmaq istəyəndə, şinelindən yapışdım və ali təhsil naminə, dəhşətli qayğı dolu istəklə, onu, qorxutmaq niyyətilə tovladım:

-Səndən bu saat Qordiyenko yoldaşın yanına şikayətə gedəcəyəm,-səbri kəsilmiş dedim.

Ürəyimdən tikan çıxmadı, öz dilimizdə:

-Qaramal peyini! Səni görüm təyyarəvuran topla vursunlar! -dedim.

O, birdən duruxdu. Rəngi yezidi qırmızı oldu, qəfil tək səbir asqırdı və tezcə də özünü ələ alıb, toyuq kimi büzüşərək, tabü-taqəti azalmış:

-Elə, elə, özün bilərsən... Qordiyenko hospitaldadır, onu da biləsən, -şikəstəxatir dedi.

Tamam özümdən çıxdım və cəsarət edib:

-Zaçotlar başlayıb, bəs mən nə edim? Bu nə cəfəngiyyatdır, mənim başıma açırsınız? Məgər mən sovet СЕРЖАНТ-ı deyiləm? -yoğun səslə, qulaqbatırıcı tərzdə bağırdım.

O, maşına otura-otura, çağırışa səs verdi:

-Nə edəcəksən? Dekabrın birində buraxarıq, gedərsən vətəninə, başqa sualın var?

Sanki təndirdə, üzərinə neft calanmış quru taxta-tuxta qalaqlarına yanar kösöv atdı.

Ancaq o həqiqəti tam çılpaqlığı ilə üzümə demişdi. Bu doğrudan da böyük həqiqət idi!

Arzularımın fövqündə puça çıxmış və rəzil yerinə qoyulduğumdan, pərtliklə fövrən:

-Mən indi özgə vətəndəyəm? Bu nə tabudur? Məgər, padşah hakimiyyətidir burada? Səfərbər olunub, hərbi qulluğa əsgərə götürüləndə Vətənimizi qoruyacaqsınız demişdilər. Azərbaycanda bizi aldadıblar?

Səbatsızlıq elədiyini anladı və tez sözünü təğyir eləyib, bir balaca yumşaldı:

-Yaxşı, bu ayın sonuncu günü evinizə gedib zurna-balabanla özünə toy çaldırarsan... Səmimiyyətimə zərrə qədər də şübhən qalmasın.

-Yox! Ayın sonu yox! Sənə də... pul-pənə, pul-mul, toypayı göndərəcəm, institutum bir il də gecikməsin, indi burax, -təhəssürlə qışqırdım.

O iri başını bulaya-bulaya qapını çırpdı.

Və mən də УИР-ə sarı çevrildim.

Sanki... özümü fırçıltıyla, suvaşqan bir palçıqlığa saldım. Ağappaq ağarmışdım.

Üst-başımı özümdən asılı olmadan səliqəyə saldım. İki illik hərbi qulluq dövründə, ilk dəfə olaraq, Ştirlesəoxşardan şikayətə gedəsi oldum.

Öz-özümlə çarpışırdım. Dəhşət idi!

Buna kəlmeyi-şəhadətinimi oxutdurum?

Hərçənd, bu da heç doğru yol deyildi.

Təhər-töhüründən əyyaşa oxşasa da... bu НАЦИОНАЛИСТ КОМБАТ, toyuq tardan düşəndən hərbi hissədə olurdu.

O ВИЛЛИС-in şüşəsini endirib, arxadan:

-Get, get... -dedi.

Yəni, qəmin kəm... toyuq bir qıçlıdır ki, bir qıçlıdır. Dərdim və qətiyyətsizliyim göz qabağındaydı. Təhsilə görə boğaz idim. Yoxsa nə qalıb?

İndi vaxtın qiyməti... mənə pul-paradan da irəli və baha idi, tərslikdən Ohanesyan da gedir.

Bədbinliklə düşünməyə başladım...

Görəsən Qordiyenko... doğrudanmı hospitalda yatır? Ya Dyakiv, növbəti bir iş çevirirdi?

УИР-ə çatanadək, ürəyimdə min-bir variant keçir, beynimdəsə hardasa oxuduğum bir misra, həmrəy olmaq üçün cövlan eləyirdi:

“Vaxtında atılan güllə səsi... vaxtsız atılan topun səsindən də üstündür.”

Nə olar, səhhəti-vücud!

Axır ki, УИР-ə çatdım.

Qapıda dayanan bir əsgərdən öyrəndim ki

həqiqətən general Qordiyenko hospitalda yatır. УИР-in rəisi də yoxdur. Müavin, mayor Zadorojnı isə, iclasdadı, ЗАНЯТО...

ДНЕВАЛЬНЫЙ dayanmış əsgəri, qəlb dostu adlandıra-adlandıra tovlamağa başladım:

-Neyləyək? Onu hökmən görməliyəm.

Hündürboylu əsgər, məni təkrar başa salmağa çalışdı və maddım-maddım üzümə baxıb:

-СОВЕЩАНИЕ gedir...

Gözləməli oldum. Əxlaqi gözəllik ayrı şeydi axı. Azvoyenkoma mənzum hekayə formasında, bir risalə yazmaq istədim, lap yeriydi.

Elə başlamaq istəyəndə, yadıma düşdü ki, başımın tükü çoxdur və sarı ipək ВОРОТНИЧОК-um hiss ediləcək dərəcədə görünür.

Sarı rəng isə, УСТАВ-la qadağan idi.

Hələ yaxşı ki, dəhlizdə qəfil qarşılaşdığım Majarovun nəzərindən yayına bildim.

Həm də, hər iki BAKIM uzanmışdı.

Xəyallarımda düşüncələrimlə oynayırdım.

Saat 13:54-də mayor Zadarojnı əkəc-əkəc qapını açıb СОВЕЩАНИЕ-dən çıxdı.

Qarşısına yüyürərək, cəld ona hərbi təzim edib, özümü təqdim elədim: СЕРЖАНТ БАБАЕВ...

Mənə sakitcə azad olmaq əmri verib, özü ilə ПОЛИТОТДЕЛ-ə girməyi təklif etdi.

Beləcə... heç gözləmədiyim halda, o məni səmimi, səssiz-küysüz qarşıladı.

Çox həyacanlı olduğumu görüb... buyurdu

ki, kətil çəkib oturum. Hətta, oturmağı təkid etdi. Özü də keçib əyləşdi... СЕРЖАНТ olduğuma rəğmən, dərdimi söyləməyə, iltifatla imkan yaratdı.

Əsgərlik adamı intizama öyrəşdirir.

Məsələni, olduğu kimi nağıl elədim.

O... hərbi mükəlləfiyyətlə bağlı problemimi anlayaraq, mehribancasına gülümsəyib:

-Oğul indi mən tələsirəm. Moskvadan yoxlama gəlib, onları yola salmalıyam. Sən belə et, əvvəlcə, hərbi hissə komandirin ПОДПОЛКОВНИК Dyakivin adına bir РАПОРТ yaz. Qoy komandirin də РАПОРТ-un üstünə bir dərkənar qoysun:

НЕ ВОЗРАЖАЮ.

Sonra, o РАПОРТ-u və Azvoyenkomatdan sənin adına gələn teleqramı da götür... gəl yanıma. İndi belə şifahi söhbətdən bir şey çıxmaz.

Təhəyyürlə üzünə baxırdım.

-Robert Markaryanı tanıyırsan? O da, bax beləcə, qanuni yolla tərxis olunub getdi... Özünü heç sıxma! Sən də, bizim vətənimizin keşiyində iki ilini xərcləmisən. 10 günə görə, sənin təhsilin, niyə bir il də geciksin ki? Ömrünə acı bir xatirat kimi niyə düşsün axı? СЛАВА БОГА! Sən də, doğma yurd-yuvana tərxis olunub gedərsən...

İstədim ağlayam.

Dodaqlarım və tüpürcəyim qurumuşdu.

Tərəddüdlə düşünürdüm ki, deyəm:

“Axı РАПОРТ-a Dyakiv qol çəkməyəcək? O zırrama, hələ də mənəm-mənəm deyir!”

Mayor danışmağa imkan vermədi... iri əlini hərbi gödəkçəsinin ciblərinə sala-sala, dörd cibinin dördünü də qurdalayıb, deyəsən axtardığını tapa bilmədi və aramla sözünə davam elədi:

-Get, get oğlum darıxma, institutu bitirib işləyəcəksən, zəngin bir insana çevrilib, nə vaxtsa buraları görmək istəsən məni də xatırlayıb axtararsan, unutma bu sözümü... -kişi fövrən, təbəssümlə kövrəldi və nisgil dolu, bir ah çəkdi.

Mən başqa haydaydım: "O əclaf qol çəkən deyil. Dyakiv, şeytandır... " İçim-içimi yeyirdi.

Sanki yuxudan ayılıb, süni çaşqınlıqla:

-Yox, yox sizi unutmaram. Axtararam... nə danışırsınız... əlbətdə...

O, hələ də frençinin ciblərini gəzirdi.

Qalxıb, kədərli notlarla otaqdan çıxdıq.

Frençinin arxadan görünən kəmərciyi, ona çox yaraşırdı. Bəlkə, frençi yalnız zabitlər geyindiyi üçün, mənə belə görünürdü?

O öz kabinetinə girdi. Mən dəhlizboyu gedib, həyətə çıxdım və soyuq hava üzümə dəyən kimi, sanki yerə mıxlanıb, nıx dayandım.

Deyəsən, yenə də, mətləb hasil olan deyil. Zira, nicatverici nəsə bir əlamət görmürdüm...

Birdən bədənim soyudu.

Vətən məni aldadıb, necə də ümidsiz, rəzil bir günə qoymuşdu. Hanı bəs qoca Şərq küçəsinin təlqin elədiyi, o bəşəri haqq-ədalət?

Demək, əlim hər yandan üzülürdümü?

Mətlub olunan РАПОРТ-a Dyakiv qol çəkən deyildi, onun qolu olmasa, məni də buraxan deyildilər. Olumla-ölüm arasındayam demək?

Ara qarışıb, məzhəb itir deyəsən. Acığımla ürəyimin alovunu söndürmək istəyirdim.

Ancaq necə?

İki yol qalırdi: Kremlə və Marşal Qreçkoya teleqram vurmaq, ya əlimdə, ovcumda olan son qəpiyə kimi rüşvət vermək. Ya da, bu xarabada, hələ bir ay da lüzumsuz yerə qalmaq.

Yaxşı yerdə axşamlamışdım.

Deməli, bica yerə bir ay da gözləmək?

Nəzər-diqqəti cəlb eləməliyəm. Amma necə? Mücərrəd məntiqi, ya riyazi hesablamalar yolu ilə alınan bir iş deyildi. Fikirləşdikcə, başı rüşvətə bağlanırdı. Nəzir-niyaza da yaxın duran deyildilər. Qurşaqlarının altını pərgarlatmaqla da baş aldatmaq olmayacaqdı.

Əsəbimdən titrəyirdim.

Birdən yadıma düşdü ki, belimin ağrısı tamam kəsib. Nə edəcəyimi bilməsəm də, ayaqlarım artıq öz-özünə gedirdi.

Pərt-pərt gəlib КАЗАРМА-ya çıxdım.

Yadıma mənhus çənə Telman düşdü. Axı, o da şikayətə gedəsiydi...

КАЗАРМА-nı, Butsyakın briqadasındakı əsgərlərin təşvişi, həyəcanlı səs-küyü bürümüşdü.

Onlar, ОБХОДНОЙ-larına qol çəkdirirdilər.

Şamxor ermənisi xumbaçı Alik Ohanesya-

nın saçı qədərindən uzun olduğundan, zabit Knyajeviç onun ОБХОДНОЙ-una qol çəkməmiş, ona ДЕМБЛЬ xeyir-duası verməmişdi...

Mənim də saçlarım uzanmışdı, ОБХОДНОЙ ala bilsəm, dəlləyə gedərdim.

Çənə Telmanı oyatdım. Əclaf bu vurhəşirdə elə yatmışdı, elə bil, yüz ilin yuxusuzuydu.

Vəziyyəti ona başa saldım.

Girdə gözlərini qıyıb, qarğışa başladı:

-Sənə elə cavab veribsə, ta mən nəyə gedirəm, onu görüm ilanlar mələşən susuz düzəngahlarda, zarıya-zarıya yaralı qalsın...

-Heç nə, daha getməsən də olar, -dedim.

Çənə, qımışaraq dedi:

-Muzoterapiya müalicəsi lazımdı bizə.

-Sən müalicənapəzirsən... musiqinin sənə nə köməyi ola bilər ki? -soruşdum.

-O noolan şeydi? -təəccüblə hırıldadı.

-Heeç onu gedib Dyakivdən öyrənərsən, o da, sənin kimi məşğuli-zimmə olacaq. Olmağına olacaq, di gəl, qış semestrinə gecikəcəm. Gecikəndə də, zaçot imtahanlara buraxmayacaqlar. Elə olsa, bir il də geri düşəcəm. Bunun kimə nə faydası olacaq, bunu başa düşmürəm.

Çənə, hələ də, yuxunun təsirindəydi... Heç onun vecinə də deyildi, beş gün tez getdi, ya üç gün gec. Araz aşığından, Kür topuğundan...

САНЧАСТЬ-a getdim.

Həkim hər məni görəndə:

“Sən hələ burdasan?” -soruşurdu.

Yenə də, ТЕПЛОВЫЕ ЛУЧИ müalicəsi elədi. Allah xeyrə calasın. Sancmaqla başlayan nəfəskəsən ağrı, isti şüa dəyən kimi səngiyirdi...

Nəfəsim genişləndi.

КАЗАРМА-ya qayıtdım.

Ümidsiz olsam da ЛЕНКОМНАТА-da oturub, hərbi hissə komandiri, ПОДПОЛКОВНИК Dyakivin adına, bir РАПОРТ hazırladım.

Axşamtərəfi apararam, əgər qol çəkməsə, biryolluq cəngə girərək. УСТАВ, qayda-qanun bir yana... onun özünün bir insafı, vicdanı olmalıdır axı. Cəhənnəm olsun! Arvadbaz, kəbindənkənar cavan qız saxlayan şümürgözlü! Elə bilir ki, iki il əvvəl, çağırışçı kimi Biləcəridən bizi götürüb əsgər aparanda, vaqon-eşalonda baş verən əhvalatlar yadımdan çıxıb? Ölməsən səni.

Unutma!

Arvadbazlıq edən kişinin... öz kəbinli, halal arvadı da erməni Ohanesyan kimi cavan əsgərlərin altına sürəkli, bərdavam yıxılmaz.

Arvadbazlıq yaraşmır sənə, bunu biləsən.

Qarnizonda qələti-məşhursan!

Birdən ürəklənib, bərayi-ehtiyat Moskvaya, Marşal Qreçkonun da adına bir teleqram mətni hazırladım. Və qəsddən... Şamxor ermənisi Alik Ohanesyana göstərib oxudum ki, xəbərləsin və Dyakiv də qorxuya düşüb özünü yığışdırsın.

Toyuq ölsə bir cəngə tükdür dəvə ölsə də-

risi bir yükdür. Qovğa salmaq istəmirdim hələ ki. Sıradan bir əsgər deyiləm, həm СЕРЖАНТ rütbəli komandir, həm də Azvoyenkomdan gələn teleqram ortalıqda, niyə yubadırsınız məni?

Amma, əvvəl fikrimdə köməksiz yalvarışla, РАПОРТ-a qol çəkdirmək idi. Qol çəkməsə, həqiqətən Marşala teleqram vurub, onun millətçi olduğunu və çıxardığı həngamələri bildirəcəyəm.

Cəng-cidalın güzarına gəlməliyəmmi?

Müruri-əyyamla ümidim azalırdı.

Rüşvətxorluğuyla arvadbazlığl göz deşirdi! Bədşüküm salyanlı Adili, Klimenkonu hansı fəzilətlərinə görə buraxmışdı?

Özü də hamıdan əvvəl.

Qeyzlənsəm də, hələ ki mürtəkibin əlindən yığırdım. Cəmi onca gün əvvəl, mənə СЕРЖАНТ rütbəsi vermişdilər. Pis komandir idimsə niyə bu rütbənin verilməsinə imza atmışdı köpək?

Ovsanaya da düşmürdüm barı, yəni, doğrudanmı yaxşlıq etdiyim bir iş, ya əməl yox idi?

Səs-səsə verib, ayağamı qalxaq?

Nəisə, axşamın düşməsini, POTA-nın işdən qayıtmasını gözləməyə qərar verdim...

Mürüvvətsiz Telmana pul verib şəhər poçtuna göndərdim. Ad günü münasibəti ilə, mənim adımdan Danoya teleqram vursun. PRAHA ünvanını və mətni də yazıb verdim.

Məktub çatmasa, barı teleqram çatsın...

Bəduğur Telmandan savayı, nəinki mənə,

bütün briqada üzvlərinə ОБХОДНОЙ verilsə də... heç Telmanın vecinə də deyildi. Köpəy oğlu, elə bil evlərinə getmək istəmirdi. Mənimsə, ev üçün burnumun ucu göynəyir, Şərq küçəsinin məhəlli dialektiylə desək: Bərdə üçün sino gedirdim!

Çənə Telmanı şəhərə yola salıb КАЗАРМА-ya qayıtdım. Yamanca darıxırdım. Arvadbaz donuz bircə tez gəlib çıxsaydı! Yeri düşmüşkən, o, Ştirlessdən çox Çörçilə bənzəyirdi. Sanki, bir almaydı, yarı bölünmüşdülər. Bircə fərqləri vardı: Çörçilin çəliyi! Dyakiv əl ağacı götürmürdü. Kök olsa da, vücudu təndürüst idi.

Əgər РАПОРТ-a qol çəkməsə, bu dəfə biabırçılıq salacam. Nə olursa olsun. Bəsdir, bu qədər əzab, iztirab, məşəqqət çəkmək olmaz.

Yetər daha!

Hirsimdən az qalıram kükrəyəm.

Butsyakın uşaqları, necə sevinclə zarafatlaşırdılar! Onlara baxdıqca sozalırdım.

Bayırda görünən qamətli sənubər ağaclarına baxıb, fikirləşirdim ki, teleqramı lap Kremlə vurum. V.İ. Leninlə İ.V.Stalinin adına! Çox da ki, ölüblər, axı bu quruluşu onlar qurub...

Nə dəyişəcək?

Kremldən də göndərəcəklər Qreçkoya.

Ha eləyib, Marşaldan cavab gələnə kimi... onsuz da dekabr ayı girəcək və məni tərxis edib ehtiyyata buraxacaqlar...

Bəs qaçsam necə?

Yoxx! Sərasər, iki il məşəqqət çəkib, ikicə gün qalmış... nənəmin sözü olmasın, sərbazxananı qoyub hara gedirəm? Özü də... sərbaz olaola hərbi biletsiz! Özümü ilişdirməkmi istəyirəm? Qorxmuram, amma, qaçmağa ürəyim gəlməz.

Parlaq gələcək, yüksək mənsəbə çatmaq, namuslu, halal, bəxtəvər ailə qurmaq əvəzinə... sərvətdar ailəmizə, təhsil aldığım ali məktəbə, o qoca Bərdəyə, qaca-quca Şərq küçəmizin məhlə aksentiylə danışan sakinlərinə... və məktəbli Komsomolun başına sərzəniş olmaq?

Yaxşını pisdən ayırd edə bilmirəm ki?

Savadlı ərizə, ya teleqram, yazıb-vurmaqda... Musa peyğəmbərin möcüzə göstərən əlinə işarə olan ifadəyə rəğmən, yədi-beyzam çatmır?

Hələlik, ən doğru yol axşamı gözləməkdir.

Gəlsin, görək indi nə deyəcək? Fikir məni üzdüyü yerdə növbətçi mənə bir КОНВЕРТ gətirdi. Cəld üstünü oxudum: Qardaşım Xaqani yazmışdı. Özü də, Kirovabaddan.

Görünür Kirobvabada, qardaşımız Vaqifin yanına gedibmiş, elə oradan da yazıb göndərib.

Deməli, qardaşım Vaqif də, artıq institutda oxuyur. Orta məktəbi bitirən hər üçümüz, daha, ali məktəbə daxil olmuşuq. Mərhəba!

Risaləni oxuyub dəli oldum: Qardaşım Rafiq xəstələnib. Ayağı bərk, bəzən də şiddətli ağrıdığı üçün institutdan ОТСРОЧКА alıb. Bir il dərslərə getməyəcək. Müalicə almalıdır. Həm də çox

arıqlayıb...Yazdığına görə, bu yel xəstəliyi, tuğilənət olub, keçib yazığın boğazına.

Bu xəbər, deyərdim mənim üçün dünyanın ən pis, bədbin xəbəri oldu. Üç qardaş institutda oxuduğumuz yerdə ikimiz təhsilimizi davam edə bilmirik. Bu gethagetdə, yazdığı xəbərə bax ey!

Qiyamət qoparmaq yeriydi heç?

Qardaşlarımın yaxşı oxuyanı, ağıllısı, ağırı və səxavətlisi o idi. Nənəmlə anam onunla necə fəxr edirdi. Hələ atam...

Ailəmizin triumfuydu o!

O da xəstələnib...

Niyə dünya belədir?

Atama, anama həmişə əziyyət verən mən olmuşam. Lap uşaqlıqdan dalaşqan, dəcəl olduğumdan qonum-qonşuyla, həmişə valideyinlərimi üz-göz eləyərdim.

Rafiq isə, çox həlim, gözütox idi.

Kaş Rafiqin xəstəliyini Allah mənə verəydi.

Mənim günahlarım da çoxuydu: Elə biri ağ tanalı Məhbubə xala... Biz ən yaxın qonşu idik.

Hasarbir!

O mənim anamdan bir neçə yaş kiçik olsa da, xeyirdə, şərdə, məclislərdə bir yerdə olardılar. Eləcə də, əri Nadir dayıyla atam... Oğlu Arif də bizimlə bir yerdə böyümüşdü.

Məhlə aksentiylə danışan, narın bığlı yeniyetmələr idik. Bütün günü didişərdik.

O qadın idi.

Gərək, qonşuluğa görə mən bu işə getməyəydim. Üstü açılsa, məni xain çıxaracaqlar.

Çox da, o özü istədi...

Qonşu olmasaydıq, özü də bu qədər yaxın qonşu, yenə bir yeri vardı... Bu işin günah sahibi birbaşa olmasam da, özümü bilirdim...

Cilvəli qadın olan Məhbubə xalanı da, hərdən qınayırdım, zira, məni belə işə çəkməyəydi, bu günaha batırmayaydı, ancaq, sonra dərindən düşünüb, arqumentlər gətirir, hardasa ona haqq qazandırırdım. Özünü yandırmaqdan, mərgmüş içib intihar etməkdənsə, belə yaxşı olmadımı?

O, özünə qəsd etməyin kəndarındaydı.

O, qadın kimi, bitirdi!

Onun da təbii hissləri vardı... Və bu hisslər baş alıb gedir, hətta, onu birdəfəlik məhv etmək dərəcəsinə gətirmişdi. Yayın istisi və əsrarəngiz baxçanın bir-birinə qarışan meyvəli ağaclarının, gül-çiçəyinin, yaşıl otlarının füsunkar qoxusu və bu qoxunun yaratdığı insani çılğın ehtirasla, qarşısıalınmaz vəhşi şəhvət... onun ağlını başından çıxarmış... və bu an, taleyinin qisməti kimi, məni qarşısında görəndə fövrən çaşmış, ayılmış, fövt olmamışdı. Bu isti havada, xəlvətdə, baxçanın o sehr dolu ilğımlı havasında, hamı çaşa bilərdi.

Dəlilər çaşmır!

O yazıq həyasına, abrına, ismətinə qısılıb illərlə gözləmiş artıq bu an ruhən də tükənibmiş.

O qədər, o abırlı idi ki, ömründə yad kişilə-

rin üzünə baxa bilməzdi. Hətta əriylə birlikdə evlərinə gələn, qohum kişilərdən belə yaşmanardı.

Mən ona oğlu qədər əziz idim.

Gözünün qarşısında böyümüşdüm... və bu onu ürəkləndirmiş, taleyinə, qismətinə, alın yazısına qarşı üsyan eləməmişdi!

Əgər, bu iş baş tutmasaydı, artıq o özünü öldürmək istəyinin astanasında bulunurdu.

Ya özünü asmaq... ya yandırmaq, ya evdə tək olanda qaz kranını açıq qoymaq, ya da ki... mərgmüş məsələsi. Danışırdı ki, nədənsə, bircə elektrik cərəyanı ilə özünü öldürməyi sevmirdi, bir də maşının altına atılmaqla, suda boğulmağı.

Yerdə qalan özünəqəsdin... intihar edənlərin edə biləcəkləri hər şeyi. Uksus da alıbmış.

Hərçənd...

Alma ağacının altında özünü yandırmaqla, elə o ağacın, iri budağından asılmağın arasında seçim etməkdə ilişib qalıbmış...

Bax, biz, məhz elə o vaxt qarşılaşmışdıq.

12 iyul 1971-ci il.

Məzuniyyətdəydim...

Onun 35 yaşı olardı. Yeriyəndə, iri yanlarını qaz kimi basardı... Əsgər olduğumun fövqündə baxçalarında görərkən, əlüstü qucaqlayaraq, nisgilli həsrətlə məni sinəsinə bərk-bərk sıxıb allanmış yanaqlarımdan dönə-dönə... və ehmalca öpəndən sonra, tər dodaqlarımdan da... isti, ətli dodaqlarıyla öpəndə... və yanan dodaqları ilişib,

dodaqlarımdan bir az da ləng çəkiləndə... məni dəhşətli şirin, bir hiss bürüdü... Ecaskar bir duyğuyla özümü tamam itirmişdim. Başım yumşaq sinəsinin üstündəydi... və o, məni buraxmaqda ləngiyirdi. Çırpınan ürəyinin səsi... qulaqlarımda necə guppultu qoparmışdı. Onun dodaqlarından cürət edib, öpə bilməsəm də, heç istəmirdim də ki, isti dodaqlarını çəksin.

Necə oldusa, qəfil diksindi və fövrən məni buraxdı. Zira, qonşu olduğumuzun fərqindəydi.

Anamla rəfiqəlik eləməsə da, isti qonşuluq münasibəti vardı və necə olmasa, oğluyla məhlə uşağıydıq. Bir yerdə oturub-dururduq.

"Heç kəsə demə!" -qulağıma pıçıldadı...

Nəfəsi alovluydu.

Və bu, qadınla ilk fiziki təmasım idi.

İlahi an!

20 yaşım təzə tamam olmuşdu. Və... nəsə baş verdiyini artıq anlamışdım.

Tabu götürülmüşdü...

O sakitləşib, bir qədər düşünəndən sonra:

"Sabah... nahar vaxtı gəlib, alma yığmağa kömək edə bilərsənmi, boyum çatmır..."

Dodaqlarım qupquru qurumuşdu:

"Əlbəttə, gələrəm..."-deyib udqunmuşdum.

Ertəsi gün. 13 iyul 1971-ci il, II gün...

Alma yığmalıydıq.

Onun dərisi düm ağ idi... Əlində, çit parçadan bir zənbil tutmuşdu. Birdən başa düşdüm ki,

onun əynində, nazik çit xalatdan savayı, heç nə yoxdu. Xalatın düymə yerlərinin arasından onun lüt canı görünürdü... O həyəcanla məni sinəsinə sıxıb, ikinci dəfə dodaqlarımdan öpəndə də hələ nələr baş verdiyini doğru-düzgün anlamırdım və naşı heyrət içərisində gözlərim bərələ qalmışdı.

Bu sınaq... hər ikimizi təlatümə gətirmişdi. Qəfil sinəsini açıb: "Sinəmə, almadan qurd düşdü... çıxart... öldür onu..."-deyəndə də, hələ heç nə dərk etmir, psixopatalogiyada insanın bütün hərəkətlərinin başlıca səbəbi... yalnız qeyri-şüuri bioloji instinktə meyilləndiyini iddia edib... əsas amil kimi önə gətirən Freydizmə, bu an, şəkkim qalmadı. Biz özümüzü idarə edə bilmirdik.

Bu tarixi sınaq idi.

O əlimi ipək kimi yumşaq sinəsinə salıb, iri döşləri arasında alma qurdu axtartmaq istəyəndə, qorxudan vahiməylə çığırmaq əvəzinə, vəhşi şəhvət hissi və qarşısıalınmaz dəli ehtirasdan yaranan insani instinktlə vücudu titrədi və odlu nəfəsinə bələnmiş həyəcanla pıçıldaya bildi:

"Sinəmə almadan qurd düşdü..."

Bu ilahi yalan idi!

Ey Ulu Tanrım! Belə yalanı nə yaxşı yaratmısan, yoxsa, bu biçarə nə desin?

Sonra o yalandan, yüngülcə səndələdi və gözlərini yumub ehmalca yerə çökdü. Hə, yaxşı yadımdadı, dəqiq, lap dəqiqi belə oldu.

Sonra, necə oldusa, özümdə sonsuz istək-

lə cəsarət tapıb, həyatımda, bir ilkə də imza ata bildım: Onun, isti ətli dodaqlarından, sürəkli öpdüm və o bayılmaq həddində olduğundan etiraz etmədi. İlahi muradına çatmışdı.

Hərçənd gözlərini açmırdı.

Saçlarımın dibindən tutmuş, ayaq barmaqlarımın ucuna qədər, insanı lərzəyə gətirəcək bir dəhşətli hiss vücudumu bürüdü.

Necə oldusa...

Gözlərimin qarşısından at arabalarıyla gedən bir qaraçı taboru... və uşaqlıqdan aşiq olduğum Harvard və Oksford universitetlərində təhsil almış, məndən iki yaş balaca olan pakistanlı qənirsiz gözəl Benazir Bhuhutto keçdi.

Mən nədənsə üzbəüz görmədiyim, şəxsən tanımadığım... və əbədiyyətədək də, qovuşa bilməyəcəyim bu qızı da ürəyimdə sevirdim.

Bəlkə bu bir pərəstiş, ya gözələ sitayiş idi.

Və dərhal da, qısa alt yay tumanım və şalvarımın qabağı isindi, kley kimi yapışqan oldu.

Bu an, canım da tabü-taqətdən düşüb soyudu. Və o, hökmranlıqla gözlərini açdı...

“Alma qurdunu tapa bilmədin?” -soruşdu.

“Görünür yerə düşübmüş...” -dedim.

Gözləri gülürdü.

Sanki, hər şey dünən baş vermişdi...

Birdən, bu... şirin röyadan ayılıb, qardaşım Rafiqi yenidən düşünməyə başladım.

Rafiq, kaş tez oxuyub qurtaraydı, fikirləşir-

dim. Bəs niyə belə oldu? Biabırçılıq idi. Üç qardaş institutda oxuyasan... ikisi təhsilini yarımçiq saxlaya. Düzdü, bu müvəqqətidir... Hərbi xidmət və xəstəliklə əlaqədardır, amma, yenə də bunu ailəmizin şərəfinə sığışdıra bilmirdim...

Bu mənim əqidəm, mənim təfəkkürüm idi.

Görən, Rafiqin xəstəliyinə görə, anam indi neyliyir? O bizi çox sevir, lap çox.

İndi, ürəyində çəkəcək...

Hələ nənəm... Mənim nənəm də, dalı şəlləkli nənələrdən idi. Onun şəlləyində böyümüşdük. Yazıq nənələr...

Biz, onu həyata bağlayan, yeganə müqəddəs varlıqlar idik. Nənəmi o qədər çox istəyirdim ki... N hərfi ilə başlayan sözlər olanda, çox vaxt nənəmi düşünürdüm.

X hərfini yazanda isə, nakam eşqimin qəhrəmanı, ovsunlu Xuramanı xatırlayırdım.

Eh...

Qardaşım Xaqani, bir neçə də əlavə yeni xəbərlər yazmışdı: Atamın ana qohumu Həsən Sultanov Azərbaycan Tibb institutunda dərs deyir, həm də Semaşkoda həkim işləyir.

Qonşumuz, məzhəkə söyləməyi xoşlayan q.Bahar arvadın ikinci oğlu, məzəllətdə yaşayan Siyasət Bəyləroğlu Tibb institutunun hazırlıq şöbəsində oxuyur. Bu il qəbul olunub.

Köçəri dayının mıcıra oxşayan, mızı oğlu Qərib Əliyev, ona da, ЧЕХОСЛОВАКИЯ-dan əsgər

məktubları yazır, əsgər formasında fotoşəkillərini də göndərib...

Məktubu oxuyub kövrəlmişdim.

Az qalırdım ağlayam. Rafiqin xəstələnməsi məsələsi, məni tərxis edib buraxmamaları...

Yenə xəyallarım cövlan eləməyə başladı.

Çiy kərpic hasarlı tozlu küçəmizdə, şövqlə mərəköçdüm oynayardıq! Adətən bu oyunu qoz, ya fındıqla oynasalar da, biz fındıq boyda yumru daşlar tapıb, bu daşlarla oynayardıq və hər dəfə də sonluqda, bir cığallıq üstündə bu xırda daşlar başlarda danqıldayardı.

Məhləmizin qızları isə, yığışıb ağ təbaşirlə kvadtatlar çəkər, sakitcə klas-klas oynayardılar.

Sanki, bütün bunlar dünən baş vermişdi...

СУШИЛКА-nın dəmir boruları üstündə uzandım. Gözlərim dolmuşdu.

Beləcə uzanıb nə vaxtsa yuxuya keçərəm.

Oyananda boruların üstündəki УГОЛЬНИКlər belimi necə əzmişdisə qalxa bilmirdim. Saata baxdım: Düz, iki saata yaxın yatmışdım. Qəribə də yuxu görmüşdüm:

“Gördüm ki, mayor Zadarojnının qəbuluna girmək istəyirəm. Komsomol əllərini göyə qaldırıb Allaha dualar eləyir ki, mənə kömək olsun və məni buradan sağ-salamat xilas eləsin.

Hətta eşitdim, dedi ki: Gecə-gündüz onun yolunu gözləyirəm. Mən vəfalıyam. Əlimdən heç nə gəlmir. Bəlkə də o elə bilir ki, mən özümü qü-

rurlu aparır, dartır, ona iztirab yaşadıram..."

Sonra da, Yitkayla Danonu gördüm:

"Görürəm ki, fotoşəklim əlində, üzünü Ulu Tanrıya tutub... amma, yalvarmaq əvəzinə Yitka ittiham edir: Yer kürəsinin yarısını zəbt edən bu azman, hegemon ölkədə nə qədər arvadbaz zabit, rüşvətxor məmur, qanunsuzluqlar var. CCCP-də haqq-ədalət, azadlıq, demokratiya vətəndaşına sayğı deyilən şey yoxdur. Sonra da zarafat elədi: Eyy, Ulu Yaradan sən özün Tofaya kömək ol. O yekəqarın zabitlərə de, qoy rəhmə gəlsinlər, ali təhsili yarımçıq qalıb onun, bir həftə, ya on günə görə, onu bir il də geri atmasınlar. Onu tez buraxsınlar. Həm də... biz onunla görüşməliyik... O fövqəlbəşəridir, mənim ərim olacaq! Biz PRAHA-da yaşayacağıq. Onun vətəni, qoy mənə görə imperiya siyasətini dayandırsın. Onsuz da, belə davam eləsə, sovetlər ölkəsi çökəcək. Sosialist respublikaları demokratiyaya, insanları da hürriyyətə qovuşacaq. PRAHA, demokratik, azad Avropanın paytaxtı olacaq. Tofa entuziastdır, bizim beynəlmiləl ailəmiz olacaq..."

Yuxunu xatırlayıb lap kövrəldim.

Və... qəflətən beynimdən keçdi: Yenə doqquzluq gəlib, PAПOPT-uma qol çəkməsə, bıçaqla onun sifətinə şram çəkəcəm! Qoy zəhləsi getdiyi müsəlmanlardan ona əbədi xatirə qalsın.

Donuz!

Yaman yerdə axşamlamışdım!

Elə bil padşah hakimiyyətidir.

Rus Qaqarin, yer kürəsini ilk dəfə 108 dəqiqə dövrə vurub kosmosda "ilk"-ə imza atanda, mən necə sevinirdim!

Bu sevinc... coşğun pərəstişkarlıqdan yox, onunla, azad bir ölkənin vətəndaşı olduğumdan qaynaqlanırdı. Qürurumdan içimə sığmırdım.

Məgər rus, özbək, moldovan, pribaltika, ya ukraynalı olsun, hamısı bizim vətənin vətəndaşları deyildimi? Bu irqi ayrı-seçkilik, millətcilik niyə bu əclafın qanına işləmişdı.

Xudaya xudəvanda!

O nə qədər, mənim Azərbaycandan gələn konyak bağlamamı alıb içmişdı!

Şamxor ermənisi, ilk əsgəri günlərdən bəradəranə münasibət saxladığım Alik Ohanesyan elə yaxşı eləyib, onun arvadıyla kef çəıkirdi.

Arvadından it kimi qorxurdu!

Və birdən ağlıma düşdü ki, bəlkə elə Alikə deyim, onun dilbirlik elədiyi arvadıyla danışsın? Sifətinə şıram qoyub hərbi tribunalda ДИЗБАТ almaqdansa bu daha rahat, daha doğru seçim deyildimi? Er-gec, tərxis olunacam onsuz da...

Cəld qalxıb, Aliki axtarmağa başladım.

Bu vaxt çənə Telman da şəhərdən qayıdıb gəldi. Məni görüb, gülə-gülə əlini havada yellədi:

-Getdi... getdi teleqram!

-Lap yaxşı!

Müəyyən zaman və məqamlarda Epikürçü

xarakterim olsa da, indi sevinməyə macalım yox idi, xəbər Yitkadan olsa belə...

Bərdədə gözləyənim var.

Son zirvəm Komsomoldur!

Ohanesyan arxadan qolumdan yapışanda, üzümə nicat təbəssümü qondu, sevincək:

-Elə səni axtarırdım, nə yaxşı gəldin? Deyirlər ermənilərin qocalanı köpəyə, müsəlmanın qocalanı isə ipəyə dönür, sən yaxşı olarsan əşi, əl ermənisisən axı, -məhəlli dialektlə dedim.

-Xeyirdimi musurman? -gülə-gülə soruşdu.

Qoluna girib... onu КАЗАРМА-dan bayıra cıxartdım. Yenicə, risalə aldığımı, qardaşım Rafiqin, ayağından xəstələnib, yel azarına tutulmasını və buna görə də, institutdan ОТСРОЧКА almasını ardıcıllıqla danışdım.

Röyada gördüklərimi də nağıl elədim.

Və sonra da, mətləbə keçdim: Ağlıma gələn yeni ideyanı ona danışdıqca o qıpqırmızı dodaqlarını diliylə isaldır... və bic-bic gülümsəyirdi. Məni axıracan dinləyib, gözlənilmədən:

-Həll edərəm! -qətiyyətlə dedi.

Qulaqlarıma inanmadım, heyrətlə:

-Doğrudan? Bacararsan? -soruşdum.

O gülə-gülə, əhəmiyyətsiz bir iş görürmüş kimi, qolundakı saata saymazyana baxıb:

-Yarımca saatdan sonra... peymanə dəlisi olan arvadıyla görüşməliyik, ərinə zəng vurduraram. Eskadronun bacara bilmədiyi bir işi, bu qa-

dın təkbaşına görəcək.

Fövrən Aliki qucaqlayaraq, qırmızı yanaqlarından marçamarçla öpdüm.

O özünü məndən zorla qoparıb, gözlərinin içi gülə-gülə, mübhəm xəbər deyəcəkmiş kimi:

-Muştuluğumu ver sənə yeni bir şad xəbər də verim, -səsini udub astadan dedi.

Təəccüb və heyrət dolu maraqla:

-Həə? Nə desən verərəm! Nə təzə xəbərdi elə? Nəsə bilirsən? Mənə də ОБХОДНОЙ yazıblar? Sən canın tez de, çatlatma ürəyimi!

-Yox əə... mübtəda, xəbərinə fikir ver... bu tamam başqa xəbərdi. Muştuluğa, bir araq alarsan, sabah gedirəm, vaqonda boşaldaram.

-Baş üstə, sən havanı çal, -dedim.

-Erotizm dəlisi... qırmızı kostyumlu ruhi-rəvan gəlib! Mərdimgiriz 3 ay idi ki, Moskvadaydı.

İçimdən düzü nəsə keçdi,:

-Həə... duruxdum.

Zira, vacib deyildi bu xəbər artıq mənə...

Mazaqlaşmaq dövrü bitmişdi. Üç-dörd aya toyum olacaq. Osa, təşəxxüs satırdı...

Ohanesyan, dövrənin qapandığını anladı.

Məlul-məlul görkəmlə, bir-birimizə baxdıq.

ВОЕНТОРГ mağazasından limonad, halqalı bulka alıb yeməkxanaya getdik.

Çənəylə mən oturub bulkanı limonadla yedik. Ohanesyansa, öz payını götürüb... Dyakivin kəbinli arvadının son görüşünə getdi və qımışıb:

-Yolda içərəm, -dedi.

Çənə, irəli çıxmış çənəsini bir az da irəliyə uzadıb, ağzı ilə onun arxasınca bir neçə qurtum limonad fısqırtdı və nəticədə üst-başını batırdı.

Gözəşirin Ohanesyan, indi, yeganə maneəsiz məlhəmim olmuşdu. Haqq üçünə də, özünü mazata qoymur, mazamata da mindirmirdi.

Nahar eləməmişdik.

Ac olduğumuzdan çox iştahayla yedik.

КАЗАРМА-ya qayıtdım.

Əyriçənə ВОДОЗАБОР-a, oradan da, qəhbə Klaragilə getməliydi. Yeri düşmüşkən, Klara həmişə evdə ayağına sarı rəngli nəleyin geyinərdi. Yeridikcə, nəleyinin altındakı taxtası, döşəməyə dəyib səs salardı. Bu da qəhbə musiqisiydi.

Ürəyim hələ də səksəkədəydi.

Heç sakitləşə bilmir, sanki, nədənsə ehtiyyat eləyir, yadıma enlisifət Dyakiv düşəndə isə, qəlbimə nədənsə qorxu dolurdu.

Kaş, məhləmizdə söyüşlə, çığırtıyla mazımazı oynayan vaxtlarımız olaydı. Yenə, Dəli Kür nəhrindən çıxaydı. Tökülüşüb baxaydıq.

Necə bəxtəvər olmuşuq!

Görəsən axşam nə deyəcək? Arvadı zəng vurub məni tapşıranda nə fikirləşəcək? Şamxor ermənisi olan Alik Ohanesyanın özü də sənədlə azərbaycanlı sayılırdı. Bəlkə o, arvadının onunla əlaqəsini bilir, ona görə bizimlə belə düşmənçilik aparır? Məlulluqla... sanki, həyat və məmat ara-

sında qalmışdım. Tabü-tavanım tükənmişdi.

POTA, səs-küylə işdən qayıdana kimi, mənimki mənə dəydi. İndi ОБХОДНОЙ sözü, dilimdə sözlərin sultanına çevrilmişdi. Bir də... nədənsə, məhləmizin gözmuncuğu olan q.Bahar xala da, bu gün tez-tez yadıma düşürdü. Şərq küçəsinin "ilk-nə" ilk imza atmış... tağ ayıran ağmaya, meşənin açıq, kürqırağı sahələrindəki tacbıtraq kolluqlarında yenə başbirlik edə bilirmi?

Sonra düşündüm ki yox, uşaqlar böyüyüb, oğurluq üstündə, uzun illər məhbəsdə yatan kişisi də, Rusiya qazamatından çıxıb qayıdıb...

Həm də, yeni məskən salıb köçdükləri 26-larda təzə dal qonşuları, əvvəl avtolavkada xırda-xuruş gündəlik məişət ayın-oyunları, pal-paltar satan... ayağıyüngül canıyanmış ağ-mayayla tanışlıqdan sonrasa, məhz onun xüsusi göstərişiylə taksi fəaliyyətinə adlamış, keçmiş çəpərbir həmkəndlisi Fərman...

Yeri düşmüşkən, q.Bahar xalanın, hürkütməsən saya bilmədiyi yeddi uşağı və Bəylər özü arvadıyla bu taksidə əkəc-əkəc gəzərdi.

Ayqır, qəfil başını qaldırıb ilxıya yenicə gələn qatırı görəndə diqqətlə baxdığı kimi qonşuda ağmayanı görəndə, kişi çaşıbmış.

Nəsə...

Dünya başıma aylanırdı.

Axır ki, qara, uzunboğaz hərbi çəkmə şappıltı-guppultu-tappıltılarının ruhoxşayan əzəmətli

ritmik səsində POTA-nın məzlum əsgərləri gəldi.

Azad olmaq əmri verilən kimi də, uğultuyla səs-küy salıb dağılışdılar... Hərənin min-bir qayğısı olsa da, amma, yorğun və ac əsgərin, əsas işi yemək idi. Erkəkləmiş yoğun səsli uşaqlar tələsik yuyunub, axşam yeməyi üçün yeməkxanaya düzlənəndə əlimdəki РАПОРТ-u şax saxlayıb, düz ШТАБ-a sarı götürüldüm.

Ürəyim yel-tel əsirdi. Çox mütəəssir idim.

Dərin iztirab və ruhi sarsıntı içərisində gah ümidlənir, gah da ümidsiz olurdum.

Qapıdakı növbətçi əsgər bildirdi ki, Dyakiv yerindədir, amma, yanında, zabit Knyajeviç var.

Knyajeviç ukrayna dilində danışanda, heç nə başa düşmürdüm. Sanki, hansısa cənubi Afrika dövlətində yaşayanlardan kimlərsə mazğallı qala divarlarının üstündə, boğuşa-boğuşa maya-soke dilində vıdılayıb tökürdülər.

Təngnəfəs olmuşdum.

Ürəyim necə tappıldayıb atlanırdısa az qalırdı yerindən çıxsın. Mənə elə gəldi ki, növbətçi, əsgər həyəcanımı, ürəyimin guppultularını belə, aşkarca eşidir... Söz yox ki, indi Dyakivin arvadı, erkək Tükəzban zəng vurub sözünü deyib, -fikirləşdim... Həndəvərimdə heç kəs yox idi. Özümü toxtadaraq meşinli qapının əltutacağını dınqıldadıb, bir qədər gözlədim... Sonrasa, içəridən səs gəlmədiyini görüb, daha cəsatətlə döydüm.

İçəridən boğuq səs gəldi:

-ВОЙДИТЕ!

Cəld özümü toxtaq tutub... dərindən nəfəs dərərək, ОДЕССА-dakı esmineslərdən birinə girirəmmiş kimi, ehtiyyatla içəri keçdim.

Cırtqozluq eləmək olmazdı zira, arvadı sözünü demiş olardı. Rus zabitlər də, nə bəladırsa arvadlarından bərk qorxurdu, sanki qarşılarındakı, SS faşist-alman ordusunun mühafizə dəstəsindəki esesçi, qarşısında dayanırdılar.

Görünür ömürlərini gecə-gündüz hərbi hissələrdə keçirdiklərindən ailələrini qadınları idarə edir. Cinsi yaxınlıq baxımından da, dilləri gödək olur, erotizmə meyilli qadınlarını vaxtlı-vaxtında təmin edə bilmirlər və naəlac qalan qadınları da, nə vaxtsa Ohanesyan kimi sağlam erkəklərə tuş gələndə, xəyanət qapısını açırlar...

Bu mexanizmin sadə forması belədir.

Hərbi fərəğət formasında vız dayanaraq... aramla ДОЛОЖИТЬ eləməyə başladım:

-Yoldaş ПОДПОЛКОВНИК! Qordiyenko yoldaşın qəbuluna getdim, siz deyən kimi... dedilər hospitaldadı. Sonra УИР-də oldum. Müavin işləyən mayor Zadarojnıyla görüşdüm... Məni başa saldı ki, РАПОРТ yazıb, hərbi hissə komandirin, ПОДПОЛКОВНИК Dyakivin qəbuluna get. РАПОРТun üstünü yazıb imzalasın... sonra, Azvoyenkomun teleqramını da tik üstünə, gəl yanıma. Səni təhsillə əlaqəli buraxa bilərik...

Çox həyəcanla məruzə eləyib, qurtaran ki-

mi, РАПОРТ-u onun masasının üstünə qoydum:

-Bu da РАПОРТ-du, yazmışam.

O kürsüdə yayxanıb yaşıl gözünün ucuyla РАПОРТ-a baxdı və cızhacız yansa da, qımışdı.

Belə yumşalarsan eyy... Qırışmal!

Ayın-sayın Ohanesyan... gizlində elədikləri bütün pisliklərinə rəğmən, indi məni xilas elədi.

Güclə sezilən xırda, sarı kirpiklərini endirərək, işıldayan yaşıl gözlərini qıyıb, Dyakiv gözlənilmədən, təəccüblə soruşdu:

-Bir çevril görüm.

Çevrildim...

-Bu nə saçdır?

-Yoldaş ПОДПОЛКОВНИК! ДЕМБЛЬ-ə görədir, istəyirsiniz bu dəqiqə gedib vurduraram, təki siz РАПОРТ-a qol çəkin. Hətta əmr etsəniz eləcə dibindən ülgüclətdirərəm telimi...

Yaman ürəklənmişdim!

Bambılı Knyajeviç qəflətən söhbətə girişdi:

-Axı mən sənə demişdim bunu...

Toxumunuz yer üzündən kəsilsin haa, heç səni danışdıran var? Dılqır gədə! Qatırçı! Nə tüfəngə çaxmaqdır, nə də sünbəyə toxmaq.

Dyakiv, məlum səbəbə görə yumşaldığından həlim səslə yasaladı:

-Yoldaş СЕРЖАНТ dibindən lazım deyil, get УСТАВ-a uyğun formada saçını vurdur. Sabahsa gələrsən, məmaniyətsiz qol çəkərəm!

Elə bil üstümdən dağ götürdülər. Nəfəsim,

doğub-törətdiyi uşaqları hürkütməsə saya bilməyən... qonşumuz q.Bahar xalanın sözü olmasın, qatım-qatım qatlanmış sinəmdə genidi

Hərbi qaydada, ayaqlarımı şappıldadaraq cütlədim və icazə istəyib yerimdəcə, yüz səksən dərəcə fırlanaraq əsgəri addımlarla çölə çıxdım.

Əvvəl bilmədim nə edəm.

Sonra istədim, lap harasa qaçam.

Amma...

Bircə onu dəqiq bilirdim ki, sanki, ürəkdən sevinməyə qorxurdum. Bəlkə ayıoynadan biclik, ya hiylə işlədir, tələ qurur?

Amma, yox!

O daha məni nə oynadır, nə də ələ salırdı.

Erkək Tükəzban sözünü demişdi

Arvadı onun yanında... o özü də arvadının yanında gözükölgəli olsalar da, bunların mətləbə dəxli yoxuydu. Arvadından it kimi silirdi.

Arvadı polkovnik Bezlepkinin xanımı ilə rəfiqə olduğundan, mayor rütbəsində ola-ola hərbi hissəyə komandir keçə bilmişdi.

Tünd xasiyyətli, çox ciddi olan Bezlepkinin özü isə, bəlkə də, artıq general rütbəsi alıb.

Onun vəzifəsini böyüdüb, ПОДМОСКВА-nın ОДИНЦОВО şəhərinə, qulluğa göndərmişdilər.

Sarıkirpikliylə mənim, əbədi acı xatirələrim də... elə bu təyinatla bağlı olmuş və necə deyərlər, təbii halından çıxıb faciəylə sonuclanmışdı.

O gecə, gur yağan selləmə yağışın altında

qəbristanlıqdan keçərkən... İlahi, gecəyarı, artıq dərk edəndə ki onu ömürlük itirmişəm, itirdiyimin fövqündə, necə kövrəlib acı göz yaşları tökdüm!

O qız qəribə, maraqlı və günahsız idi!

Taksiylə gedib onun otağındakı pərdələrin söküldüyünü görəndə, necə hönkürmüşdüm!

Taksi sürücüsü elə başa düşmüşdü ki, pulum yoxdu, ona görə də abi-niysan kimi yaş tökürəm. Hətta, yazığı gəlib demişdi:

"Pul lazım deyil, qızıl əsgər, düş get!"

Heyf, heyf onunla keçirdiyim günlərə...

Sarıkirpikli, bütün yaxşı sözlərə layiq idi...

Eh, nə isə...

Axır ki, işıq yolu tapılmışdı.

Hardansa birdən ağlıma gəldi ki, bəs, indi də УИР-in rəisi buraxmasa, onda necə olacaq?

İldırım sürətiylə bu fikir içimdən keçsə də, tez də unutdum, zira, Dyakiv istəyərsə, bir günə hər şeyi özü təkbaşına həll edə bilər.

Bir qədər sakitləşmişdim.

КАЗАРМА-ya qayıdıb qayışbaldır Turabxanı tapdım və ona qayçı-daraq uzadıb, hökmlə:

-Tamam seyrəlt qatanqaz telimi, -dedim.

Başım tüklü olanda, təbii görünürdü... Cıvraq Turabxan başımı yola-yola, pis günəcə qoydu... Hətta, bir dəfə tabım çatmadı və qaş-qabağımı turşudaraq, üstünə çəmkirdim:

-Qanmaz dayça! Qaşotu deyil ey, dizlərini dağ başında yerə qoyub, çəmənlikdən yolasan,

ya heyvan deyiləm ki, qaşovlayasan, incidir axı! Qıvrım, sıx, şəvə kimi qapqara dalğalı saçlarım, gur olanda, əsrarəngiz göylərin qatı kimi, mənə çox yaraşırdı. Bunu, həm Yitka Zahalkova, həm də Sarıkirpikli Nataşa tez-tez deyərdi.

Amma neyləyəsən?

Sabah taleyim həll olunacaq.

Dyakivin yanına o sözdən sonra başı tüklü getmək, saymamazlıq olar, lap, qapısının açarı damına atılmaq kimi çıxardı...

Çönə bilərdi!

Birdən sözünü geri götürər, qalaram belə, əli boşda, qapısını dabanından çıxarası deyiləm ki? Donuzun, təbəssümü də istehzalı olurdu...

Yalançı özü olsun, kəbinli arvadı Alik Ohanesyana danışırmış ki, cavan məşuqəsi tərəfindən Dyakiv tez-tez döyülürmüş. Canı, mütəmadi olaraq, lap həftə səkkiz, mən doqquz qaraqançır olurmuş. Hələ, buna çox hörmət bəslədiyindən, görünən açıq yerlərinə, baş-gözünə dəymirmiş, nə qədər olmasa da ПОДПОЛКОВНИК-dir dəə...

Nə isə, hərə bir zurna çalsa da, hər ağızdan bir hava gəlsə də, erməni Alik Ohanesyanın hesabına canımı yaxşı qurtarmışam, РАПОРТ da masasının üstündə qaldı...

Butsyakın briqadasındakı СТАРИК əsgərlər УМЫВАЛЬНИК-də şövqlə yuyunur... üzlərini təraş edir, bir-birlərinin boyunlarının ardını düzəldir və УСТАВ-la tələb olunan incə xırdalıqları: РЕМЕНЬ-

lərinin başındakı qızıl ulduzu... poroşokla sürtüb parıldadır, vurhəşir ПАРАД formalarına ПЕТЛИЦА köynəklərinin boynuna ВОРОТНИЧОК və şinellərinin ПОГОН-larını tikib, vurharayla döşlərinə komsomol və Lenin babanın başı həkk edilmiş yezidi qırmızı ЗНАЧОК taxırdılar...

Artıq yalançı ДЕМБЛЬ ЛИЧКА-sı taxanlar da vardı. Yurd-yuvada qızlar görüb, tez sıyılsın...

БУШЛАТ, ПИЛОТКА... xebələri, yeni aldıqları ağ ПОРТЯНКА-ları çamadanlara qabqarırdılar...

Xrom zabit çəkməsi axtaranlar, adi, uzunboğaz əsgər САПОГ-larını mazlayıb sürtənlər...

Bir ayaqları da, ВОЕНТОРГ-da idi.

НЕФЕРТИТИ siqareti alan... kənddə görsünlər ki, kim-kimdi dəə...

ЕМБЛЕМА axtaran, ya СГУШЕННОЕ МОЛОКО alıb içən, qırmızı hərbi biletə üzlük keçirən...

АЭРОПОРТ yolu soruşan, qatara bilet üçün ПРОЕЗДНОЙ pul növbəsinə dayanan...

Hərbi xidmətə əbədi vidayi-həyat etməyə hazırlaşır, hamı hərəkət edirdi...

Çəhrayısifət çöhrəli, qırmızıyanaq Komsomolu düşünür, artıq mən də xəyallarımın qanadlarında, bəxtəvərliklə pərvazlanırdım...

Gecəni çimir eləyə bilmədim.

Yəni Dyakiv mənə vedrə bağlayardı?

Tofiq Xəzər

# Raporta hərbi hissə komandirimiz podpolkovnik Dyakiv axır ki, qol çəkdi! Rodkinlə görüş

*Pervomayski, 18 və 19 noyabr 1972-ci il.*
*Şənbə və bazar günləri*

Sübhdən POTA-ya QALXIN!-əmri veriləndə, yenə POTA-da zabit olmadığından heç mənə gözünün ucuyla baxan da olmadı. Yerimə komandir əvəzi kimi, vaynösə Sahibi apardılar.

Səhərağzı, dərin yuxuya getmişdim.

Səs-küyə, qışqırtıya ayılsam da dərhal başımı balıncın altına soxub yenidən gözlərimi qapadım. Qaraqışqırıq baş alıb gedirdi.

POTA səhər yeməyinə gedəndə... növbətçi məni oyatdı. Gözlərimə, elə bil qum səpmişdilər. Birtəhər canımı dişimə tutub qalxdım.

Hesabla, bu gün həlledici gün olmalıydı.

POTA işə gedəndən sonra, dəftər qələmimi

götürüb ЛЕНКОМНАТА-ya keçdim.

Bu gecə səhərağzı yuxuya keçmiş... və bir gözəl də yuxu görmüşdüm:

"ЮЖНЫЙ БУГ çayında üzdüyüm yerdə kimsə mütəhəyyiranə yan-yörəyə baxıb qışqırdı ki: Nə ЮЖНЫЙ БУГ? Bu dəli Kür... Kür çayıdır."

Yuxuda su görmək mənə düşür. Deyəsən işim düzələcək. Bu gümanla könlüm açılmışdı.

ЛЕНКОМНАТА-da oturub, dünənki РАПОРТ-un üzünü gündəliyimə köçürdüm:

"Командиру в/ч 11741 от военного строителя СЕРЖАНТ-а Бабаева Тофика Али оглы

РАПОРТ

Прошу вашего ходатайствия перед вышестоящим командованием... об увольнении меня в запас, в связи с тем, что с 1 декабря 1972 года у меня начинаются экзамены в институте.

17.11.1972 / Бабаев Т.А

Командиру в/ч 74801

Ходатайствия по существу рапорта в/стр. сержанта Бабаева Т.А в связи с учебой в институте.

Командир в/ч 11741

Подполковник: /Дякив"

Raportun üzünü gündəliyimə köçürüb qurtarandan sonra, son maraqlı hadisələri də qeyd edib, ЛЕНКОМНАТА-dan ayrıldım və gündəliyi dolabçama qoyub КАЗАРМА-dan çıxdım.

Səhər РАЗВОД-undan sonra, heç bissimillah eləməmiş ШТАБ-a bir dəfə dəymişdim, Dyakiv yerində olmamışdı. Ona görə, ikinci dəfə gedəsi oldum. Bu gün şənbə günü olsa da, УИР də, ШТАБ da, tam heyətlə işləyirdi.

Zira, yeni çağrışçıların gəlişi və ДЕМБЛЬ-ə gedənlərin РАЗГАР vaxtıydı.

Deməli məsələni bu gün çürütmək olar!

ШТАБ-ın dəhlizində, təsadüfən, УНР-ki köhnə müdirim, ИНЖЕНЕР ПО Т/Б Rodkinlə qarşılaşdıq. Və onunla doğma adamlar kimi qucağlaşıb görüşdük. O məni çox isti qarşıladı və bərk-bərk sinəsinə sıxıb, təəccüblə tezbazar:

-Məzuniyyətə hazırlaşırsan? -soruşdu.

Qalabəndlikdən qurtulmağın təşəxxüsüylə:

-Yox qardaş, hərbi xidməti artıq başa vurmuşam. O günlər təbəxxür edib, bu gün-sabah evə, doğma ocağa, el-obaya gedirəm, -dedim.

O, məni başdan-ayağa heyrətlə süzüb:

-Xanımım, təbəddüllə, elə hey sənin ağıllı, qeyrətli, namuslu, əxlaqlı olmağından danışır...

Onun sözünü vaveylayla yarımçıq kəsdim.

-Şişirdib tərifləməyin! İnşallah, Bərdəyə bizə qonaq gələrsiniz, Azərbayacan. Ev ünvanım da sizdə var. İkicə gün əvvəl teleqram vursanız,

sizi paytaxt Bakıda qarşılayaram.

O çox mənun oldu. Rodkin vəcahətli və ismətli adam idi. Xeyli ordan-burdan dərdləşdik.

Əlqərəz...

Onunla öpüşüb ayrılan kimi, Dyakivin meşin qapılı kabinetinin qarşısına gəldim.

Növbətçi əsgər iri başıyla başa saldı ki şef yerindədir. Sübh tezdən, qonşu q.Bahar arvadın sözü olmasın ustufca qapını dınqıldadıb, içəriyə, vesternə məxsus sərbəstliklə keçdim.

Maltsev də yanındaydı.

Sübh erkəndən qarşısında məni görsə də, çöhrəsindən, incə qadınlara məxsus xəfif bir təbəssüm keçdi! Gözlərimin önündə o əriyirdi.

Çapovulçu rəhmə gəlmişdi.

РАПОРТ-u masanın aşağı gözündən nazla çıxarıb, yanımdaca üstünü xüsusi ədayla yazdı. Və sonra da başıma, saçıma nəzər salıb, ayağa qalxdı. Əlindəki РАПОРТ-u mənə uzadaraq, qəlbində hiddət qaynasa da, imtiyazlı qayğıkeşliklə:

-Gedirsən УНР-ə. Əynindəki əsgər xebələrini də dəyiş...- boğazını arıtlayıb dedi.

Hətta, gümrahlıqla əl uzadıb, boynumdakı sarı məxmər ВОРОТНИЧОК-u da dartıb çıxartdı.

РАПОРТ-u ondan alanda, əllərim titrəyirdi.

Bu, azadlığa çıxış deməkdir.

Bundan o yanası yoxdu!

Qəflətən yadıma düşdü ki, mayor Zadarojnıy tapşırmışdı: РАПОРТ-la birgə Azvoyenkomun

teleqramını da gətirərsən.

Cəld Dyakivə bunu bildirdim.

O... duruxub-döyükəndə, Maltsev ünsiyyət qurmaq bacarığını işə salıb... vəziyyəti yumşaltmaq üçün, şübhəli yozula biləcəyinə əhəmiyyət belə vermədən, xeyirxahlıqla dilləndi:

-Teleqramı ШТАБ-da, СТРОЕВАЯ ЧАСТЬ-da işləyən Zoya Pavlovnaya vermişik. O da, şənbə, bazar günləri, təssüf ki işləmir...

Maltsev mümkün yardım göstərməyi vacib sayıb yerində də səylə müdaxilə etmişdi. Mənsə, onun kömək göstərməyə... hazır olduğunu ifadə edən bu sözlərinə, nədənsə inanmadım. Fikrimi toplayıb: "Bəlkə yenə tələ qurulur?" -düşündüm.

Qafillikmi edirdim?

Hələ qağazlanmaq da olmazdı.

Yox, bu dəfə aldatmır. Arvadına nə cavab verərdi? Son qənaətim, elə, beləcə də oldu.

Demək, yenə birinci günə qaldı...

Amma bu iki sabah, o biri sabahlardan deyildi. Zoya Pavlovnaya kimdi ki, hərbi hissənin komandiri deyəndən, daha doğrusu, РАПОРТ-un üstünü yazandan sonra... nəsə, bir əngəl törədə bilsin. Yox! Qaqqanaq çalmırlar mənə!

Qətiyyətlə deyə bilərəm:

"Hərbi xidməti başa vurmuşam!

Gözünüz aydın... ay ata! Ay ana! Ay bacı-qardaşlarım! Ay qohum-qonşular!

Gözün aydın, əziz Komsomol!

Gözün aydın olsun, Yitka Zahalkova!

РАПОРТ-u alıb çölə çıxanda, elə bil, iki illik sürgündən, məhkum həyatından azadlığa qovuşurdum. Sanki veronal atmışdım.

İşin biri düzələndə, o birisi düzəlmir, o biri düzələndə isə bu birisi. Amma, əsas məsələ, bu, hüsnünə valeh olduğum РАПОРТ məsələsi idi ki, o da əlimdə, heç at gücüylə də ala bilməzdilər...

Ürəyimdə gizli sevinir, büruzə verməyə isə qorxurdum... Qar havası kimi təmiz havaya çıxdım. Və bu an, sərin hava sanki ətirli idi.

Ona-buna deməyə isə tələsməməyə qərar verdim. Hələ, qarşıda УИР məsəsləsi... ШТАБ-da СТРОЕВАЯ ЧАСТЬ, Zoya Pavlovna məsələsi dayanırdı. Bəlkə УИР-in rəisi də bir qulp qoyacaq?

Nağdısı buydu ki... РАПОРТ-un üstü yazılıb qollanmış və birinci günə kimi gözləməliydim.

Deməli belə çıxır ki bilet almışam, qalır qatarın perrona yaxınlaşması məsələsi...

Əlvida Qalabəndlik!

Alik Ohanesyanla görüşüb... ona təşəkkür eləmək və məsləhətləşmək lazım idi.

Çox fikirləşib, götür-qoy edib özümü də əlayaqdan salmalı deyildim.

Nə olacaq, qoy olsun, cəhənnəmə!

Gözləyəcəm...

Güman yerim var, əlli faiz olsa da var.

Qürurla КАЗАРМА-ya qayıdıb gələndə, artıq РОТА işə getmişdi. Nə edəcəyimi bilmirdim...

УИР-ə getməyə qərar verdim.

Mayor Zadarojnının qapısını yavaşca döyüb, içəri keçdim. O, səsə əhəmiyyət vermədən, otaqda ayaqüstə var-gəl edir, hərdən də, pəncəsi üstə dayanıb, pəncərədən bayıra boylanırdı.

Fərəğət formasında dayanmışdım.

Düz qarşıma gəlib, sakitcə əl uzatdı...

Deyəsən içmişdi, kefi kök idi. Məsələni olduğu kimi ona danışdım.

Qulaq asıb, özündən razı halda:

Birinci gün get o teleqramı da al, РАПОРТ-la birgə gətir. Gülə-gülə də əlavə elədi ki, sonra baxarıq, səni buraxaq, ya yox...

Deyəsən... bu əclafın da könlündən şirinlik keçirdi. Ona qoşulub, mən də süni qımışdım...

Geri qayıtdım. İşıq yolu vardı, söz ola bilməzdi. Ümidim bir az da artdı, lap ürəkləndim.

Sovet hərbi qanunları lazım gələndə işləyir, lazım olanda, dolayı yollarla, ondan da yaxşı işləyir... Dyakivin arvadı olmasaydı, indi Allah bilir necə olacaqdı. Hələ nə yaxşı ki, ortada, şamxor ermənisi Alik Ohanesyan var imiş!

Düzdü, əsas düyün, hərbi hissə komandiri Dyakivin qoluydu. Çox şükürlər olsun... onun da mübarək imzası əlimdəki РАПОРТ-un üstündəydi.

Daha nədən tələşlanmalıyam?

Görəsən, nəməkbəharam Dyakiv şikayətə gedəcəyimdən çox qorxdu... ya arxasında Bezlepkinin xanımı dayanan arvadının hökmündən?

Nəm-nüm eləməyin daha yeri yoxuydu, arvad hökmü göz qabağındaydı. Bu xristianlarda, arvaddanqorxma məsələsi nəsilbənəsil olub.

Əhli-müsəlmanlara fikir verməyin, nəsranilərdə məhz beləydi. İsəvi ermənilərdə də elə...

Öz-özümə danışa-danışa, КАЗАРМА-ya gəlib çıxdım. Şamxor ermənisi Alik Ohanesyansa, kefkomluğundan başı açlıb, hələ qayıtmamışdı.

Araz aşığından, Kür topuğundan...

Sevincimdən düzü darıxmağa başladım.

Hərçənd içim qan ağlamırdı.

Bir az ВОЕНТОРГ-da girələndim, sonra hərbi şəhərcikdəki ərzaq mağazasına girib kolbasa və çörək aldım. Nahara getmək həvəsim yox idi.

Qayıdıb suşilkada kolbasa-çörəyi iştahayla yedim. Qarnım doysa da, kefim açılmırdı.

Pərişanlıq məndən əl çəkmir...

Sonra kitabxanaya gedib, qəzet-jurnallarla xeyli başımı qatdım. Kaş, birinci gün tez gələydi.

КАЗАРМА-ya qayıtdım.

Saat 17:03 idi.

Şənbə günü olsa da, hələ РОТА işdən qayıtmamışdı. Halbuki... bu gün, istirahət günü hesab olunurdu. Əsgərlər kef-damaqda olmalıydı.

КАЗАРМА-da xoş bir canlanma vardı.

Ağlı topuğunda olan Butsyakın, keçən yeri olmayan ağzıyelli uşaqları səhər sübhdən qalxıb, yarımçıq qalmış işlərini davam etdirirdilər.

ПЕТЛИТЦА tikən, ВАРАТНИЧОК yuyub ütülə-

yən uzunboğaz əsgər çəkmələrini mazlayıb par-par parıldadan, ora-bura qaçan, pul axtaran, teleqram vuran: Bir sözlə, əsl kef-damaq!

Artıq demək olar ki, onlar azadlıqdadır.

Qiptə ediləcək azadlıq!

Bir-iki gündən sonra... hamısı öz isti yurd-yuvalarında, isti ocaqlarında, mülki paltarlarda... və əllərində toppuzlu çomaq, kənarları gözoxşayan toppuztikanlı otlu kollarla uzanan, kələ-kötür torpaq kənd yollarında, kəllahı gəzəcəklər.

Əməlli-başlı qayğılandım.

Nədənsə elə bu andaca, anamın bişirdiyi kələmdolması yadıma düşdü, hətta iyi də burnuma gəldi. Nənəmsə, nəfəskəsən istilərdə qatıqla çiy süddən koramaz hazırlayardı.

Necə ləzzətliydi!

Donuz САЛО-ları məni diksindirmişdi.

Bezmişdim...

Mənim ДЕМБЛЬ məsələm isə, müşkülatdan çıxsa da, hələlik, az da olsa qaranlıq qalmışdı.

УИР məsələsi, bölünməmiş qarpız kimi bir şeydi. İçini bilmək olmurdu. Amma, hər bir halda ümidim üzülməmişdi. Zira, eşitdim ki, birinci gün, general-deputat Krasikin özü də gələcək!

General Krasik... Nikolayevski vilayəti üzrə hərbi komandan idi. Onun gəlişindən bütün yüksək çinli zabitlər zağ-zağ əsir, toppuzlamasa belə, onun qarşısında dilləri topuq çalardı.. УИР-də əngəl törətsələr, demək, Krasikin özünə şikayət

eləyə bilərdim. Bu da ehtiyat bir yol idi...

Bircə... bu cəhənnəmdən canımı xilas edib gedə bilsəydim! Korazehin müsəlmanlar burada əməlli-başlı istismar edilirdi.

Öz-özümlə sanki güləşirdim. Fikirlərim gah düyünə düşür, gah da ki açılırdı. Özümü çox naqolay hiss edirdim. Pul tapıb, rüşvətlə, tez tərxis olunmaq əvəzində... özümü müdrik düşüncələrə qərq edir, allahsız ölkədə haqq axtarırdım.

İş içində, yenə iş var deyəsən.

Durub, pullu dəlləkxanaya getdim. Saçımı bərbərdə abıra saldırmaq lazımıydı. Qayışbaldır Turabxan naşı olduğundan saçlarımı pis günəcə salmışdı. Dəlləkxanadan çıxıb hamama getmək, oradan da qayıdıb, kitabxanada başımı qatmaq istəyirdim ki, bu darıxdırıcı günü başa vurum...

Yeri düşmüşkən yamanca kitabpərəst idim.

Fikirləşib planlaşdırdığım işlərin heç biri də baş tutmadı, Zira, cibində kor quruşu belə olmayan qurumsaq dəllək işdə yoxuydu.

Saçıma görə, hamama da gedə bilməzdim.

POTA yenə işdən top-tüfənglə qayıtdı.

Yorğun və ac olduqlarından, bir nəfər kimi cərgəyə düzlənib, hamılıqla yeməyə getdilər.

Bizim uşaqlar, yeməkdən sonra, POTA-yla, gecə pulsuz kinoya gedəndə, mən КАЗАРМА-da qalıb Ohanesyanla görüşmək istəyirdim.

Həm də ağlıma girmişdi ki... Qırmızı kostyumluya zəng vurub danışam.

Hərçənd, gethagetdə görüşə də bilərdik.

Alik demişdi ki, onun gəldiyini öz gözləriylə görüb. Bu da kəbini göydə kəsilmək kimi bir şey idi. Necə deyərlər kəbinimiz halal, canımız azad.

Alik nənəmin sözü olmasın, haradasa ilim-ilim itmişdi. ШТАБ-ın dəhlizindəki telefonun dəstəyini qaldırıb, Krasikin nömrəsini yığdım.

Həyacandan barmaqlarım titrəyir... nəbzim qulaqlarımda vururdu... Hiss edirdim ki, nəfəsim boğazımda tıxanır...

Çağırdı!

Dut... dut... çaldıqca, həyəcandan boğulurdum. Dəstəyi qaldıran olmadı...

Düzü bir az sakitləşdim.

Kor şeytan deyir ki, düz gedib qapısını döyəm. Amma... yox, onun azadlığına əl uzatmaq, qan əkmək kimi bir şey idi. Kefi istədiyi kimi yaşamaq, sanki, onun kəbininə kəsilmişdi. Seçimi özü edirdi. Ona kəc baxanları nə gözləyərdi onu allah bilərdi. Bir sözlə: Kəc başlamaq olmazdı.

Qayıdıb КАЗАРМА-ya getdim...

Hərbi xidmətin, bəlkə də, sonuncu şənbəsini də beləcə, birtəhər yaşadım.

Soyunub yenicə yerimə girmişdim ki, POTA kinodan qayıtdı. Yenə də bizim kor höcət müsəlman əsgərlər, hayxırtı qoparıb bir-biriylə zarafatlaşır, söyüşürdülər. Dünya, heç veclərinə də deyildi. Sanki, heç evləri, yurd-yuvaları yoxuydu.

Darıxan bir mən idim, bir də, nisbətən vay-

nösə, kəlbəcərli Sahib Əkpərov.

Şənbəni yola saldıq...

POTA-ya ertədən verilən ПОДЪЁМ-da bazar günü olduğundan, КОМСОСТАВ gözə dəymədi.

Səmərqəndə gedən zabitlər də hələ qayıtmadığı üçün görkəmi xəstəhal, ovqatı pozulmuş halda olan ПРАПОРЩИК Bandısik, söylənə-söylənə ortalıqda tək qalmışdı.

Artıq mənim briqadama Bryusovun iradəsi altınaca düşmüş kəlbəcərli vaynösə komandirlik eləyirdi. İçdən qovrulan göydodaq Ədalətin susqun ikrahı altında olsa da belə, bir neçə həftəlik uğur qazandığından zalımın oğlu yerə-göyə sığmırdı. Mayıf Mamedsə valokordin atıb, tünd getmişdi, huş apara-apara deyirmiş:

“Babayevin yeri Ədalətin olmalıydı, onnansa boynuna torba salsın...”

Səhər yeməyinə kimi yatdım.

РАЗВОД-da elan eləyibmişlər ki, bu gün də iş olacaq. Kəlməbaşı da deyirmişlər: “Nə olsun istirahət günüdür? Cəhənnəmə ki, iş günüdür!

General-deputat yoldaş Krasik gəlməlidir.”

Bunu eşidəndə... heç kəslə kəlləçarxa vurmaq, kəllələkəllə gəlmək istəmədiyimdən... ürəyimdəcə qarğış töküb, pıçıldadım:

“Bacısı, qırmızı kostyumunda vurhay özünü yetirənə kimi... görüm onun cəmdəyini toğlugötürən, caynaqlı keçələkərkəslər eşimləyib dağıtsın. Bazar günü də iş olar? Eşşəkdi bunlar?”

Özümə görə demirdim.

Onsuz da, neçə gündür işə getmirəm. Dindirib-danışdıranım yox, belimin ağrısı da, УИР-lə ШТАБ-ın arasındaca sağalmışdı.

Daha sancmır, ciddi ağrı da hiss eləmirəm.

Bu gün, КАЗАРМА-dan çölə çıxmamışdım.

ОДЕССА-dan, СТАРИК müsəlman əsgərlərimizin ДЕМБЛЬ şinellərini, axır ki, gətirdilər.

Yenidən hayxırtı qopdu...

Boyko sakit səslə, gözlənilmədən elan elədi: "СЕРЖАНТ Babayevin... briqadasındakı bütün əsgərlər КАЗАРМА-da qalıb, şinellərini ДЕМБЛЬ-ə hazırlasın. Bu gün işdən azaddırlar!"

Çığırışa-çığırışa, vurçatlasınla bizim uşaqlar papaqlarını çıxararaq hara gəldi tolazlamağa, tüllablar kimi tullanıb-düşməyə başladılar.

Qəmin kəm vətən əsgəri!

РОТА-nın yerdə qalan briqadalarındakı əsgərləri isə şeypur-baraban sədaları altında aldadıb, ВОДОЗАБОР-a apardılar.

Butsyakın briqadasındakı uşaqlarsa hazırlıq işlərini yekunlaşdırmaqda idi.

Onlar, uzağı sabah evlərinə gedəcəklər...

Bu gecə yuxuda ЮЖНЫЙ БУГ çayını eninəboyuna xeyli üzmüşdüm. Nəsə... yeni bir hadisə, səthi olsa da, sevindirici xəbər olacağına, əminliklə inanırdım. Gözləyək görək...

Amma şinellərin gəlməsi də elə xoş bir hadisəydi. Kuybışevli Hüseyin və ЕФРЕЙТОР İlyas-

la mağazaya getdik. Adama 50 qəpik qoyub balıq, kefir və çörək aldıq... Və СУШИЛКА-da oturub, azadlıq haqqında xeyli çərənləyə-çərənləyə, şirin-şirin yedik. Bəlkə də, birlikdə sonuncu istirahət gününü keçirirdik.

Aramızda bircə fərq vardı: Onlar mənimtək ДЕМБЛЬ həyəcanı yaşamırdılar. Sanki uşaq kimi qayğısız, dərd-sərsiz və şirindilli idilər. Bu iki ildə elə bil həyata gözləri açılmayıb.

Gözlərində darıxmaq ifadəsi yox idi.

Mən isə, tərxis olunmaq yolunda ifrat maraqla gecə-gündüz düşünür, müxtəlif yollar axtarır, özümü hey yorur, naqolay vəziyyətdə həyəcan və hiddətlə əsəbiyyat keçirirəm.

Onlar romantik ehtiraslar yaşamamışdılar! Sevgi çılğınlığının nə olduğunu anlamırdılar. Ali təhsil almır, üzündən düzəməlli kitab oxuya bilmir, yazmaq həvəsləri yox idi. Kinoda filmə baxdıqları yerdə mürgüləyib xoruldayırdılar.

Onlar Üzeyir Hacıbəyovu, Qara Qarayevi, Nizamini, Füzulini, Tahir Salahovu tanımırdılar.

Fərqimiz də, məhz elə buradan başlayırdı.

Yuxuma görə, inadkarlıqla nəsə həzzverici bir xəbər gözləyirdim. Bəlkə, qırmızı kostyumluya təkrar zəng vurum? Mən ki... ona ögey deyiləm. Bircə onun laqeyidliyi mənim həssaslığımla düz gəlmirdi. Hərçənd, yanlışlığa da yol vermək olmazdı. Zira... o general-deputat Krasikin dopdoğmaca bacısıydı. Çox da ki, bir uzun gecə ke-

çirmişdik. Xudaya xudavənda! Necə inləyirdi o gecə: ТРАХАЙ... ТРАХАЙ... -deyib, necə eşilirdi...

Heyf ki, siqaret çəkirdi.

Amma inanırdım ki dərdimi ona desəm, ya kömək etməsini rica eləsəm məni gülməli vəziyyətdə qoymazdı. Qürurlu idi və general bacısıydı, söz versə sözünü tutardı.

СУШИЛКА-da kefir БУТЫЛКА-ları vardı. İçərisini yuyub mağazaya qaytaranda, hər birinə 15 qəpikdən pul verib geri götürürdülər.

Saydıq...

Özümüzünkülərlə birlikdə düz 14 ədəd boşalmış БУТЫЛКА oldu. İçərisini yumağa ərindiklərindən əsgərlərin çoxu kefiri içir, БУТЫЛКА-sını isə qoyub gedirdi. Kasıb, nəyin kasıbıdır?

Ağlımıza verdi ki, boş butulkaları yığıb hamama gedək. İsti suyla ЕФРЕЙТОР İlyas hamısını yusun, sonra da... mağazaya qaytarıb pulunu alaq. Razılaşdıq. Kefir БУТЫЛКА-larını yığıb, əski və çubuq da götürərək hamama tərpəndik.

ЕФРЕЙТОР İlyas şüşə butulkaları yudu.

Biz də qurulayıb hazır eləyəndən sonra ərzaq mağazasına gəldik. Tər-təmiz yuyulmuş, 14 ədəd boş, şüşə kefir БУТЫЛКА-sını təhvil verib, əvəzində, ВОЕНТОРГ-dan iki РЕМЕНЬ aldıq.

Toqqaları götürəndə əlavə, cəmisi 50 qəpik ödədik. РЕМЕНЬ-im yaxşı deyildi. Lap yerinə düşdü. İkinci kəmər də Hüseynə qaldı.

Köhnələri üst-üstə qoyub İlyasa verdik...

КАЗАРМА-da uşaqlar möhkəm hazırlaşırdı.

Artıq hamısı həvəsə, bəhsəbəsə düşmüşdü. Sanki indi ayılmışdılar ki, hərbi xidməti başa vurublar. Hökümət onlara bir daha müftə yemək, pal-paltar verib, canlarını isti saxlayan deyil.

Mal-heyvan dalınca qaçmaq, boz eşşəkdə gəzmək, kənddə onların yolunu gözləyir...

Mənsə, çılğın təbiətli tələbəydim.

Uşaqların hamısı şinellərinin ПОГОН və etiketlərini tikib hazırladı... Amma, mən hələ başlamamışdım. Nahar yeməyinə də getmədim.

Nəsə həvəssiz idim. Ərzaq mağazasında yenə, КОРЖИК-lə limonad alıb yedim...

Zəyəmli Vahidin çamadanından, qol saatını və ПАРАД formasını rus Rezniçenko oğurlayıbmış. Özü də boynuna alıb. Amma, əvvəl and içib aman eləyirdi ki, xəbəri yoxdu...

Hirsimdən qızarmışdım.

Düşünürdüm: Bəlkə, damarında axan qan öz sözünü deyir? Özündən asılı deyil?

Günortadan sonra qar yağmağa başladı.

Ötən qışdan bəri, bu ilin yağan ilk qarı idi!

Bakıdakı kimi, yer palçıq olduğundan yerə düşən kimi qar əriyirdi. Bəli, sonuncu qışımızın Pervomayskidə yağan ilk, nübar qarıydı.

Bu yağan qar, adama ləzzət eləyirdi, zira, lap yüz dərəcə şaxta olsa da, ta biz gedirik...

Dəlləyi tapdım!

Turabxanın xarab elədiyi saçlarımı düzəlt-

dikcə tüklərim həddindən artıq seyrəldi. Amma, daha iş-işdən keçmişdi. Onsuz da, ОБХОДНОЙ-u verəndə, boyun-başları bitdə-bitdə yoxlayırdılar.

Heyif saçlarıma!

Yaman uzanmışdı. Cod qapqara şəvə kimi saçlarım, mənə çox yaraşırdı... Komsomolumla görüşəndə saçlarım çox seyrək olacaq.

Heyif!

Saat 15:03-də, Ağcabədinin Mikoyan kəndindən olan Hüseyinlə hamama getdik.

ЕФРЕЙТОР İlyas Mamedov da bizimlə getdi ki, yeni gələn rus əsgərlər, hamamda formalarımızı oğurlaya bilməsinlər.

Çimdiyimiz yerdə... düz iki dəfə su kəsildi. Əməlli-başlı çimə bilmədik. Sonuncu hamam da, bax beləcə, tərsəsinə alındı.

Neyləyək, bura da bizim vətəndir!

Poçt gələndə gözlərimə inanmadım. Orta məktəb yoldaşım Tağıyev İsgəndər Şəfa oğlundan məktub gəlmişdi. Sevindiyimdən, çox kobud şəkildə zərfi cırıqlayıb açdım.

O da, əsgər gedibmiş!

Ünvanını oxudum: КАЛЕНИНГРАДСКАЯ ОБЛ. БАГРАТИОНОВСКИЙ РАЙОН ПОСЁЛОК ЧАПАЕВ в/ч 36893 Т. Demək, Rusiya ərazisinə düşüb.

Əsgər formasında ağ-qara fotoşəklini göndərmişdi. Şəkildə də hırıldayırdı...

İsgəndər sinfimizdə zarafatcıl, ən ürəyi təmiz, dost yolunda ölümə gedə bilən oğlan idi.

Onun məktubundan çox təsirləndim.

Zavallı, hələ indi əsgər gedib. İki ili dözüb, necə qulluq edəcək? Mənsə, hərbi xidmətdə sonuncu istirahət gününü keçirirəm.

Pervomayskidə bu gün son dəfə hamamda çimdim və su iki dəfə kəsilsə də birtəhər yola verdik getdi. Bunun özü də, yaddaqalan bir tarixi hadisədir. Düzdü sonuncu çimmək olmağına tam əmin olmasam da, amma... nədənsə, qələmim, məhz belə yazmaq istəyir.

Hərbidə, hamam məsələsinə xitammı?

Elə bu vaxt...

Qəflətən, yenə СУШИЛКА-da hayxırıq qopdu. Özümü yetirdim ki, Gözəlov zəyəmli Vahidi xirtdəkləyib. Sən demə Vahidin qol saatı oğurlanan gün... O da, gecəyarı, hamı yuxuda olanda, xəlvəti durub, Gözəlovun saat və lavsan formasını gizlində oğurlayıbmış...

Manya xala buna: Məzləyibmiş deyərdi.

Əvvəl qəti inanmayıb heyrətlə pıçıldadım:

-Siz nə danışırsınız, Vahid elə iş tutmaz...

Amma, Gözəlovun əlində alibisi varmış və mühakiməsi fakta söykəndiyindən qəti qərarlı idi.

Əlahəzrət fakt onun tərs damarını sındırdı!

Vahid fakt qarşısında aciz qaldı.

Yumurtası tərs gəlmiş toyuq kimi, hər şeyi boynuna aldı. Bığ yeri yenicə tərləyən bu biçarə günahını, elə də dərindən dərk eləmirdi.

Hətta mənə, “sən öl...” vurub, oğurluq etdi-

yini səmimi etiraf elədi.

Bundan sonra qapını arxadan bağlayıb bu məsələni, özüm çürütmək qərarına gəldim:

-Heç kəs Vahidə barmağını vurmayacaq...

Vəssalam!

Olan olub, keçən də keçib... bu gün-sabah evə gedirik. Onun üz-gözündə bir nişanə qalsa, necə gedəcək? Hamımız azərbaycanlıyıq. Daha gecdir. Gözəlovdan dönə-dönə üzr istəyib oğurladıqlarını da qaytaracaq.

Sən də onu bağışla!

Müxtəsərən, kəcqabırğa Gözəlov hirs-hikkəsindən tərləmişdi... Tərli-tərli bir qədər altdan-üstdən danışıb təklifimlə tazılaşdı.

Onları qucaqlaşdırıb barışdırdım:

-Vaxt gələr, zəyəmli Vahid də, bu günü xatırlayıb xəcalət çəkər. Dava salıb, bu işi ağardıb millətimizin adını ləkələməyə nə hacət?

Hamı razılaşdı... və qapını açıb deyib-gülə suşulkadan çıxdıq...

Düzdü, bu məsələ, mənə axşama kimi qaranlıq qaldı və elə hey düşünüb-daşındım:

“Maraqlıydı, görəsən o ürək Vahiddə hardan idi? Axı o, çox qorxaq və xəsis idi. İndi necə bu işi tuta bilmişdi? Başqasının saatını çıxarıb, bağlayasan öz qoluna.

Özü də Gözəlovun...

Bu yaba ilə dovğa içmək kimi bir şey idi.

Öz saatı oğurlananda isə... necə vay-həşir

qoparmış, gen dünya başına dar gəlmişdi onun. İnsandakı tamaha fikir verin. Bax, belə çirkinliyi də vardı bizim əsgərlərin.

Sən demə... Gözəlov hauptvaxta gedəndə, qol saatını yolda açıb mayıf Mamedə veribmiş ki, saxlasın. Vahidsə təsadüfən bunu kənardan görüb, sonra da, gecə bu pəstahanı çıxarıbmış!..

Çarpayıda uzanıb, vaxtı ilə Komsomoldan aldığım məktubu dolabçamdan çıxardım və mənə übvanladığı ilk şeiri oxumağa başladım.

Bəlkə də, min dəfə oxumuşdum:

*****

Bir qız ki, heç kəsə açmaya qəlbin,
O qəlbi saz kimi çalmaq olarmı?
Qız oğlanı sevib sonra atarsa,
Dünyada onuntək alçaq olarmı?

*****

Bir ağac kökündən əgər qurusa
Onun budağında yarpaq olarmı?
Oğlan qızı sevib, sonra atarsa,
Dünyada onuntək alçaq olarmı?

*****

Sənə bəslədiyim bu saf məhəbbət,
Bütün ömrüm boyu sönməyəcəkdir.
Göydə günəş qopsa, yerdə qiyamət
Fikrim başqa yerə dönməyəcəkdir!

*****

Sonra gözlərimi yumub... onu xeyli düşündüm. Xəyallarım məni çox uzaqlara apardı.

Gözlərini zilləyib ona baxdığı üçün ilk dəfə Nazim adlı oğlanla necə dalaşdığım film kadrları kimi gözlərim önündə canlandı:

"Ayaq üstə diri meyitə çevrilmiş zavallı oğlan, düşdüyü xoşagəlməz vəziyyəti anlayanda... qəfil, necə sıyrılıb qaçdı... Axı hamının təhlükəni hiss edib, canını qorumaq instinkti var.

Hərçənd ki, imkan tapıb bıçağın arxasıyla, boynunun kökünə bir neçə ağır zərbə endirə bilmişdim. Və kənardan tamaşa edənlər, hətta elə başa düşdülər ki, artıq, onu bıçaqladım.

Namus qanla yuyulmalıdır!

Qansa fışqırmadı...

Lüğətimə daxil olan, Şərq küçəsinin bütün jarqon söyüşlərindən istifadə edərək, onu necə qovdum! Düzü, mən özüm də küyə gedəndim.

Yaraşığına hər bir qızın heyran olacağı bu növcavan yeniyetmə sözün düzü ləyaqətli oğlan idi. Və kişi kimi də, qaçıb canını qurtara bildi.

Mənsə onda, əsgər gedəcək ərəfədəydim və uzun səfər qarşısında sevdiyim qızın şərəfi naminə, ilk heyrətəgətirəcək uğur qazanmışdım.

O vaxt qardaşım Vidadi, qonşu məhəllədə yaşayan xoş ünsiyyətdə olduğum Tahir Qarayev necə yaddan çıxmayacaq canfəşanlıq eləyirdi...

O gündən sonra, Komsomola göz zilləyib baxmağın təhlükəli və qadağan olunduğunu bu qarayanız oğlan dərk etdi. Və hirsindən partlasa da, geri çəkilməli oldu.

Sonralar eşitdik ki... başına dəyən bir ötəri zərbədən kəlləsinin arxa hissəsi bir balaca partlayıb və qan çıxıb, amma bu qan onun gur qara saçlarının arasında da quruyub qalıbmış.

Cəsarətim qürurumu doydurdu o gün!

İndi bu olayı xatırlayanda, nədənsə, mənə gülməli gəldi o hadisə...”

Düşünə-düşünə yuxuya keçmişəm.

Axşam yeməyində uşaqlar məni oyatdı.

Yeməkxanadan çıxanda, havada bərk sazaq vardı. РОТА düzlənib kinoya gedəndə, həvəsim olmadığından КАЗАРМА-ya qayıtdım.

Bir qədər keçmişdi, danışanda kirimək bilməyən, yevlaxlı ПАТРУЛЬ Hüsən gəldi.

СУШИЛКА-da oturub xeyli söhbət elədik. O gedəndə, sonuncu ПРОВЕРКА-ya az qalmışdı.

Masqaraçı Butsyakın briqadasındakı bəxtəvər uşaqlar БЫТКОМНАТА-ya yığışıb son ütüləmə işlərini aparırdılar.

Meymunluq edən, yerevanlı erməni Xaçaturyan paradoksal fikirlə... təmtəraqlı ПАРАД forması əvəzinə, kəndlərinə təntənəli hesab etdiyi xebe formasında getməyi planlaşdırmışdı. Əclaf xebesini necə bəzəmişdisə adam baxanda heyran olur, qonşu Süzəndə xalanın sözüylə desək, hayıl-mayıl qalır, qar kimi əriyirdi.

Yolunu gözləyəni varsa, məhbut olacaq.

Ayağındakı təptəzə uzunboğaz zabit çəkmələri par-par parıldasa da, çəkmələrinin daba-

nı qalın deyildi. Mənimki isə, hündürdaban, həm də onunkundan bahalı, əsl ДЕМБЛЬ-ski idi.

O əvvəl-əvvəl eyham vurdu, sonra özümü eşitməməzliyə qoyduğumu görəndə isə... üzüklü barmağıyla sısqa boğazını çimdikləyib uzadaraq yalançı təbəssümlə muma dönüb, üzüntü çəkə-çəkə uşaq şitənçəkliyi ilə yalvarmağa başladı:

-Gəl dəyişək...

Onsuz da mən uzunboğaz çəkmələrdə gedəsi deyildim. Ona görə də, tərəddüt etmədən dəyişdim. Və incə zarafata salıb, əvəzsiz nəzakətlə kirri qulağına pıçıldadım:

-Amma, kirvə muğayat olasan haa.

Sevincindən, marçamarçla saya-saya düz 13 dəfə, o üz-bu üzümdən öpdü, saray lətifəsilə:

-Ara... qoymaram kirvənin uzunboğaz çəkməsinə, zərrə qədər zərər toxunsun... -dedi.

Mən də onun uzunboğaz, nazikdaban, təzə zabit çəkməsini hələlik ayağıma geyindim.

Ağları dəyişmiş... yeni ağ tuman-köynəklər də paylamışdılar. Hamamda pis-yaxşı çimdiyimdən yana, özümü çox gümrah hiss edirdim.

Darıxdırıcı son şənbə-bazarı da artıq başa vurmaq üzrəydim. Ohanesyan hardaydısa, gəlib çıxmaq bilmirdi ki, ona təşəkkür edəm.

Sabah gərgin gün olacaq.

Zadarojnı РАПОРТ-un üstünü yazıb, qol çəkəsi olsa, demək olar artıq yoldayam...

Qol çəkməzsə, bu işlər, acı bağırsaq kimi,

hələ çox su aparacaq və uzandıqca da hey uzanıb şitini-şorunu tamam çıxaracaq.

Hövzəsinə tökülməyib, yarıda quruyan çay kimiydim. Yenə, təxəyyülümün qanadlarında kor uçuşla gələn təyyarəmiz, kor enişə başlayacaqdı. Şivən qoparmağınsa, heç bir faydası ola bilməzdi. ПОДПОЛКОВНИК Dyakivlə mayor Zadarojnının gerçək əsirinə çevrilmişdim.

Fikirləşdikcə başım şişirdi.

УИР-lə ШТАБ indi gözlərimdə ucsuz-bucaqsız meşəli yarğanlardakı canavar kahasına dönmüşdü. Sanki, bu qədər qüdrətli, bu böyüklükdə azman dövlət, bu iki şəxsin əlində cəmlənmişdi.

Mənə elə gəlirdi ki, bu iki zabit, əl-qolumu kəndirlə bağlayıb, məni ЮЖНЫЙ БУГ çayına atıblar. İndi institutumuzun müəllimləri, Azvoyenkomun işçiləri, qonum-qonşu çayaşağı, çayyuxarı məni axtarıb tapa bilmirlər.

Nənəm kənardan vay-şivən qoparıb çığırır və üz-gözünü cırıb: “Uşağı çayaşağı axıdıb, indi də, çayyuxarı axtarırlar... Bu ki, çayda balıq sövdasıdır. Belə də iş olar? Bala vay, balam vay...”

Nə vaxtsa yuxuya keçərəm...

# Mayor Zadorojnı yazdı: Ne vozrajayu! Qaldı Dyakivin obxodnoy məsələsi. Bir də ki, Benazir Bhuttoya vurulmusdum...

*Pervomayski, 20 və 21 noyabr 1972-çi il.*
*I və II günlər.*

Bilmirəm nədən və necə başlayam...

Butsyakın briqadasını, son dəfə РАЗВОД-a apardılar. Pərvərdigarə, bu uşaqlar işıq saçırdı!

Artıq onlar... əsgər yorğan-döşəklərini belə təhvil vermişdilər. Son dəqiqələrini sevinc və böyük əhval-ruhiyyə içərisində yaşayırdılar...

ПАРАД formasında və qəttəzə şinellərdəydilər. Onlara baxanda ürəyim atlanırdı. Onlar bir neçə dəqiqədən sonra gedirlər.

Murdar qəlbi olanının da indi sifəti xoşagəlimliydi. Niyə də olmasın?

Azadlığa çıxırdılar!

Mənsə hələ də xebedəydim. Az qalırdım ki

ağlayam. Deyəsən yenə, çay gəlməmiş, çırmanmışdım. Bu gün, həlledici gün idi. Qarşımda birbirindən çətin məsələlər dayanırdı:

1.ШТАБ-da, СТРОЕВОЙ ЧАСТЬ-dan teleqramı Zoya Pavlovnadan almaq.

2.УИР-də, РАПОРТ-un üstünü mayor Zadarojnıya yazdırıb qol çəkdirmək.

3.УНР-dən ПРОЕЗДНОЙ almaq.

4.СТРАТАГЁМА... ПОДПОЛКОВНИК Dyakivin son sözü və ОБХОДНОЙ-u ələ keçirmək.

Bəli bu dörd məsələni, təxirəsalmadan həll etmək lazım idi. İçimdəki, özünümüdafiə hissim, məhz belə deyirdi.

Saat 08:30-da СТРОЕВОЙ ЧАСТЬ açıldı.

Zoya Pavlovnanın ətri otağı bürüyən kimi özümü irəli atdım. O, olduqca bahalı geyinmişdi.

Ağ saçlarını... şabalıdı rəngə boyamış bu qocanın parfümünün qoxusu, dəhlizi də canlandırmışdı. Saçları yumşaq və seyrək görünürdü.

Tələsik və təngnəfəs haldaca üyüdüb tökdüm. İnanın ki, həyəcandan ürəyimin səsini də eşidirdim. Birnəfəsə, məsələni başa salıb qurtaran kimi, məlul-məlul onun qırışmış üzünə tamaşa etməyə başladım.

Ağ dəsmalıyla burnunu tutub, bir-iki dəfə dərindən nəfəs aldı. Sonrasa, iri bir qovluğu qarşısına qoyub, sənədləri vərəqlədi və gözlənilmədən teleqramı tapıb, səssizcə mənə uzatdı.

Bir kəlmə də danışmadı.

Dünya, qəhbənin heç vecinə də deyildi!

Maddım-maddım onun qırışmış üzünə baxırdım. Donub qalmış, özümü tamam itirmişdim.

Teleqramı əlimə alıb oxuyanda, az qalırdı nəfəsim dayana. Zoya Pavlovnaya minnətdarlıq eləməmiş, qapıdan güllə kimi çıxdım.

Dörd məsələdən biri, artıq həll olunmuşdu! Gah sevinir, gah da ki qorxurdum, görəsən УИР-də problem yaranmaz?

ШТАБ-dan УИР-ə özümü çovğun kimi yetirdim. РАПОРТ-la teleqramı bürmələyib əlimdə tutmuşdum. Və azadlığın bircə addımlığındaydım.

Zadarojnının otağı bağlı oldu.

Özümü ora-bura təpib, öyrəndim ki, mayor Zadarojnı, Qordiyenko yoldaşın yeni gələn çağırışçılarla bağlı keçirdiyi СОВЕЩАНИЕ-yə gedib.

Odur ki, gözləmək lazım gəldi.

Dəhlizdə... bir qədər o yan-bu yana gəzib, həyətə çıxdım. Bir balaca sakitləşən kimi, yaxınlıqda dayanıb rus dilində söhbət edən əsgərlərə nəzakətlə yanaşıb, mərifətlə siqaret rica etdim.

Moldovan olduğunu bildirən əsgər siqaretimi yandıranda, tüstüsünü acgözlüklə içimə necə çəkdimsə, öz siqaretini alışdırıb yandırmaq istəyən, yanındakı belarus əsgərlə dayanıb heyrətlə üzümə baxdılar.

Cızhacız yandığımdan, cırtqozluq edərək:

-Sağ ol, ТРОЮРОДНЫЙ БРАТ! -deyib, cıvıldız kimi kənara çəkildim.

Həyəcan və azadlıq həsrətiylə, siqareti sümürüb yedim, zira içim heç soyumadı.

Bir yerdə qərar tutub dayana bilmirdim.

Ağlıma nə verdisə toparlanıb, qəflətən üzü ВОЕНТОРГ-a sarı götürüldüm.

Tələsik bir qutu kibritlə НЕФЕРТИТИ siqareti alıb, cəld qutunun sellofanını cırıb ağzını açdım. Siqareti yandırıb ağzıma qoyanda, bir qədər sakitləşərək, fikirlərimi cəmləmək üçün iradəmi köməyə çağırmalı oldum.

Addımlarımı yavaşıdıb, beynimdə Koroğlu üvertürasını dinləyə-dinləyə, düşünürdüm:

-Niyə darıxıram? Nədən sarsıntı, həyəcan keçirirəm? РОТА işə gedib, heç məni axtaran da yoxdur. Qurtarmaq necə olur? Azadlıq, lap əlimdəki РАПОРТ və teleqram kimi... ovcumun içində idi dəə. Səbrli ol, ağır ol, sakitləş, toxdaq dur.

Sən ki, alicənab qəlbə maliksən.

Düz bir saata yaxın gözlədim.

Nəhayət СОВЕЩАНИЕ qurtardı... və yüksək rütbəli zabitlər maşınlarına doluşub dağılışdılar.

Növbəti siqareti də o birinin oduna calayıb alışdırdım. Dayanmadan içimə sümürüb çəkdim və növbətçi əsgərə ədəb-ərkanla yanaşıb, tələsik dərdimi ona başa saldım.

Növbətçi əsgər məni dinləyib, əsgəri qayda-qanunlara riayət edərək... mayor Zadarojnını daxili telefonla yığdı.

Ürəyim yarpaq kimi, tel-tel əsirdi...

-Yoldaş mayor, sizi bir СЕРЖАНТ gözləyir...

Cavab aldı ki, burax, qoy gəlsin.

O məni içəri dəvət eləyəndə, yenə üst-başımı səliqəyə salıb, bükülü РАПОРТ və teleqramı əlimdə sahmanlayıb, qapını nəzakətlə döydüm.

Ürəyim, elə keçmiş sərçə ürəyi kimi, necə çırpınırdı! Nəfəsim hülqumumda tıxanırdı.

Hülqumum qurumuşdu.

Mayor Zadarojnı... РАПОРТ-tu və teleqramı nəzərdən keçirib ayağa qalxdı. Və mənə bildirdi ki, arxamca gəl. Başqa bir xidməti otağa keçdik. Orda bir neçə zabitlə nə danışdılarsa... gördüm ki, РАПОРТ-un üstünə nəsə yazır...

Pərdələri yana çəkilmiş geniş pəncərədən bayıra baxıb düşünürdüm: "Yox! Başqa cür ola da bilməz! Pis nə yaza bilərdi ki? Yazası olmasaydı, mənimlə bura niyə gəlirdi? Artıq hər şey, su kimi aydın idi, məsələ həll olunub.

Azadlığın nəfəsini duyurdum!

Gözlərimin qarşısına Komsomolum gəlirdi. Artıq təyyarədən enib, Bakı-Ağdam qatarına minirəm. Qatar, qoca Bərdəni ətəkləyir... Qatarın səsi qulaqlarımda taqqıldadı da... Qohum-əqraba, dost-tanış qarşıma çıxır. Bakıdan PRAHA-ya teleqram vurmağı da unutmuram..."

Zadarojnı sənədləri mənə uzadanda sanki yuxudan səksənib ayıldım. Otaqdan necə çıxdığımı xatırlamıram...

Artıq hər şey, sanki röyada baş verirdi.

Nəfəs belə dərmədən, bir xeyli КАЗАРМА-a istiqamətinə doğru qaçdım.

Qəfil yadıma əlimdəki РАПОРТ düşdü, tez dayanıb mayor Zadarojnının РАПОРТ-un üzərinə yazdığı dərkənarı oxumağa başladım:

ТОВАРИЩ ПОДПОЛКОВНИК ДЯКИВ A.A.....
УЧИТИВАЯ ПРЯМОЕ ОТНОШЕНИЕ К СЛУЖБЕ Т.А. БАБАЕВА УВОЛЬНЕНИЮ ИЗ РЯДОВ СА, НЕ ВОЗРАЖАЮ.
м-р:/ /ЗАДАРОЖНЫЙ В.С

Həyəcan, qorxu və təşvişlə dərkənarı oxuyub qurtaranda, yadıma düşdü ki, yanındakı zabit, hətta mayor Zadarojnıya dedi:

"Qoy ВЫПИСКА alıb gətirsin bizə, dəmir yolu üçün ПРОЕЗДНОЙ verək.

Zadarojnının əvəzinə hövlnak özüm cavab verdim: Baş üstə yoldaş mayor!

İndi РАПОРТ-la teleqramı yenidən aparmalıyam ПОДПОЛКОВНИК Dyakivin hüzuruna.

Yenə də bütün işlər düyünlənib... Dyakivin əlinə keçdimi? УИР-dən çıxanda uçmağa qanadlarım çatmırdı. Tez, bir НЕФЕРТИТИ siqareti çıxarıb, taxta kibrit dənəsiylə alışdırdım. Necə ləzzət elədi! Görməmiş-görməmiş elə sümürürdm ki...

Ey ulu tanrım!

Doğrudanmı əsgərliyi bitirmişəm?

Doğrudanmı azadlığa çıxıram? Doğrudanmı quşlar kimi azadlıqdayam, istədiyim yerə uça

biləcəyəm? Bu qədər... əzab əziyyətdən, iztirabdan sonra, doğrudanmı məşəqqətlərin sonudur?

Yitka Zahalkovanın yanına, PRAHA-ya doğrudanmı gedə biləcəyəm?

Xudaya-xudavənda!

Mülki azad insanlara... yaraşıqlı minik maşınlarına axı nə qədər həsədlə baxmaq olardı? Yollara çıxıb, gedib-gələn avtobuslara nə qədər yalandan axı Bərdə... Bərdə...-deyib, papaq yelləmək olar? Zülmün, sitəmin də bir sonu olmur?

Siqaret qurtaran kimi yenidən götürüldüm.

Qaça-qaça ШТАБ-a gəldim.

Artıq... dörd problemdən ikisi uğurla yerinə yetirilmişdi. İndi üçüncü üçün gəlmişdim.

Dyakiv yerində olmadı.

Hava soyuq olsa da, belimin nazik yeri tərləmişdi. Burnumu soxmadığım otaq qalmadı.

Dyakivi gördüm deyən olmadı.

Çölə çıxıb tələsik yenə də bir НЕФЕРТИТИ siqareti yandırdım. Əllərim titrəyirdi. Hər siqareti barmağım arasında tutub ağzıma aparanda barmaqlarımın necə əsdiyini aşkar görürdüm.

Siqareti əmib qurtaranda... bir qədər sakitləşdim və qayıdıb, kapitan Maltsevin kabinetinə girdim. Çox ümidli idim, odur ki arxayındım.

O, kürsüsündə yayxanıb telefonla danışırdı. Sakitcə yaxınlaşıb hərbi təzim etdim.

O danışıb qurtaran kimi, əlimdəki РАПОРТ və teleqramı masasının üstünə qoydum.

Kapitan Maltsev РАПОРТ-u, hərbi hissə komandiri ПОДПОЛКОВНИК Dyakiv və mayor Zadarojnının НЕ ВОЗРАЖАЮ yazılan dərkənarlarını və imza qoyduqlarına əhəmiyyət belə vermədən:

-ЕТО ЕРУНДА! - dedi.

Quruyub qalmağım heç vecinə də olmadı:

-Onlar yazmalıydı: "СРОЧНО УВОЛЬНЯТЬ!"

Elə bil ürəyim üzülüb yerə düşdü. Bircə bu qalmışdı, nə danışırdı ilahi? Bunlar sanki adama zərər vurmaqdan, könüllərini sındırmaqdan əlahiddə zövq alırdı. İt kimi əl-ayağımı yeyirdilər.

Sevincim elə bil səmadan yerə düşüb, şüşə kimi parçalanaraq qum kimi ətrafa səpələndi. Təşviş və təəcüb dolu, var qəlbimlə qışqırdım:

-Bəs, indi nə etməliyəm?

Əclaf çox soyuqqanlı şəkildə... hərbi zabit kitelinin cibindən bir ədəd ЯВА siqareti çıxardıb, arxasını masaya döyəclədi və sakitcə dedi:

-Bir də Zadarojnıyla Dyakivin yanına gir...

Az qaldım uşaq kimi ağlayam. Xudavənda bu cındır nə danışır? Sanki, mənimlə gizlənpaç oynayırdı bunlar. Bəlkə gizli əlbirdilər?

O siqaretini alışdıranda sənədlərimi qapıb, qapıdan güllə kimi çıxdım.

УИР-ə nə vaxt çatdığımı... qaçaraq dəhlizdən keçib Zadarojnının qapısını döymədən açaraq, heç kəsə əhəmiyyət vermədən özümü içəri təpişdirdim. Banka gedirdim artıq!

Mayor Zadarojnı meyid kimi ağappaq olub

tıncıxmış halda icazəsiz içəri girdiyimi görəndə, heyrətlə üzümə baxıb, hövllə soruşdu:

-ЧТО ПРОИСХОДИТЬ? В ЧЕМ ДЕЛО?

Kapitan Maltsevin söylədiklərini, ona başa salanda, əvvəl diqqətlə qulaq asdı... mahiyyətini başa düşəndə isə, qəfil üstümə bozardı:

-Bir də buraya gəlsən... evinizə 31 dekabr günü gedəcəksən... Mən general-deputat Krasik deyiləm ki... РАПОРТ-un üstünə СРОЧНО УВОЛЬНЯТЬ! sözü yaza biləm. Yaxşı əsgərsənsə, yaxşı СЕРЖАНТ-sansa, yaxşı komsomolsansa... layiqli xidmət eləmisənsə, hərbi hissə komandirin səni СРОЧНО da buraxacaq... Ciddi ali dəyərlər haqqında düşün, СТРАТЕГ Boyko... ya ikinci rotanın komandiri Bryusov sənə nəsə başa sala bilmir? Yoxsa... hər şeyi dərk edib, cibi boş olanlardansan? Yaxaları orden-medallarla dolu olan... hörmətli adamlardan dərs götür, onlardan məsləhət al, zəmanə qəhrəmanlarından ol...

Birdən də, səsini yumşaldıb, soruşdu:

-Anladın БРАТИШКА?!

Otağa sükut çökdü. Rüşvət məsələsini çox əvvəldən duysam da... belə çılpaq sonluq məni ha heyrətləndirsə də, rüşvət verməyəcəm... zira, qoy nə olur olsun, ölkənin yiyəsi yoxdu bəyəm?

Kreml, МК... bəs hara baxır?

Pörtmüş halda bayıra çıxdım.

Sanki qol-qanadım sınıb yanlarıma düşdü. İndi nə edəydim? Qayıda-qayıda düşünürdüm:

"Yenə də qaldımmı adımı eşidəndə nifrətlə udan Dyakivin umuduna, keçdimmi onun caynaqlı cənginə..." -bu biabırçı, nifrətəlayiq, iyrənc hərbi hiylə məni yamanca tutmuşdu.

Səbirlə düşünməyə başladım.

KOE-KAK, hərbi hüqüq qaydaları belə məsələləri daha aydın və sərt şəkildə həll edə bilərdi.

Orası da vardı ki, səmimi qəlbdən etiraf etsəm, məsələni həddindən artıq şişirdirəm.

Gözlərim heyrətdən böyümüşdü.

Daha, siqaret çəkmək həvəsim də qalmamışdı: Görəsən Dyakiv nə deyəcək? Yəni bizim cəmiyyətdə uğur qazanmağın yolu, doğrudanmı yalnız rüşvət bataqlığından keçir?

Heyvanlar! Fırıldaqçılar!

İntizarlı dəqiqələr yenidən başladı.

KA3APMA-ya qayıtdım...

Butsyakın uşaqları evlərinə gedirdi.

Aşağı təbəqədən olsa da, çox qürurlu olan Alik Ohanesyan da indicə gəlib çıxıbmış. Nəsə, Saratov vilayəti, akkord işi götürmək haqqında, azərbaycanlı əsgərlər qarşısında çıxış edir, tez-tez də БРАТВА, БРАТВА və aramızda yalnız həqiqət olacaq. Yalnız və yalnız həqiqət... -deyirdi.

Dünya əclafın vecinə də deyildi.

Heç hazırlaşmamışdı da.

Hörmət və rəğbət bəslədiyim bu ermənini məmnuniyyətsizlik hissiylə qucaqlayıb... naümid durumumdan kəkələyə-kəkələyə... təşəkkürümü

miyanəliklə bildirdim.

O ortabab razılıq etdiyimi və aydın gözlərimin sualla dolu olduğunu sezib daha da qızışdı, qıpqırmızı sifətiylə gülümsündü və dərhal da, iti nəzərlərlə üzümə baxaraq, ötkəm səslə:

-Ot yolun gah altında bitər, gah da üstündə, amma bitər... Arvadı tapşırığını verib, başqa hərəkət eləməyə də cəsarəti çatmaz! -dedi.

Yenidən ümidləndim:

-Nə yaxşı! Əgər bu gün, mən də sizin kimi ОБХОДНОЙ ala bilsəm, sabah elə birlikdə də gedərik! Özü də ЧЕРЕЗ ОДЕССА...

O əlini yelləyib, dodaqlarında təbəssüm:

-İşin düzəlsə, mənsiz getməyəsən haaa!

Hər ikimiz güldük.

-Görək dəə, çəyirtkə buludu kimi, başımın üstünü hələ qovğa alıb...

-Yaxşı olar... -deyib, o getdi.

Ohanesyanla söhbətim yamanca tuturdu.

Odessadan getsəm, Ağcabədili Nazı necə sevinəcəkdi! Anya xalanı da görərdim.

Bənövşəgözlüylə də son dəfə görüşərəm. Gedə bilsəm, 23 noyabrda Danonun ad gününə, Bakının özündən də teleqram vura bilərdim...

Saat 11:01 idi.

ШТАБ-ın qarşısında dayanıb... vicdanla götür qoy edə-edə, üzücü həsrət və həyəcan dolu zərif hiss və incə duyğularla haqqa tapınıb, Dyakivin yolunu ümidlə gözləyirəm.

Görəsən bu gecə, yeri narıncı rəng şalının qatları arasından görünən... çöhrəsi nurlu anam, yuxuda nə görüb? Onun ürəyinə bir şey damıbmı? Görəsən Komsomol necə, dərin düşüncələrə dalıb, günləri sayırmı?

Ehh... bircə bu xarabadan çıxa bilsəydim. Səsimdə həsrət və inamsızlıq duyulurdu.

Palıdı şineldə, əlimdə çamadan, zabitlərin geyindiyi kip lavsan ПАРАД forması əynimdə, bu КПП-nin qapısından uşaqlarımıza əl yelləyə-yelləyə çıxacağım anları gözlərim qarşısında canlandırdıqca, kövrək hisslər məni duyğulandırırdı.

Saat 14:00 vurdu.

ШТАБ-da dedilər ki, hərbi hissə komandiri, ПОДПОЛКОВНИК Dyakiv bir saata kimi gələcək.

15:00-da qəbul saatı idi.

Şamxor ermənisi, bütün işlərini sahmana salıb, ОБХОДНОЙ-unu da qolladaraq təhvil verdi. Axşam saat 17:00-a kimi də, xırda-para işlərini qurtaracaq... Butsyak da Alikə qoşulub, nəzakət qaydalarına xas olan bir sərbəstlik və qətiyyətlə məni inandırırdılar ki, Dyakiv səni buraxacaq.

РАПОРТ-un üstünü elə-belə yazmayıb ki?

Doğrudanmı bu gün mənə ОБХОДНОЙ veriləcək? Çevr tatı, vur tatı, üzülürdüm...

Hətta Alik söz verdi ki, bu gün ОБХОДНОЙ alsan, bir gün qalıb... səni gözləyəcəm. Birlikdə ОДЕССА-ya, oradan da Bakıya uçarıq...

Nə gözəl arzudur!

Dəqiqələr ötmək bilmir... ağrı-acılarım kimi daş olub, sanki sinəmdən asılıblar. Bu dünyanın işləri nə qəribədir? Çox baş sındırsam da, aydın düşünə bilmirdim.

Saat 15:00... 15:30...

КОМБАТ gəlib çıxmaq bilmirdi.

Axırda növbətçi əsgərdən xəbər tutdum ki, boynuyoğun ВОДОЗАБОР-dadır. İstədim axşamı gözləyəm gəlsin, lakin özümlə bacara bilmədim.

Həyasız Zaytsevin, birbaşa dedikləri məni ayıltsa da, ümidimi də qırdı:

"Mayor Zadarojnı yazıbsa: НЕ ВОЗРАЖАЮ, tam arxayın düşmə. КОМБАТ istəsə səni buraxa da bilər, buraxmaya da..."

Yəni taleyüklü qərar ləngiyə bilər?

Nə isə, qəfil, içi qızdırmadan yanan adam kimi, öz-özümə qəzəblə kükrədim... və hikkəylə əynimə БУШЛАТ geyinib kor-koranə ВОДОЗАБОР-a sarı tərpəndim. Zaytsevin sözləri, sanki diksindirib məni yuxudan ayıltmışdı.

Allah eləməmiş, naqis birdən o yan-bu yan eləyər, hec olmasa Vereskunun, ya kiminsə yanında çək-çevir etməyə vaxt qalsın...

Haqq hesab çürütməyin planını cıza-cıza, deyəcəyim sözləri ürəyimdə ölçüb-biçirdim.

ВОДОЗАБОР-a çatanda, gördüm əsgərlərim qara camaat kimi bərk işləyir. Qır tökür və yola asfalt salırdılar. Çox qızğın iş gedirdi... Vaynösə Sahiblə, qalın dağınıq qaşlı təpəsiz Mürşüd can-

fəşanlıq edir, həndəvərdə dayanmırdılar.

Bunlar, iki il idi, bax beləcə ertədən durar, sübhdən qaranlıq çökənə kimi yorulmadan işləyərdilər. Heç elə bil Laçın, ya Kəlbəcər bunların yadlarına da düşmürdü.

Yeni gələn МОЛОДОЙ-lar kimi... həvəslə qır daşıyır, yol salır, səki kənarlarını betonlayırdılar.

Düz 37 gün idi, Müdafiə naziri, bizim hərbi xidmətdən təxriz olunmağımız barədə, ДЕМБЛЬ əmri imzalamışdı. Bunlar isə, Biləcəridəki kişinin sözü olmasın, hələ də ПАХАТЬ eləyirdilər.

ПОДПОЛКОВНИК Dyakiv və РОТА-mızın komandiri Bryusov kənara çəkilib söhbət edir, müavinləri, Boykoyla gənc zabit Qreşnoysa, işlərin gedişatını kənardan izləyirdilər.

КОМБАТ-ı görəndə gözlərimə işıq gəldi.

İqrar etdirmək üçün onlara tərəf cəld, qəti və iri addımlarla yaxınlaşdım.

Dyakiv məni görən kimi... candərdi gülümsünsə də, peşə dəqiqliyi ilə soruşdu:

-НУ ЧТО?

Çibimdən sənədləri çıxarıb ona uzatdım.

Bu kiçik iş ürəyindən olmasa da, hətta ona əzablı görünsə belə, alıb oxumağa başladı.

Dumanlı baxışlarımda Komsomolum... eveşiyimiz, Bakı canlanmağa başladı...

Açarsız dolabçama əlvidamı deyirik?

Hətta qulaqlarımda qatarın takkatuk səsləri, təyyarə uğultusu səsləndi...

Ağbirçək nənəmin asta atılan ayaq səsləri... Qarasuyun çömçəquyruqları, yaşılrəng ağac qurbağası və qurbağalığının, könüloxşayan şən qurultusu. Həyət-bacalarından gələn it səsləri...

O şümür gözlərini qıyıb necə etinasız oxuyurdu... Qəfil gülüşü məni diksindirib xəyallarımdan ayırdı, çiyinlərini atıb, amansızcasına:

-Yox! Belə olmaz... get işlə... axşam baxarıq... sən ki, başa düşməlisən... -dedi.

Üşərgələndim,

Bədənim soyudu bəni-növi-bəşər nə qədər insafsız olarmış. Uydurduğu min-bir cür yalanın arxasında rüşvət dururdu, yəni rüşvət verməsən boynunun ardını görərsən...

-Necə axşam baxarıq? Yəni nəsə çatmır? -məzlum-məzlum soruşdum.

-Bilmirəm... Bilmirəm, -dedi.

Qulaqlarım uğuldadı... Bu məni buraxmaq istəmir, nədi? Məsələ aydın idi. Necə axşam baxarıq? Axşama... nə qalmışdı ki? Nə dəyişəcək? Quq-qulu-qu, quq-qulu-qu, bu da axşam...

O sənədlərimi qatlayaraq zabit mundirinin döş cibinə qoydu və dayandığı yerdən aralanıb getdi. Sanki dedi: Bu kol, sən girən kol deyil...

Yenə rüşvət? Kor quruş da verən deyiləm. Minnət-sünnət eləyən də deyiləm. Arvadından it kimi qorxurdu bəs bu? Bəlkə, gözəşirin ləçər arvadı heç təvəqqe etməyib bundan?

Kaş... bu dəm əlimə, bir mauzer tapançası

düşəydi, baxaydıq kim, kimdir.

Ya zəhərli qunduşdan yedizdirib...

Bir an tutuldum, qorxunc bir rişxəndlə:

Deməli, o PAПOPT-un üstünü yazanda bilirmiş ki hələ bu, hər şey demək deyil... Təmənnası üçün, bəlkə arvadına boyun əyib yalvarıb, ya özü, məhz belə planlaşdırıb?

Bəs arvadın hökmü?

Mübhəm sevgisinə sədaqəti?

Axı... Ohanesyan demişdi ki,arvadının sözündən çıxmağa cürəti, cəsarəti, kişiliyi çatmaz?

Deməli CTPATAГEMA işlədib?

Markaryanla salyanlı Adili rüşvətlə buraxa bilir, məni qanuni sənədlə buraxa bilmir?

Hə?

Məlulluqla boylandığımı görəndə Boykoyla Bryusov mənə yaxınlaşdı. Rəngim avazımış, sinirlərim oyanmışdı. Yenə də, qanadı sınmış quş kimiydim. Sanki, əsməcə tutacaqdı...

Bryusov canıyananlıqla qoduqlandı:

-Axı niyə mənə belə pis-pis baxırsan? Sənə kömək edə bilmirəm. Onun mənimlə də arası yoxdur! Münasibətimiz çox pisdi. Səhərlər görüşəndə salamlaşmırıq... Məni başa düş...

Bu götürqoyda, Boyko hər ikimizi dinləyib:

-Özü səni buraxmaq istəmir, bil ki biclik işlədir. Mübarizə aparmaq lazım gələcək, yoxsa... heç nədən ali təhsildə bir il də geri düşəcəksən. Axşam bir də qəbuluna gir. Əl çəkmə. Veresku-

nun yanına şikayətə get. Susma, o МУДАК-dır!

Bryusov və Boykoyla bu söhbətdən sonra, bir az ürəkləndim. Deməli, ağ bayraq qaldırmaq, geri çəkilmək olmaz! Mübariz olmaq lazımdır!

Dyakiv yaxınlıqda olmalı idi, odur, hər ikisi məsləhət gördü ki, bir-iki saat işlə, o gəlib yoxlayacaq. Axşam da, qəbuluna gedərsən.

Uşaqlarım НОСИЛКА-larda qır daşıyır, yarısı da, taxta ШВАБРА-ya oxşar alətlə yayır, dəmir barabanla da yayılmış qırın üstüylə dala-qabağa sürürdülər ki, asfaltı yatızdırıb bərkitsinlər.

Barabanı, qayışbaldır Turabxanın əlindən alıb özüm sürməyə başladım. Mayıf Mamed də, əlində tutduğu köhnə bir əski parçasıyla barabanı salyarkalayırdı ki, qır dəmir barabandan rahat aralana bilsin. Asfalt buğlanırdı...

Xeyli beləcə işlədim ki... xəbəri donuzaoxşar Dyakivə çatsın və məsələni, elə bu axşamca biryolluq həll edə bilək. Əbədiyyətə kimi...

Qreşnoy yanıma gəldi, ədəbaz-ədəbaz:

-Nahara kimi hardaydın?

Nə qədər təkrar-təkrar soruşdusa, yenə də cavab vermədim. Yanıb-yaxıldı.

Xəbər yayıldı ki... taytax Nadirin briqadası yenidən akkord götürür. Deyəsən bu dəfə həqiqi akkord olacaq, zira, gethagetdir.

Trofimov, Vasilyev, Qalko, Kuzma, Reznişenko da yığışıb, akkordu birlikdə götürüblər...

Növbəti xəbər də yayıldı:

Xallı Ariflə qayışbaldır Turabxan, vaynösə Sahiblə işləmək istəmir, odur ki, onlar da taytax Nadirin briqadasına keçmək istəyir.

ЕФРЕЙТОР İlyas, Qriş və Gözəlov da, vaynösədən narazılıq edir, onunla işləmək istəmirdilər. Kəlbəcərli az bir vaxtda özünü unutmuşdu.

Kuybışevli Hüseyin uşaqlara deyirmiş ki:

"Babayevin qədrini hələ sonralar biləcəksiniz! Ona görə deyiblər: Müsəlmanın sonrakı ağlı kaş ermənidə ola..."

Axşam şər qarışan kimi, ЕФРЕЙТОР İlyas və camışa gomuş deyən taytax Nadirlə birlikdə КАЗАРМА-ya qayıtdıq. РОТА hələ işləyirdi.

Bu gün, yaxşı gün çıxsa da, hava çox soyuq keçmişdi. Əsl xarço havasıydı...

Qayıdanda ГОРОДОК-dakı mağazaya baş çəkdik. Yeni malları yox idi. Badımcan ikrası və qara çörək alıb, КАЗАРМА-ya gəldik.

СУШИЛКА-da oturub, mırt vura-vura yedik.

Axşam yeməyinəsə getmədim.

Çox həyəcanlı idim.

Dyakivin ШТАБ-a gəlməsini gözləyirdim...

Növbətçi xəbər gətirdi ki, Dyakiv gəlib, yerindədir. Özümü qaranəfəs yetirdim... və qapını nəfəs dərmədən, ehmalca dınqıldadıb içəri keçdim. Qapıda dayanan növbətçi əsgər, məni belə təlimatlandırmışdı. Qırımından başa düşdüm ki, elə yolumu gözləyirmiş.

Kapitan Maltsev də yanındaydı...

Hərbi təzim edib, özümü təqdim elədim. O rəsmi qaydalara uyğun: ВОЛЬНА! -əmrini verib, mənimlə çox səmimi və açıq söhbətə keçdi:

-Heç mənim də gücüm çatmır ona, yoldaş СЕРЖАНТ! Vereskun özü şəxsən tapşırıb ki, onu təhsillə bağlı, noyabr ayının 27-dən sonra buraxa bilərsiniz. Mən bu tapşırığın qarşısında artıq heç nə edə bilmərəm. Özün başa düş, bu rəsmi hərbi əmrdir. Bacardığım bura qədər idi. Hesab elə ki, noyabr ayının 27-də artıq evinizdəsən!

O əsgər taleyinə biganəliklə yanaşıb əsas gətirsə də, nitqini qurtaran kimi, hücuma keçmə ehtimalının zəruri olduğunu anladım.

Və dərhal, üstünə atıldım:

-Yoldaş komandir, iki il çəkdiyim əziyyətlərin boşa çıxmaması üçün bir çox arqumentlərim var: Mən iki ildir vətənə sədaqətlə xidmət göstərirəm. Sıravi əsgər ola-ola yekdilliklə mənə rütbə verib komandir ОТДЕЛЕНИЕ qoydunuz. İki ildir ki, vətən yolunda, haqqına nə olubsa vətəni... haqsızlıq olubsa, həmyerlilərimi müdafiə eləmişəm. Vətənin bir qarış, ya bir qaşıq torpağına xor baxanlara qarşı qanımı, canımı gözlərimi qırpmadan belə, qurban verə bilərəm. İynə hara sap da ora. Sizsə mənə iynə ilə gor qazdırırsınız.

Niyə vətən mənim kimi qeyrətli vətəndaşına belə biganəlik göstərir görəsən?

Vereskunu aya hürdürən nədir?

Bəlkə Sovet İttifaqı heç bizim vətən deyil?

Köləyik bəlkə?

Sov. İKP sıralarına məni erməni xumbaçılarının apardıqları məqsədyönlü siyasətinə görə qəbul eləmədiniz. İndisə təhsildən iki il ayrı düşdüyüm bəs deyilmiş kimi, bir il də ləngitmək istəyirsiniz. Niyə ovsanadan çıxarırsınız?

Müsəlman olmaq bu firavan ölkəmizdə nə vaxtdan qəbahət sayılmağa başlayıb?

Ayıb deyil?

Evdəki hesab bayıra çıxmaz.

Haramzada, əyyaş Markaryan və salyanlı Adil araqla, eyş-işrətlə, hauptvaxtlarda hərbi xidmət keçirdikləri halda, burunlarını ovmaq əvəzinə, gör nə vaxtdan tərxis eləmisiniz gediblər?

Bəs onda həşəmətli Vereskun niyə dillənmirdi? Niyə biganəlik göstərirdi? Bəs niyə mənə səkkiz yumurta verib doqquzunu istəyirsiniz?

Səbir təkamülün babasıdır deyiblər, amma nə qədər səbir etmək olar?

Utanıram vallah işə getməyə də.

Yerimə təzə adam təyin olunub və əlimdə sənədlərim qalmışam ortalıqda... Müdafiə naziri 37 gündür əmr imzalayıb. Sevindim quşum var, quşum var, aralığa çıxdı sərçə balası...

Onların susduğunu görüb, davam elədim:

-Mənim özümün də, nə vaxtsa oğlanlarım olacaq. Onları, etibar eləyib göndərə biləcəyəmmi vətənin keşiyində dayansınlar?

НАРУШЕНИЯ-sız əsgərlik çəkməyin bir bəh-

rəsi olmalıdır, ya yox?

Bir həftə iynə üstdə gözləməyimə rəğmən ВОДОЗАБОР-da, ya vətəndə nəsə dəyişəcək bəyəm? Bəlkə strateji obyekt təhvildən qalacaq?

Briqadamın əsgərləri onsuz da iki ildir qul kimi istismar edilir dəə... Bizlərdə bir məsəl var: Bir işdə özünə on mənfəət varsa, xalqa bir zərər, o işə başlama heç!

Arvadın tutduğu işin sonu elə belə də olar, yaxşıca bir məsəl var, deyirlər ki: Arvadın öyüdü arvada keçər. Biz arvad vədinə arxalandıq, bəlkə qəbahətimiz burdan başladı?

Arvad məsələsini nəyə görə eyham vurduğumdan kapitan Maltsev bir şey anlamasa da... Dyakiv oturduğu kresloda yumağa döndü.

Onlar uzun monoloqumu dinləyəndən sonra, hərbi hissə komandiri Dyakiv kor-peşman olmuş halda ağır-ağır ayağa qalxıb asılqandakı şinelinin döş cibindən sənədlərimi çıxartdı.

Bir qədər РАПОРТ-un üzünə tamaşa edib, sənədlərimi kapitan Maltsevə uzadaraq, məyusluqla göstəriş verdi:

-Sabah, ПОДПОЛКОВНИК Mixaylovun yanına get, məsələni ona başa sal. O razı olsa, buraxaq getsin! Babayev yaxşı СЕРЖАНТ olub!

Kapitan Maltsev söhbəti yumşaltdı:

-Xidmətləri çoxdur... Divar qəzetlərini daim o tərtib edib. ПИСЕР işləyib. Hamı ondan razıdır. Savadlıdır, idmançıdır, hauptvaxta bir gün də ol-

sun düşməyib. Üstəgəl Azvoyenkomun teleqramı, institutun göndərdiyi sənədlər...

Qulaqlarıma inanmadım. Bəlkə bu da növbəti bir tələdir? Yoxsa, deyildiyi kimi: Bir yandan bağlayan bir yandan açar... məsəlidir.

Həm də həyatdır dəə, həyat mübarizədir.

Ağrımaz baş qəbirdə olur...

Bəs ПОДПОЛКОВНИК Mixaylovluq nə iş var burada? O ki, bir başqa hərbi hissənin komandiridir. General-deputat Krasik deyil ki?

İstədiyi yerə burnunu soxa bilə...

Əlqərəz... onlardan ayrılıb dəhlizlə həyətə enəndə, ağzıma ləzzətlə... bir ədəd СТОЛИЧНЫЕ siqareti qoydum. Və... siqareti alışdırıb, dərin bir qüllabla, tüstüsünü ciyərlərim tutan qədər, içimə çəkəndə... hiss elədim ki, məsələ bitib! İşıq yolu var və məni bu gün-sabah olmasa da, qəti deyə bilərəm ki, iki-üç günə hökmən buraxacaqlar!

Lap özü dediyi kimi, noyabr ayının 27-sində buraxsalar da pis deyil.

Dediyi düzdürsə, düzü, artıq bu dəfə onun düz danışdığına qəti inandım.

Sovet ordusunun ПОДПОЛКОВНИК-idir, yəni bu cür riyakarlıq eləyər?

Yox, bu dəfə inanmıram.

Şərəfsizliyin də bir həddi var...

Xülasə, КАЗАРМА-ya qayıtdım.

Ümidli olsam da, ürəyimin dərinliyində arxayın düşsəm də, nədənsə kefim heç açılmırdı.

Bir az içəridə vurnuxub darıxdım və yenidən bayıra çıxdım. Və elə bu vaxt, azərbaycanlı həkimlə qarşılaşdıq. O məni görən kimi, fışqırıq çalıb, sevinclə əl uzatdı və yalan-gerçək:

-Alikə demişəm səni gözləsin, sabah birlikdə gedərsiniz! Əbləh odur dünya üçün qəm çəkər, tanrı bilir, kim qazanar, kim yeyər...

O elə bilirdi, sabah mən də gedirəm. Hərçənd bu gün... Alik Ohanesyan özü getmək istəmir, sabaha da həkimə ya, mənə görə qalmırdı.

Səbir cənnət açarıdır, odur ki, heç həkimin üzünə də vurmadım və qucaqlaşıb ayrıldıq...

Axşam, bütün POTA-nı KAZARMA-nın qarşısına yığdılar və iki sıra cərgəyə düzdülər.

Baş leytenant Boyko erkən elan elədi:

-Hamı bir nəfər kimi kartof soymağa!

Əsgərləri POTA komandiri Bryusov şəxsən özü, jurnalla, adbaad yoxlamağa başladı.

Birdən, KAZARMA-nın qapısı ağzında, məni ПРАПОРЩИК-СТАРШИНА Bandısik gördü. Və iynə udmuş köpək kimi, dərhal Bryusov eşitsin deyə, gözlərini bərəldərək, təpiyini yerə döyə-döyə var gücüylə bağırmağa başladı:

-БАБАЕВ ВСТАНЬ В СТРОЙ! КОМУ ГОВОРЮ? КОНЦЕ-КОНЦОВ... БАБАЕВ ВСТАНЬ В СТРОЙ!

Bryusov gözünü jurnaldan çəkmədən:

-Ona toxunma! O daha mülki vətəndaşdır! Onun briqadasının komandiri də var: Akperov...

Bəli, POTA kartof soymağa getdi.

Cavan zabitlər növbə ilə bir-birini əvəz edir və şövqlə qışqırırdılar:

РАЗ... РАЗ... РАЗ... РАЗ... ДВА... ТРИ!

МОЛОДОЙ əsgərlər şax dayanıb var gücləri ilə təpik döyürdülər. Baraban, şeypur səsləri sıra meydançasını başına almışdı.

Köhnə hamam, köhnə tas...

Qayıdıb КАЗАРМА-da bir qədər də qurdalanandan sonra, СУШИЛКА-dakı isti buxar borularının üstünə uzanıb, qüssə dolu fikrə daldım.

Necə deyərlər, fikir dəryasına qərq oldum.

Hövsələm tükənmiş... nənəmin sözü olmasın, bircə tikə olmuşdu.

Birdən necə oldusa, orta məktəb yoldaşlarım yadıma düşdü. Əvvəl parta-parta hamını yada saldım: Aidə, Saidə, Sevda, Xuraman, İmmi, Tariyel, Tahir, Etibar, Saqi, Nizami... Sonra da... huşumu başıma toplayaraq sinif jurnalımızı gözlərim önünə gətirdim. Bircə-bircə hamını adbaad xatırlamağa başladım, ətbala qız-oğlanlar idik...

1956-1967-Cİ İLLƏR...

Bərdə şəhər, Hüsü Hacıyev adına 1 nömrəli orta məktəbin X "b" sinif şagirdləriydik.

İlahi! Biz o vaxt necə dəcəl, qayğısız, şən, qürurlu bəxtəvərlərdik. Necə, tez böyüdük! Sanki hər şey, göz-qaş arasında baş verdi.

Orta məktəb adı çəkilən kimi... Xuramanla Adilə dərhal yadıma düşür, təbəssümlü çöhrələri gözlərim önündə canlanır, qəlbimi incidirdi...

Hə, sinif jurnalımızda adlar ardıcıllıqla belə düzülmüşdü, yaxşı yadımdadı:

1.Ağayev Tahir Soltan oğlu. (tel. 2-22-74)
2.Abbasov Abbas \qardaş-bacı, kənddən
3.Abbasova Rəna \ gəlirdilər.
4.Nəcəfova Rasimə Göyüş qızı.\ 2 bacı.
5.Nəcəfova Şəfiqə Göyüş qızı.\
6.Ələkbərov Oktay Əli oğlu.
7.Əzimov Etibar Xasay oğlu.
8.Əliyeva Sevda Murad qızı.
9.Ələskərov Ərəstun.
10.Tağiyev İskəndər Şəfa oğlu.
11.Tağıyeva Xalidə Muxtar qızı.
12.Təhməzova Saidə Əmrah qızı.
15.Babayev Tofiq Əli oğlu (2-24-54)
16.Bəylərova Xuraman Məhərrəm qızı.
13.Bağırov Nizami Çəlil oğlu.
14.Bağırova Esmira Mustafa qızı.
17.Qasımova Xalidə İsa qızı.
18.Qasımova Elza İsa qızı.
19.Şükürov İsa İbrahim oğlu.
20.Muradov Tariyel İsmayıl oğlu. (2-20-12)
21.Musayeva Solmaz Yusifəli qızı.
22.Məmmədova Qətibə Hüseyin qızı.
23.Məmmədova İbadət.
24.Məmmədova Solmaz Cəlal qızı. /
25.Məmmədova Hicran Cəlal qızı. / 2 bacı
26.Məmmədova Elza.
27.Məmmədova Firuzə.

28.Zahidov Süleyman Nəriman oğlu.
29.Zeynalova İmmİ Rza qızı.
30.Vəliyeva Aidə Əbülhəsən qızı.
31.Cəfərova Nuridə.
32.Həsənov İsbəndiyar Soltan oğlu.
(2-18-02)
33.Fətəliyev Məmməd Hüseyin oğlu.
(2-26-70)
34.Xəlilova Zenfira Misir qızı.

Eyzangül və bir də xəstə qız, adını nə qədər elədim xatırlaya bilmədim.

Yamanca kövrəlmişdim.

Sonra... gözlərim qarşısında ДЕМБЛЬ mənzərəsi canlandı. Budur, ОДЕССА-dayam.

Artıq əynimdə əsgəri şinel, əlimdə çamadan АЭРОПОРТ-dayam...

Üç-dörd saatdır, Bakıdan ОДЕССА-ya uçan təyyarəni səbirsizliklə gözləyirəm.

Artıq, elan eləyirlər.

Gəlir!

Böyük LOKATIRLAR əvvəlcə hərəkətə gəlir, sonra, fırlanmağa başlayır.

Son ümid, son pənah yerim.

Saata baxıram: 17:08...

Budur, TU-134 havada görünür. Günəşin al qırmızı şəfəqləri təyyarənin gümüşü göyərtəsində bərq vurur. Ümidverici uğultu səsi...

Hava gəmisi gözlərimin önündə irilir.

Tüstülənə-tüstülənə, enmə zolağına istiqa-

mət alır. Gurultu aləmi başına götürür...

İndi cavan, yeniyetmə... nar, ГВОЗДИКА satan azərbaycanlı bazar alverçiləri, ana dilimizdə söyüşlə danışa-danışa, şit zarafatlarla ТРАП-dan qara eynəkdə enəcəklər. Əli diplomatlı, başı Əliağa Vahidin boz panamasına bənzəyən ziyalılarımızsa soz yox, onlara məhəl də qoymayacaq.

АЭРОПОРТ işçiləri çox mütəşəkkil şəkildə, və peşəkarlıqla işə başlayacaqlar. Başını aşağı salıb hərə öz işində gücündə çalışacaq...

Təyyarəni yanacaqla dolduracaqlar.

Təyyarənin ЭКИПАЖ-ı bir-iki saat istirahət edib dincələndən sonra, yeni sərnişinləri Bakıya qaytaracaq və...

Mən də, gözümə gün şəfəqləri saça-saça, qürurla, yoxlayan qıza qıpqırmızı hərbi biletimin arasında uzun aeroflot biletini uzadacağam...

Sıraya durmaq istəməyən müsəlman sərnişinlər toplam şəkildə, itələşə-itələşə gözlərimdə canlanır... və hətta, səsləri də qulağımda cingildəyirdi. Tükü lələyə oxşayan bir arıq qadınsa, qəfil alverçi oğlanın üstünə bərkdən çəmkirir:

“Harınlamısan əəə..?”

Düz iki il idi ki, qadın ağzindan çıxan belə kobud sözləri eşitmirdim...

İsti buxar borularının üstündəki qaynarlanmış dəmir УГОЛЬНИК-lər məni əzir və yandırırdı.

Qalxıb bir az oturandan sonra, çarpayıma doğru getdim. Amma yatmaq həvəsim yox idi.

Xebelərimi soyunub səliqəylə, dolabçanın üstünə yığandan sonra dolabçanın gözünü açıb, M.Ə.Sabirin HOPHOPNAMƏ kitabını, yeni aldığım OГOHËK və köhnə ULDUZ jurnallarını götürüb yerimə üzandım. Həmişə oxuyanda rahatlanıram.

Əvvəl, HOPHOPNAMƏ-ni açıb Sabirin satirik şeirlərindən bir xeyli oxudum.

OГOHËK jurnalını vərəqləyəndə... yenə də, o pakistanlı qızın fotosuna gözüm sataşdı.

Fotoşəklin altında yazılmışdı:

Benazir Bhutto.

Şəkildə gülümsəyirdi... Ağ sədəf kimi muncuq dişləri vardı. Qarayanız olsa da, çox cazibadar, gözəşirin olan bu arıq qızın düz burnu vardı. Qara kaman qaşlı bu qız düz iki yaş məndən kiçik idi. 1953-cü ildə doğulmuşdu. Hər onun gülümsəyən şəklinə baxanda, nədənsə huşum başımdan gedirdi. Anam kimi, başına ağ şal bağlamışdı. Birdən düşündüm ki, görəsən, elçi göndərsəm onu mənə verərlər? O Harvard universitetinə qəbul olunmuşdu. Mənsə...

Müsəlman olsa belə saçını qısa kəsdirmiş, oğlansayağı ayırmışdı və məni ona bağlayan da məhz elə bu məğrurluğu idi.

Romantik qıza oxşayırdı.

İki qardaşı vardı: Mürtəza və Şahnəvaz.

Avropada təhsil almış atası... Zülfüqar Əlixan Bhutto Pakistanın prezidenti idi.

Benazirin 12 yaşı olanda, anası ona çadra

geyinməyi təklif edir. Ancaq atasısa deyir: İslam qadına şəxsi həyatını qurma azadlığı verib, qoy özü qərar versin. Benazir özü isə... qərarını verir və çadradan imtina edir.

Bu qarayanız gözəşirinin 19 yaşı vardı

Prezident atası, müsəlmanlar kimi dümağ, uzun paltar geyinirdi. 1928-ci ildə, yanvar ayının 5-də, Pakistanın Larkan şəhərində doğulmuşdu.

Mən Benazirdən, onun atası isə atamdan, düz iki yaş böyük idi. Pakistan Xalq Partiyasının yaradıcısı və lideri olmuşdu.

Mən hardasa Benazirin vurğunu idim, amma söz yox ki, biz nə görüşəsi idik, nə də, sevişib evlənəsi, nə də ki, nə vaxtsa qarşılaşası...

Tamam ayrı-ayrı təbəqənin zümrələriydik. Di gəl, onun şəklinə hər baxanda riqqətə gəlirdim. Bu qızın özünün də, gözəl gələcəyi olacaq.

Sözsüz!

Ehh... Kaş mən də, onunla Amerikada bir qrupda, Harvardda təhsil ala biləydim...

Görünür biz bu missiya üçün gəlməmişik.

Öz adını özgələrdən soruşanlardanıq.

ОГОНЁК jurnalından gözümü çəkdim...

Ulduz jurnalını açıb oxumaq istəyəndə içərisindən sinəmə iki ədəd saralmış vərəq düşdü.

Götürüb baxanda, nə görsəm yaxşıdır, 7 il əvvəl 1965-ci ildə... qonşu Sərxanın qızbibi oğlu Vaqif Həsənovun Bakıdan mənə, qoca Bərdəyə yazıb ünvanladığı məktublardır.

Görünür ki, nə vaxtsa bu jurnalı oxuyanda arasına qoymuşam. Çox maraqlıydı.

Bu məktubu mən Vaqifdən alanda, cəmisi 3 gün idi ki, 14 yaşım tamam olmuşdu... 6 fevral və 3 iyun 1965-ci il... Məktubların hər ikisini açıb yenidən oxumağa başladım.

Məktubların mətnini nöqtə-vergülünə belə toxunmadan, yazıldığı kimi köçürürəm:

"Hörmətli məktub.

Salam! ---------- Tofiq!

Salamdan sonra əgər zəhmət çəkib mənim əhvalımı xəbər alsan sağ və salamat varam sənin və sənində yoldaşlarının sağ və salamat olmağını arzu edirəm. Məni bağışla gedəndə vaxtım olmadığı üçün sizinlə görüşə bilmədim.

Yaz görüm Rafiq nədən ötrü xəstəxanada yatır. Mən sənin məktubunu alan kimi xəstəxanaya getdim. Mən ГОГОЛ 98 кв 46 №-li orada ev tapmadım. Yəni küçənin axırına kimi getdim ancaq ГОГОЛ кв 26 № li ev gördüm bundan sonra küçə qutardı. Mən çox gəzdım ancaq xəstəxananı tapmadım. Xahişdi edirəm onun düzgünü АДРЕС-ini mənə yazasan və telefon nömrəsini mənə yazasan.

Mən elə bilirdim ki, bizim küçədə hamı birbirinin hörmətini istəyir lakin bir neçəsi bundan kənardırlar. Mənə yaz görüm heç futbol oynayırsınız? Mən gedəndən heç aparatı doldurub şəkil çəkmisinizmi.

Rafiq ayın neçəsində xəstəxanaya gəlibdi. Sabir buradadımı. Mən istədimki Sabirin yanına gedib Rafiqin düzgün АДРЕС-ini alam ancaq yadıma düşdü ki, Sabir Bərdəyə gedibdi ona görə də getmədim.

Sən indən belə də mənə məktub yazanda aşağıdakı АДРЕС-ə yazasan.

ГОР. БАКУ. УЛ. НИЗАМИ 14 ВЛОК 1 КВ 9.
ГАСАНОВ ВАГИФ.

Məndən Əli dayıya, МАМА-na, nənənə hamıya uşaqlara salam söylə. Daha bu qədər nə yazım məndən uşaqlara salam söylə.

Məktub gözləyirəm.

Sağ ol

İmza: Həsənov Vaqif.

6/II.1965 poçta 10 köpük, ver ki tez gəlsin Rafiqin АДРЕС-ini və telefon nömrəsini yaz.

*****

Salam Tofiq.

Salamdan sonra da əgər zəhmət çəkib mənim əhvalımı xəbər alsan sağ salamat sizdən sağ və salamat olmağınızı arzu edirəm. Sən yazmısan ki, nə üçün mənə məktub yazmırsan. Ancaq sənə mən məktub yazmışam. Mən "cəbrdən" imtahan verib "4"qiymət almışam. Səhər sə yəni iyunun 4-də həndəsədən imtahan verəcəm. Xahiş edirəm Zakirgilnən mən gələndən sonra oynayın. Mən iyunun 17, 18-də orada olacağam. İmtahanım isə 15-də qurtarır. 2-ci dövrəni ayın 12

-də başlayın ki, mən iki oyunda iştirak edim. Daha bu qədər çox sağ ol. Məndən hamıya salam söylə. Cavab gözləyirəm.

İmza:Vaqif .

Mən təzə bir valibolnu top almışam Bir dənə də butsi varımdır."

*****

O bu məktubun sonunda tarix göstərməmişdi. Zərfin üstündəki möhürdən oxudum:

5 iyun 1965, Bakı.

*****

Yenə nostalji hisslər məni bürüdü...Yazıq, sadəlövh Vaqif, yazıb ki, poçta 10 köpük pul ver, məktub tez gəlsin...

Bu söz məni çox duyğulandırdı...

Dərindən köks ötürüb, bir xeyli gözlərimi yumaraq o illərə qayıtdım...

Kiçik taxtaları bir-birinə, xaç şəklində gülmıxla mismarlayıb, rəngli parça qırıqlarından da üzünə çəkər, godul düzəldərdik. Və onları sevib necə əzizləyər, bu taxta gəlincik kuklaları palçıq evciklərimizdə özümüzə necə arvad edərdik...

Uşaqlıq dövrümüz necə abırlıydı!

Hər şey nə tez keçdi...

Jurnalı yenidən vərəqləyib çox maraqlı bir yazı da tapa bildim:

"Əliağa Vahidlə Səməd Vurğun, səhər-səhər xaşdan yeyib, araqdan da o ki var vurandan sonra, gedirlər dənizkənarı bulvara.

Elə yenicə taxta oturacaqda oturub... dənizin sərin havasını alırmışlar ki... görürlər, zolaq-zolaq parçadan dar don geyinmiş... dolu, cavan, gözəl, biçimli bir qız bunlara sarı gəlir.

Səməd Vurğun tez Vahidin qulağına deyir:

"Bu qıza bir qafiyə tuta bilərsən?"

"Niyə tutmaram?" -cəld... Vahid ayağa qalxıb qızın qarşısını kəsir və deyir:

-"Xanım qız! Donunuz da mübarəkdir zolaqlarıynan..."

Qız Səməd Vurğunu işarəylə Vahidə göstərib qəflətən deyir:

-"Asta danış ə, eşidən var qulaqlarıynan!"

Əliağa Vahid qızın hazırcavablılığına mat qalıb, tez-tələsik deyir:

-"Vahid bu axşam sizə gələcək... qonaqlarıynan..."

Qız əyilib Vahidin qulağına pıçıldayır:

-"Götünü yeyəcək dədəsi dodaqlarıynan!"

Qız ötüb keçir və bu vaxt, Əliağa Vahid iki-əlli öz başına qapaz vurub, olanı ona anladır:

-"Səməd, Səməd sən öl bu qız qazaxlıdır," -deyir və gülməkdən uğunub gedirlər..."

Yazı könlümü açdı...

Bir xeyli xoş ovqatla ata-anamı, qardaşlarımı, bacım Yeganəni xatırladım. Onlar məni görəndə necə sevinəcəklər.

Hələ huri kimi Komsomol!

Sonra da qonum-qonşular və dost-tanışlar,

qohumlar, tələbə dostlarım...

Hələ, ağ mirvari sırğalı Məhbubə xala!

Və dostum, qasırğa Tahirlə azadlıqda.

İlahi!

Hamısı necə şirin, lap yuxulardakı kimi idi.

Benazir Bhutto, Əliağa Vahid bir yana qalsın, bircə bu xarabadan cəhənnəm olub çıxa bilsəydim, heç dərdim olmazdı.

ЧЕХОСЛОВАКИЯ-ya putyovka axtarmaq.

Yasamaldakı evimiz...

Göydodaq, xoşqeyrət dəllək Nüsrətin qaytandodaq, qaradinməz oğlu Əlövsət...

Zurnaçalan Məhəmmədin təəssübkeş oğlu, klarnetpüfləyən və dəlləklik edən Savalan...

Qısır heyvan kimi, sonsuz Zeynəb xalanın götürüb saxladığı talesiz, nəşəxor Araz Xıdırov...

İranlı taksisürən Yusifin gopçu, həməyir və it yalançısı olan oğlu, Xosrov Mamedov...

Taxta sayğacla çaq-çuq salıb çötkəyə vuran, donbalangöz Adolf Qanboyun qurbağagöz, simasız, siqlətsiz oğlu Ələsgər Həsənov...

Qaraçı Hətəmin quyruğu, Namiq Quliyevin qarşısında nəsillikcə bir ovuc torpaq olmalı olan, çörəyi dizinin üstündə, palaz Vidadi Muradov...

Arı yeyib... namusu da dalına bağlayan İlham Babayev və atasını ayaqları altına salıb eşşək balası kimi çığnayan, həzarpeşə Vaqif Hüseynov, əsl atasının kimliyini q.Bahar xalanın bir özü, bir də Allahı bildiyi qəbahətindən olan oğlu.

Mən dedim... sən eşitmədin, necə deyərlər, mən dedim: “Zənbil”, ta dalını sən özün bil, ay İlham Babayev, onun-bunun hesabına qarın bağladığın bəs deyil, utanmırsan heç?

Ölünü vaxtında ağla ay Vaqif Hüseynov, el gələr tünlük olar. Bəs deyil Bərdədəki yas yerlərindən pul çıpıtdığınız? Bütün bərdəlilər, o cümlədən: Şərifov Saday, Muradov Şəhriyar, Abduləzimov Raquf, iranlı Yadigar, Qəhrəmanov Mahir, Şərifov Əliş, öz gözləri ilə görüblər eyy...

Məsləkbir, əqidəbir, həmnişin bəxtəvərlər!

Hələ, məhləmizin əxlaq etalonu saydığım Ramiz Bəylərov, Xuramanın madar qardaşı...

Və döngəmizin digər uşaqları...

Ax... Uşaqlıq dövrü, nə gözəl dövr imiş.

Taxtadan moza düzəldib, şallaqla fırladardıq. Urəklərimiz o moza daşlarıyla birlikdə necə ritmik ahənglə, sevinclə, əzmlə fırlanardı!

Müxtəlif şəkilli poçt markalarını yığıb, sonsuz maraqla gündəliyimə necə yapışdırardım...

Sümük aşığın ALÇİ duran tərəfini deşib, kiçik oyuq açar... içərisinə qurğuşun qaynadıb tökərdik ki, atanda aşığımız OXAN dursun...

Necə şövqlə, işgüzarlıqla sümük aşıqlarımızı müxtəlif rənglərlə boyayardıq, ilahi.

Necə sadəlövh olmuşuq, pərvərdigarə!

Fərəhlə, БУТЫЛКА qapağı, boş kibrit və siqaret qutuları, şəkilli konvertlər toplayardıq.

Rəngli jurnallardan çılpaq qız şəkilləri...

Özü də, necə həvəslə, necə ehtirasla!

Yazıq Manya xala... anamın yanına gəlib, ovucunu açaraq yalvarardı: “Ay Fatma bacı, sən Allah Xosunun akkalarını Tofiq udub, denən qoy qaytarsın, uşaq ağlayıb özünü öldürür...”

Nə gözəl günlər imiş!

Anam ayaqqabıları götürüb, arxamca fırıldadardı: “Ver uşağın aşıqlarını! Neyləyirsən o it sümüklərini yığıb?”

POTA, hələ kartof soymaqdan qayıtmamışdı. Yuxum da ki gəlmirdi. Vaqif Həsənovun məktublarıyla... Səməd Vurğunun Əliağa Vahidlə çıxartdığı pəstahadan sonra, durub yazmaq qərarına gəldim. İçim dolmuşdu.

ЛЕНКОМНАТА-da sakitçilik idi.

ОГОНЁК jurnalından Benazir Bhuttonun fotoşəklini kəsib, səliqəylə gündəliyimə kleylədim.

Gündəliyi yazıb qurtarana yaxın... necə oldusa, tələbəlik illəri yadıma düşdü.

İlk dərsə getdiyim gün...

Tələbə bileti və qiymət kitabçasını yenicə almışdım. O günü dekanatlıqda ikinci dəfəydi ki, olurdum... Dərs cədvəlini yazmağa getmişdim.

Nuxalı bir oğlanla tanış olduq. Adı Rafiq idi.

Birdən ağlıma gəldi... bəlkə elə onun haqqında nəsə yazım? Axı, nuxalı Rafiq çox tez də, allahın dərgahına qovuşmuşdu...

Soyadı Həsənov idi.

Və qələmi götürüb belə başladım:

“İlk qrup yoldaşım, Allahın sevimlisi, nuxalı Rafiq Həsənovun əziz xatirəsinə ithaf edirəm...

Onunla tanışlığım ilk dərs günü, dekanatlıqların qarşısında yaşanan izdihamda olmuşdu.

Tələbə biletini alandan sonra, ilk axşam idi ki, dərsə gedirdim. İnstituta öz biliyimlə qəbul olduğuma görə acıqla, bal azlığı bəhanəsi altında məni axşam şöbəsinə salmışdılar.

Auditoriyanın yerini tanımırdım.

Dərsin başlamasına isə çox az vaxt qalırdı.

Özümü dekanatlığa çatdıranda, gözlərimə inanmadım: İçəridə o qədər tələbə vardı ki, dərs cədvəlinə bu tünlüklü basabasda, tər qoxusuna bürünmüş darısqallıqda baxmaq, demək olar ki, qeyri-mümkün idi. Vaxtsa ötürdü...

Müşkül məsələ!

Əlimi ağzıma qoyub qışqırmağa başladım:

“2178-dən kimsə vaar?”

Səsimə iki-üç nəfər tələbə gəldi: Onlar da 2178-dən idi və tanış olduq: Nuxalı Rafiq Həsənov... Qazax rayonunun Daş Salahlı kəndindən Mahir Eminov, Göyçay rayonunun Qaramәryəm kəndindən olan kürən Elmdar Bağırov, optik eynək taxan şuşalı Elxan Əlizadə... Qasım-İsmayılov rayonundan olan Cəfər və naxçıvanlı Asif...

Birlikdə... auditoriyanın yerini güclə öyrənə bildik. Qan-tərə batmışdıq.

O gün ilk dərs keçdik.

Ali kimya. Pəsəndə müəllimə...

Qrupumuzda, bir nəfər də olsun qız yox idi. Bərdə, 1№-li orta məktəbdən tam fərqli və darıxdırıcı qrup idi. Heyif deyildi Xuramanlı, İmmili, Sevdalı, Aidəli, Solmazlı sinfimiz...

Südün dadını, qısır əmən dana bilər.

Günlər keçdikcə... qrup yoldaşlarımızı yaxından tanımağa başlayırdıq. Dekanatlıqdan gəlib, qrup nümayəndəsi... və ona köməkçi müavin seçdilər. Heç nəyin fərqində olmadan, yekdilliklə səs verdik. Kor-koranəlik bizdə əvvəldən var.

Nümayəndə Nəriman, müavini isə ilk gün tanış olduğum, bu nuxalı Rafiq Həsənov oldu.

Bəli, onunla tanışlığım belə başlamışdı.

Qəribə ləhcəylə danışırdı.

Günlər keçdikcə, Rafiqlə olan yoldaşlığım günü-gündən bərkiyir, sanki sehrli qüvvəylə bizi bir-birimizə yaxınlaşdırırdılar...

Auditoriyalarda həmişə bir partada oturardıq. Nuxalı ləhcəsində çox şirin danışırdı...

Bir gün mənə dedi:

“Tofiq, sizin rayonda su anbarı vaar?”

“Hə! Zümürxan gölü... Nədi ki? Xeyir ola?” -təəccüb dolu bir maraqla cavab verdim.

“Haindi qulaq as sa bir əhvalat danışcam,” -deyib, məni özünə tərəf çəkdi.

Diqqətlə ona qulaq asmağa başladım:

“Məə Mirbəşirdən bir yoldaşım variyde.

Onan tanışlığım belə olutde: Nuxada, qonşumuzgilə qonaq gəlmişdi. Mən dəə, qonşumu-

zun oğlu ilə dost iydim. O tanış elədi bizi, adı da Vaqif ide. Çox yaxşı oğlan ide. Yaydadaa, həmişə onlara qonaq gəlirde.

Onlarla biyerdə şəkil də çəkdirmişdim. İndi də evimizdə o fotoşəkil qalıtde.

Bir gün eşitdim ke, Mirbəşirdən sizin Bərdə rayonuna geyitdilər, su anbarında çimib sərinlənmağa... Özü də, üzmağı bacarmırde...

Heç onnan heylə iş çıxmazde!

7 oğlan olutdular. Orta məktəbdə sonuncu imtahan günü iymiş...

Göldə çiməndədə bərk külək əsitde və üzmağı yaxşı bacarmiyən Vaqif göldə boğulutde.

Yoldaşları da onu çıxarda bilmiyitde.

Ölütdü..."

O bu sözləri deyəndə gözləri doldu...

Elə bu zaman, bir neçə il əvvəl baş vermiş bir qorxunc hadisə yadıma düşdü:

"İmtahan vaxtıydı...

Yayın qızmar günləri başlamışdı.

Qəflətən necə külək qopdusa, məktəbimizin bütün açıq pəncərələrini bir-birinə çırpıb, şüşələrini sındırmağa başladı.

Məktəbə bərk çaxnaşma düşdü.

Açıq pəncərələr bir-bir şaqqıldayıb sınır və şüşə qırıqları üzüaşağı dolu kimi səpələnirdi...

Məktəbin qarşısında, neçə-neçə illər əvvəl əkilmiş nəhəng ağaclar şaqqıltıyla kökündən qopur, iri budaqları qorxunc səslə sınır, yanları üs-

tə torpağa tökülüşürdülər.

Sanki, dünyanın sonuydu.

İşıq məftilləri də bir-birinə qarışıb dolaşmış və açıq təhlükə yaratmışdı.

Direktorun gur səsi dəhlizi götürmüşdü:

"Heç yana tərpənməyin..! Pəncərələri təcili bağlayın..! Pəncərələrdən aralıda dayanın..!"

Bu hadisənin səhəri günü xəbər yayıldı ki, qəfil qopan dünənki müdhiş tufanda bir yeniyetmə oğlan, Zümürxan gölündə boğulub ölüb.

"Elə bəlkə sən dediyin Vaqif olub o?!"

Rafiq dalğın-dalğın dilləndi:

"Atası nəçiydee, eşitməmişden?"

"Deyəsən Mirbəşir rayonunda orta məktəb direktoruymuş atası!"

"Hə, hə... Elə özüydü ke, var! Adı Vaqif ide, Mirbəşirdə orta məktəb direktorunun oğluyde.

Düz üç gün, üç gecə... cəsədine sudan tapıb cıxara bilmiyitdilərde..."

Bəli, o idi!

O günü, yay olsa da, tufan kəsmək bilmirdi.

Dərsdən qaçıb, mən də Zumurxan gölünə getmişdim. Danışırdılar ki, yeni axtarış briqadası da gəlib. Necə olsa, bu gün göldən cəsədi tapıb çıxaracaqlar. Elə də oldu.

Mingəçevirdən dalğıc gətirmişdilər. Dalğıcların əynində ümidverici, qəribə forması da vardı.

Həyatımda ilk gördüyüm meyit idi!

Dalğıclar yenicə tapıb çıxarmışdılar. Meyit

çıxarılanda canı palçıqlı idi, əynində tək bir qara, iri, çit trusiki vardı. Rəng-rufu saralmış heyva kimiydi. Narın tüklü bığı palçığa batmışdı. Gözləri ölü balıq gözü kimi ölgün idi.

Adamı üşərgələndirirdi...

Təsadüfən də cəsədi mən dayandığım yerin yaxınlığından tapıb, səs-küy salmadan sürüyüb, betonlanmış sahilə çıxartdılar.

Çığırtı sonra qopdu!

Dərhal, atasının, anasının tirtap ürəyi getdi. Gölün ətrafındakı yüzlərlə adam, cəsədin ətrafına tökülüşdü. Yaxınları necə şivən qoparırdılar!

Düzü onun nəşini görəndə bərk qorxdum.

Həyatımda ilk dəfəydi ki canlı meyid görürdüm. Arıq, uzun, qara oğlan idi.

Saralmış və qartımışdı.

Heyf!

Yazıq nə yaşadı!

Kənd ağsaqqalları, ağbirçəkləri tez-tez yanıxır, gizlində pıçıldaşırdılar:

“Süleymana qalmayan gidi dünya, heç kəsə qalmaz... Yazıq uşaq... Alın yazısı, elə bura qədərmiş... Əzrayılı bu tufanla gəlibmiş... ”

O məşum yay günü, dərsdən qaçıb, kitab-dəftərimi, özümə Kəbə bildiyim Xuramana verib, Zümürxan gölünə, haraya götürülmüşdüm.

O vaxt... İlahi!

Xuraman... al qırmızı yanaqları, günəştək... bərq vura-vura, nənəm kimi mənə pıçıldamışdı:

“Ehtiyatlı ol...”

İndi də, o üstüörtülü, mübhəm deyilmiş sözünü düşünəndə kövrəlirəm...

Onu nədənsə, mücəssəm duyğulu, mücərrəd varlıq hesab edirdim.

Xuraman məni necə dəlicəsinə sevirdi...

Biz necə səmimi, sadəlövh, iddiasız idik...

O vaxt elə hesab edirdim ki, mən çox güclü, hər şeyə qadir birisiyəm və yalnız sən mənə layiqsən. Allah bizi bu yekəlikdə yer üzərində də, qonşu, elə məhz bu səbəbə görə yaradıb...

Sən isə...

Daha arxasını yazmıram. O Ulu Tanrı özü bilsin, həşəmətli anan Sərəngüllə də siz bilin...

Bir də...

“SOVET... İNQİLAB... XANKİŞİ məsələsi...”

Xan hara, sovet hara, inqilab hara?

Eh... mətləbdən uzaqlaşmasaq yaxşıdır...

Dalğıclar gözümün qarşısında... o qartımış meyiti sahilə çıxaranda, gölün sahilinə toplaşıb, yüzlərlə tamaşaya gələn insanlar, necə axnaşıb birucdan gəlirdilər! Necə basırıq oldu!

Az qala, basabasda sürüşüb, göldə mövc vuran suya düşmüşdüm...

Ehtişamlı Xuramanın hikmətli sözünü o an necə heyrətlə xatırladım...

O gecə yerimə girəndə... o meyitin alacalanmış ölgün gözləri, heç yadımdan çıxmadı...

Bütün bu olanları... nuxalı tələbə dostuma

nisgillə danışdım.

Və heç üstündən beşcə ay keçməmiş... ilk yanvar sessiyasından sonra, qəfil xəbər yayıldı ki, nuxalı Rafiq dünyasını dəyişib...

Pərvərdigarə o gün mən necə hönkürdüm!

Heyf! Heyif ona!

Gündəliyə qeyd elədiyim bu son sözlərdən sonra, gözlərimdən yaş necə gilələnmişdisə, daha vərəqi görmürdüm.

Bir neçə diyirlənib ağ səhifəyə düşən damlalardan sonra... qalxıb dəftəri örtdüm.

Yuxum da ərşə çəkilmişdi.

Yerimə girib, o üz-bu üzə xeyli eşələnəndən sonra, ötən iki il ərzində... mənə məktub yazanları bir-bir xatırlamağa çalışdım.

Və... sonda, əlimə qələm alıb, lap adbaad, yerin içindəcə dikəlib gündəliyimə qeyd eləməyə başladım. Dolabçamdan, qaralama qeydlərlə də tutuşdurub, diqqətlə yoxladım.

Ən çox məktub yazan Tahir Ağayev, ən az yazan isə, ögey əmoğlu Mamedlə Maarif idi.

Hərəsi cəmi bircə məktub yazmışdı.

Dostum, qasırğa Tahir isə 204 məktub və 19 teleqram vurmuşdu. Ələsgər Qanboyoğlu-6, Vaqif q.Bahar arvadın oğlu-4, əmioğlu Mehti-4, Cavanşir-28, Xosu-4, Siyasət Bəyləroğlu-2, Elza-4, Mehriban-3, Cek-18, Tağıyev İsgəndər- 32, Rəfiqə-4, Yardımlı Yasər-8, Süleyman Zahidov-47, Rəna-18, bacım Yeganə-10, Gülxar-19...

Səs-küylə POTA KA3APMA-ya doluşandasa, məktub məsələsinin ardını yarımçıq saxladım.

Və gündəliyi yığışdırıb dolabçaya qoydum.

POTA sonuncu yoxlamaya düzüləndə, artıq isti yorğan-döşəyimdə mürgüləyirdim...

Səhərin açılmasıyla xəbər yayıldı ki, Balaca, ertədən ОДЕССА-dan gəlib...

Tez onu tapdım: Xeyir ola?

O məni gülər üzlə qarşılayaraq, bərk-bərk qucaqladı. Görüşmək düzü yadımdan çıxmışdı.

-Uşaqların sənə ehtiramlı salamları var... - müjdə verirmiş kimi dedi.

Sən demə, partiya iclasına görə çağırıblar, o da gəlib... Sonra üstündən bir bəd xəbər verdi:

-Ağcabədili Nazim Əsədovu... və İvanyuşşenkonu ОДЕССА-da yeni təyin olunmuş komandir POTA briqadirlikdən azad eləyib və yerlərinə də, kirovabadlı Faiqlə, Kryuçkovu təyin edib.

Ağcabədili Nazimin... komandirlikdən azad edilməsi məni məyus eləsə də, düşündüm ki, nə qalıb axı, onsuz da yol üstündəyik!

Amma, nədənsə pərt oldum...

Bəlkə də belə yaxşıdı, çünki ПЛАНЁРКА-da iştirak eləməkdən canı qurtaracaqdı... Elə mən özüm də, komandirlikdən çıxmış kimiyəm də...

Balacayla birlikdə Tarasyuku da, biryolluq Pervomayskiyə göndərmişdilər... Onun ОДЕССА-dakı azad günlərinə xitam verilib demək. Daha o, çəkdiyi kefdən, bir daha buralarda görməyəcək.

Tarasyukla КАЗАРМА-da qarşılaşdıq.

O məni görən kimi gülümsəyib ikiəlli salam verdi. Və əlləri havadaca qaldı. Başımı yüngülcə tərpətməklə salamını alıb keçdim.

ОДЕССА-ya gedəndə, o heç gəlib mənimlə görüşməmişdi də... İndi xeyirdimi?

Necə deyərlər, sulu-sulu yudum, çamurlu-çamurlu sərdim onu. Qoy ləxləxəyə düşsün...

Yoxlamışam, hansı gecə yuxuda su görürəm, ya çayda, göldə üzürəm, həmən gün xeyir tapır, ən azından gün ərzində ümidli oluram.

Bir də, çox sınamışam: Hamı 13 rəqəmini nəhs adlandırsa da, 13 rəqəmi mənə düşür.

Bu gecə də elə... çayda və Qara dənizdə o ki var üzmüşdüm. Uşaq kimi, tez-tez gözlərimi yumur, gördüyüm yuxunu olduğu kimi xatırlamağa çalışırdım. Yox, bu yuxu nəsə vəd edir...

Yuxum yadıma düşən kimi, ürəkdən rahatlaşır və içdən elə sevinirdim ki! Sanki, lap dəqiq bu gün sonuncu günümdür. Gecə, üç-dörd arası ayılanda da, xatırlamışdım ki, yuxumda Qara dənizdə babat çimmişəm və bu müjdə, artıq sonun başlanğıcı deməkdir.

Gözlərimi qapayıb gördüklərimi hey dəqiqləşdirirdim, bəli, ЮЖНЫЙ БУГ çayına hündürdən "ЛАСТОШКА" vurub, lap çayın dibinə kimi batır və sonda üzə çıxırdım. Sonuncuda lap nəfəsim kəsilənə yaxın, suyun üzünə çıxmaq istəyəndəsə... başım, balıq kimi suda üzən rus imperatriçəsinin

başına toxunur. Və o başıma, 10-luq, 15-lik, 25-lik qızıl imperiallar yağdırmağa başlayır...

Sevincimdən nəfəsim tıxanırdı ki, hövlnak sıçrayıb yuxudan ayıldım...

Qan-tər içindəydim.

Ayılandan sonra yata bilmirdim. Dəli ehtirasla beynimə doldu ki, bu gün məni buraxacaqlar. Hər yetənin yuxusuna imperatriçə girməz ki!

Bu yuxu elə-belə deyil...

Zəfər təntənəsi yaşanacaq!

Sov.i.k.p üzvlüyünə namizəd olan, ağdamlı Balacanın verdiyi xəbər də yadımdan çıxmırdı.

İndi ağcabədili Nazı, mənim quru bir təsəlli sözümə möhtacdır... İnsanın həyatında sözə də möhtac olan vaxtları olur...

Amma, yuxum ayrı yuxuydu!

Hökmən, hökmən... bu gün işim düzələcək. O yuxu, ancaq bunu bildirir. Yuxuda vurduğum "ЛАСТОШКА"-lardan fraqmentləri, bir-bir gözlərim qarşısında canlandırır və öz-özümə daha çox təlqin edirdim ki, bu gün artıq sondur. Başqa cür də ola bilməz. Yuxuda çimmək nə deməkdir?

Bu həna, Məşədi İbadın hənasından deyil.

POTA səhər yeməyinə düzlənən vaxt, yaşıl gözləri işıldayan, siyasi işlər üzrə müavin Boyko məni görüb, üzümə diqqətlə baxdı... Və qəflətən dodağı qaçdı... Birdən də, ötkəm səslə:

-Nə oldu? -soruşdu.

Lövhə qarşısına çağırılan... dərsini öyrən-

məmiş tənbəl şagird kimi:

-Sənədlərimi kapitan Maltsev bu gün aparacaq Mixaylovun yanına, görək...

Boyko heç gözləmədiyim halda:

-Mixaylov qol çəkər, o yaxşı kişidir! -dedi.

Yuxuma ümidim artdı.

Və dərhal da... bənövşəgözlü Katerinamın dəli ehtirasla dediyi, hər xatırlayanda qəlbimi oynadan bir sözü hardansa yadıma düşdü:

"Dünyamızın ən atəşli erkəyisən sən! Məni yumşaq qucaqlama tumar xoşlamıram, ac vəhşi çöl heyvanı kimi parçala, did ye!"

Yuxum çin olmalıydı.

Bu gün uşaq kimi necə ümidliyəm ilahi!

Tez-tez fikirləşirdim: "Yarğanları intəhasız bomboş yuxu görməmişəm ki? Düz çayın dibinə kimi enib yuxuda üzmək, bu artıq ordu sıralarından tərxis olunmaq demək deyilmi?"

ПОДПОЛКОВНИК olsa da... hərbi hissəmizin komandiri Dyakiv, orduda qanunları ayaq altına sala bilməz ki! Kimdi ona bu səlahiyyəti verən?

Adama deyərlər:

"Verdiyin and nədi, gördüyün iş nə?"

РОТА işə getdi.

Mən yenə qaldım.

КАЗАРМА-yla СУШИЛКА, kəlbəcərli Məzahir, Ələkbər və mənim ümidiməcə qalıb.

Mənə baxıb Məzahir də xruşlanaraq, artıq dünəndən işə çıxmır. Moskvaya, Kremlə, Marşal

Qreçkoya, V.İ.Leninin mavzoleyinə kimi ayrı-ayrı instansiyalara məktublar yazaraq, döş cibində hazır vəziyyətdə saxlayır.

Və bu dəfə dinən olsa, şəhərdəki mərkəzi poçtdan УВОДОМЛЕНИЕ ilə göndərəcəyinə, hələ üstəlik teleqram da vuracağına and içib.

"Daha başqa cür ola bilməz!" -deyir.

Ələkbərsə, cığallığını ayrı fəndgirliklə salır. Sübhdən oyanan kimi belini ikiqat əyir, çığır-bağırla böyrəklərini tutub hospital adına aradan çıxır, РОТА işə gedən kimi də özünü yetirir.

Bu gün, artıq üçümüz birlikdə СУШИЛКА-da yan-yana sərələnib, səbirsizliklə ordu sıralarından tərxis olunacaq günümüzü gözləyirik...

İki ayağımızı bir başmağa dirəmişik!

Qəfil xəbər yayıldı ki, axsaq Nadir altı nəfərlə birləşərək yenidən akkord götürüb və həm də НАРЯД-ları artıq УНР-də təsdiq elətdirib.

Nadir özü, gürcü Qasviani, qayışbaldır Turabxan, xallı Arif, göygöz kirpikli Eldar və dəvəsi ölmüş altıncının kim olduğunu öyrənə bilmədik.

Bu akkordu götürüb, НАРЯД-da göstərilənləri yerinə yetirsələr bu dəfə onları həqiqətən də ДЕМБЛЬ-ə buraxacaqlar. Həm də çox güman ki, dekabr ayı girənədək bu işi qurtaracaqlar, zira, gecə-gündüz işləməyi bizimkilər yaxşı bacarır...

Saat 12:00-a kimi həqiqi hərbi xidmətimizi СУШИЛКА-da keçirdik.

Sovet ordusu, əsgərlik həyatı haqqında öz

təəssüratlarımızı bölüşür və mülki həyatımızdan maraqlı fraqmentləri yumorla xırdalayırdıq.

Kaş yanımda bir diktofon olaydı və onların gic-gic danışıqlarını lentə yaza biləydim.

Ələkbər dəvəqıranda həyata keçirdiyi son igidliyini öyünə-öyünə söyüşlə goplayırdı:

"Boz eşşəyin qaşqasından çay qənbəriylə necə vurdumsa... qan fışqırıb üst-başımı batırdı. Üstündən bir həftə keçmişdi, inanın allaha eşşəyin təpəlindən damçı-damçı qan axırdı..."

Ələkbər dikəlib hərdən zümzümə edir, amma zildən oxumaq istəsə də, təbi gəlmir, Məzahir də qırsaqqız olub, ona ərklə hey yalvarırdı:

"Ay kəlçə, barı bir-iki ağız de..."

Salyanlı Adil tərxis olunub gedəndən, muğamat sahəsində dilxun Ələkbər, əməlli-başlıca püxtələşmişdi. POTA-da artıq baş aparır... arvad kimi də tez-tez naz satırdı. Ona görə deyiblər:

"Biri ölməsə, o biri dirilməz."

Bərəkallah-bərəkallah deyə-deyə, Ələkbər qəflətən Məzahirə üzünü tutub, ondan soruşdu:

-Yumruqla divara, yaxud dizlərinə döşəyib nağaraəvəzi ritm tuta bilməzsən?

Məzahir dərhal göbəyini açıb, var gücüylə ac qarnını şappıldatmağa başladı:

-Ritmi başımda da tuta bilərəm, təki anası ölmüş quzu kimi sən mələ!

Pulsuz konsert başladı.

Dərd bir olsa, yeriyər, deyiblər.

Onları СУШИЛКА-da baş-başa buraxıb cəld ШТАБ-a, öz dərdimin arxasıyla tərpəndim...

Maltsevlə kabinetdə görüşdük.

Əclaf yalan-gerçək qımışaraq dedi:

-Getmişdim, inanırsan, УИР-də heç kəsi tapa bilmədim. Axşamtərəfi bir də gedərəm...

-İnanıram, inanıram, kafir deyiləm ki... dedim, -Sizdəki ürək genişliyi, səxavət, saf niyyət... əsgər ümidlərinin çağlayan çeşmə bulağıtək, bir bəyaz həqiqətdir!

Ürəyimdəsə, yandığımdan söydüm:

"Əsgərin ümidlərini qırmaqda... elə sən də, ПОДПОЛКОВНИК Dyakiv kimi, bir köpəyoğlusan!"

O üzümə baxıb, könülsüz irişdi...

Gülməkdə... irişməkdə də israfçılıq eləməyən, Şərq döngəmizin titullu söyuşlərindən olan:

"İt urusun oğlu! Sosyarışınız sovxaya qalsın haa!" -dilimin altında deyindim.

O heç nə anlamadı.

-Gözləyirəm yoldaş Maltsev... ümidimi qırmayın... bax bu orduda, sizin də madar oğlunuz, nə vaxtsa əsgər olacaq... onda... onu da murdar bir plan qurub soyub soğana döndərərlər, -deyib, -cavabını gözləmədən qapıdan çıxdım.

Dərd bir idi, oldu iki. Rüşvət almasalar onlar məni yubadacaq... Erkək eşşəyə də... qoduq saldırırlar orduda... Bizim Xosu kimi, yalanı beçə balı kimi yedizdirirlər adama.

İllah da müsəlman olasan...

Alik Ohanesyan bu gün gedirdi.

Onu görə bilmədim. Hər ehtimala qarşı çənə Telmana ünvanımı yazıb verdim ki, Alikə versin və bərk-bərk də tapşırsın ki, 31 dekabr günü Bərdəyə gəlsin. Əsgər dostlarımızla bizim evdə yığışıb, 1973-cü ili birlikdə qeyd edərik...

Dərd dərdə dəyər sızlar.

Yenə darıxmağa başlamış, həsrətin ucsuz-bucaqsız boz səhrasında azmışdım.

Yerimdə uzanıb nostalji hisslərlə saralmış keçmişi səhifə-səhifə vərəqləyir, qəhər dolu xatirələrimin dolanbaclarında kədərlə düşünürdüm:

"O gün yaxşı yadımdadır... 4 dekabr 1968! Atam Bərdədən Bakıya gəlmişdi. Məni görən kimi uzun qollarını qürurla açıb, bağrına basdı və xam xəyalaoxşar, ağlasığmaz bir müjdə verdi:

"Qonşumuz Məhərrəm həkim... sənինlə bir sinifdə oxuyan qızına sovqat göndərib... Sabah aparıb verərsən..."

Damarlarımda qanım dondu.

Axı ailələrimiz üzə vurmasalar da, bilirdilər ki onu sevirəm... Xali qalmış münasibətlərimizə rəğmən, nə yaxşı etibar ediblər bəs?

Hələ bu azmış kimi, atamın qatlanmış bir kağız parçasını mənə uzatması, məni diksindirib, sanki qəflət yuxusundan ayıltdı:

"Bu da ünvanıdır..."

Kağıza kədər qarışıq, ümid dolu çılğın sevinclə baxdım. Heyrətdən özümə gələ bilmirdim.

Ürəyim az qalırdı atlanıb sinəmdən çıxsın.

Gözlərim alacalanmışdı.

Ta demədim, elə hər gün bu ünvanın yanyörəsində veyillənirəm...

Atam, gözlərimdə heç vaxt indiki kimi, belə yaxşı, heyrətamiz görünməmişdi.

Kağızı dördgöz oxudum.

Atası Məhərrəm kişi öz xəttiylə yazmışdı:

Bakı

Xaqani küçəsi 46, 3-cü blok, ev № 24.

Bəylərov İbrahim. Telefon: № 93-53-05

Aşağısında qeyd eləmişdi: Taksi ilə Xaqani küçəsi, uqol Zorqi.

Sonra da, küçələrin kəsişdiyi yerlərin sxemini səliqəylə cızmış və köhnə un dəyirmanı ilə üzbəüz olan binanı oxla göstərmişdi.

Xuraman bu binada, əmisigildə yaşayırdı...

Sevincimdən içim tərpəndi!

Ayaqlarım titrədi... Sanki hərbi qənimət ələ keçirmişdim.

Ancaq özümü ələ aldım...

Atanın öz xəttiylə yazdığı kağızı olduğu kimi də göstərirəm.

Bu da yalan deyil ki, əzizim?

Eh...

Duyğulandım yenə...

Бакы
Хагани куч 46
3-чу блок ев№24
Бэширэв Ибраним
Телефон №: 93-53-05
Такси илэ
Хагани куч. угол Зорги
Зорги
Дэшурмаи
Хагани
3-чу блок

Ey Ulu Tanrı!

Bu saf sevgimin ahı kimi tutacaq sonda?

Kimin əməli ayağına cidar olacaq?

Vəfa borcunu kim tapdaladı?

Kim idi sərfəli nigah axtarışında?

İlahi, sovqat zənbilini atam göstərəndə, bu xırda zənbil mənə necə əzəmətli, zəngin və hətta ismətli göründü...

Hər dəm kövrəlməyə vərdişli romantik qəlbim qıy vurub, yenə təxəyyül qanadlarında pərvazlanaraq sonsuz kainatda süzürdü.

Heyhat...

Atam Diliş xalanın uşaqlarıyla gəlmişdi.

Növbəti xoş dərddən sonra onları görəndə necə oldusa, ögey dayım qara Sabiri xatırladım.

Sabirin doğma atası iranlı Çopurdan ögey qardaş-bacısı vardı. Qonşu Mirbəşir rayonunun hansısa ucqar kəndində yaşayırdılar. Üç il əvvəl soraqlaşa-soraqlaşa, qəmli göz yaşlarıyla Sabiri axtarıb tapmışdılar.

Nənəm o vaxt sağ idi.

Tanımışdı Diliş xalayla Yaqutu.

Mis rənginə çalan dərisi qulluq görmədiyindən codlaşmış... quru əlləri zəhmətkeş vücuduna yaraşan Diliş xalagillə bizimkilər artıq gəlget də eləyirdilər.

Atam da onlara getmişdi.

Qoçaq Dilişin Almaz və Aydın adında ağıllı uşaqları vardı. Hər ikisi kənddə orta məktəbi əla

qiymətlərlə bitirib, bu il instituta qəbul olmuşdu.

Anamın göndərdiyi ərzaqla dolu zənbilləri maşının yük yerindən boşaldan kimi, atam onlara ev axtarmaq üçün çıxanda, məni də özləri ilə götürdülər. Amma heç ürəyimdən olmadı... zira, qızıl qapaq dişli Xuramana çatacaq zənbil mənim üçün daha önəmli idi.

Zənbildəki həyat fəlsəfəsinə bax!

Ay Allah...

Di gəl, üzərimə düşən məsuliyyətin ciddiliyini də dumanlı şəkildə anlayırdım.

Əfsus ki, zənbilə baxmağa vaxt qalmadı...

ВОЛГА-ya doluşub getdik.

Yasamal bazarının qarşısına çatanda, təsadüfən atamın Yevlaxda direktor işlədiyi zavodun katibəsiylə qarşılaşdıq.

Atam maşını saxladı və onunla görüşdük. Ələ düşən bu imkandan məharətlə istifadə edərək maşından düşdüm və bu çəlimsiz qızla evimizə qayıtdım.

Rəfiqə qarayanız, qıvrımsaçlı, sakit, mehriban bir qız idi. Rəfiqəni bəhanə edib qayıtmaqda və evə dəvət etməkdə əsas məqsədim Xuramana çatacaq o ismətli zənbillə bir yerdə tənha qalmaq istəyi idi...

Evdə Rəfiqəylə xeyli ordan-burdan lüzumsuz söhbət eləyəndən sonra o getdi və bu görüş onunla ilk və sonuncu oldu. O çəlimsiz qızı sonralar tamam unutmuşdum, ta o günə kimi ki, əs-

gər ünvanımı öyrənib məktub yazmışdı və mənə mütəmadi olaraq kitab-jurnal-qəzetlə dolu bağlama, qurumuş çiçək ləçəkləri göndərmişdi...

Məhərrəm dayını o vaxt özümə qayınata hesab eləyirdim. Onun yolladığı sovqat dolu o zənbil gözümə necə əsrarəngiz görünürdü...

Əlimi zənbilə sarı uzadanda, başı axmaq xəyallarla dolu uşaq kimi elə hesab eləyirdim ki, əlim indicə Xuramanın əlinə toxunacaq...

Yadıma iki-üç il əvvəlin başqa bir hadisəsi də düşdü. Onda: 1968-ci ilin qış ayı idi...

Dekabrın biri bazar günü olduğundan onu görə bilməmişdim və bərk darıxırdım.

Ertəsi gün Xuramanın dərsdən çıxan vaxtlarıydı... Azərbaycan Tibb institutunun qarşısına özümü yetirəndə gözlərimə inanmadım: Bərdədə, bizimlə paralel sinifdə oxuyan və orta məktəbdən Xuramanı istəyən Süleyman da dayanıb onu gözləyirdi.

Hikkədən heç salamlaşmadım da.

Gicbəsər!

O məni görən kimi sivişib aradan çıxdı.

Bir qədər də keçmişdi ki orta məktəbdə sinifkomumuz olmuş Aidə Vəliyeva ilə təsadüfən qarşılaşdıq. O, özü Xalq Təsərrüfatı institutunda oxusa da, bu il Tibb institutuna qəbul olunmuş əmisi qızı Saidə Təhməzovayla görüşmək üçün gəlmişdi.

Harasa gedəsiymişlər.

O məmnunluqla əl uzadıb, mənimlə əziz adamı kimi görüşdü. Dərhal da ağappaq sifətinə çəhrayı qızartı yayıldı.

Sevincək hal-əhval tutduq.

Ünsiyyətcil Aidə, buraya nə üçün gəldiyimin səbəbini yaxşı bilirdi.

Birdən nə fikirləşdisə hövlnak tutuldu.

Əvvəl həssasliqla tərəddüd etsə də... sonda utana-utana, canıyananlıqla başa saldı ki:

"Sənin işin düzəlməyəcək!"

O məni xülyalardan, hansısa fantaziyalardan ayırıb, özü anlamasa da qəddarcasına real həyatdakı həqiqəti başa salanda, ürəyimdə ona həqarətlə güldüm...

Gözlərim böyümədi.

Qəzəblənmədim.

Siz mənim qəyyumum deyilsiniz demədim.

Onun sadəlövh olduğunu düşündüm.

Özümüz istəməsək belə iradəmizin əksinə olaraq aramıza dərin bir sükut çökdü.

Xuramanı əlimdən kim ala bilərdi?

Sarsılmasam belə nədənsə titim-titim titrəməyə başladım.

Aidə tələbələr çıxan kimi lütfkarlıqla sağollaşıb mülayim hərəkətlə çevrildi və Saidənin arxasınca getdi.

Daş kimi dayanıb qalmışdım.

Az keçmiş Xuramanı tanımadığım bir qızla gələn gördüm.

6 nömrəli trolleybus gələn kimi onlar mindi.

Mən də arxa qapıdan sivişib tələsik içəriyə keçdim və qüssəli cılız görkəmimlə ayaq üstündə dayanıb kədərli təhəmmüllə gözləməyə başladım. Artıq bu mənim gündəlik həyatım idi.

Sürücünün yüksək səslə oxutduğu radioda kimsə tütəkdə cobanbayatısı xalq havası çalırdı.

Yenicə duyğulanmışdım ki...

Onlar nədənsə bir dayanacaq əvvəl düşüb söhbət eləyə-eləyə piyada getməyə başladı.

Elə şirin-şirin qol-qola girmişdilər ki!

Qızlarla az qala daban-dabana gedirdim.

Bəlkə də yaxınlaşmağımı istəyirdilər...

Etiraf edim ki, Aidənin dediyi mənhus sözə inanmasam da, söz məni bir az qıcıqlandırmışdı.

Amma aydınlaşdırmağa həya elədim...

Gecəni yata bilmirdim. Aidənin sözləri qulağımda hey küyləyirdi:

“Sənin işin düzəlməyəcək!”

“Sənin işin düzəlməyəcək!”

“Sənin işin düzəlməyəcək!”

Axı o məni aldatmaz... Bəs bu nə söz idi? Bəlkə dalağı sancıb? Yoxsa nəsə bilir? Aidə orta məktəbdə bizim sinifkomumuz olmuşdu. Hər ikimizə qarşı çox səmimi münasibəti vardı. Qız olduqları üçün onların sirri bir olsa belə, Aidənin mənə də ürəyi yanmaya bilməzdi.

Bəlkə bu uzun illər saf eşqimin girdabında çəkdiyim iztirabların mənasız olduğunu o dəqiq

bildiyindən mənə yazığı gəlmişdi? Başqa nə ola bilərdi ki? Görünür nəsə bilir...

Bəlkə daş altından su yeridir?

Amma yox...

Özünün ya əmisi qızı Saidənin məndə gözü yox idi, zira heç ola da bilməzdi... Xuramanı da alacağı qardaşı, ya yaxın bir adamı mövcud deyildi. Xuraman heç onları bəyənməzdi də...

O özünü knyajna kimi aparırdı.

Bəs nədən bu sirli eyhamı mənə vurmuşdu, bu müəmma nədən qaynaqlanırdı görəsən?

Axı heç mübhəm də demədi...

Bəlkə qəsddən dedi?

Biz orta məktəbdə oxuyanda keyvənd palaz üstündə lal-dinməz oturub saatlarla siqaret sümürən Pəri arvadın böyük oğlu fitnəkar Fətəliyev Mamedin fitvasıyla onlarla bir dəfə çox kobud davranmışdım. Hətta söymüşdüm də onlara. Ağlayıb məndən direktora şikayət də eləmişdilər. Hətta söydüyüm söyuşləri kəlməbəkəlmə direktor Rüstəm müəllimə demişdilər.

Bəlkə əvəz çıxırdı?

Yox!

Sevgi, keşməkeşli məhəbbət və ilahi hisslərlə oynamaq da olmazdı.

Onlar sadə idilər.

Bəlkə Aidə mənim çox açıqürəkli, səmimi və hisslərini gizlədə bilməyən aşiq olduğumu bildiyindən bu sonsuz əziyyətimə heyfi gəlmişdi?

Axı sevgim... ucsuz-bucaqsız çöllükdə baş götürüb dördnala çapan kəstanə rəngli bir ayqır kimiydi, hamını heyrətə salardı.

Lap Qeys özü də yanımda yalan olmuşdu, düşünürdüm ki məni görsə, dinləsə mənə qibtə edər, mənimlə qol-boyun hərlənərdi.

Görəsən əyri-üyrü, çiy kərpic hasarlı, Şərq küçəmizdə gərdək cadırı qurdurmaq bizə nəsib olacaqdımı? Aşüftəhal idim.

Fikirlərim çox dolaşıq idi.

Səhəri gün çərşənbə axşamıydı.

Çimir belə kəsmədən, o yan bu yana çevrilə-çevrilə sübhü həqarətlə açdım.

İndiki kimi yadımdadı: 3 dekabr 1968-ci il... Bərk küləklə başlayan o sazaqdan sonra Bakıya ilin ilk qarı yağırdı. Hər yanda qalın geyinmiş boğazı iplikli, ya yun şərfli, rəngbərəng əlcəkli qayğısız uşaqlar bəxtəvərliklə qartopu oynayırdılar.

Tələşlı idim və əsim-əsim əsirdim.

Başıaçıq, şərfsiz olduğumdan... və əynimə yüngül qara palto geyindiyimdən yox, məhəbbətimizin payızı yetişdiyini əzabla hiss etdiyimdən sərsəmliklə düşünüb üşüyürdüm. Şaxtadan donub keyimiş, göy damarları açıq görünən əllərimin arıq barmaqları insafsizcasina sızlayırdı.

Onun arxasınca düşmüşdüm.

Üstüörtülü ОИК meydançasından gəlirdik.

Tək idi.

8 nömrəlidən düşüb 6-ya mindik.

Qəfil, elə trolleybusun içərisindəcə qəzəbli hikkə və bir az da ərk dolu inadkarlıqla ona yanaşıb ədəbsizcəsinə ucadan salam verdim.

Diksindi.

Və o naəlac qalıb, iradəsinin əksinə olaraq və sərnişinlər başa düşməsinlər deyə dodağının ucunda mızıldanaraq, xala xətrin qalmasın salamımı könülsüz aldı.

Heyhat dünəndən ölmüş meyid soyuqluğu vardı bu salamda.

Yaman üşütdü bu salam məni.

Aidənin dediyi: "Sənin işin düzəlməyəcək!" sözündən sonra həsb-hal etmək zərurəti Koroğlunun misri qılıncı kimi başımın üstünü almışdı...

Yəni doğrudanmı vəfa borcumuz unudulmuşdu? Nədən bu qədər saymazlıq edə bilərdi? Başqa fikri vardısa illərlə niyə mənim hisslərimlə oynamışdı? Yox bircə bu ola bilməz! Bəlkə hisslərini Aidədən gizlətmək istəyirmiş? Gənc qızlarda belə hallar ola bilər...

Qüssə qəlbimi didir, nəfəslərindən buğ çıxan, əlləri əlcəkli... içəridəki sərnişinlər gözümə necə laqeyd görünürdülər. Şaxtalı havanın sazağı, yağan quru qar da kədərimə kədər qatır və hər yan gözlərimə hüznlü görünürdü...

O, laqeydcəsinə pəncərədən çölə baxırdı. Hərçənd... qətiyyətimdən şübhələndiyi üçün dalğın görünür, söz yox ki, hər şeyin bir sonu olduğunun da fərqindəydi...

İlahi!

O niyə, belə mərdimgiriz olmuşdu?

Bax əsas məsələ də elə buydu.

Deyilən hər hansı xoş bir söz, vurulan gizli bir eyham bizim kəbin kağızımız ola bilərdi!

Mən onu çox sevirdim...

Sonra trolleybusdan düşüb yanaşı getdik.

Səssiz-səmirsiz olsa da, ilk dəfəydi ki, Bakıda biz çiyin-çiyinə, qoşa addımlayırdıq.

Lap Bərdədəki kimi...

Əfsus!

Zira... elə həmişə olduğu kimi yenə də danışmağa cəsarətimiz çatmırdı.

Aidənin dediyi: "Sənin işin düzəlməyəcək!" sözləri beynimdə hey səslənirdi.

Sanki cana doymuşdum. Düşünürdüm:

"Daş da bir yerdə qalanda göyərər...

Qurdla qiyamətə neynirəm qalam? Ancaq kimdən öc almalıydım?" Bax belə-belə rabitəsiz fikirlər beynimdə fırlanırdı.

Və birdən...

3-cü blokdan içəri keçən kimi, kobudluqla irəli cumub, tələsik və bir qədər də amansızlıqla qollarımı açaraq onun qarşısında dayandım.

Mərtəbələrarası pilləkəni kəsmişdim.

Dərin iztirab və ruhi sarsıntı içərisindəydim.

İri, təmiz gözlərini heyrətlə açıb çaşqınlıqla üzümə davamlı baxdı.

Artıq müəmmalı vəziyyətin ciddi hala keç-

məsi göz qabağındaydı. Nəsə baş verməliydi.

O yaman yerdə yaxalanmışdı.

Duruş gətirə biləcəkdimi?

Əvvəl çaşdı. Tutuldu. Və birdən nə fikirləşdisə, yanaqları allandı.

Əvvəlki ayın-şayınlığından əsər-əlamət də qalmamış, sanki dünya başına aylanmışdı.

Yalvarış dolu baxışlarla üzümə sürəkli baxıb, məni nə qədər şirin dilə tutsa da xeyri olmayacağını anlayıb susdu.

Sanki havasızlıqdan boğulur və qorxurdu.

Bu tapmaca məhz bu gün açılmalıydı!

Odur ki, onu buraxmadım. Cəhənnəmdən sanki yenicə xortlamışdım.

Bundan oyanası ta yox idi. Artıq hər ikimiz bunu dərindən dərk edirdik.

İllərlə yaşananlar da bunu bizə diqtə edirdi.

Axır ki o yavaş-yavaş, özünəməxsus açıqürəkliliklə pıçıldayıb dedi:

“Qonşular eşidər...”

Qışın oğlan çağı olsa da bu sözdə səməni təravəti vardı. Amma, söz məni yumşaltmadı.

Qətiyyətlə təkid elədim:

“Mənə bir söz de!”

Sözündəndönməz olduğumu o yaxşı bilirdi.

Od qonşusuyduq.

Xoşagələn görünüşüylə qarşımda dayanıb ilk dəfə olaraq cidd-cəhdlə açıq danışmağa başladı və yalvarış dolu səmimiyyətlə:

“Məni institutumuzda, III kursda oxuyan bir oğlana, adını demədi, vermək istəyirlər, atası da dossentdir. Yalan deyənin atası qəbrə getsin...”

Sanki o başqası haqqında danışırdı.

Yanaqları ağarsa da, özü xoşhal olmuşdu. Amma... məhzun nəzərlərlə üzümə baxırdı.

O həmişə orta məktəbdə mənimlə üzbəüz dayananda baxışlarını yerə dikərdi...

Yalan idi əzizim?

Üşüyən bədənim indi də od tutub yanırdı.

Mən ona inanmadım. Bunu çılğın bir oyun hesab etdim. Bu səmimi etiraf ola bilməzdi. Niyə axı ilahi məhəbbətimiz havadakı tüstü kimi izsiz-tozsuz silinib getməliydi.

Süprümkoluyduq bəyəm?

Yəni mənim nə çəkəcəyim onun üçün heç nə idi? Buydu illərlə mənə verdiyi sədaqət andının sonu? Nəydi bu ərəsati məhşər?

Hiss etmişdim.

Bilirdim ki, o məni özündən üzaqlaşdırmaq istəyir. Amma fövqəladə qərarında niyə and içdi, bircə onu anlamadım.

Bir də axı niyə?

Nəydi bu məzəllət?

Aidənin dediyi sözsə düz çıxmışdı!

Dönüklük ortalıqda... acı həqiqət artıq məlum olsa da, nədənsə bunu hələ də zarafat hesab edirdim. Onu əlimdən kimsə ala bilərdimi?

Aydın düşünə bilmirdim. Quş qanadına ar-

xalanar deyiblər.

Necə oldusa...

Biz orta məktəbdə oxuyanda... onun mənə bağışladığı AVTOMAT KARANDAŞI ona göstərdim.

Möhtəşəm an idi.

Tanıdı!

Rəngi dərhal qaçdı və birdən tutulub, aldadıcı yalvarış və fikirli bir təbəsümlə, amma təfərrüatı ilə xatırlatdı:

"Özün əlimdən qaçırmısan, mən onu sənə bağışlamamışdım..."

Heç vaxt sevgi sözləri beləcə soyuq və təkəbbürlü səslə deyilə bilməzdi.

Görünür dossent oğluna görə o mənə olan sevgisini artıq ürəyində dəfn eləmişdi...

Sonra tərəddüd və həm də hədələyici tərzdə kişilənərək, pərtlikdən qıpqırmızı qızarıb heç nə olmamış kimi dedim:

"Nə olar razılıq ver, Süleymanı bir də qoymayım sənin arxanca gəlsin..."

O vəcahətli qız ətürpədici laqeydliklə:

"Öcəşmə... onsuz da, o nadir hallarda gəlirdi, dərsini elə vermişəm, daha gəlmir!" -özünəməxsus hazırcavablıq, soyuqqanlılıq və bəlağətlə pıçıldadı.

Əynində, qara cızıqları olan yun parçadan tikilmiş palıd rəngli qalın, isti paltosu vardı. Paltosunun qollarının üstü və boynu qoyun dərisindən aşılanmış qara dəri materialından hazırlan-

mışdı. İsti, qara yarımboğaz çəkmələrdəydi.

O həmişə sadə geyinərdi.

Sözləri hərdən əsəbi... və amiranə şəkildə deyir, üzünə məlul-məlul baxsam da, o söz haqqından və azadlığından amansız istifadə eləyirdi.

Düzdü nəcabətli olsa da, aradabir qorxduğu üçün yalandan mənə pişiklənir, bunu səsinin bir göz qırpımında dəyişən ahəngindən və çöhrəsini bürüyən mülayim ifadədən də açıq-aşkarca hiss edirdim.

Bir az da danışmışdıq ki... aşağıdan əvvəl addım, sonra isə adam səsləri eşidildi.

Eh, lənət şeytana.

Mərdümazarlar!

O dərhal qaş-qabağını sallayıb, isteriyaya düşmüş adam kimi həyəcan və təşvişlə qolumu yana itələyib aman istədi.

Qəlbimin ağıllı çağırışına itaət edə bilmirdim. Təhqirli hal alınmasını da düzü istəmirdim.

Məcbur qalıb onu buraxdım...

Sanki alışıb yanacağım gur tonqala odlu kösövlər atdılar. Beynim yerindən oynadı.

Zırpı-zırpı iki heyvərə kişi idi.

Leylaca bənzəyirdilər.

Təəssüflər olsun ki ondan heç olmasa təskinedici bir cavab ala bilmədim.

Görüş çox soyuq keçdi...

Hiss etdim ki, onun mənə qarşı nəinki sevgisi, heç adicə hörməti belə qalmayıb. Onu mə-

nə bağlayan orta məktəb və yaxın qonşuluq əlaqəsi imiş. Başqa heç nə...

Demək bağlılığımız qalmayıb artıq? Aidə düz deyirmiş? Məşum gün elə bu günmüş?

Beləcə mücərrəd faciəylə aralandıq.

Amma, nədənsə ümidim üzülməmişdi.

Mən ona qovuşacağıma inanırdım.

Bəlkə dəyanətimi yoxlayır?

Yaşananların yalqızlıq acısıyla... o gecəni üzüldüm. Dosent oğlunun gələcəyinin parlaq olduğunumu düşünürdülər? Görəsən o oğlanın da özünün qızda gözü vardımı? Bəlkə o oğlanı məliküşşüəra bilirdilər? Axı bu oğlan özünü ley kimi haradan yetirmişdi? Çaşqınlıqla düşünürdüm.

Axı niyə o qoruq-qaytaq gözləmirdi? Qızarıb-bozarmadan elə danışırdı ki sanki gerçək bir ərəb nağılından gedirdi söhbət.

Əfsus... ona deyə bilmədim:

“Niyə hönkür-hönkür ağlayıb göz yaşlarına qərq olmadın? Hanı sənin mərhəmətin? Axı sən məğrur idin, məni sevirdin, niyə səni dosent oğluna vermək istəyənlərlə sonadək çarpışmadın?

İlahi sevgini belə asan tapdalayarlar?

Bu ki dəhşətdir!

Ah, səni həyasız! Sizi lənətə gələsiniz!”

Nə isə...

İndi, Xuramanın möhkəm xasiyyətli atasının atamdan göndərdiyi zənbil isə tamam başqa bir danılmaz məna verirdi.

Atası bilirdi ki, sovqatı atam mənimlə göndərəcək, onda bəs nə yaxşı göndərmişdi?

Gözlənilməz bu xoş davranışın adı nəydi? Hətta Xuramanın telefon nömrəsi belə bu tarixi vərəqədə yazılmışdı...

Xeyir ola?

Unudulmaz gecəni sadəlövh arzularla, nəzəriyyəmə görə Xuramana çatacaq o nəzakətlə yığılıb, səliqəylə qabqarılmış ismətli zənbillə yaşadım... Ürəyim əvvəlcədən duyurdu: Bu dönüş nöqtəsi olacaq. Sabah göylərdən yerə enəcəm.

... Ertəsi gün 5 dekabr 1968-ci il.

Bu səhər yuxudan ayılanda necə bəxtəvər idim! Hər dəfə zənbilə vüqarlı bir təmkinlə baxır və bu vaxt ürəyim sanki bəxtiyarlıqdan genişlənir, fərəhdən az qala uçacaqdım.

Ah, xoşbəxtlik nə yaxındadır!

Bəzi qızlar oğlanlara bədənini verir, ürəyini vermirdi... bəziləri ürəyini verir bədənini vermirdi.

Xuraman isə nə bədənini, nə də ki, biryolluq ürəyini verirdi mənə...

Amma sevirdi!

Məğrur qızdır, o niyə qəddarlıq eləsin?

Nifrət edə-edə başqasını sevə də bilməzdi.

Məktəbdə pıçıltıyla qulağıma gizlincə dediyi sözlər, hələ indi də qulağımda səslənirdi.

Sovqat da ortalıqda. Nəsə...

İntizarla atamın yolunu gözləyirdik.

Atam lap sübhdən çıxıb harasa getmişdi...

Sincab dərisindən kürk geyinmiş, dar dünyagörüşə malik Yunis İbrahimovla onu xeyli gözlədik. Atam gəlməliydi ki, onun maşınıyla Xaqani uqol Zorgeyə gedib sovqatı Xuramana çatdıraq.

Amma atam gəlib çıxmaq bilmirdi.

Xuraman artıq dərsdən çıxıb evlərinə getmiş olardı. Axırı dözmədik və Yunislə taksi saxladıb gedəsi olduq...

Düzü zənbilə görə çox iddialı idik.

Arxa-arxaya verib təşəxxüslə məşhur 3-cü blokdan içəriyə girdik və ədəbazlıqla, itələşə-itələşə yuxarı mərtəbəyə qalxdıq.

Sözün açığı Yunisə görə ürəklənmişdim.

Yunis bir mərtəbə aşağıda gizləndi.

Onun müdaxiləsi nəzakətsizlik sayılardı.

Amma o aşağıdan elə hey məni ürəkləndirirdi. Yamanca gülməli bir vəziyyət yaranmışdı.

Axır ki...

Özümü səliqəyə salıb təngiyən nəfəsim və inanılmaz tərəddüdlə zəngin düyməsini basdım.

İlahi!

Ürəyim necə tappıldayırdı!

Bəxtiyar ümidlə gözləməyə başladım.

Dünyanın heç bir ləzzətini bu anın ləzzətinə, onun yolunda çəkdiyim əzablara dəyişməzdim. Onu görmək həsrətində tək bircə kəlməsini eşitmək sorağında qəribə tərzdə titrəyirdim.

Zira, biz əyalət adamlarıydıq...

Az keçmişdi ki, qorxulu qapı içəridən açıldı.

Və elə bu an onun kiçik əmisi oğlu, soyuq-qanlı bir uşaq olan Faiq kəndarda göründü.

Duruxdum...

Təsəvvürüm çalpaşıq düşdü...

Qeyri-şüuri halda bu abırlı zənbili rəğbətini qazanmaq istədiyim əmioğluna sarı üzüyola bir uşaq kimi, amma tərəddüdlə uzatdım...

Və o qaşı da tərpənmədən zənbili tutanda, Xuramanı görmək istəyinin sehriylə tələsik, şaşqın və qəribə bir tərzdə dedim:

"Tapşırıblar ki, Bərdəyə nə gedəcəksə, elə indi mənim özümdən göndərsinlər..."

Düzü onun üzünə dik baxmağa da cəsarət eləmirdim. Heyrətdən dilim qurumuşdu.

O məni üzüyolalıqla içəriyə dəvət elədi.

Amma məndə elə cürət, elə üz hardayıdı? Çöldə gözlədim. O qapını eləcə açıq qoymuşdu. Amma dəhlizdə heç kəs gözə görünmürdü...

Təpədən dırnağa qədər soyumuşdum. Bərdənin sital, pijon uşaqları kimi dostum Yunis aşağıdan şüurlu şəkildə məni güldürür... və hey ürəkləndirib təlimatlandırırdı:

"Xəlvətcə gir içəri, su istə!"

"Ayinədarın olum de."

"Danışığında güclü bədii cümlələrdən istifadə elə, de ki, əhd-peymanı sındırmazlar!"

"Balabanda qandır!"

Belə-belə sözlər...

Çoxunu eşitmirdim də heç...

Sanki, çovğun sovuruğu başlayacaqdı.

Birdən Faiq qayıtdı və zərgər dəqiqliyi ilə:

"Gedəsi elə bir şey olmadı," -dedi.

Elə bil... başıma samovarla qaynar su tökdülər! Üzümdəki ifadə dərhal dəyişdi.

Taleyin yazdığımı haldı bu?

Nədən kündəm küt gedir, acımır xəmirim?

Bu nə sitəm idi?

Yaramaz!

Bəlkə tələ idi?

Kökümdən laxladım...

Nağıllar dünyasından suyu süzülmüş geri döndüm. Əclafdan bir söz də qopara bilmədim...

Yunus başını yelləyə-yelləyə şirin-şirin gülümsəyərək yol boyu məni lağa qoyub cırnadırdı ki, əfəlsən... Nədən utanırsan? Qonşunuz olub, bir sinifdə oxumusunuz, minnəti olsun...

Eh nəyisə... bu hadisələri yadıma saldıqca evimiz üçün, tozlu döngəmiz üçün, sitayiş elədiyim Bərdə üçün yaman darıxdım. Təcrübəsiz və sadəlövh idim.

Neynəyim?

Yeni bir xəbər çıxmırdı...

Hər gün ya yeməkxanada... bəzən də mağazada yemək yeyirəm. Özü də ikicə dəfə.

İştahadan da düşmüşəm.

Cəmisi 48 manat pulum qalıb. Hələ papaq, alt geyimi, PEMEH, ayaqqabı... və doğmalarıma, yaxınlarıma müxtəlif hədiyyələr də almamışam...

Birtəhər axşamı saldım. POTA işdən qayıtdı. Bryusov kabinetinə girən kimi növbətçi gəldi ki, POTA komandiri səni gözləyir.

Eşşəyin anqırmayanı olmur.

Getdim.

Oturan kimi hikkəylə nitqə başladı:

-Sabahdan ya işə, ya da hauptvaxta gedəcəksən. КОМБАТ bu gün məni çox danladı. Ondan mən də xahiş elədim... bildirdim ki, təhsildə geri qalır, mən də razıyam, qoy buraxaq getsin. Amma o israrla dirəşib durdu. Heç mənə əhəmiyyət də vermədi. İndi özün seç. Ya işə çıx, ya da get onun yanlış hərəkətindən şikayət elə, işini səhmana sal. Mən КОМБАТ-la açıq danışdım.

Nəfəsimi içimə çəkərək, bir kəlmə də danışmadan çölə çıxdım. Bu da gördüyüm yuxunun anlaşıqlı bəhrəsi!

Bəs çayda üzürdüm mən? Götür-qoy edəedə ШТАБ-a gəldim.

Kapitan Maltsev riyakarcasına, mənə acıq verə-verə ikrah dolu ötkəm səslə:

- УИР-də heç kəsi tapa bilmədim, -dedi.

Sanki ildırım çaxdı!

Yanıb yaxıldım! Vətənə bax! Yuxuya bax!

Gərginliklə sənədlərimi ondan istədim.

Əclaf o saat geri qaytardı.

Elə bil ürəyindən oldu.

Nifrətlə dolu ürəyimdə:

"TÜLÜŞ! BOSTAN MÜQƏVVASI!" -dedim.

Sonra sakitləşmədiyim üçün başa düşməsə də azərbaycan dilində qışqırıb həmən sözləri ucadan təkrar elədim.

Buynuzu içində!

Sabah tezdən ПОДПОЛКОВНИК Mixaylovun yanına sənədlərlə özüm girəcəyəm.

Ürəyimə damıb ki, o fövqəl insandır və qol çəkəcək. Axşam yeməyinə də getməyib yerimə girdim...

*On dördüncü kitabın sonu.*
*Ardı var...*